AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

BAKI QIZLAR UNİVERSİTETİ

# *ELMİ ƏSƏRLƏR*
# *НАУЧНЫЕ ТРУДЫ*
# *SCİENTİFİC WORKS*

**"Elmi əsərlər" jurnalı Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 06 yanvar 2010-cu il tarixdə qeydiyyata alınmış (№10/M-4850) və Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin 06 iyul 2012-ci il (protokol №10-R) tarixli qərarı ilə aşağıda göstərilən elm sahələri üzrə dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən nəşrlər siyahısına daxil edilmişdir:**

**Filologiya, pedaqogika, psixologiya elmləri.**

*(jurnal ildə 4 dəfə nəşr olunur)*

**Cild 18 №1 2024 (57)**
**Vol. 18 №1 2024 (57)**
**Том 18 №1 2024 (57)**

**BAKI – 2024**

**Təsisçi**
*Bakı Qızlar Universiteti*

**Baş redaktor**
*pedaqogika elmləri doktoru, professor Ağarəhim Rəhimov*

**Baş redaktor müavini**
*pedaqogika elmləri doktoru, professor Akif Abbasov*

**Məsul katib**
*Aygün Yaşar qızı Cəfərova*

**REDAKSİYA HEYƏTİ**

*filologiya elmləri doktoru, professor Qəzənfər Kazımov*
*filologiya elmləri doktoru, professor Məhərrəm Qasımlı*
*pedaqogika elmləri doktoru, professor Lyudmila Verbitskaya (Rusiya)*
*filologiya elmləri doktoru, professor Nizaməddin Şəmsizadə*
*filologiya elmləri doktoru, professor Əlizadə Əsgərli*
*fizika-riyaziyyat elmlər doktoru, professor Aqil Xanməmmədov*
*pedaqogika elmləri doktoru, professor Zbiqnev Kvetsinskiy (Polşa)*
*tarix elmləri doktoru, professor Tarix Dostiyev*
*tarix elmləri doktoru, professor Nərgiz Quliyeva*
*tarix elmləri doktoru, professor Anar İsgəndərov*
*tarix elmləri doktoru, professor Aytən Can (Türkiyə)*
*idarəetmə üzrə fəlsəfə doktoru, professor Jukova (Zhukova) İrina Vitalyevna (Ukrayna)*
*fəlsəfə elmləri doktoru, professor Əlikram Tağıyev*
*pedaqogika elmləri doktoru, professor İntiqam Cəbrayılov*
*pedaqogika elmləri doktoru, professor Anastasiya Vançova (Slovakiya)*
*pedaqogika elmləri doktoru, professor Nikolay Dmitriyeviç Nikandrov (Rusiya)*
*pedaqogika elmləri doktoru, professor Fərrux Rüstəmov*
*filologiya elmləri doktoru, professor İsmayıl Kazımov*
*pedaqogika elmləri doktoru, professor Hümeyir Əhmədov*
*filologiya elmləri doktoru, professor Nizami Məmmədov*
*filologiya elmləri doktoru, professor Çingiz Qaraşarlı*
*pedaqogika elmləri doktoru, professor Aygül Bulatbayeva (Qazaxıstan)*
*psixologiya elmləri doktoru, professor Ramiz Əliyev*

**Bakı Qızlar Universiteti Elmi Şurasının 18 aprel 2024-cü il tarixli iclasının (protokol №8) qərarı ilə nəşr edilir.**

## *BAŞ REDAKTORDAN*
## *ОТ ГЛАВНОГО РЕДАКТОРА*
## *FROM THE EDITOR IN CHIEF*

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYATIN BİBLİOQRAFİK TƏSVİRİ
# БИБЛИОГРАФИЧЕСКОЕ ОПИСАНИЕ ИСПОЛЬЗОВАННОЙ ЛИТЕРАТУРЫ
# BİBLİOGRAPHİC DESCRİPTİON OF USED LİTERATURE

Jurnalımızın son səhifələrində azərbaycanca, rusca və ingilis dilində "Təqdim olunan məqalələrə tələblər"i əks etdirmişik. Müəlliflər həmin tələbləri ciddi şəkildə nəzərə aldıqları halda bəzi müəlliflər mövcud qaydaları gözləmədən redaksiyaya məqalə gətirir, yaxud elektron poçtla göndərirlər. Bu isə, o deməkdir ki, təqdim olunan məqalə işlənmək üçün geri qaytarılmalı, yaxud da redaksiya tərəfindən redaktə edilməlidir. Belə məqalələr, adətən zəif olur, özündə elmi ideya əks etdirmir, təsviri xarakter daşıyır, məqalənin sonunda verilən ədəbiyyat siyahısı da necə gəldi formalaşdırılır.

2019-cu ildə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının yeni Əsasnaməsi təsdiq olunmuş, dissertasiyaların, avtoreferatların, ədəbiyyat siyahısının tərtibinə yeni tələblər verilmişdir. Ölkəmizdə dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərdə öz məqalələrini görmək istəyən alimlər, gənc tədqiqatçılar – doktorantlar və dissertantlar "İstifadə edilmiş ədəbiyyatın biblioqrafik təsviri və nümunələr"i ilə tanış olmalı, həm dissertasiyalarında, həm məqalələrində, həm də konfrans materiallarında mövcud tələbləri nəzərə almalıdırlar.

"İstifadə edilmiş ədəbiyyatın biblioqrafik təsviri və nümunələr"i aşağıdakı bölmələrə ayrılır: nəşrin növü; biblioqrafik təsvirin forması; nümunələr. Tələblərə diqqət yetirək:

***Çoxcildli nəşrlər*** belə yazılır:

1. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H. Əliyev. – Bakı: Azərnəşr, – c. 45. – 2013. – 384 s.

2. Azərbaycan Milli Ensiklopediyası / Red. hey. sədri İ.H. Əliyev. – Bakı: Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi, – c. 8: Enollar – Fedin. – 2018. – 598 s.

***Müəllifi göstərilməyən nəşrlər*:**

Azərbaycan bayatıları / tərt. ed. B.Abdulla – Bakı: XXI – Yeni nəşrlər evi, –2004. –304 s.

***Müəllifi dörd nəfərədək olan nəşrlər,*** o cümlədən ***bir müəllifli nəşrlər*:**

Əlizadə, Ə.Ə. Qadın psixologiyası: Fəlsəfi-psixoloji esselər / Ə.Ə. Əlizadə. – Bakı: Təhsil, – 2015. – 416 s.

***İki və üç müəllifli nəşrlər*:**

Abbasov, A.N. Pedaqogika: Müntəxəbat. Dərs vəsaiti. / A.N. Abbasov, R.R. Məmmədzadə, L.A. Məmmədli. – Bakı: Mütərcim, – 2021. – 608 s.

***Müəllifi dörd və daha çox olan*** nəşrlər. ***Dörd və beş müəllifli*** nəşrlər:

Pedaqogika: Ali məktəblər üçün dərs vəsaiti / Y.R. Talıbov, Ə.Ə. Ağayev, A.İ. Eminov [və b.] – Bakı: Adiloğlu, – 2003. – s. 48

***Beşdən çox müəllifli nəşrlər*:**

Kurikulum bələdçisi: İzahlar və tətbiqlər / Ə.M. Abbasov [və b.] – Bakı: Elm və təhsil, – 2019. – 320 s.

***Jurnal məqalələri*:**

Məmmədli L.A. Şagirdlərin milli qəhrəmanların nümunəsində tərbiyə olunması // – Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, – 2020. №6, – s. 59-62.

***Müəllifi üçdən çox olan*** jurnal məqalələri:

Rüstəmov, Q.Ə. Vibrasiyalı kəsmə prosesində müqavimət momenti dəyişməsinin tədqiqi / Q.Ə. Rüstəmov, İ.A. Yolçuyev, Ə.T. Həzərxanov [və b.] // Milli Aviasiya Akademiyasının Elmi Əsərləri, – Bakı: – 2005. №1, – s. 80-86.

***Konfrans materialları*:**

Аббасов, А.Н. Подготовка подростков и молодежи к семейной жизни // Материалы 66-й Международной научно-практической конференции на тему: «Актуальные вопросы науки», Москва: Спутник: -10 августа 2020, с. 33-37

***Dissertasiyalar:***

Əliyeva, L.X. Təhsilin demokratikləşdirilməsi pedaqoji kadrların hazırlanmasının mühüm prinsipi kimi: ali pedaqoji məktəblərin bakalavr pilləsinin materialları əsasında: / pedaqogika üzrə fəlsəfə doktoru dissertasiyası) / - Bakı, 2012. - 147 s.

***Dissertasiyanın avtoreferatı*:**

Əliyev, R.S. Yeniyetmələrin yenidəntərbiyəsi üzrə işin sistemi: / pedaqogika üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı) / - Bakı, 2003. - 29 s.;

***Elektron resurslar*:**

Меликов, А. Легенда о любви [Звукозапись] / – Баку, 1994. – CD-ROM. Azərbaycan etnik musiqisi: [Elektron resurs] / tərt. ed. T.Məmmədov və b.; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. – Bakı, 2006. – DVD+; 13 sm

***Normativ-hüquqi sənədlər*:**

Azərbaycan Respublikasının Konstitusiyası // 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (24 avqust 2002-ci il tarixdə olan dəyişiklik və əlavələr). – Bakı: Qanun, – 2002, – 48 s.

***Qəzet məqalələri*:**

Abbasov, A.N. Pedaqoji internatura // Azərbaycan müəllimi. -2020, 22 avqust. – s. 6

***Arxiv materialları*:**

Xarici İşlər naziri Məhəmməd Həsən Hacınskinin məruzəsi (Gəncə: 15 iyul 1918-ci il) // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 1061, siyahı №1, iş № 95, vərəq – 1.

Bakı Qızlar Universitetinin “Elmi əsərlər”inə pedaqogikanın, təhsil, təlim və tərbiyənin, didaktikanın, təhsilin idarə olunmasının müxtəlif məsələləri ilə bağlı məqalə yazan alimlərə, gənc tədqiqatçılara xahişimiz budur ki, istifadə edilmiş ədəbiyyatın siyahısını hazırlayarkən yuxarıda göstərilən qaydalara əməl etsinlər.

## PEDAQOJİ ELMLƏR
## ПЕДАГОГИЧЕСКИЕ НАУКИ
## PEDAGOGICAL SCIENCES

***ÜMUMPEDAQOJİ PROBLEMLƏR***
***ОБЩЕПЕДАГОГИЧЕСКИЕ ПРОБЛЕМЫ***
***GENERAL PROBLEMS of PEDAGOGY***

*UOT 378*

# ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ TƏLƏBƏLƏRİN BİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİNDƏ ÇOXBALLI SİSTEMİN TƏTBİQİ

**Aygün Bakıxanın qızı Verdiyeva**
*Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekan müavini*
**ORCİD:** 0000-0965-4532-1289
**E-mail:** averdiyeva@khazar.org

***Açar sözlər:*** *tələbə, təhsil, çoxballı sistem, qiymətləndirmə, məzmun standartları, fənn proqramı*
***Ключевые слова:*** *студент, образование, многобалльная система, оценивание, стандарты содержания, предметная программа*
***Key words:*** *student, education, multi-point system, assessment, content standards, subject program*

Ali təhsil müəssisələrində təhsil alan tələbələrin yüksəkixtisaslı kadr kimi yetişməsi prosesinin əsas məqamlarından biri təhsil aldıqları müddətdə onların biliyinin düzgün qiymətləndirilməsidir. Mərkəzləşdirilmiş Sovet təhsil sistemində tələbələrin biliyinin qiymətləndirilməsi standart beş ballıq sistem üzrə aparılırdı. O cümlədən, Azərbaycanda da uzun illər qiymətləndirmənin bu üsulu tətbiq edilmişdir. 1991-ci ildə Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra ölkəmizin təhsil sisteminin Avropa və dünyanın qabaqcıl ölkələrinin təhsil sisteminə inteqrasiya prosesi başlandı və bu, təhsil sistemimizə yeni, daha mütərəqqi elementlərin gətirilməsi zəruriliyini yaratdı. Təhsildə belə yeniliklərdən biri də 5 ballı sistemlə yanaşı, qiymətləndirmənin çoxballı (100 ballı) sisteminin tətbiq olunmağa başlanması oldu. Ali məktəblərdə yalnız 1999-2000-ci tədris ilindən etibarən tələbələrin biliyinin çoxballı sistem üzrə qiymətləndirilməsi istiqamətində müəyyən işlər görülməyə başlandı.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 11.09.2008-ci il tarixli və 1060 №-li əmri ilə təsdiq olunmuş "Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında Əsasnamə"yə uyğun olaraq həyata keçirilir.

Tələbələrin biliyini qiymətləndirmə sisteminə qoyulan tələblər aşağıdakıları təmin edir:

— təhsildə müsbət dəyişikliklərin aparılması üçün mühüm vasitə rolunun yerinə yetirilməsini;

— təhsilin keyfiyyəti üçün əsas göstərici olan "təlim nəticələri" haqqında etibarlı məlumat verilməsini;

— qiymətləndirmə vasitəsilə təhsilalanın bilik və bacarıqları haqqında kifayət qədər məlumat əldə edildikdən sonra fənn proqramlarında və dərsliklərdə müvafiq dəyişikliklərin aparılmasını; (8, s.56).

— qiymətləndirmədə yeni yanaşmaların yaddaşa əsaslanan qiymətləndirmənin əksinə olaraq, məntiqi təfəkkür vərdişlərinin inkişafına xidmət etməsini (2, s. 89).

Tələbə nailiyyətlərinin qiymətləndirilməsi tələbənin biliklərə yiyələnmək, onlardan istifadə etmək, nəticə çıxarmaq, bacarıqları haqqında məlumatların toplanması prosesi kimi qəbul edilir və aşağıdakı məqsədlərə xidmət edir:

— tələbənin nailiyyətinin (və ya geriləmələrin) izlənilməsi (monitorinqi);

— təlim prosesində nəticələrin qiymətləndirilməsi;

— fənn proqramının qiymətləndirilməsi.

Məzmun standartlarının mənimsənilməsi istiqamətində əsasən aşağıdakı qiymətləndirmə növlərindən istifadə olunur:

— ilkin səviyyənin qiymətləndirilməsi (diaqnostik qiymətləndirmə). Tələbələrin malik olduqları əsas bilik və bacarıqların səviyyəsi və tədris edilmiş materialın hansı hissəsinin mənimsənildiyinin müəyyən edilməsi;

— irəliləyişlərin monitorinqi (formativ qiymətləndirmə). Standartların mənimsənilməsinə doğru tələblərin irəliləyə bilməsi;

— cari qiymətləndirmə. Cari qiymətləndirmə fənn üzrə tələbənin semestr müddətində fəaliyyətinin qiymətləndirilməsi;

— aralıq (yekun) qiymətləndirmə. Aralıq qiymətləndirmə təhsil proqramında hər bir modul və onun tərkib hissəsi olan təlim nəticələrinin tədrisinin sonunda təhsilalanların əldə etdiyi bilik, bacarıq və səriştələrin müəyyən olunması məqsədilə aparılır (6, s.87).

İlkin səviyyənin qiymətləndirilməsi (diaqnostik qiymətləndirmə) tələbələrin biliyini müəyyənləşdirməyi və təlimin düzgün qurulmasını təmin edir. Tələbə irəliləyişlərinin monitorinqi (formativ qiymətləndirmə) vasitəsilə tədrisin düzgün istiqamətləndirilməsi həyata keçirilir, alternativ üsul və mənbələrdən istifadə və ya tələbənin daha irəliyə addım atması üçün ona əlavə impulsun verilməsi barədə ehtiyaclar müəyyənləşdirilir.

Tələbə nailiyyətlərinin qiymətləndirilməsini həyata keçirmək üçün qiymətləndirmə meyarlarının müəyyən edilməsinə, qiymətləndirmənin aparılmasına və rəy (feedback) sisteminə, cari və aralıq semestr imtahanların təşkilinə dair tələblər müəyyən edilir.

Fənn proqramı üzrə qiymətləndirmə tələbənin təlim nəticələrinin məzmun standartlarına və fənn proqramlarına uyğunluğunu müəyyənləşdirmək məqsədi ilə aparılır. Tələbənin fənn üzrə toplaya biləcəyi balın maksimum miqdarı 100-ə bərabərdir. Bu balların yarısı semestr ərzindəki fəaliyyətə əsasən cari qiymətləndirmədən, digər yarısı isə imtahan nəticələrinə görə toplanır. İmtahan təlim nəticələri üzrə biliklərin qiymətləndirilməsi üzrə praktiki tapşırıqları da əhatə edə bilər.

Balların maksimum miqdarı aşağıdakı kimi müəyyənləşdilir:

— 50 bal imtahanın nəticəsinə görə;

— 10 bal dərslərə davamiyyətə görə;

— 10 bal tələbənin sərbəst işinə görə;

— 20 bal seminar (məşğələ) və ya laboratoriya dərslərinin nəticələrinə görə; (Eyni fəndən həm seminar (məşğələ), həm laboratoriya dərsləri nəzərdə tutulduğu halda onların hər birinə 10 bal ayrılır) (1, s.78).

— 10 bal kurs işinin hazırlanmasına və müdafiəsinə görə; (Fənn üzrə kurs işi (layihəsi)

nəzərdə tutulmayıbsa, ona ayrılan 10 bal seminar (məşğələ) və ya laboratoriya dərslərinə əlavə olunur. Texniki profili ali məktəb tərəfindən müəyyənləşdirilir. Əgər fənn tədrisi yalnız mühazirə, seminar (məşğələ) şəklində nəzərdə tutularsa, bu zaman davamiyyətə və sərbəst işə ayrılmış ballar istisna olmaqla qalan 30 bal tədrisin bu növ göstəricilərinə görə hesablanır).

—İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir. Tələbənin imtahandan topladığı balın miqdarı 17-dən çox olduqda tələbənin imtahan göstəriciləri semestr ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunur.

— Tələbələrin nailiyyətlərini stimullaşdırmaq məqsədilə qabiliyyət dərəcəsinə görə diferensiallaşdırmaq üçün 6 səviyyəli (A, B, C, D, E, F) qiymətləndirmə standartları müəyyənləşdirilir; (3, s.78).

— Konkret fənn üzrə semestr ərzində toplanmış balın yekun miqdarına görə tələbələrin bilik, bacarıq və səriştələri aşağıdakı müəyyənləşdirilmiş səviyyələr üzrə qiymətləndirilir:

— 51 baldan aşağı – “qeyri-kafi” – F;

— 51-60 bal – “qənaətbəxş” – E;

— 61-70 bal – “kafi” – D;

— 71-80 – “yaxşı” – C;

— 81-90 – “çox yaxşı” – B;

— 91-100 – “əla” – A. (5, s.66)

— İmtahan vərəqlərində, qiymət kitabçalarında, diplomlara əlavələrdə və digər sənədlərdə tələbələrin fənlər üzrə qazandıqları ballar və onların müvafiq işarələri qeyd olunmalıdır.

— Tələbənin biliyinin qiymətləndirilməsi üçün imtahanlar yazılı, şifahi və test şəklində aparılır. Bəzi fənlərin (mədəniyyət, incəsənət, idman və s.) xüsusiyyətlərindən asılı olaraq nəzəri suallarla yanaşı ixtisas üzrə qabiliyyət tələb edən tapşırıqlar da imtahan suallarına əlavə edilə bilər.

— Təhsil proqramlarının həyata keçirildiyi müddət ərzində tələbələrin fənn proqramı üzrə nailiyyətlərini qiymətləndirmək məqsədi ilə cari və aralıq qiymətləndirmə həyata keçirilir (9, s.56).

— Fənn proqramı üzrə semestr ərzində fənn müəllimləri tərəfindən hər bir tələbənin təlim nailiyyətinin cari qiymətləndirilməsi həyata keçirilir.

— Fənn proqramının tədrisi başa çatdıqdan sonra hər bir tələbənin fəaliyyətinin milli standartlara uyğunluğunu müəyyənləşdirmək məqsədi ilə fənn müəllimləri tərəfindən yazılı və şifahi formada aralıq qiymətləndirilməsi həyata keçirilir.

— Fənn proqramı üzrə tələbə nailiyyətlərini qiymətləndirmək və təhsil proqramlarını akkreditasiya etmək məqsədilə xarici və beynəlxalq qiymətləndirmələr də həyata keçirilə bilər (7, s.60).

Tələbənin biliyinin qiymətləndirilməsinə dair şəffaflığın təmin edilməsi və tələbələrin şikayət sisteminin təşkili məqsədi ilə ali təhsil müəssisəsində Apellyasiya Komissiyası yaradılır. Qiymətləndirmənin nəticələri tələbəyə elan edildikdən sonra 3 gün müddətində tələbənin apellyasiya şikayəti vermək hüququ var. Apellyasiya Komissiyasının fəaliyyətini tənzimləyən qaydalar ali təhsil müəssisəsi tərəfindən müəyyən edilir.

**Problemin aktuallığı.** Məqalədə ali təhsil müəssisələrində tələbələrin biliyinin qiymətləndirilməsində çoxballı sistemin tətbiqindən danışılır.

**Problemin elmi yeniliyi.** Araşdırılan mövzu müasir dövrün aktual məsələlərindən biri hesab edilir. Qoyulmuş problemə sırf müasir aspektdən yanaşılmış və təhsil sistemimizdə kom-

petensiya, təlim nəticələri, Milli Kvalifikasiyalar Çərçivəsi və digər mütərəqqiyönlü tendensiyalar nəzərə çatdırılmışdır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə gənc tədqiqatçılar üçün faydalı ola bilər.

**Ədəbiyyat**

1. Ali məktəblərdə təhsilin kredit sistemi üzrə təşkili təcrübəsindən: Metodik vəsait. Bakı: Təhsil, 2009, 64 s.
2. Cavadov İ. Təhsil sistemində qiymətləndirmə. Kurikulum islahatı. Bakı: Mütərcim, 2011, s.292-298.
3. Əhmədov H.H. Azərbaycan təhsilinin inkişaf strategiyası: Monoqrafiya. Bakı: Elm, 2010, 800 s.
4. Əliyev H.Ə. Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 2002, 454 s.
5. Əsədov Ə. Müasir təlim metodları və onun tətbiqi məsələləri // Azərbaycan məktəbi, 2002, № 4, s.60-71.
6. Əsgərov Ş. Biliyin qiymətləndirilməsinin fəlsəfəsi // "Təhsildə pedaqoji yanaşmalar" mövzusunda VIII respublika elmi-praktik konfransının materialları, 2016, s.105-106.
7. Xəlilov S. Təhsil, təlim, tərbiyə. Bakı: Azərbaycan Universiteti, 2005, 648 s.
8. İsmixanov M.A. Pedaqogikanın əsasları: Dərs vəsaiti. Bakı: ADPU, 2013, 235 s.
9. Kazımov N.M. Ali məktəb pedaqogikası. Bakı: Əlfərul, 2006, 340 s.

**А.Б. Вердиева**

**Применение многоточной системы при оценке знаний студентов в вузах**
**Резюме**

В статье широко исследуются и анализируются вопросы применения многобальной системы при оценке знаний студентов в высших учебных заведениях. Показано, что для оценки достижений студента определены требования к определению критериев оценки, проведению системы оценивания и обратной связи, организации текущих и промежуточных семестровых экзаменов.

**A.B. Verdiyeva**

**Applicatıon of the multıpoint system in assessing students' knowledge in higher education institutions**
**Summary**

In the article, the issues of applying the multi-point system in the assessment of students' knowledge in higher educational institutions are widely investigated and analyzed. It is shown that in order to evaluate the student's achievements, the requirements for determining the evaluation criteria, conducting the evaluation and feedback system, and organizing the current and intermediate semester exams are defined.

**Redaksiyaya daxil olub: 21.02.2024**

*UOT 378*

**QLOBALLAŞMA ŞƏRAİTİNDƏ REGİONAL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİ VƏ ƏMƏK BAZARI**

**Məhəmməd Məhəməli oğlu Çunayev**
*Lənkəran Dövlət Universitetinin*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
**ORCİD:** 0000-0001-5643-4826
**E-mail:** chunayev.mahamad@mail.ru

***Açar sözlər:*** *regional ali təhsil, qəbul planı, əmək bazarı, davamlı regional inkişaf, ixtisaslı kadr, innovasiya, elmi-texniki tərəqqi, ömürboyu təhsil*

***Ключевые слова:*** *региональное высшее образование, региональное развитие, квалифицированные кадры, инновации, научно-технический прогресс, непрерывное образование*

***Key words:*** *regional higher education, regional development, qualified personnel, innovation, scientific and technical progress, lifelong education*

İ.H. Cəbrayılov "Müasir təhsil: axtarışlar və perspektivlər" adlı əsərində yazır: "...bilik və bacarıqların qazanılması, mənəvi dəyərlərin nəsildən-nəslə ötürülməsi, cəmiyyətdə fəal mövqe tutan vətəndaşın yetişdirilməsi məhz təhsil vasitəsilə, təhsil prosesinin düzgün təşkili ilə mümkündür" [1].

Təcrübə vasitəsilə öz təsdiqini tapmış bilik, bacarıq və vərdişlərin elmi biliklərin gələcək nəsillərə ötürülməsi prosesi zaman keçdikcə daim sürətlənir və hazırkı yaşadığımız dövrdə intensiv hal alır. Eyni zamanda "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın tələblərinə uyğun olaraq təlim prosesində gənclər ölkənin maddi-mənəvi dəyərlərinə uyğun olaraq şəxsiyyətyönlü yetişdirilir [2]. Müasir dövrdə isə təhsili səciyyələndirən ən mühüm indikatorlardan biri təhsilin birbaşa insanların yaşam səviyyəsinə təsir göstərməsidir. Belə ki, müşahidələr göstərir ki, bilik və bacarıqlara yiyələnmiş şəxslərin iqtisadi vəziyyəti onların əmək bazarına göstərdikləri töhfə nəticəsində müsbətə doğru gedir. Geniş şəkildə izah olunarsa bilik və bacarığı daha yüksək pilləyə çatmış şəxslərin rifahı daha yaxşılaşır.

Ali təhsil cəmiyyətin ehtiyaclarına uyğun olaraq ictimai faydalı fəaliyyətin bütün əsas sahələrində yüksək ixtisaslı kadrların hazırlanmasını təmin etmək, fərdin intellektual, mədəni, mənəvi inkişafı, təhsilin dərinləşdirilməsi və genişləndirilməsini təmin etmək kimi xidməti həyata keçirir. İstənilən bir prosesdə, hadisədə, inkişafa, daha yüksək məhsuldarlığa çatmaq üçün islahatlar həyata keçirilməlidir. Bu cəmiyyətin digər sahələrində olduğu kimi, təhsildə də mütləqdir. XXI əsrdə qloballaşma dövründə təhsildə islahatlar labüddür, demək olar ki, bu proses zamanın tələbinə çevrilmişdir. Çünki informasiya əsrində təhsildə hər gün yeni nəzəriyyələr irəli sürülür, ideyalar meydana gəlir və bu ideyalar həyata keçirilir. Yeni texnoloji biliklərin formalaşması, sosial-iqtisadi inkişafa verdiyi töhfələr ali təhsilli kadr hazırlığına, innovasiyaların yayılmasına, ölkələrdə regional və milli səviyyədə iqtisadi artımın əhəmiyyətli amili kimi nəzərə çarpır. Təhsilin keyfiyyəti, iri şəhərlərdə mövcud olan perspektivli və dünya üzrə tanınan təhsil ocaqlarında müəyyən edildiyi halda, bu keyfiyyət regionların ali təhsil sistemi ilə də bilavasitə müəyyən edilir.

Müstəqilliyini bərpa etdikdən sonra qloballaşmaya qoşulan respublikamızın qarşısında duran mühüm məsələlərdən biri ölkədə, xüsusi ilə də regionların əmək bazarındakı durğunluğu

aradan qaldırmaq üçün yeni qərarların verilməsi və layihələrin həyata keçirilməsi idi. Sovetlər dövründə iri və perspektivli universitetlərin paytaxtda cəmlənməsi nəticəsində mütəxəssislərin də əksəriyyətinin paytaxt Bakıda cəmlənməsi müşahidə edilirdi. Digər məsələ isə sərhədlərin açılmasının ilkin dövrlərində ixtisaslı kadrların xaricə köçməsi idi. Bu isə ölkə iqtisadiyyatının inkişafına, əsasən də regionlarda istehsal müəssisələrinin tam gücü ilə işləməməsinə gətirib çıxarırdı. Kəskin kadr çatışmazlığı problemini həll etmək və əmək bazarının tələblərinə uyğun yeni ixtisaslı kadrların hazırlanması üçün yeni qərarların verilməsi bu problemi aradan qaldıra bilərdi. İlk addım 1992-ci ildə "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunun qəbul edilməsi oldu. Bu dövrdən başlayaraq təhsil sahəsində inkişaf etmiş ölkələrin təcrübələri nəzərə alınaraq dövlət proqramları həyata keçirilməyə və eyni zamanda qabaqcıl ölkələrdə tətbiq olunan ali təhsil proqramlarının icrasına başlanıldı. Ölkəmiz üçün yeni olan, lakin xarici ölkələrdə özünü doğultmuş bir çox mövcud layihələr həyata keçirildi.

Mövcud layihələrdən biri kimi regionlarda ali təhsil müəssisələrinin yaradılmasını misal göstərmək olar. Bu regionlarda müstəqil institutlar, universitetlər və Bakıda yerləşən ali təhsil müəssisələrinin bu və ya digər rayon filialının yaradılması şəklində həyata keçirildi. İlk belə ali təhsil müəssisəsi: "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 sentyabr 1991-ci il tarixli 319 saylı qərarı ilə Bakı Dövlət Universitetinin Lənkəran filialı kimi açılmış, Nazirlər Kabinetinin 1992-ci il 23 iyul tarixli 403 nömrəli sərəncamı ilə müstəqilliyini yenidən bərpa etmiş Azərbaycan Respublikasının ilk dövlət statuslu ali məktəbi kimi fəaliyyətə başlamışdır" [3].

Bu addımlar regionlarda və ümumilikdə ölkəmizin əmək bazarına müsbət təsir göstərərək demək olar ki, ehtiyac duyulan bütün sahələrdə kadr hazırlığında böyük rol oynadı və yaranan durğunluğun aradan qalxmasına müsbət təsir göstərdi.

Regionlarda təşkil olunan ali təhsil müəssisələri ölkənin, yerləşdiyi regionun və həmçinin ona yaxın regionların innovasiya obyekti hesab olunur. Çünki, regional ali təhsil müəssisələrinin təşkili zamanı əsas üç prioritet məsələ-regionun inkişafına verdiyi dəstək, həmin regionda insan kapitalının yaradılması, regionda yeni innovativ obyektlərin təşkili və inkişaf etdirməsini nəzərdə tutur.

Əmək bazarı termini geniş şəkildə izah olunarsa o, iqtisadiyyatın bütün sahələrində təhsil, sosial, mədəni, kənd təsərrüfatı və s. işçi-işəgötürən münasibətləri nəzərdə tutularaq iqtisadiyyatın mürəkkəb və çoxşaxəli tərkib hissəsi olmaqla cəmiyyətin sosial-iqtisadi göstəricilərini əks etdirir. "Əmək bazarı müəyyən iqtisadi məkan çərçivəsində fəaliyyət göstərən işəgötürən və muzdlu işçilər arasında iqtisadi və hüquqi münasibətləri ifadə edən qarşılıqlı fəaliyyət mexanizmidir" [4].

Qloballaşma dövründə dünya ölkələri arasında rəqabət ölkənin xarakterik xüsusiyyətlərindən ən əsası iqtisadi-sosial inkişafı təmin etmək, gücləndirmək, bu və başqa sahələrdə digər ölkələri geridə qoymaq üzərində formalaşaraq yenilənir. Hər bir ölkənin rifahının göstəricisi, iqtisadi və sosial inkişafı məhz əmək bazarının hansı pillədə olmasından asılıdır. Prof. A.O.Mehrabov "Müasir təhsilin konseptual problemləri" kitabında qeyd etdiyi kimi: "Qloballaşmanın geniş vüsət aldığı müasir dövrdə sosial-siyasi proseslərin, yəni iqtisadi, siyasi, sosial, təhsil, mədəni və digər qurumların strukturunun yenidən formalaşdırılması zamanın tə-ləbinə çevrilmişdir" [5]. Belə ki, dünyada gedən mürəkkəb proseslər nəticəsində insan fəaliyyətinin bütün sahələrində baş verən yeniliklər və uyğun dəyişikliklər nəticəsində islahatların aparılması zərurəti meydana çıxmışdır. Bu göstəricilərə uyğun olaraq respublikamızın ali təhsil müəssisələrində əmək bazarının tələblərinə uyğun yeni ixtisaslar açılır, müxtəlif proqramlar həyata keçirilir. Yüksək ixtisaslı kadr hazırlamaq üçün tələbələr hər il dövlət xətti ilə xarici

ölkələrin nüfuzlu ali təhsil müəssisələrinə göndərilir, bu da həmin məzunların gələcəkdə ölkəmizə daha çox fayda verəcəyinə zəmin yaradır. Bundan başqa regional ali təhsil müəssisələrinin tərkibində karyera mərkəzlərinin və məşğulluq xidmətinin təşkili tələbələrin əmək bazarına çıxışını asanlaşdıraraq məzun olmuş şəxslərin artıq iş yerlərinin tanınması və işlə təmin olunmasına yol açır. Tələbə və məzunlar üçün karyera mərkəzlərinin və məşğulluq xidmətinin təşkili demək olar ki, bütün universitetlərin nəzdində fəaliyyət göstərir. Yüksək ixtisaslı kadr və mütəxəssislərlə birgə xüsusi proqramlar vasitəsilə regional ali təhsil müəssisələrinin nəzdində karyera mövzusunda müxtəlif master-klasslar, tədbirlərin təşkili də tələbələrə qısa müddət ərzində ixtisasları üzrə yeniliklərlə tanış olmağa, əmək bazarında baş verən son dəyişikliklərlə və qoyulan yeni tələblərlə qısa müddət ərzində tanış olmağa imkan yaradır. Bunun nəticəsində də tələbələr öz baza biliklərindən əlavə daha çox bilik-bacarıq, vərdişlər əldə edərək təkmilləşir, öz ixtisasının peşəkarına çevrilirlər. Bu isə onları əmək bazarının tələblərinə uyğun olaraq daima dəyişilən və sərtləşən tələblərinə hazırlaşdıracaq, tələb-təklifə daima uyğunlaşdıracaq.

Regional ali təhsil müəssisələrinin təşkilinin zəruriliyi və əmək bazarında yüksək ixtisaslı kadr çatışmazlığı problemi Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında da göstərilmişdir. "Bölgələrin inkişafı və mütəxəssislərə tələbatı nəzərə alınaraq, regional çoxprofilli kolleclərin yaradılması istiqamətində tədbirlər görüləcək, təhsilin keyfiyyətinin artırılması üçün peşə, orta ixtisas və ali təhsil pillələri üzrə mütəxəssislər hazırlayan təhsil komplekslərinin yaradılmasına başlanılacaqdır" [6].

Zaman keçdikcə elmi-texniki tərəqqinin inkişafı nəticəsində biliklərin həcmi sürətlə artaraq yeni bacarıqlar, kompetensiyalar formalaşır. Bunun nəticəsində əmək bazarında mövcud olan bir sıra peşələrə artıq ehtiyac qalmır, yeni bilik və bacarıqlar tələb edən fərqli peşələr yaranır. Bu dəyişikliyə uyğun olaraq işçi ya əmək bazarının tələblərinə uyğun yeni bilik, bacarıq və vərdişlər əldə etməli, ya da əmək bazarını tərk etməlidir. Buna görə insanlar həyatı boyu əmək bazarına uyğun olaraq "ömürboyu öyrənmə konsepsiyası"na qoşulurlar. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda qeyd olunduğu kimi: "Əhalinin davamlı savadlanması üçün "ömürboyu öyrənmək" mexanizmi yaradılacaqdır. Bu mexanizm əhalinin əmək bazarının tələblərinə uyğun ixtisasartırma kurslarında iştirak etməsinə və zəruri kvalifikasiyalar əldə etməsinə imkan verəcəkdir" [7]. Bu isə daimi olaraq peşələr üzrə ixtisasartırma kurslarında, təlimlərdə məzunların sayının hər il artmasına gətirib çıxaracaq. Bu konsepsiyanın ən müsbət cəhətlərindən biri də, bu öyrənmə prosesinin hamı üçün əlçatan olması, izafi xərclərin olmaması, qısa müddət ərzində yüksək ixtisaslı peşəkara çevrilmək bacarığıdır. Beləliklə, regional ali təhsil müəssisələri respublikamızın bölgələrində əmək bazarını yüksək ixtisaslı kadrlarla təmin etməklə yanaşı, "ömürboyu öyrənmə" konsepsiyasını da həyata keçirməli, fasiləsiz təhsil verməli, zəruri olan bilik bacarıq və kompetensiyalarla təmin etməlidir. Bu, eyni zamanda regional ali təhsil müəssisələrinin yaradılmasının əsas məqsədlərindən biridir.

Ölkələrin iqtisadi gücü, rəqabət qabiliyyəti, elmi-texniki potensialı həmin ölkədə təhsilin səviyyəsi ilə ölçülür. İqtisadi, elmi-texnoloji cəhətdən öndə olan, yüksək nailiyyətlər əldə etmiş ölkələrin nüfuzlu ali təhsil müəssisələrində elmi tədqiqatlar aparılaraq nəticələr beynəlxalq konfranslarda, müxtəlif təhsil platformalarında müzakirə edilir. İnkişaf etməkdə olan ölkələr də bu təcrübəni öyrənərək öz təhsil sistemində tətbiq edirlər. Məhz buna görə ölkəmizdə təhsilin inkişafına böyük əhəmiyyət verilir, prioritet istiqamət hesab olunaraq artan xətt üzrə inkişaf etdirilməsi planlaşdırılır.

Dünya ölkələri üzrə mövcud əmək bazarının tələbləri daim yenilənir. Artıq inkişaf etmiş ölkələrlə yanaşı inkişaf etməkdə olan ölkələrin işəgötürənləri universitet məzunlarının yüksək peşəkarlıq, səriştəlilik qabiliyyətinə əvvəlkindən daha ciddi şəkildə tələb edirlər. 2019-cu ildə Böyük Britaniyanın Quacquarelli Symonds (QS) şirkəti dünya universitetlərinin məzunlarının işlə təmin olunma keyfiyyəti üzrə reytinqində qeyd olunurdu ki, dünyanın ən yaxşı universitetlərinin hazırladığı məzunlar belə əmək bazarında özünü kifayət qədər doğrultmur. Hətta işəgötürənlər bildirirlər ki, akademik müəssisələrin hazırladıqları tələbələr əmək bazarında gözlənilən nəticəni vermirlər. Eyni zamanda hesabatda qeyd olunur ki, məzunları əmək bazarında daha tez iş tapan ali təhsil müəssisələrinin siyahısına ABŞ-ın Massaçusets Texnologiya İnstitutu (MIT) başçılıq edir [8].

**Problemin aktuallığı.** Müstəqilliyin ilk dövrlərində kadr ehtiyatı əmək bazarının tələbatına cavab vermirdi. Ölkə üzrə ali təhsil müəssisələrinin paytaxtda cəmlənməsi regionlarda təhsilin hamı üçün əlçatan olmasını əngəlləyirdi. Kəskin kadr çatışmazlığı regionlarda istehsal müəssisələrinin tam gücü ilə işləməməsinə gətirib çıxarırdı. Bu problemin həlli yeni qərarların verilməsi və layihələrin həyata keçirilməsi zərurətini yaradırdı.

**Problemin elmi yeniliyi.** Regional ali təhsil müəssisələri ölkənin, ilk növbədə yerləşdiyi və ətraf regionların innovasiya obyekti hesab olunaraq ölkə iqtisadiyyatının inkişafında əhəmiyyətli rol oynayır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Regional ali təhsil müəssisələri əmək bazarının formalaşmasına böyük təsir göstərərək regionların sosial iqtisadi həyatında mühüm əhəmiyyətə malik olmaqla yanaşı, həm də onun inkişafını istiqamətləndirəcəkdir. Əmək bazarının tələbləri əsas götürülərək regional ali təhsil müəssisələrində yeni ixtisasların təşkili prioritet istiqamətə çevriləcəkdir. Xüsusi proqramlar vasitəsilə regional ali təhsil müəssisələrində təşkil olunan tədbirlər və layihələr bu prosesi keyfiyyət baxımından yüksəldəcəkdir.

## Ədəbiyyat


1. İ.H. Cəbrayılov. Müasir təhsil: axtarışlar və perspektivlər, Bakı: Mütərcim, 2013, s.5.
2. https://president.az/az/articles/view/9779
3. https://az.wikipedia.org/wiki/Nazirlər_Kabineti_(Azərbaycan)
4. S. Mehbalıyev, R. İsgəndərov. Əmək bazarı və əhalinin sosial müdafiəsi. Bakı, 2002, s. 6.
5. A.O. Mehrabov. Müasir təhsilin konseptual problemləri. Bakı: Mütərcim, 2010, s. 191.
6. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı şəhəri, 29 dekabr 2012-ci il, № 800.
7. “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Bakı şəhəri, 22 iyul 2022-ci il, № 3378.
8. https://muallim.edu.az/news.php?id=2238

**М.М. Чунаев**

**Региональные высшие учебные заведения и рынок труда в условиях глобализации**

**Резюме**

В статье показана общественно полезная деятельность высшего образования в соответствии с потребностями общества во все времена. Особое внимание было уделено службе подготовки высококвалифицированных кадров для обеспечения интеллектуального, культурного, духовного развития личности, углубления и расширения образования. Были исследованы проекты, оказывающие положительное влияние на рынок труда нашей страны в регионах и в целом, объяснены и раскрыты положительные аспекты "концепции обучения на протяжении всей жизни", соответствующие рынку труда страны. Кроме того, были предприняты усилия по исследованию места, занимаемого региональными высшими учебными заведениями, и их деятельности в обеспечении рынка труда страны конкурентоспособными кадрами, что оказывает влияние на социально-экономическую жизнь страны в наше время. В соответствии с развитием науки и техники было дано разъяснение о новых источниках знаний. Был отмечен рейтинг трудоустройства выпускников лучших университетов мира. Заключительная часть содержала научную новизну и практическую значимость проблемы.

**M.M. Chunayev**

**Regional higher education institutions and the labor market in the context of globalization**

**Summary**

The article shows the socially useful activities of higher education in accordance with the needs of society at all times. The service of training highly qualified personnel to ensure the intellectual, cultural, spiritual development of the individual, deepening and expanding education was emphasized. Projects that have a positive impact on the labor market of our country in the regions and in general were investigated, explained and the positive aspects of the "lifelong learning concept" corresponding to the country's labor market were disclosed. In addition, efforts have been made to investigate the place occupied by regional higher education institutions and their activities in providing the country's labor market with competitive personnel, which has an impact on the socio-economic life of the country in modern times. In accordance with the development of Science and technology, an explanation was given about the new compotes of knowledge. The ranking of employment of graduates of the best universities in the world has been noted. The final part contained the scientific novelty and practical significance of the problem.

**Redaksiyaya daxil olub: 26.02.2024**

*UOT 371*

# RESPUBLİKAMIZDA BƏDƏN TƏRBİYƏSİ VƏ İDMANIN İNKİŞAFINDA ÜMUMMİLLİ LİDERİMİZ HEYDƏR ƏLİYEVİN XİDMƏTLƏRİ

**Əsmər Suludin qızı Yusifli**
*Mingəçevir Dövlət Universitetinin magistrantı*
**ORCİD:** 0009-0002-1388-934X
**E-mail:** esmer23yusifli@gmail.com

***Açar sözlər:*** *Ümummilli Lider Heydər Əliyev, lider, şəxsiyyət, təhsil, hərtərəfli inkişaf, müstəqillik, məqsədyönlü.*

***Ключевые слова:*** *Общенациональный лидер Гейдар Алиев, лидер, личность, образование, всесторонее развитие, самостоятельность, целеустремленность.*

***Key words:*** *National Lider Heydar Aliyev, leader, personality, education, comprehensive development, indepedence, purposeful.*

*Böyüməkdə olan nəslin fiziki inkişafına daha çox fikir verilməli, bədən tərbiyəsinin tədrisi yaxşılaşdırılmalı, hər bir məktəbdə səmərəli idman məşğələləri üçün şərait yaradılmalı, uşaqlar fiziki cəhətdən hər vasitə ilə möhkəmləndirilməli, onların sağlamlığına qayğı göstərilməlidir.*

*Heydər Əliyev*
*Ümummilli lider*

Bu günlər xalqımız özünün böyük oğlu, dahi şəxsiyyət, dünya miqyasında tanınmış siyasətçi və dövlət xadimi, müstəqil Azərbaycanımızın memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ilini böyük sevinc və fəxarətlə qeyd edir.

Xalqını, vətənini, torpağını sonsuz məhəbbətlə sevən, bütün həyatını Azərbaycanın inkişafına, tərəqqisinə həsr edən, müasir Azərbaycanın müəllifi olan Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə ölkəmizin daha da çiçəklənməsinə, beynəlxalq aləmdə tanınmasına, dövlətçiliyimizin möhkəmlənməsinə, milli-mənəvi dəyərlərimizin qorunub saxlanmasına, bütün sahələrlə yanaşı bədən tərbiyəsi və idmanımızın inkişaf etdirilməsinə çalışmış, uzaqgörən siyasəti nəticəsində ölkəmiz cəmiyyət həyatının bütün sahələrində böyük uğurlar əldə etmişdir.

Taleyinin sahibi olmaq, müstəqil dövlətini qurmaq hər bir xalqın ən böyük arzusudur. Ona görə müstəqillik həm ayrıca bir vətəndaş üçün, həm də bütöv xalqlar, millətlər üçün ən müqəddəs və ən şirin nemətdir. Bu neməti əldə etmək, müstəqillik arzusuna qovuşmaq nə qədər çətindirsə, onu qoruyub saxlamaq ondan da mürəkkəbdir. Bunu yola saldığımız son 30 il bir daha sübuta yetirdi. Bu illər ərzində biz azadlığımız, müstəqilliyimiz və torpaqlarımızın bütövlüyü uğrunda apardığımız mübarizədə çətinliklərdən keçdik, minlərlə şəhidlər verdik, əvəzində müstəqilliyimizi şərəflə qoruduq, Böyük Zəfərə nail olduq.

Respublikamızda bədən tərbiyəsi və idmanın inkişafında ümummilli liderimiz Heydər Əliyevin xidmətləri əvəzsizdir. Gəncləri idman vasitəsilə laiqli Azərbaycan vətəndaşları kimi yetişdirmək, kütləvi bədən tərbiyəsi vasitəsilə xalqın fiziki hazırlığına, sağlamlığına nail ol-

maq, peşəkar idmançıların uğurlu çıxışına kömək edib onların gücü ilə Azərbaycanı dünyaya tanıtdırmaq ümummilli liderimiz Heydər Əliyevin başlıca amalı, həyat kodeksi idi. Ona görə də bu böyük şəxsiyyət bədən tərbiyəsi və idmanın proqram tələblərinin işlənilib hazırlanmasına xüsusi qayğı ilə yanaşırdı. O, Azərbaycanda idmanın kütləviliyinə nail olmaq, bədən tərbiyəsi və idmanı təbliğ etmək, yüksək nailiyyətlər əldə etmək və dünya şöhrətli idmançılar hazırlamaq üçün bədən tərbiyəsi və idmanla məşğul olan təşkilatlar qarşısında aşağıdakı konkret proqram tələbləri qoyurdu. Həmin tələblər bunlardır:

- mövcud idman bazalarının, stadionların, bütün idman qurğularının qorunması, bərpa edilməsi və beynəlxalq tələblərə cavab verən yenilərinin inşası, onların idman avadanlığı və ləvazimatları ilə təchiz edilməsi;
- idman məktəblərində, klublarda yeni bölmələrin açılması və fəaliyyətlərinin genişləndirilməsi;
- Azərbaycan çempionatlarının keçirilməsi, idmançıların beynəlxalq yarışlara hazırlığının və iştirakının təmin edilməsi;
- yüksək nəticələr əldə etmiş idmançıların mükafatlandırılması;
- başqa ölkələr ilə idman əlaqələrinin və əməkdaşlığın gücləndirilməsi;
- idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi və yeniləşdirilməsi;
- məşqçi və müəllimlərin peşəkarlıq səviyyələrinin artırılması;
- uşaqların psixi və fiziki inkişafını daim diqqət mərkəzində saxlanılması.

Bu məqsədlə ümummilli liderimiz, xalqımızın əbədi rəhbəri Heydər Əliyev tez-tez idmançılar və onların məşqçiləri ilə görüşlər keçirir, onların qarşısında konkret vəzifələr qoyurdu. O, görüşlər zamanı söylədiyi nitqlərində xalqımızın etnogenetik kökləri etibarı ilə dünyanın ən sağlam millətlərindən olmasından söhbət açmaqla idmançılarımızı, gəncləri həm fiziki, həm də mənəvi nikbinliyə çağıraraq deyirdi: “İlk dəfədir ki, dünyada Olimpiya Oyunlarında müstəqil Azərbaycanın yığma komandası iştirak edir. Mən heç şübhə etmirəm ki, gələn Olimpiya Oyunlarında Azərbaycanın yığma komandası sayca bundan çox, keyfiyyətcə daha yüksək olacaqdır. Çünki xalqımız, millətimiz genetik xüsusiyyətlərinə görə fiziki cəhətdən sağlam insanlardan ibarət olan xalqdır, millətdir. Fiziki sağlamlıq və fiziki güc, mənəvi sağlamlıqla bərabər, Azərbaycan xalqına, millətinə xas olan xüsusiyyətdir. Amma bu xüsusiyyət bizim daxilimizdə qalıbdır. Keçmiş dövrlərdə də, əsrlərdən əsrlərə pəhləvanlarımız da, güləşçilərimiz də olubdur. Ancaq məlum olan səbəblərə görə bunlar yalnız öz ölkəmizin çərçivəsində qalıb, dünya miqyasına çıxmayıblar. İndi isə xalqımızın, millətimizin bu imkanlarını dünyada nümayiş etdirmək fürsəti almışıq. Bu böyük hadisə, böyük nailiyyətdir. Şəxsən mən bununla fəxr edirəm. Hesab edirəm ki, Azərbaycanın hər bir vətəndaşının bununla fəxr etməyə haqqı var”.

Ümummilli Liderimizin arzuları artıq reallığa çevrilmişdir.

Azərbaycanda bədən tərbiyəsi və idmanın dinamik inkişafı, müxtəlif miqyaslı beynəlxalq yarışlarda qazanılan uğurlar, mötəbər yarışlara ev sahibliyi etmək respublikanı qabaqcıl idman ölkələri sırasına çıxarmışdır.

Göstərilən uğurların əldə edilməsi bilavasitə bədən tərbiyəsi və idman kadrlarının hazırlanması, vətəndaşlarımızın günü-gündən fiziki və psixi inkişafının yüksəlməsi sayəsində mümkün olmuşdur. Azərbaycanda bədən tərbiyəsi və idmanın bugünkü inkişaf səviyyəsi həmin kadrlar və məktəb qarşısında daha böyük vəzifələr qoyur. Azərbaycan dövlətinin bədən tərbiyəsi və idmanın inkişafına yönəlmiş siyasətinin yaratdığı yeni yüksək şərait bu istiqamətdə kadr hazırlığının keyfiyyətinin daha da yüksəldilməsi, beynəlxalq idman əlaqələrinin artması və bu ixtisas sahəsində fəaliyyət istiqamətlərinin çoxalması ilə əlaqədar yeni ixtisasların

yaradılması, böyüməkdə olan övladlarımızın psixi və fiziki inkişafını günü-gündən yüksəltmək zərurətini meydana çıxarır.

**Problemin aktuallığı.** Məqalə müasir dövrdə gənc nəslin fiziki inkişafı və idman məşğələləri üçün geniş şəraitin yaradılması istiqamətində Ümummilli Liderimiz Heydər Əliyevin tövsiyələrinin öyrənilməsi baxımından aktual əhəmiyyət kəsb edir.

**Problemin elmi yeniliyi.** Məqalə Heydər Əliyev irsinə müraciət edən gənc nəsillərdə şəxsiyyətin formalaşması üçün vətəndaş tərbiyəsində əvəzsiz mənbə ola bilər.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə ümumtəhsil ali və orta ixtisas məktəblərinin müəllim və tələbələri, magistrantları istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Abbasov A.N. Pedaqogika. Orta ixtisas məktəbləri üçün dərslik. Bakı: Mütərcim, 2015.
2. Heydər Əliyev və Azərbaycan idmanı: Sənədli publisisitika. Bakı: Turan evi, 2004, 300 s.
3. Bədən tərbiyəsi nəzəriyyəsi və metodikası: Dərslik. Bakı: Avropa, 2006, 300 s.
4. Ə.Ağayev. Heydər Əliyev irsində vətəndaş tərbiyəsi məsələləri // Azərbaycan məktəbi, 2005, № 3.

**А.С. Юсифли**

## Заслуги нашего генерального лидера Гейдара Алиева в развитии физического воспитания и спорта в нашей республике

**Резюме**

В статье рассматриваются образовательные реформы, осуществляемые в Азербайджане под руководством общенационального лидера Гейдара Алиева. В статье подчеркивается, что если современное образование сталкивается с формированием у человека жизненно важных навыков, это означает, что способы применения полученных знаний в жизни также должны быть высококвалифицированными. Статья также перечисляет успехи нашего образования и в то же время напоминает нам о некоторых важных вопросах.

**A.S. Yusifli**

## Services of our general leader Heydar Aliyev in the development of physical education and sports in our republic

**Summary**

The article examines the educational reforms carried out in Azerbaijan under the leadership of national leader Heydar Aliyev. The article emphasizes that if modern education is faced with the formation of vital skills in a person, this means that the ways of applying the acquired knowledge in life must also be highly qualified. The article also lists the successes of our education and at the same time reminds us of some important issues.

**Redaksiyaya daxil olub: 16.01.2024**

***TƏLİM TEXNOLOGİYALARI***
***ОБРАЗОВАТЕЛЬНЫЕ ТЕХНОЛОГИИ***
***EDUCATIONAL TECHNOLOGIES***

*UOT 37.0*

# İNTERAKTİV TƏLİM ANLAYIŞININ MAHİYYƏTİ VƏ KEYFİYYƏT XÜSUSİYYƏTLƏRİ

**Sevinc Cəfər qızı Eylazova**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*
**ORCİD:** 0000-0002-3632-8089
**E-mail:** sevinc.eylazova.00@mail.ru

***Açar sözlər:*** *təhsil, təlim, interaktiv metod, proses, texnologiya.*
***Ключевые слова:*** *образование, обучение, интерактивный метод, процесс, технология.*
***Key words:*** *education, training, interactive method, process, technology*

İngilis dilində “qarşılıqlı fəaliyyətə əsaslanan” mənasını verən interaktiv sözü Azərbaycan dilində tərcümə edilmədən işlənir.

Araşdırmalar göstərir ki, pedaqoji anlayış kimi interaktiv metodlar əslində qarşılıqlı fəaliyyətə əsaslanan metodları, yaxud metodlar sistemini özündə ehtiva edir. Bu isə müəllimin düzgün istiqaməti ilə tələbənin sərbəst araşdırmaq, öyrənmək fəaliyyətini nəzərdə tutan metodlar sistemidir.

Təcrübə göstərir ki, təlim metodlarını keyfiyyətcə dəyişməklə, şagirdlərin düşünmə qabiliyyətini fəallaşdırmaq və bununla da təlimi daha səmərəli etmək mümkündür. Ona görə də təlim metodları seçilərkən onun produktivliyi, yaradıcı düşünmə qabiliyyətini, həmçinin yeni biliklərə müstəqil şəkildə yiyələnməyi gerçəkləşdirmə yollarını birləşdirdiyini nəzərə almaq vacibdir.

İnteraktiv metodların bu meyarlara daha çox uyğunluğu onların təlimə tədqiqat xarakteri verməsinə zəmin yaradır, eyni zamanda biliklərin mənimsənilməsi prosesində öyrənəni əsas fiqur olaraq, təlimin obyektindən subyektinə çevirir.

Yeni tipli təhsil müəssisələri, əsasən yenilikçi, innovativ rejimlə işləyən ümumtəhsil məktəblər olub, yeni ideyaların tətbiqi əsasında fəaliyyət göstərirlər. Belə ümumtəhsil məktəblərində biliklərin mənimsənilməsində istifadə olunan tədris üsulları, yeni texnoloji yanaşmaların prosesə tətbiqi ənənəvi ümumtəhsil məktəblərindən köklü şəkildə fərqlənir. Apardığımız araşdırmalar və təcrübə göstərdi ki, təhsil islahatlarının nəticəsində formalaşdırılmış yeni təhsil standartlarının tətbiqi yeni tipli təhsil müəssisələrində də təhsildə keyfiyyətin idarəolunması və səmərəliliyin yüksəldilməsində olan ən mürəkkəb problemlər, yeni pedaqoji texnologiyaların tətbiqində olan pərakəndəliklə, sistemin mühafizəkarlığı və qeyri-mütəhərrikliyi ilə bağlı şəkildə meydana çıxır.

Qeyd edək ki, bu gün interaktiv təlim metodlarından təhsil prosesində geniş istifadə olunur. İnteraktiv metodlar öyrədənlə öyrənən arasında qarşılıqlı əlaqə vasitəsilə tədris prosesinin aktivləşməsinə, fəaliyyətin stimullaşdırılmasına, şagirdlərin bilik və bacarıqlarının inkişaf etdirilməsinə ciddi təsir göstərir.

Yeni anlayış olaraq yaranan “interaktiv pedaqogika” anlayışını ilk dəfə olaraq 1975-ci il tarixində alman tədqiqatçısı olan Hans Frits işlədib. Alimin araşdırmalarında interaktiv pro-

sesin məqsədi həmin prosesin iştirakçılarının davranış modelinin dəyişdirilməsi və yaxşılaşdırılmasıdır. O, interaktiv metodlar barədə interaktiv tərbiyə prosesi tək danışır. Belə ki, təlimdə interaktivliyi müəllimlə şagirdin qarşılıqlı təsir, yəni əməkdaşlıq qabiliyyəti olaraq izah etmək mümkündür. İnter – (ingiliscə Enter) – ara (insanlararası), qarşılıq (yəni, insanların qarşılıqlı şəkildə anlaşması, əməkdaşlıqları, işi) kimi anlaşılır. Metod kimi interaktivlik təlim zamanı müəllimlə öyrənən arasında işin gedişatından – mövzudan, şərhdən həmçinin dialoqdan, rollu oyundan qeyd edilən anda yaranan yanaşma və izahdır. Yəni, bu üslub əvvəlcədən planlaşdırılmır, işin, yəni, təlim prosesinin gedişi həmin məqamı ortaya çıxararaq daha artıq şagirdin sərbəstliyi müdaxiləsi ilə yaranır. Başqa yandan, interaktivlik öyrənənlərin öz aralarında da ola bilir. Başlıca cəhət ondan ibarətdir ki, həmin prosesdə əməkdaşlıq edənlər, öyrənənlər və öyrədən eyni hüquqa malikdirlər. Əlbəttə ki, müəllim öyrədən kimi təşkilatçılıq, koordinator, eləcə də məsləhətçi və fasilitator funksiyasını icra edir. Öyrənənlərin işlərinə müdaxiləsiz problemləri qoyaraq istiqamətlər verir, nəzarət edir, o cümlədən axtarış strategiyasını hazırlamağa köməklik göstərir, lakin təlim tapşırıqlarının üzərində təhsilalanlar birgə öz aralarında mübahisə edərək, diskussiyalar apararaq iş görürlər.

İnteraktiv metodlar müəllim eyni zamanda öyrənən əməkdaşlığını reallaşdırır, həmçinin onları konstruktiv qarşılıqlı hərəkət üçün alışdırır, dərs zamanı psixoloji iqlimi sağlamlaşdıraraq yaxşı ab-hava yaratmış olur. Azərbaycanda interaktiv metodlar ilə işləyən az sayda müəllimlərin iş təcrübələri xarici təcrübələrin səmərəliliyini təsdiqləyir. Ancaq təlim zamanı məsələyə yanaşmada bütöv təqlid köçürmə olmaz. Bütün aktiv, işgüzar Azərbaycan müəllimləri şagirdlərin sosial şəraitini həmçinin ictimai mühitini, eləcə də milli mentalitetini, adətlərimizi, fənnin və mövzunun fundamentallığını yaxud praktikliyini, fənlərarası əlaqələri, hətta bilgilərin inteqrasiya etməsini, yaş eyni zamanda anlaq həyat təcrübə səviyyəsini, habelə pedaqoji və metodik xüsusiyyətlərin nəzərə alınması ilə prosesin təşkil edilməsinə yaradıcı yanaşması vacibdir.

Qeyd etmək lazımdır ki, ümumiyyətlə interaktiv təlim metodlarının daim istifadə edilməsi onun təsirini azaltması mümkündür. Müəllimlər fənnə və mövzuya, tələbələrin təcrübə və bilik səviyyələrinə əsasən bütün təlim modellərində fərqli metodikadan və texnologiyalardan istifadə etməsi lazımdır. Onlara düşünmək, sərbəst fikir bildirmək, biliklərini tətbiq etməyi bilmə bacarıqları aşılasın. Həmçinin onlarda ünsiyyət, eləcə də anlaşma mədəniyyəti, özlərinə aid problemləri həll edə bilmə bacarığı formalaşdırsın. Ümumiyyətlə, interaktiv təlim deyilən zaman, dərsdə yaranmış, təlim zamanı yaranan, şagirdlərarası öyrənmə ünsiyyəti eyni zamanda əməkdaşlığı, müəllim – tələbə birliyi nəzərdə tutulmuşdur. Çevik, düşündürücü iştirak aktivliyini yaratmayan metodlar uşaqların maraqlarını təmin etmir, eləcə də onları canlandırmayaraq fəaliyyətə qoşmur. Başqa yandan, bütün uşaqların (şagirdlərin) öz idealları, maraqları, həyata hazırlıq istəkləri vardır. Belə ki, təlimin istər məzmunu, istərsə də metodları həmin istəyi təmin etməsi lazımdır. Daha bir faktor isə vətəndaş təhsili həmçinin tərbiyəsinin aktual olmasıdır. Bu şərtlərin hamısı isə müasir təlimin məzmun baxımından metod və texnologiyalara əsasən yeniləşməsini zəruriləşdirir.

Qeyd edilən anlayış XX yüzilliyin 80-ci illərində Azərbaycanda işlənməyə başlayıb. “Aktiv” sözü məlum olduğu kimi olduqca işlək, hərəkətdə, fəaliyyətdə olan mənasındadır. Aktiv təlim metodlarının ümumiyyətlə interaktiv təlim metodları ilə yaxınlığı mahiyyətindən yaranır, ancaq doğuluş eyni zamanda seçim təsirinə əsasən bir-birindən seçilir. Beləliklə, əgər interaktiv metodlar dərs zamanı təlim prosesinin gedişindən yaranırsa, yəni biri digərini əvəzləyərək yaranırsa və öyrənənlərin hər birinin birlikdə tam, sərbəst fəaliyyətini təmin edirsə,

aktiv metodlar əvvəldən planlaşdırılan təlimin fəallaşdırılmasına şərait yaradır. Ənənəvi şəkildə işlənmiş söz metodları, əyani, eyni zamanda praktik metodlar hazırda da aktiv metodlar sırasına daxil edilir. Rollu oyunlar, fərqli xarakterə malik didaktik çalışmalar, esselər, testlər, tapşırıqlarının icrası, diskussiyalar, müzakirələr və s. aktiv təlim metodları sayılır. Təlimin aktiv metodları deyilən zaman, öyrənənlərin məlumatlanmasını, idrak sərbəstliyini, fikri fəallığını, habelə yaradıcılığını artırmış olan metodlar nəzərdə tutulur.

Pedaqoji ədəbiyyatlarda təlim metodlarının fərqli növlərinin olduğu qeyd olunur. Misal üçün, beyin həmləsi yəni, əqli hücum, həmçinin BİBÖ, klaster yəni, şaxə anlayışın çıxarılması, o cümlədən söz assosiasiyaları, akvarium, habelə rollar üzrə oyunlar, Venn diaqramı, layihələrin hazırlanması, esselər və s.

Tədqiqatlar nəticəsində interaktiv metodların başlıca xüsusiyyətlərini aşağıdakı şəkildə müəyyənləşdirdik:

İnteraktiv metodlar vasitəsilə:

— problemli məsələnin həlli prosesində tələbələrin fəal tədqiqatçı mövqeyi stimullaşdırılır;

— tələbələr üçün yeni sayılan əhəmiyyətli biliklərin müstəqil şəkildə əldə edilməsi, açılması və mənimsənilməsi məqsədilə şərait yaradılır.

Beləliklə, qeyd etdiklərimizi ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, interaktiv metodların tətbiqi zamanı təlim tələbələrin zehnini yeni elmi biliklərlə (məlumatlarla) zənginləşdirməklə yanaşı, həmçinin onların düşünmə qabiliyyətinin eyni zamanda sərbəst şəkildə biliklər əldə edərək mənimsəmək bacarıqlarının müntəzəm olaraq inkişaf etdirilməsinə əsaslanmışdır.

İnteraktiv metodlar anlayışının məzmununun başlıca üstün cəhəti odur ki, təlim prosesində tələbələr sadəcə bilik daşıyıcısı deyil, eyni zamanda bilik axtarışında olan, problemin həll yollarını müəyyən etməyi bacaran şəxsiyyət rolunda çıxış edir. Bu zaman fəaliyyətin stimullaşdırılmasına, diqqətin uzun müddət bir məfhum üzərində saxlanmasına imkan yaranır. İnformasiyalar “hazır” formada yox, onların müstəqil şəkildə kəşfi zamanı mənimsənilir, yəni mənimsəmə zamanı passiv deyil, aktiv xarakterə malikdir.

Müasir təlim texnologiyalarının məqsədyönlü şəkildə istifadəsi, fəal və interaktiv metodların doğru seçimi və tətbiqi fənlərin tədrisində vacib tələb olaraq qarşıya qoyulur. Fəal həmçinin interaktiv təlim öyrənənlərin bilikləri hazır formada yox, müstəqil, yaradıcı, o cümlədən tədqiqatçılıq fəaliyyətləri nəticəsində qazanmasına əsaslanır. Həmin təlim şagirdlərin aktiv idrak fəaliyyəti zəminində, həmçinin təhsil prosesinin başqa iştirakçıları ilə əməkdaşlıq şəraitində icra edilir. Fəal, həmçinin interaktiv təlimə məxsus olan metodların seçilməsi fənlərin mahiyyətinin, özünəməxsusluğunun diqqətə alınması zəminində həyata keçirilir. Metodların tətbiqi o zaman uğurludur ki, təlim materiallarının həcmi, mürəkkəbliyi, o cümlədən çətinlik dərəcəsi kimi xüsusiyyətləri, təhsilalanların onlarla tanışlığı nəzərə alınan olsun.

Effektiv texnologiyaların və tədris metodlarının inkişafı və tətbiqi, tədris prosesinin yeni təşkili formaları, təhsil müəssisələrində yeni münasibətlərin formalaşması bugünkü zamanın tələbidir. Aktiv metodların sistematik tətbiqi ilə müəllimin rolu əhəmiyyətli dərəcədə dəyişir. Təhsilalanların ona münasibətini kökündən dəyişdirən bir mentor, böyük bir dəstəkçi olur; müəllim öz şagirdləri ilə eyni komandada oynayan daha təcrübəli bir dosta çevrilir. Təlim prosesində tətbiq olunan metodlar bu cür fəal dərslər üçün müəllimdən müəyyən bir psixoloji hazırlıq tələb olunur. Aktiv metodlar təhsil prosesinin bütün iştirakçılarının çox səviyyəli və çoxyönlü ünsiyyətini təmin edir, buna görə də təhsil prosesində onlardan istifadə zəruridir.

**Problemin aktuallığı.** Hazırda ölkəmizdə təhsilin inkişafı sahəsində yeni metod və üsullarının yaradılması, tədris prosesinin daha yeni təşkili formalarının modernləşdirilməsi, optimallaşdırılması və s. elmi tərəqqinin tətbiqinə geniş imkanlar açır. Məqalə də məhz bu kimi vacib bir problemin araşdırılmasına həsr edildiyindən onu aktual hesab etmək olar.

**Problemin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə tədris prosesinin təşkilinə yeni yanaşmaların və müasir pedaqoji texnologiyaların istifadəsinin əhəmiyyəti vurğulanmaqla, fəal təlim metodu ilə aparılan dərslərin əsas xüsusiyyətləri nəzərdən keçirilir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

### Ədəbiyyat

1. Ə.Ə. Ağayev. Yeni təlim metod və texnologiyalarından istifadənin nəzəri və praktik məsələləri // ARTİ-nin Elmi əsərləri, 2006, №1.
2. Ə.Ə. Ağayev. Təlim prosesi: ənənə və müasirlik. Bakı: Adiloğlu, 2006, 138 s.
3. Yeni təhsil proqramlarının (kurikulumların) tətbiqi məsələləri. Bakı, 2014.
4. Edvards, C. Uğur qazandıran məktəblər. / C.Edvards, B.Martin. –Teas press, – 2017. – 253 s.

**С.Дж. Эйлазова**

### Сущность и качественные характеристики понятия интерактивного обучения
### Резюме

Разработка и применение эффективных технологий и методов обучения, новых форм организации учебного процесса, формирование новых взаимоотношений в образовательных учреждениях – это требования сегодняшнего времени.

За счет использования новых технологий в учебном процессе уход от традиционного урока позволяет устранить монотонность образовательной среды и монотонность учебного процесса, создает условия для изменения видов деятельности учащихся, дает возможность реализовать основные принципы образование.

**S.C. Eylazova**

### The essence and quality characteristics of the concept of interactive learning
### Summary

The development and application of effective technologies and teaching methods, new forms of organization of the teaching process, and the formation of new relationships in educational institutions are the requirements of today's time.

By using new technologies in the teaching process, leaving the traditional lesson allows to eliminate the monotony of the educational environment and the monotony of the teaching process, creates conditions for changing the types of activities of students, and enables the implementation of the main principles of education.

**Redaksiyaya daxil olub: 05.04.2024**

*UOT 37.0*

# İNTERAKTİV TƏLİMDƏ KREATİV YANAŞMA

**Səbinə Vahid qızı Əlizadə**
*Bakı Dövlət Universitetinin*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
**ORCİD:** 0009-0008-5456-2750
**E-mail:** sebine.elizade.1996@bk.ru

***Açar sözlər:*** *interaktiv təlim, kreativlik, interaktiv təlim metodları, yaradıcı təhsil mühiti, interaktiv təlimdə kreativlik.*

***Ключевые слова:*** *интерактивное обучение, креативность, интерактивные методы обучения, креативная образовательная среда, креативность в интерактивном обучении.*

***Key words:*** *interactive learning, creativity, interactive learning methods, creative educational environment, creativity in interactive learning.*

Tədris prosesinə müasir yanaşma onun intensivləşməsi, interaktivliyi, tədris prosesi iştirakçılarının qarşılıqlı əlaqədə olması, dialoq, müzakirə aparmaq, öz fikir və ideyalarını ifadə etmək bacarığı, ictimaiyyət qarşısında çıxış etmək qorxusunun olmaması, tolerantlıq ilə xarakterizə olunur. Bu yanaşma müasir informasiya dövrünün və fərdin bu cəmiyyətin tərkib hissəsi kimi inkişaf xüsusiyyətləri ilə bağlıdır. Bu o deməkdir ki, müəllimin işi pedaqoji təsirin dolayı priyomlarından istifadə etməkdir. Bu prosesdə dialoji ünsiyyət üsulları, paritet, həqiqətin birgə axtarışı, tərbiyəvi situasiyaların yaradılması yolu ilə inkişaf, müxtəlif yaradıcı fəaliyyətlər ön plana çıxır. Bu yanaşma müasir informasiya cəmiyyətinin və fərdin cəmiyyətin tərkib hissəsi kimi inkişaf xüsusiyyətləri ilə bağlıdır. Bu o deməkdir ki, müəllimin işi pedaqoji təsirin dolayı üsullarından istifadə etməkdir: dialoji ünsiyyət üsulları, paritet, həqiqətin birgə axtarışı, tərbiyəvi situasiyaların yaradılması yolu ilə inkişaf, müxtəlif yaradıcı fəaliyyətlər ön plana çıxır.

Kreativ təhsil mühitinin yaradılması təlimə, müəllim və şagirdlərə interaktiv tədris metodlarını tətbiq etməyi və bu prosesdə qarşılaşdıqları problemləri diqqətdə saxlamağı zəruri edir. Təlimə kreativ yanaşma öyrənmə prosesini asanlaşdırır və onların yadda qalmasına imkan yaradır.

Öyrənmə modellərinin təsnifatını 2 cür vermək olar:

1. Passiv model təlim mühitinin reproduktiv fəaliyyətini nəzərdə tutur. Bu o deməkdir ki, şagirdlər materialı dərsliyin mətnindən və ya müəllimin sözündən öyrənirlər, onlar arasında yaradıcılıq tapşırığı və ünsiyyət yoxdur. Belə bir modelin parlaq nümunəsi mühazirə və ya ənənəvi dərsdir. Dərs quruluşuna olan müasir tələblərin uşağın fəaliyyətini stimullaşdıracaq aktiv metodların istifadəsini tələb etməsinə baxmayaraq, bu model olduqca tez-tez istifadə olunur.

2. Aktiv model (interaktiv metod) — şagird müstəqilliyinin və idrak fəaliyyətinin stimullaşdırılması ilə xarakterizə olunur. Bu modeldə yaradıcı tapşırıqlar və müəllimlə şagirdlər arasında məcburi ünsiyyət təşviq edilir. Amma bunun da mənfi cəhətləri var, məsələn, şagird özü üçün öyrənmə subyekti kimi çıxış edir, yalnız özünü öyrədir. O, müəllim istisna olmaqla, təhsil prosesinin iştirakçıları ilə əlaqə saxlamır. Yəni, bu metodun diqqəti birtərəflidir, müstəqil fəaliyyətə, öz-özünə təhsilə, təlimə, özünü inkişaf etdirməyə yönəlmişdir; lakin bu, qrup-

larda qarşılıqlı əlaqə və təcrübə mübadiləsi qabiliyyətini nəzərdə tutmur.

Müasir pedaqoji texnologiyalar təkcə tədris prosesini deyil, həm də fəal tədris metodlarının həyata keçirilməsini mümkün edən xüsusi mühit yaratmaq bacarığını zəruri edir. Onu da qeyd edək ki, qarşılıqlı fəaliyyətinin ən təsirli üsullarından biri olan aktiv metodlar təlimin inkişaf etdirici və tərbiyəvi təsirlərini gücləndirir, şagirdlərin öz fikirlərini və mövqelərini açıq ifadə etmələrinə şərait yaradır, öz baxışlarına təsir etmək qabiliyyətini formalaşdırır. [ 1 ]

Sinifdə interaktiv fəaliyyət qarşılıqlı anlaşmaya, qarşılıqlı fəaliyyətə və hər bir iştirakçı üçün ümumi, lakin əhəmiyyətli vəzifələrin birgə həllinə səbəb olan dialoq ünsiyyətinin təşkili və inkişafını nəzərdə tutur. İnteraktivlik hər hansı fikrin digərləri üzərində hökmranlığını aradan qaldırır. Təlimdə dialoji ünsiyyət problemin həllini əlçatan edir. Belə ki, dialoqla öyrənmə zamanı tələbələr tənqidi düşünməyə, şəraitin və müvafiq məlumatların təhlili əsasında mürəkkəb məsələləri həll etməyə, alternativ fikirləri ölçməyə, düşünülmüş qərarlar qəbul etməyə, müzakirələrdə iştirak etmək bacarığına və digər insanlarla ünsiyyət qurmaq imkanlarına yiyələnirlər. Belə hallarda dərslərdə fərdi, cütlük və qrup işi təşkil olunur. İnteraktiv təlim metodlarından istifadə sayəsində şagirdlərdə kreativlik formalaşır, həmçinin onun sürətli inkişafı ortaya çıxır.

Görkəmli pedaqoq N. Suvorova görə, interaktiv təlimin mahiyyəti bütün şagirdlərin təhsil prosesinə daxil olmasıdır və eyni zamanda, onlara bildikləri və düşündükləri üzərində düşünmək imkanı verilir. Şagirdlərin nəinki yeni biliklər əldə etmələri, həm də onların idrak fəaliyyətini inkişaf etdirmələri və əməkdaşlığın daha yüksək formalarına çatmaları üçün şərait yaradılır. [2]

İnteraktiv təlimdə düşüncələr üzərində düşünmək fəallaşır. Bu təlim qarşılıqlı anlaşma, qarşılıqlı əlaqə və hər bir iştirakçı üçün ümumi, lakin vacib vəzifələrin qrup həllini təşviq edən dialoq ünsiyyətinə əsaslanır. Şagirdin biliyə, özünü təsdiqə, yaradıcılığa, emosional həzz, ünsiyyət, yəni özünü həyata keçirmə qabiliyyətinə malik olmasına təsir göstərir.

İnteraktiv öyrənmə ünsiyyətlə bağlı öyrənmədir ki, bu da şagirdyönlü təlim prinsipinə, hər bir şagirdin problemlərin həlli yolları və vasitələrinin axtarışçısı kimi bilavasitə iştirakına əsaslanır. İnteraktiv texnologiyalardan istifadə dərsin strukturuna müəyyən tələblər qoyur. Bu tələblərin O.Pometun beş elementdən ibarət olduğunu vurğulayır:

— motivasiya;
— elanlar, mövzunun təqdimatı və nəticələrin gözləntiləri;
— tapşırıqların həlli üçün lazımi məlumatların verilməsi;
— interaktiv məşqlər;
— dərsin mərkəzi hissəsi;
— nəticələrin yekunlaşdırılması, qiymətləndirilməsi. [3]

Təlim prosesində interaktiv texnologiyalardan istifadə dərslərin maraqlı qurulmasına imkan verir, onu məhsuldar edir və müxtəlif təhsil nailiyyətləri olan şagirdlərin qarşılarına çıxan maneələri aradan qaldırır. İnteraktiv təlim texnologiyası vasitəsilə əldə edilmiş bilik-bacarıq, təcrübə və dəyərlərə əsaslanan optimal hərəkətlər fərdin özünün qabiliyyəti kimi həyat səriştəsinin formalaşmasına kömək edir.

Bu problem pedaqoji ədəbiyyatlarda müxtəlif formalarda mənalandırılır. Pedaqogika dərsliyində İ. Podlasıy dərsin üç konseptual modelini şərh edir:

— mövzuyönlü;
— şəxsiyyətyönlü;
— əməkdaşlıq fəaliyyəti. [4]

İnteraktivlik şagirdlərin təfəkkür və nitq mədəniyyətini təkmilləşdirmək yoludur, onları düşünməyə, müzakirə etməyə və problemli tapşırıqları yerinə yetirməyə həvəsləndirir. İnteraktiv texnologiyalar şagirdlərin məntiqi-diskursiv və emosional obrazlı təfəkkürünün bütövlüyünün inkişafına təsir göstərir. Tədqiqatçı İ.M. Diçkovskayanın fikrincə, idrak fəaliyyətinin daxili məzmun-təhsil motivlərinin formalaşmasına kömək edir. [5]

Aparılan araşdırmalar göstərir ki, interaktiv təlim metodlarından akvarium, debatlar, qərarlar ağacı, diskussiyalar, mövqe tutma, karusel, dəyirmi masa, fasiləsiz fikirlər şkalası, problem mübadiləsi, qiymətləndirici diskussiya, açıq forum, dərsin sonunda refleksiya aparılması üsulu, boş üç stul, ümumi sorğu, qasırğa, dörd baxış, esse, əqli hücum, BİBÖ və s. istifadə təlimin keyfiyyətinə əsaslı təsir göstərir. Müəllimlərlə aparılan sorğular da fikrimizi təsdiq edir.

İnteraktiv təlimin mövcud qaydalarını xarakterizə etmək olar:

1) Bütün iştirakçıların bu və ya digər dərəcədə təhsil prosesinə cəlb edilməsi. Bu məqsədlə bütün iştirakçıların diskussiya prosesinə daxil edilməsinə imkan verən üsullardan istifadə etmək faydalıdır;

2) İştirakçıların psixoloji hazırlığı: Onu da qeyd edək ki, çox zaman dərsdə iştirak edən hər bir şagird bu və ya digər iş formasında birbaşa iştirak etməyə psixoloji cəhətdən hazır olmur. Bu baxımdan, isinmə, işdə fəal iştirak üçün daimi həvəsləndirmə üçün imkanların yaradılması faydalıdır;

3) Şagirdlərin sayı: İştirakçıların sayı təlimin keyfiyyəti ilə birbaşa əlaqəli ola bilər. İştirakçıların optimal sayı 25 nəfər nəzərdə tutulur. Yalnız bu şəraitdə kiçik qruplarda məhsuldar iş mümkündür;

4) Tədris müəssisələrinin elmi-texniki avadanlıqları: Yüngül materiallardan hazırlanmış sinif mebellərinin olması problemin həllində önəmlidir;

5) Dərsin keçirilməsi üçün vaxt məhdudiyyəti və ya qaydaları. Dərsin əvvəlində bu məsələlərlə bağlı pedaqoji prosesin iştirakçıları arasında razılaşma olmalıdır. Həmçinin müəyyən edilmiş qaydalara ciddi riayət etmək zəruri sayılmalıdır;

6) Şagirdlərin qruplara bölünməsi: İlkin olaraq qrup iştirakçıları müəyyən olunur, daha sonra şagirdlərin marağında olan qrup işləri təqdim edilir. Bütövlükdə şagirdləri qrup işinə həvəsləndirmək lazımdır. Hər qrupa zəif və ya asta cavab verən şagirdlər əlavə edilərək onların aktiv şagirdlərlə əməkdaşlığı təmin edilməlidir.

Sinifdə interaktiv təlim metodlarından istifadə edərkən xüsusi yaradıcı fəaliyyət mühiti – kreativ mühit formalaşır ki, bu mühit S. Savçenkonun, V. Dokuçayevanın, Y. Manuylovun tərifində öz əksini tapır. Müəlliflər qeyd edirlər ki, şagirdin peşəkar və fərdi inkişafı, onun yaradıcılıq qabiliyyətlərinin, əqli və idrak fəaliyyətinin, müstəqil işləmək qabiliyyətinin inkişafında baş verir. [6,7]

Təlim prosesində interaktivlik anlayışını şagirdlər arasında qarşılıqlı fəaliyyət, onların kommunikasiya prosesi və kreativ düşünmə qabiliyyətinin formalaşması kimi başa düşmək olar. Bu təlimin mahiyyəti ondan ibarətdir ki, tədris prosesində şagirdlərin yaradıcı, fəal, qarşılıqlı, həvəsləndirici və müntəzəm fəaliyyəti həyata keçirilir. Lakin, hər bir dərs prosesində interaktiv təlimdən istifadə olunmur. Bəzən, bir çox müəllimlər düşünür ki, bu təlim metodu yalnız ibtidai siniflərdə tətbiq olunmalıdır, yuxarı sinif şagirdlərinin fəallığını və yaradıcı təfəkkürünü artırmağa ehtiyac yoxdur, çünki onlar təlim prosesində materialı özləri dərk edib, mənimsəyirlər. Həmçinin, bəzi müəllimlərin passiv dərs modelinə üstünlük verməsinin səbəbi onların yetərincə müasir və interaktiv təlim metodlarına sahib olmamalarına görə baş verir. Belə tədris prosesi şagirdlərdə bilik, bacarıq və yaradıcı təfəkkürü formalaşdırmır.

Təhsil mənəvi dəyərlərin bərpası üçün ən vacib institusional kanaldır. Buna görə də təhsil sisteminin açıq və gizli hədəf təyinatları cəmiyyətdə mənəvi dəyərlərin yayılma dərəcəsini müəyyən edir və bununla da onun dəyər inteqrasiyasına və mədəni homojenliyinə təsir göstərir. [8].

İnteraktivlikdən ilkin istifadə zamanı şagirdlər tərəfindən sinifdə müəyyən problemlər yarana bilər. Mürəkkəblik, həmyaşıdları ilə ünsiyyət yaratmaq istəməməsi, açıq bəyanatlardan, fikir söyləməkdən qorxmaq, həmsöhbətə qulaq asa bilməmək, həmyaşıdlarına hörmətsizlik, özünə vurğunluq, özünə həddindən artıq inam, düşüncə çevikliyinin olmaması bu kimi yaranan çətinliklərdir. Bununla belə, müsbət ünsiyyət bacarıqları, müzakirələr, dözümlülük, şagird şəxsiyyətinin yaradıcı potensialının üzə çıxarılması və bütün bilik səviyyələrinin formalaşdırılması əsas çatışmazlıqları neytrallaşdırır.

İnteraktiv təlim tədris prosesinin bütün iştirakçılarının fəallığını tələb edir. Ümumiyyətlə, interaktivlik (hərfi mənada: qarşılıqlı əlaqə, hərəkətlərin mübadiləsi) şagirdlərin ümumi qrup fəaliyyətinə daxil edilməsini nəzərdə tutur, bu müddət ərzində şüurun genişlənməsi, münasibət və dəyərlərə təsir, diqqətin özünə yönəldilməsi baş verir. İnteraktivlik qarşılıqlı əlaqə prosesində fərdin idrak, emosional və davranış sahələrinin inkişafı "ənənəvi" (reproduktiv) təlimdən fərqli olaraq daha intensiv şəkildə həyata keçirilir. Hər bir şagirdin nəzəri və praktiki təcrübəsini başqalarının təcrübəsi ilə müqayisə etmək, qarşılıqlı əlaqə və əməkdaşlıq yolu ilə zənginləşdirmək imkanı vardır. Buna müvafiq olaraq, daha effektiv fəaliyyət və davranış modellərini inkişaf etdirmək mümkündür. Məhz buna görə də, bu gün interaktiv təlim metodları qlobal pedaqoji təcrübədə getdikcə daha çox tanınır, onun dəyəri artır. Bunu da qeyd edək ki, bu növ təlimin çətinlikləri və mənfi cəhətlərinin üzə çıxarılması zəruridir. İlk növbədə müəllimə, onun interaktiv təlim metodlarından öz təcrübəsində istifadə etmək istəyinə və bacarığına diqqət yetirmək lazımdır.

Kreativ yanaşmada interaktiv təlimin mahiyyəti ondan ibarətdir ki, təhsil prosesinin təşkili zamanı bütün şagirdlər təlim prosesinə cəlb olunur, onlar bildiklərini və düşündüklərini dərk etmək və əks etdirmək imkanı əldə edirlər, bu da onlarda yaradıcı təfəkkürü inkişaf etdirir. Tədris materialının öyrənilməsi və mənimsənilməsi prosesində şagirdlərin birgə fəaliyyəti hər kəsə öz xüsusi fərdi töhfəsini verməyi, bilik, fikir və fəaliyyət metodlarının mübadiləsinin aparılmasını tələb edir. Üstəlik, bu, nəinki yeni biliklər əldə etməyə imkan verən, həm də idrak fəaliyyətinin özünü inkişaf etdirən, onu daha yüksək fəaliyyət və əməkdaşlıq formalarına çevirən xoş niyyət və qarşılıqlı dəstək mühitində baş verir. [9]

Bütün bu deyilənlərə əsaslanaraq belə nəticəyə gəlmək olar ki, interaktiv təlim metodları yüksək motivasiya, bilik gücü, kreativlik və təxəyyül, aktiv həyat mövqeyi, ünsiyyətcillik, komanda ruhu, fərdiliyin dəyəri, ifadə azadlığı, fəallığa təşviq, qarşılıqlı hörmət və demokratiya formalaşdırır. İnteraktiv təlim şagirdlərdə tənqidi düşünmə bacarıqlarının inkişafına və möhkəmlənməsinə kömək edir, həm qrupun, həm də tədris prosesinin hər bir fərdi subyektinin yaradıcı potensialını üzə çıxarır. Buna görə də interaktiv təlim metodları kreativliyin formalaşmasının başlıca amillərindən biridir.

**Problemin aktuallığı.** Müasir dövrdə hər bir sahədə gedən yeniləşmə təhsil sahəsindən də yan keçmir və bu prosesə uyğunlaşmaq üçün təhsilalanlarda kreativliyin formalaşdırılmasının interaktiv təlim metodlarında öz əksini tapması məqsədəuyğundur.

**Problemin elmi yeniliyi.** Kreativliyin formalaşdırılması prosesində interaktiv təlim metodlarından istifadə edərək şagirdlərdə maraq və inkişafın yaranması, bilik və bacarıqların aş-

kara çıxarılması, onlarda tədqiqatçılığın inkişaf etdirilməsi və s. kimi amillərin araşdırılması, bu istiqamətdə müəyyən tövsiyələrin hazırlanması təqdim olunan problemin elmi yeniliyini təşkil edir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə irəli sürülən təklif və nəticələr bu sahədə mövcud olan bir sıra vacib məsələlərin həlli üçün praktik əhəmiyyətə malikdir.

## Ədəbiyyat

1. Бледных О.И. Активные методы обучения // Проблемы современной науки и образования, 2014, № 12, с. 118-120.

2. Суворова Н. Н. Интерактивное обучение: новые подходы / Н.Н. Суворова. – Москва: Вербум, 2005.

3. Пометун О.І. Енциклопедія інтерактивного навчання / О.І. Пометун. – Київ: Основи, 2007.

4. Подласый И.П. Педагогика. Новый курс. Москва. 2002.

5. Дичківська І.М. Інноваційні педагогічні технології: навч.посіб./ І.М. Дичківська. – Київ: Академвидав, 2004.

6. Докучаєва В. Проектування інноваційних педагогічних систем у сучасному освітньому просторі: монографія / В. Докучаєва. – Луганськ: Альма-матер, 2005. – 304 с.

7. Мануйлов Ю.С. Средовый подход в воспитании / Ю.С. Мануйлов // Педагогика. – 2000. – № 7. – С.17-24.

8. Вальцев С.В. Духовность в ценностной иерархии российского образования // Проблемы современной науки и образования, 2012. № 4. С. 49-52.

9.Кузовкина Л.В. Интерактивное обучение как новый подход технологии XXI века // SCI-ARTICLE.RU, 2015. № 9.

**С.В. Ализаде**

## Творческий подход в интерактивном обучении
## Резюме

В научной статье широко отражен процесс формирования творческого подхода к обучению посредством интерактивного обучения. Были показаны примеры применения интерактивных методов обучения в учебном процессе, системного формирования творческого подхода, повышения качества обучения студентов. Использование комплекса интерактивных технологий обучения в развитии творческих способностей студентов приводит к углублению теоретических подходов. Структура творческих способностей личности, их связь и зависимость с интеллектуальными способностями отражает важность внедрения технологий интерактивного обучения в развитии творческих способностей учащихся.

**S.V. Alizada**

**Creative approach in interactive learning**
**Summary**

In the scientific article, the process of formation of a creative approach to training through interactive training is widely reflected. Examples of the application of interactive training methods in the training process, the systematic formation of a creative approach, and the improvement of the quality of training of students were shown. The use of a complex of interactive teaching technologies in the development of students' creative abilities leads to the deepening of theoretical approaches. The structure of an individual's creative abilities, their connection and dependence with intellectual abilities reflects the importance of the implementation of interactive learning technologies in the development of students' creative abilities.

**Redaksiyaya daxil olub: 21.02.2024**

*UOT 37.0*

# FƏAL TƏLİMDƏ ÖYRƏDİCİ MÜHİT VƏ MÜASİR PEDAQOJİ PROSESDƏ ONUN İMKANLARI

**Şölə Firdovsi qızı Mustafayeva**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCID:** 0009-0009-2806-2282
**E-mail:** sholamustafayeva27@gmail.com

***Açar sözlər:*** *fəal təlim, müasir təhsil, pedaqoji proses, müasir pedaqoji proses, pedaqoji imkanlar.*
***Ключевые слова:*** *активное обучение, современное образование, педагогический процесс, современный педагогический процесс, педагогические возможности.*
***Keywords:*** *active learning, modern education, pedagogical process, modern pedagogical process, pedagogical possibilities.*

Müasir elmin vəzifəsi müşahidə və təcrübə yolu ilə və təbiətin universal qanunlarını tapmaq yolu ilə reallığın rasional strukturunu açmaqdır. Müşahidə və eksperiment yolu ilə toplanmış məlumatlar arasında əlaqənin obyektiv metodlardan istifadə etməklə ölçülməsinə əsaslanan metafizik cəhətdən azad və mütərəqqi bir üsul kimi pozitivizm də bu kontekstdə yaranmışdır. Pozitivistlərin fikrincə, elm səbəb-nəticə əlaqələrini aşkara çıxarmağa, təbiətdə mövcud olan qanunauyğunluqları izah etməyə borcludur; Faktlar konseptuallaşdırılarkən, onlar ədədi ölçü ilə ifadə edilməlidir. Pozitivist müasir elmin hakim olduğu müasir həyat sistemi mütərəqqi ideologiyaya malikdir. Mütərəqqi yanaşmaya görə, insan bilik və təcrübə topladıqca, təbiətdəki nizamı daha yaxşı başa düşür və beləliklə, ona daha uyğun olan ictimai nizamı qura bilir Müasirliyə bu baxış elmi determinizmin tarixə əksidir. Müasir elm vasitəsilə daha azad, daha bərabərlikçi və insanların heç vaxt olmadığı qədər xoşbəxt olacağı cəmiyyətlərin inkişafına nail olunacağına inanılırdı.

Təhsil sistemləri ölkələrin yüksəltmək istədikləri insan profilinə uyğun formalaşır. Bu kontekstdə ölkələr gələcəkdə inkişaf etdirəcəkləri sivilizasiyadakı inkişaflardan asılı olaraq bu vizyon çərçivəsində təhsil baxışlarında və təhsil təcrübələrində sürətli bir dəyişiklik yaşayırlar. Xüsusilə texnologiya və elmdəki dəyişikliklər buna misaldır. Bu inkişaflardan asılı olaraq, ölkələr dövrün ehtiyaclarını nəzərə alaraq, fərdlərin təhsil inkişafına önəm verərək informasiya cəmiyyətinə çevrilməyi hədəfləyirlər. Baş verənləri izləməmək müəyyən mənada beynəlxalq aləmdə öz yerinizi tuta bilməmək, rəqabət apara bilməmək, asılı vəziyyətə düşmək deməkdir. XXI əsrin cəmiyyətlərə gətirdiyi bir çox yeniliklər və inkişaflar var. İnsanlara bu bacarıqları əldə etmək üçün təhsil lazımdır. Təhsil bir çox elementlərin birləşməsindən əmələ gələn sistemdir. Belə bir sistemin mütləq bir fəlsəfəsi var. Təhsil çox ümumi mənada insanları mədəni həyata hazırlayan bütün sosial prosesləri əhatə edir və insanların dəyərlər, bacarıq və biliklər baxımından formal və intellektual təhsil aldıqları sosial institutlar olan məktəblərdə həyata keçirilir (Qutek, 2017). Bu halda kurikulumun təsirli olması üçün onun məqsədlərini dəqiq şəkildə ortaya qoyan təhsil fəlsəfəsi və tədris yanaşması olmalıdır.

Müasir təhsil proqramı biliyin pozitivist meyarını universal bilik kimi qəbul edir. Beləliklə, fərdlər arasındakı fərqlər aradan qalxacaq və hamı orta səviyyəyə keçəcək; mədəniyyət, dil və elm universal olacaq (Kökten, 2013). Müəllimlər və dərsliklər əsas məlumat mənbəyidir; Müəllimin vəzifəsi ona verilən təhsil proqramını həyata keçirmək və məlumatı göstərilən

istiqamətə ötürməkdir. Təqdimata əsaslanan bu yanaşma müəllimi təhsilin mərkəzinə qoyur, onu aktiv, şagirdi isə passiv mövqeyə qoyur. Çünki şagirdin yeganə fəaliyyəti ona təqdim olunan məlumatı qəbul etmək, təkrarlamaq, yaddaşa yerləşdirmək və davranışa çevirməkdir. Modernizmin hakim olduğu məktəblərdə, ümumiyyətlə, bir həqiqətin və bir səlahiyyətin dərkinə əsaslanan mərkəzçi quruluş mövcuddur; Fərqli və ya yerli olan nəzərə alınmır (Alemdar, M., Aydemir, S., 2022.).

Bugünkü sürətlə inkişaf edən təhsil mənzərəsində fəal öyrənmə tədris və öyrənmə üçün transformativ yanaşma kimi ortaya çıxdı. Bu esse fəal təlimdə təhsil mühitini və onun müasir pedaqoji proses daxilindəki imkanlarını tədqiq edir, onun prinsiplərinə, üstünlüklərinə, çətinliklərinə və texnologiyanın inteqrasiyasına diqqət yetirir.

Fəal öyrənmə, tələbələrin öyrənmə prosesində fəal iştirak etdikdə ən yaxşı öyrənmələri inamından qaynaqlanır. Passiv məlumat almaq əvəzinə, tələbələr müzakirələr, problem həll etmə fəaliyyətləri və praktiki təcrübələr vasitəsilə fəal iştirak etməyə təşviq olunurlar. Tələbə mərkəzli bu yanaşma daha dərin qavrayış, tənqidi düşünmə bacarıqları və biliklərin uzunmüddətli saxlanmasına kömək edir.

Aktiv öyrənmə mühitləri interaktivlik, əməkdaşlıq və tələbə cəlbi ilə xarakterizə olunur. Sinif otaqları tələbələrin konsepsiyaları araşdırmaq, təhlil etmək və tətbiq etmək üçün birlikdə işlədiyi dinamik məkanlara çevrilir.

Aktiv öyrənmə tələbələr, müəllimlər və təhsil müəssisələri üçün çoxsaylı üstünlüklər təklif edir. Tədqiqatlar göstərdi ki, aktiv öyrənmə daha yüksək səviyyəli tələbə iştirakına, təkmilləşdirilmiş akademik performansa və öyrənmə təcrübəsindən məmnunluğun artmasına səbəb olur. Tələbələr müasir qlobal cəmiyyətdə uğur qazanmaq üçün vacib olan tənqidi düşünmə, ünsiyyət bacarıqları və problem həll etmə bacarıqlarını inkişaf etdirirlər.

Fəal öyrənmə fəaliyyətləri qrup müzakirələri, nümunə araşdırmaları, rol oyunları və əməkdaşlıq layihələri daxil olmaqla bir çox formada ola bilər. Elm dərsində tələbələr elmi anlayışları araşdırmaq üçün təcrübələr və ya simulyasiyalar apara bilərlər. Ədəbiyyat dərsində tələbələr ədəbi mətnləri təhlil etmək üçün Sokratik seminarlarda və ya həmyaşıdların rəhbərlik etdiyi müzakirələrdə iştirak edə bilərlər. Əsas odur ki, tələbələrə kurs materialı ilə fəal şəkildə məşğul olmaq və biliklərini real dünya kontekstində tətbiq etmək üçün imkanlar yaratmaqdır.

Texnologiya fəal öyrənmə təcrübələrini asanlaşdırmaqda mühüm rol oynayır. İnteraktiv multimedia resursları, onlayn platformalar və rəqəmsal alətlər tələbələrə mürəkkəb konsepsiyaları araşdırmaq, həmyaşıdları ilə əməkdaşlıq etmək və onların tərəqqisi haqqında dərhal rəy almağa imkan verir. Virtual simulyasiyalar, oyunlaşdırılmış öyrənmə mühitləri və artırılmış reallıq tətbiqləri tələbələrin iştirakını və motivasiyasını artıran immersiv öyrənmə təcrübələri təklif edir.

Fəal öyrənmə bir çox üstünlüklər təqdim etməklə yanaşı, pedaqoqlar üçün də çətinliklər yaradır. Fəal öyrənmə strategiyalarının həyata keçirilməsi diqqətli planlaşdırma, vaxt və resurslar tələb edir. Müəllimlər şagirdlərin risk götürmək və səhv etmək üçün rahat hiss etdikləri dəstəkləyici öyrənmə mühiti yaratmalıdırlar. Bundan əlavə, müəllimlər öz tədris metodlarını tələbələrinin ehtiyac və maraqlarına uyğunlaşdırmağa hazır olmalıdırlar (Freeman, S., Eddy, S.L., McDonough, M. və başqaları. 2014).

Təhsil fəal təlim metodlarına mühüm əhəmiyyət verir və onların təhsil prosesində həlledici rolunu qəbul edir. Bu üsullar tələbələrin daha yüksək səviyyələrdə düşünmə, yaradıcılıq, təşəbbüskarlıq, effektiv ideyaların paylaşılması və komanda işinin tam inteqrasiyasına kömək edən fəaliyyətlərə cəlb edilməsini nəzərdə tutur (S. Freeman, S.L. Eddya, M. McDonough et

al., 2013). Eyni zamanda, tədqiqatçılar (C.L. Konopka, M.B. Adaime, P.H. Mosele, 2015) vurğulayırlar ki, fəal öyrənmə metodları tez-tez adi məktəb iş rejiminə inteqrasiya olunur, müəllimlər tədris və təlim metodlarını müasir təbiətinə əsaslanaraq və ya sadəcə tətbiqi asanlığına görə seçirlər, buna məhəl qoymurlar. S. Freeman, S.L. Eddy, M. McDonough et al. (2014) tənqidi şəkildə vurğulayır ki, bəzi müəllimlər səhvən öz sinif otaqlarını tələbələri sorğu-sual etmək, ev tapşırığını vermək və ya laboratoriya təcrübələri aparmaq kimi fəaliyyətlərə görə yüksək cəlbedici kimi qəbul edirlər. Buna baxmayaraq, bu perspektiv aldadıcıdır, çünki bu tələbələr tənqidi təfəkkürlə məşğul olmaq, məlumatları emal etmək və fəaliyyəti yaradıcı şəkildə tamamlamaq bacarığı ilə mübarizə aparırlar. C.R. Rogers (2005) öz işində iddia edir ki, cəmiyyətimiz yenilikçi və unikal mütəfəkkirlərin böyüməsinə kömək etmir. Əksinə, o, stereotiplərə uyğun gələn və qrup fəaliyyətləri ilə məşğul olan, çox vaxt onların töhfələri tanınmadan insanların inkişafına kömək edir. W.J. Galindo-ya (2010) görə, müəllimlərin ciddi şəkildə rəhbər tutduğu təhsil prosesi təxəyyül, yaradıcılıq, analitik və tənqidi düşünmə qabiliyyətlərinin inkişaf etdirilməsinin əhəmiyyətini məhdudlaşdırır. Beləliklə, aktiv təlim üsullarının möhkəmliyi və təsirliliyi yüksək keyfiyyətli tədris sessiyasının vacib komponentləridir. Məsələn, nazik cüt-paylaşma texnikasından istifadə şagirdlərin dərsə cəlb olunmasını və mövzunu qavramasını artırır. Bundan əlavə, əhəmiyyətli tədqiqatlar qrupu da ali təhsildə aktiv öyrənmə yanaşmalarının əhəmiyyətini etiraf edir. M.J. Gómez-Poyato, A. Aguilar-Latorre, M.M. Martínez-Pcharroman, R. Magallón-Botaya və B. Oliván-Blazquez (2020) bildirirlər ki, universitet təhsilində çevrilmiş sinif və rol oyunu kimi aktiv öyrənmə üsulları daha yüksək səviyyəli tələbə cəlb edilməsi, təkmilləşdirilmiş öyrənmə dinamikası və kursun məzmunu ilə qarşılıqlı əlaqəsi təmin edilməlidir. Stoll (2020) məqaləsində rəqəmsal texnologiyaların artan yayılması fonunda tədris metodlarına, məzmununa və təhsil prosesinə yenidən baxmağın zəruriliyini vurğulayır. Stoll iddia edir ki, mobil texnologiyalardan istifadə tələbələrə cari hadisələr və şəxsi təcrübələrlə daim bağlı qalmağa imkan verir və təhsilin bu yeni reallığa uyğunlaşdırılmasının vacibliyini vurğulayır. Rəqəmsal texnologiyalar informasiyanın əlçatanlığının genişləndirilməsinə, yeni öyrənmə metodlarının inkişafına və ünsiyyət, əməkdaşlıq, iştirak və bacarıqların əldə edilməsi üçün şansların təmin edilməsinə kömək edir. Arieli 2021-ci il nəşrində təhsilin gələcəyini formalaşdırması nəzərdə tutulan pedaqogikanı üç əsas elementlə əlaqələndirir: innovasiya, yaradıcılıq və keyfiyyət. İnnovativ təhsilin əsas məqsədi şagirdlərə yeni ideyalar, konsepsiyalar, yanaşmalar və sistemlər əldə etmək, araşdırmaq, həyata keçirmək və istifadə etmək prosesində təlimat verməkdir. Bu, öyrənmə aktı ilə bağlı biliklərin əldə edilməsi və bacarıqların inkişaf etdirilməsi prosesidir. Arielinin (2021) fikrincə, şagirdlərin bilik əldə etməsinə şərait yaratmaq iki amildən asılıdır: öyrənənin üstünlük verdiyi öyrənmə üsulu və onların təhsil və sosial görüşləri. Pedaqogika anlayışını genişləndirərək qeyd etmək lazımdır ki, Stoll (2020) təhsilin gələcəyinə təsir edəcəyi şübhəsiz olan irəliyə doğru düşünən pedaqogika anlayışını qəbul edir. İnnovativ pedaqogikanın beş əsas komponenti bunlardır: (a) öyrənmənin əhəmiyyətini əldə etmək, tənqidi təfəkkür inkişaf etdirmək və sosial qarşılıqlı əlaqədə olmaq imkanı verən əyləncəli təcrübələri təşviq edən oyun əsaslı metodologiya; (b) təhsil məzmununu real dünya tətbiqləri ilə birləşdirən təcrübə metodologiyası; (c) problemin həllini asanlaşdıran rəqəmsalyönlü metodologiya; (d) təlim prosesinə fiziki cəlbi özündə birləşdirən təcəssümə əsaslanan metodologiya (Juskeviciene, A. 2022).

**Fəal təlimdə öyrədici mühit və müasir pedaqoji prosesdə rolu**

Məharətlə tətbiq etməklə fəal təlim metodları eyni zamanda üç tədris-təşkilati vəzifəni həll etməyə imkan verir: 1) Təlim prosesini müəllimin fəaliyyətinə nəzarət etməyə tabe etmək; 2)

Dərsdə hazırlıqlı və hazırlıqsız tələbələr kimi fəal iştirakını təmin etmək; 3) Tədris materialının mənimsənilməsi prosesinə davamlı nəzarətin qurulması [1]. Problemin məqsədlərinin həyata keçirilməsində və öyrənmənin inkişafında tələbələri ümumiləşdirməyə, düşüncə müstəqilliyini inkişaf etdirməyə, təlim materialında əsas şeyi müəyyənləşdirməyi öyrənməyə, nitqi inkişaf etdirməyə və s. Təcrübə göstərir ki, orta məktəb təlimində fəal metodlardan istifadə yüksək ixtisaslı mütəxəssislərin hazırlanması üçün ilkin şərtdir və müsbət nəticəyə gətirib çıxarır: onlar şagirdləri fəal tədris-idrak fəaliyyətinə, təhsilə cəlb etməklə onların bilik, bacarıq və bacarıqlarını formalaşdırmağa imkan verir. məlumat tələbələrin şəxsi biliyinə çevrilir. Bildiyiniz kimi, didaktikada tədris metodlarının təsnifatına müxtəlif yanaşmalar mövcuddur. Fərqli xüsusiyyət kimi dinləyicilərin aktivləşmə dərəcəsi və ya öyrənmə və idrak fəaliyyətinin xarakteri istifadə olunur. Aşağıdakı əlamətlərə əsaslanan təsnifat fərqləndirilir:

- İdrak mənbələri (şifahi, vizual, praktiki təlim metodları); - Məntiq metodları (tədrisin analitik və sintetik, induktiv, deduktiv üsulları);
- Təlimin növü (izahlı və illüstrativ, problemli təlim metodları);
- Problemin səviyyəsi (indikativ, monoloji-dialoji, evristik tədqiqat, alqoritmik, proqramlaşdırılmış təlim metodları);
- Didaktik məqsəd və funksiyalar (stimullaşdırma üsulları, nəzarətin təşkili);
- Müəllimin fəaliyyət növü (təqdimat üsulları və müstəqil təlim fəaliyyətinin metodları) və s.

Təlim metodlarının təsnifatına yanaşmaların müxtəlifliyinə baxmayaraq, onların hər biri təlim prosesinin təşkilinin müəyyən şərtlərində ən effektivdir. Metod konkret təlim məqsədlərinə çatmağa yönəlmiş təlim metod və formalarının məcmusudur. Beləliklə, metod tələbələrin idrak fəaliyyətinin təşkili metodunu və xarakterini ehtiva edir. Şagirdlərin fəallığı biliklərin, formalaşmış bacarıq və vərdişlərin öyrənilməsi və tətbiqi prosesində onların intensiv fəaliyyəti və praktiki hazırlığıdır. Fəal təlim öyrənmə və bacarıqların şüurlu şərtləridir. İdrak fəaliyyəti – müstəqil düşünmək, tapşırığın (problemin) həllinə öz yanaşmasını tapmaq istəyi, özbaşına bilik əldə etmək istəyi; başqalarının mühakimələrinə və öz müstəqil mühakimələrinə tənqidi yanaşma inkişaf etdirin (Michels, N., Sioen, I., və başqaları. 2012). Bunun üçün lazımi şərait olmadıqda tələbə fəaliyyəti yox olur. Fəal təlim metodları şagirdlərin bu tədris-idrak fəaliyyətini təkmilləşdirməyin yollarıdır ki, bu da onları materialın mənimsənilməsi prosesində təkcə müəllimin deyil, həm də şagirdlərin fəal olduğu halda fəal intellektual və praktik fəaliyyətə aparır. Fəal təlim metodları ilk növbədə müəllimin fəal idrak fəaliyyəti prosesində hazır biliyi bəyan etməməyə yönəlmiş metodlar sistemindən istifadəni nəzərdə tutur. Beləliklə, aktiv təlim metodları təlim fəaliyyətidir (Bushina, K.S. 2012). Məsələn, Vygotsky, öyrənmənin fərdi inkişafa səbəb olduğunu söyləyən qanunu formalaşdırdı, çünki fəaliyyət zamanı inkişaf edir. Xüsusilə müəllimlərin istiqamətləndirdiyi fəal işdə şagirdlər öz peşə fəaliyyəti üçün lazımi bilik, bacarıq və bacarıqlara malik olur, yaradıcılıq bacarıqları inkişaf etdirilir. Fəal metodların əsasında həm tələbələr arasında dialoq ünsiyyəti durur. Dialoq prosesində ünsiyyət bacarıqları inkişaf etdirilir, problemləri kollektiv şəkildə həll etmək bacarığı, ən əsası isə şagirdlərin nitqi inkişaf etdirilir. Aktiv tədris metodları mühazirə dərslərində idrak fəaliyyətini artırmaqdan ibarətdir (Zholdasbekov A.A., Sikhynbayeva, Z.S. və başqaları. 2014).

Elmi-texniki tərəqqinin inkişafı ilə əldə etmək üçün tələb olunan informasiyanın həcmi artır. Quraşdırılır, məlumat tez köhnəlir və yeniləməyə ehtiyac duyur. Əsas diqqət materialın yaddaşda saxlanmasına və saxlanmasına yönəlmiş təlim müasir tələblərə qismən cavab verə

bilir. Deməli, şagirdin daim yenilənən informasiyanı mənimsəməsinə imkan verəcək düşüncə keyfiyyətlərinin formalaşması problemi, təhsili başa vurduqdan sonra da davam edən bu cür qabiliyyətlərin inkişafı insana sürətlənən elmi-texniki tərəqqi yetişməsi üçün məcbur edir. Buradan deyə bilərik ki, tələbələrə öyrənməyi, yəni müstəqil olaraq lazımi məlumatları tapıb mənimsəməyə, sınaq və səhv yolu ilə daha yaxşı mənimsənməyə öyrədə bilən yeni təlim metodlarına və yanaşmalarına ehtiyacımız var.

**Problemin aktuallığı.** Fəal öyrənmə interaktiv, praktiki öyrənmə təcrübələri vasitəsilə şagirdin fəallığını, tənqidi düşüncəsini və yadda saxlama qabiliyyətini artırır. Bu səbəbdən günümüzdə aktualdır.

**Problemin elmi yeniliyi.** Daha dərindən anlama, problem həll etmə bacarıqları və davamlı öyrənmə vərdişlərini inkişaf etdirir, tələbələri müasir dünyanın tələblərinə və innovasiyalara uyğunlaşma üçün hazır edir.

**Problemin praktiki əhəmiyyəti və tətbiqi.** Müəllimlər tələbə mərkəzli öyrənmə mühitlərini effektiv şəkildə təşviq etmək üçün qrup müzakirələri, problem həlli tapşırıqları və təcrübə fəaliyyətləri kimi fəal öyrənmə strategiyalarını effektiv istifadə edə bilər.

## Ədəbiyyat


1. Arieli, H. (2021). The Future of Education: How to Evolve Old Schools' to Exciting & Innovative Learning Hubs. eBookPro.
2. Stoll, L. (2020). Creating capacity for learning: Are we there yet? Journal of Educational Change, 21: pp.421-430.
3. Freemana,S., Eddya, S. L., McDonougha, M., Smith, M. K., Okoroafora, N., Jordta, H., Wenderotha, M. P. (2013). Active Learning Increases Student Performance in Science, Engineering, and Mathematics. Psychological and Cognitive Sciences, 111
4. Konopka, C. L., Adaime, M., B., Mosele, P. H. (2015). Active Teaching and Learning Methodologies: Some Considerations. Creative education, 6, 1536-1545
5. Juskeviciene, A. (2022). Applying Active Learning Methods in Education: Possibilities to Become a Modern Person. 1. pp. 135-138.
6. Alemdar, M., Aydemir, S., (2022). Eğitimde Modern ve Postmodern Paradigmalar. International Journal Of Eurasia Social Sciences. 13. 422-436. 10.35826/ijoess.3087
7. Department for Children, Schools andFamilies. (2010). Guide tothelawforschoolgovernors. Erişim adresi: https://assets.publishing.service.gov.uk/government/ uploads/system/uploads/attachment_data/file/340594/ DCSF-Accounts_2009-10.pdf 12.07.2021
8. Gutek, G.L. (2017). Eğitime felsefi ve ideolojik yaklaşımlar. N. Kale (Ed.). Philosophical and Ideological Perspectives on Education. Ankara: Ütopya Eğitim Dizisi.
9. Freeman, S., Eddy, S. L., McDonough, M., Smith, M.K., Okoroafor, N., Jordt, H., & Wenderoth, M.P. (2014). Active learning increases student performance in science, engineering, and mathematics. *Proceedings of the national academy of sciences*, *111*(23), 8410-8415.
10. Michels, N., Sioen, I., Huybrechts, I., Bammann, K., Vanaelst, B., De Vriendt, T., ... De Henauw, S. (2012). Negative life events, emotions and psychological difficulties as determinants of salivary cortisol in Belgian primary school children. Psychoneuroendocrinology, 37(9), 1506-1515.

11. Bushina, K.S. (2012). Modern approaches to creation of a training practical work for distance learning. In Scientific SWorld conference: Modern problems and ways of their decision in science, transport, production and education. Retrieved February 21, 2014, from www.sworld.com.ua.

12. Zholdasbekov, A.A., Sikhynbayeva, Z.S., Zholdasbekova, B.A., Lekerova, G.Z., & Orasov, S.B. (2014). Psychological and pedagogical bases of active teaching methods. *Life Science Journal*, *11*, pp. 150-154.

**Ш.Ф. Мустафаева**

**Образовательная среда в активном обучении**
**и ее возможности в современном педагогическом процессе**
**Резюме**

Среда активного обучения представляет собой динамичный сдвиг в современной педагогической практике, в котором особое внимание уделяется вовлечению учащихся, сотрудничеству и критическому мышлению. Этот процесс исследует возможности, присущие методологиям активного обучения в современном образовательном пространстве. Развивая интерактивный опыт, практические занятия и практические приложения, активное обучение позволяет учащимся активно формировать свои знания. Благодаря такому подходу преподаватели способствуют более глубокому пониманию и запоминанию, одновременно развивая ключевые навыки для постоянного совершенствования. Мы будем исследовать трансформационный потенциал парадигм активного обучения для повышения качества и эффективности педагогического процесса в современных образовательных условиях.

**SH.F. Mustafayeva**

**Educational environment in active learning and its**
**possibilities in modern pedagogical process**

**Summary**

An active learning environment represents a dynamic shift in modern pedagogical practices, emphasizing student engagement, collaboration, and critical thinking. This process explores the possibilities inherent in active learning methodologies within the modern educational landscape. By developing interactive experiences, hands-on activities, and real-world applications, active learning enables students to actively construct their knowledge. Through this approach, educators facilitate deeper understanding and retention while developing key skills for continuous improvement. We will explore the transformational potential of active learning paradigms to increase the quality and effectiveness of the pedagogical process in modern educational conditions.

**Redaksiyaya daxil olub: 15.03.2024**

*UOT 37.0*

# ŞAGDİRDLƏRİN TƏLİM MÜVƏFFƏQİYYƏTİNƏ TƏSİR EDƏN AMİLLƏR

**Nərmin Elçin qızı Baxışova**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCID:** 0009-0003-5191-8591
**E-mail:** nermin.baxisova1996@gmail.com

***Açar sözlər:*** *təlim müvəffəqiyyəti, psixoloji, sosial, intellekt, dərketmə.*
***Ключевые слова:*** *успех в обучении, психологический, социальный, интеллект, понимание.*
***Key words:*** *learning success, psychological, social, intelligence, understanding.*

Təlim müvəffəqiyyəti anlayışının özü olduqca genişdir və onun şərhində müəyyən çətinliklər yaranır. Bu konsepsiyanın tərifində O.A. Yaşnovanın fikrincə, müvəffəqiyyət əsasən istənilən vəziyyətdə düzgün mövqe və taktika seçmək bacarığı ilə müəyyən edilir [6]. Təlim fəaliyyətində müvəffəqiyyətli şagird qorxusunu, çətinliklərini, çaşqınlığını və nizamsızlığını dəf etməyi bacaran şəxsdir və ya əksinə, narahat, başqalarının normativ tələbləri və gözləntiləri ilə əzab çəkən əla şagird fikrimizcə, müvəffəqiyyətli şagird kimi təsnif edilə bilməz, çünki oxumaq ona sevinc və ya məmnunluq hissi gətirmir.

Deməli, təlim müvəffəqiyyəti obyektiv fəaliyyətdən və şagirdin özünün həmin nəticələrə subyektiv münasibətindən yaranan fəaliyyətin nəticələrinin keyfiyyətcə qiymətləndirilməsi kimi qəbul edilməlidir. Şübhəsiz ki, təlim müvəffəqiyyətinin tərkib hissələrindən biri akademik müvəffəqiyyətdir. Bu gün məktəblərdə aşağı səviyyədə nəticə göstərən şagirdlərlə işləyən müəllimlərə təcili yardım göstərilməsinə ehtiyac vardır. Lakin kömək akademik uğursuzluğun psixoloji amillərini bildiyimiz halda təsirli olacaqdır. L.A.Requşun fikrincə, psixologiyada akademik uğursuzluqdan danışarkən biz onun psixoloji səbəblərini nəzərdə tuturuq ki, bu da bir qayda olaraq, şagirdin özünün xüsusiyyətləri, qabiliyyətləri, motivləri, maraqları və s. ilə əlaqədardır

Təbii ki, təlim müvəffəqiyyətinə təsir edən əsas amillərdən biri motivasiyadır. Şagirdlərin motivasiya xüsusiyyətlərini nəzərə almadan onlarla səmərəli pedaqoji qarşılıqlı əlaqə yaratmaq mümkün deyil. Təhsil motivasiyası həmin fəaliyyətə xas olan bir sıra amillərlə müəyyən edilir: birincisi, təhsil sisteminin özü təlim fəaliyyətinin həyata keçirildiyi təhsil müəssisəsi tərəfindən müəyyən edilir; ikincisi, tədris prosesinin təşkili; üçüncüsü, şagirdin subyektiv xüsusiyyətləri (yaş, cins, intellektual inkişaf, qabiliyyətlər, istəklərin səviyyəsi, özünüqiymətləndirməsi, onun digər şagirdlərə münasibəti və s.); dördüncüsü, müəllimin subyektiv xüsusiyyətləri və hər şeydən əvvəl onun şagirdə, işinə münasibət sistemi; beşincisi, akademik fənnin spesifik xüsusiyyətləri.

Şagirdlərin məktəbdə müvəffəqiyyət qazanmasına bir çox amillər təsir edir. Bu amillərə aiddir: maddi vəziyyət, sağlamlıq vəziyyəti, yaş xüsusiyyətləri, ailə vəziyyəti, özünü təşkil etmək, planlaşdırma və öz fəaliyyətinə nəzarət etmək bacarıqlarına sahib olmaq, təlim forması (distant təhsil və s.), məktəbdə tədris prosesinin təşkili, məktəbin maddi ehtiyatları, müəllimlərin ixtisas səviyyəsi, şagirdlərin fərdi psixoloji xüsusiyyətləri. Bu amilləri iki qrupa bölmək olar: daxili (psixoloji) və xarici (sosial və pedaqoji).

Ola bilsin ki, hər bir konkret şagirdin psixoloji portretini öyrənmək müəllimə şagirdin tədris fənninə, bütövlükdə mənimsənilən fənnə marağını artırmağa kömək edəcəkdir. Nə üçün

bəzi şagirdlər bilik və peşə vərdişlərinə yiyələnmək üçün çox və həvəslə çalışırlar və yaranan çətinliklər onların enerjisini və məqsədinə çatmaq istəyini artırır? Digərləri isə hər şeyi sanki təzyiq altında edir, hətta kiçik maneələrin belə görünməsi kəskin şəkildə azalır. Belə fərqlər təlim fəaliyyətinin eyni xarici şərtləri (sosial-iqtisadi vəziyyət, tədris prosesinin təşkili və metodiki təminatı, müəllimin ixtisası və s.) şəraitində müşahidə oluna bilər.

Bu fenomeni izah edərkən psixoloqlar və müəllimlər daha çox şagirdlərin intellekt səviyyəsi (bilik, qabiliyyət, bacarıqları mənimsəmək və problemləri həll etmək üçün uğurla tətbiq etmək bacarığı) kimi fərdi – psixoloji xüsusiyyətlərinə, yaradıcılıq (yeni bilikləri müstəqil inkişaf etdirmək bacarığı); təhsil məqsədlərinə çatarkən güclü müsbət təcrübə təmin edən təlim motivasiyasına; yüksək özünəinam hissinə müraciət edirlər. Amma bu keyfiyyətlərin heç biri ayrı-ayrılıqda, hətta onların birləşməsi belə şagirddə zəhmətkeşliyə münasibətin formalaşmasına təminat vermək üçün kifayət etmir.

Hər bir müəllim özünün yüksək (bəzən qeyri-adekvat) özünüqiymətləndirmə və ilkin olaraq güclü təhsil motivasiyası olan çox bacarıqlı və yaradıcı şagirdin bu və ya digər təhsil fəaliyyətində ciddi çətinliklərlə üzləşdiyi zaman pedaqoji təcrübəsindən nümunələr verə bilər. Bunun üçün müxtəlif yanaşmalar mövcuddur. Məsələn, İ.İ. İlyasov amillərin koqnitiv və şəxsi alt qruplarını müəyyən etmişdir. Təlimin müvəffəqiyyətini şərtləndirən koqnitiv amillərin alt qrupuna: qavrayış, təfəkkür, dərketmə, təxəyyül, yaddaş, nitq, diqqət, idrakın intellektual üslubları daxildir. Şəxsi amillərin alt qrupuna motivasiya, iradi, emosional amillər və özünüdərk (özünüqiymətləndirmə) aid edilir. Çox şey qabiliyyətlərin bir şagirdin şəxsiyyət strukturunda, onun həyat dəyərləri sistemində hansı yeri tutmasından və digər şəxsi keyfiyyətlərin inkişafına necə təsir etməsindən asılıdır. Birincisi, qabiliyyətlərin strukturunda ümumi və sosial intellekt, xüsusi qabiliyyətlər, yaradıcılıq (yaratmaq qabiliyyəti) kimi müstəqil komponentləri vurğulamaq lazımdır.

Qətiyyətlə deyə bilərik ki, təlim müvəffəqiyyəti ilə yalnız xüsusi qabiliyyətlərə münasibətdə müsbət əlaqə var. Bunlara sensor qabiliyyətlər (dilçi üçün fonemik eşitmə, musiqiçi üçün səsli eşitmə, rəssam üçün rəng həssaslığı və s.); motor bacarıqları (idmançılar, rəqqaslar, sirk ifaçıları və s. Üçün hərəkətlərin elastikliyi və incə koordinasiyası); peşəkar qabiliyyətlər (texniki təfəkkür, məkan təfəkkürü, riyazi təfəkkür və s.) daxildir. Bir çox hallarda peşəkar əhəmiyyətli xüsusi qabiliyyətlərin inkişaf səviyyəsinin aşağı olması müvafiq profilli universitetlərdə uğurlu təhsili əlçatmaz edir. Əksinə, ümumtəhsil məktəblərində uğurlu təhsil əslində xüsusi peşəkar qabiliyyətlərin inkişafı prosesi ilə üst-üstə düşür.

İradi keyfiyyətlər. Özü-özlüyündə təlim müvəffəqiyyəti ilə fərdin iradi keyfiyyətləri arasında əlaqə faktı heç bir müəllim arasında şübhə doğurmur, lakin təhsil prosesi elə qurulmalıdır ki, şagird onun öhdəsindən gələ bilsin. Özünü mümkün qədər təhsil fəaliyyəti ilə məşğul olmağa məcbur etsin. Göründüyü kimi, şagirdin iradi keyfiyyətlərinə müraciət etmək zərurətini tamamilə istisna etmək mümkün deyil, lakin tədris prosesinin təşkilindəki bütün problem və nöqsanları şagirdlərin tənbəlliyində və iradəsizliyində günahlandırmaq da yolverilməzdir. Təlim motivi təlim fəaliyyətinin özündə və ya onun prosesinə mümkün qədər yaxın olmalıdır. Ən başlıcası, təlim prosesini şagird üçün mümkün qədər maraqlı etmək, ona məmnunluq və həzz verməkdir; şagirdə təhsil fəaliyyətində daxili və xarici maneələri dəf etməkdən məmnunluq duymağa imkan verəcək motiv və münasibətlərin formalaşmasına kömək etmək zəruridir. İ.L. Solomin qeyd edir ki, təlim fəaliyyətinin uğuru təkcə intellektin səviyyəsindən və strukturundan, şəxsiyyət xüsusiyyətlərinin ifadə dərəcəsindən deyil, həm də ehtiyacların məzmunundan asılıdır. İnsan neyrodinamikasının xüsusiyyətləri temperamentin fizio-

loji əsası kimi çıxış edir.

Sinir sisteminin və temperamentin xüsusiyyətləri genotipik xarakter daşıyır və həyat boyu praktiki olaraq dəyişmir. Bununla belə, istənilən temperamentə malik olan şagird təlim prosesində müvəffəqiyyətlərə qadirdir, lakin bu nailiyyətlər müxtəlif yollarla əldə edilir. Aydındır ki, müxtəlif temperament tiplərinə malik şagirdlər üçün bəzi şərtlər təlim müvəffəqiyyəti üçün daha əlverişli, digərləri isə əlverişsizdir. Müasir məktəblərdə təlimin təşkilati formaları güclü və çevik sinir sistemi olan şagirdlər üçün daha əlverişlidir. Buna görə də, belə şəxslər arasında zəif və inert sinir sistemi olanlardan daha çox yaxşı oxuyanlar var. Sonuncular öz temperamentinə uyğun olmayan fəaliyyət tələblərinə uyğunlaşmaq üçün kompensasiya üsullarını inkişaf etdirməlidirlər.

Sinir sistemi zəif olan şagirdlər üçün aşağıdakı çətinliklər müəyyən edilir:

- Uzun, ağır iş, məsuliyyətli, əsəb-psixi və ya emosional gərginlik (məsələn, müstəqil, test və ya imtahan işi);
- Dinamik dəyişən şifahi interaktiv qarşılıqlı əlaqə şəraitində işləmək (məsələn, müəllim gözlənilməz sual verirsə və ona şifahi cavab tələb edirsə, yazılı cavabın vəziyyətinin şagird üçün daha az stressli və daha əlverişli olmasına baxmayaraq);
- Müəllim tərəfindən mənfi qiymətləndirilən uğursuz cavabın nəticələrini düzəltmək üçün çalışmaq;
- əsas fəaliyyətdən daim diqqəti yayındırmağı tələb edən vəziyyətdə işləmək;

İnert sinir prosesləri olan kiçik yaşlı məktəblilərin müsbət tərəfləri:

- sualların yüksək tempi və dərhal cavab tələb edilməsi;
- gözlənilməz sual və şifahi cavab tələbi;
- qiymətləndirilən uğursuz cavabdan sonra işləmək;
- diqqətin yayındırılmasını tələb edən situasiyada işləmək (müəllimin iradlarına, digər şagirdlərin cavabına və ya sualına münasibət);
- diqqətin bölüşdürülməsini və onun dəyişdirilməsini tələb edən şəraitdə işləmək (eyni zamanda qeydlər aparmaq, dərsliyə əməl etmək və s.);

Zəif sinir sistemi olan şagirdlər üçün əlverişli şərait yaratmaq üçün tövsiyə olunur:

- düşünmək və cavab hazırlamaq üçün vaxt verin, gözlənilməz suallar verməyin;
- dərsin əvvəlində sorğu;
- yazılı cavab vermək;

Minimum diqqəti yayındıran sakit mühit yaradın. İnert sinir prosesləri olan məktəblilərin müsbət cəhətləri:

- diqqəti yayındırmadan uzun müddət işləməyi bacarmaq;
- monoton fəaliyyətləri yaxşı yerinə yetirmək;

İnert sinir prosesləri olan şagirdlər üçün xüsusi çətinliklərin yarandığı vəziyyətlər:

- məktəb cədvəlində dəyişikliklər;
- bir dərsi digəri ilə əvəz etmək;
- məzmununa və həlli üsullarına görə müxtəlif olan tapşırıqları yerinə yetirərkən;
- dərsin yüksək tempi;

**Problemin aktuallığı.** Adaptasiya mərhələsində uşaqlarda qorxu və narahatlıq hissi təzahür edir. Bu cür davranış adaptasiyada və materialları mənimsəməkdə çətinlik göstərə bilir.

**Problemin elmi yeniliyi.** Şagirdlərdə təlim müvəffəqiyyətinin məktəbə adaptasiya ilə statistik əlaqəsi eksperimental şəkildə təsdiq edilmişdir. Şagird məktəbə nə qədər tez adaptasiya

olarsa, təlim fəaliyyəti də bir o qədər uğurlu olacaqdır.

**Problemin praktiki əhəmiyyəti və tətbiqi.** Bu araşdırmaya əsasən, ibtidai siniflərdə şagirdlərin adaptasiya səviyyəsinin yüksəldilməsi məqsədilə ümumtəhsil məktəblərində müəllim və psixoloqlar üçün praktiki tövsiyələr hazırlamaq mümkündür.

**Ədəbiyyat**

1. Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Pedaqoji psixologiya. Bakı: ADPU-nun nəşri, 2010, 600 s.
2. Əliyev B.H., Əliyeva K. R., Cabbarov R.V. Pedaqoji psixologiya. Bakı: Təhsil, 2011. - 256 s.
3. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəblisinin psixoloji problemləri. Bakı, 2014. 490 s.
4. Əmrahlı L.Ş., Rzayeva N.T. Uşaq psixologiyası. Bakı, 2010, 280 s.
5. Həmzəyev M. Ə.Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı: "TS", 2006, 169 s.
6. Яшнова, О.А. Социально-педагогические факторы успешности обучения и воспитания младших школьников: Дис. … канд. пед. наук М., 2002, 179 с.
7. Регуш, Л.А. Учить, учиться! О проблеме школьной неуспеваемости // Психологическая газета, 1999, № 9, с.8–10.

**Н.Е. Бахишова**

**Факторы, влияющие на успех обучения учащихся**
**Резюме**

Само понятие тренировочного успеха достаточно широкое, и при его интерпретации возникают определенные трудности. В определении этого понятия, по мнению О.А. Яшновой, успех главным образом определяется умением выбрать правильную позицию и тактику в критических ситуациях [6]. В учебной деятельности успешный ученик – это тот, кто способен преодолеть свои страхи, трудности, растерянность и неорганизованность, или, наоборот, отличник, тревожный, терзаемый нормативными требованиями и ожиданиями других, не может быть отнесен к успешным. Студента, на наш взгляд, потому что чтение не приносит ему ни радости, ни удовлетворения.

**N.E. Bakhishova**

**Factors affecting students' learning success**
**Summary**

The concept of training success itself is quite broad, and certain difficulties arise in its interpretation. In the definition of this concept, according to O.A. Yashnova, success is mainly determined by the ability to choose the right position and tactics in critical situations [6]. In learning activities, a successful student is one who is able to overcome his fears, difficulties, confusion and disorganization, or, conversely, an excellent student who is anxious, tormented by the normative demands and expectations of others, cannot be classified as a successful student, in our opinion, because reading does not bring him joy or satisfaction.

**Redaksiyaya daxil olub: 27.03.2024**

***TƏRBİYƏ TEXNOLOGİYALARI***
***ВОСПИТАТЕЛЬНЫЕ ТЕХНОЛОГИИ***
***UPBRİNGİNG TECHNOLOGIES***

*UOT 371*

# HEYDƏR ƏLİYEV GƏNC NƏSLİN MƏNƏVİ TƏRBİYƏSİ HAQQINDA

**Türkanə Natiq qızı Yusubova**
*Mingəçevir Dövlət Universitetinin magistrantı*
**ORCİD:** 0009-0008-9502-0413
**E-mail:** turkane20192001@gmail.com

***Açar sözlər:*** *şəxsiyyət, gənc, milli mənlik şüuru, milli özünüdərk, xalq, milli mədəniyyət milli təfəkkür.*
***Ключевые слова:*** *личность, молодежь, национальное самосознание, национальное самопознание, народ, национальная культура, национальное мышление.*
***Key words:*** *personality, youth, national self-consciousness, people, national culture, national thinking*

Bəşər tarixində unikal təfəkkür sahibi insanların həm şəxsi ömür yolu, həm də yaradıcı keyfiyyətləri özündə birləşdirən, məhsuldar fəaliyyət təcrübəsi həmişə gənc nəslə örnək olmuş, onların yaxşı insani keyfiyyətlərlə püxtələşməsinə rəvac vermişdir. İnsan övladı yeni nəsil üçün zəngin əməli fəaliyyət sferasını həmişə diqqət mərkəzində saxlamış, bu istiqamətdə qabaqcıl texnologiyaya və rasional düşüncəyə zəmin yaratmaqla həmin keyfiyyətlər əsasında şəxsiyyət hazırlığını təkmilləşdirməyə imkan verən mənəvi dəyərlər sistemini bütün zaman kəsiyi üçün inkişafetdirici məqam hesab edərək, bu yolda məqsədyönlü təkamül prosesindən keçmişdir.

Ümumxalq və ümumdövlət səviyyəsində öz xalqının doğma milli-mənəvi dəyərlərini göz bəbəyi kimi qoruyub, bu sahədə öz nəzəri-pedaqoji konsepsiyasını daim uca tutmuşdur. Onun xalq ruhundan güc alan iti ağlı, zəka mədəniyyəti, fenomenal yaddaşı daim dil əzbəri olmuş, böyüyən nəsil üçün qiymətli irs kimi dəyərləndirilmişdir. Xalqın milli mənlik şüuruna – milli iftixar, milli ləyaqət, milli özünüdərk, milli yaddaş qayəsi kimi diqqət yetirən Ümummilli Lider Heydər Əliyev yaradıcı ömrünün bütün mərhələlərində milli qaynaqlara mehr-məhəbbət hissini uca tutmuş bu yolda ciddi araşdırmalar apararaq yeni-yeni prioritet istiqamətlər müəyyənləşdirmişdir.

Onun bu yönümdə olan çağırışları nəinki öz vətənində, hətta dünya birliyində, ayrı-ayrı ölkələrin tanınmış siyasətçiləri, elm və mədəniyyət xadimləri, yazıçılar və şairlər, Azərbaycan diasporunun üzvləri, media nümayəndələri tərəfindən də dəstəklənmiş, öz həqiqi, qanunauyğun qiymətini almışdır.

Heydər Əliyevin xalq mənəviyyatına, dini-mənəvi dəyərlərə bağlılıq fəaliyyətini səciyyələndirən baxışları məktəb və müəllim təcrübəsi üçün təhsilləndirici mənbədir. Onun xalq təsəvvürünə, milli mənəviyyata, böyük ədəb-ərkan dünyasına səyahət hissini bildirən elmi konseptual baxışları xüsusən pedaqoji elm və proses təcrübəsi üçün çox dəyərli təsiri olan ibrətamiz müddəalardan tapmışdır.

Gənc nəsli mənəvi-psixoloji mühit şəraitində, yaxşı insan olmaq məramı ilə böyütməkdə mənbəyini ailə, məktəb və ictimaiyyət birliyindən; məzmununu milli, ümumbəşəri və dini mənəvi dəyərlər sistemindən, metodologiyasını isə insan, təbiət, cəmiyyət vəhdətindən əxz etməyin milli-didaktik konsepsiyasını verən müdrik öndər bu hadisələrin kökündə xalq, millət

olaylarına bələd olmağın, milli-mənəvi dəyərlər sistemini göz bəbəyi kimi qorumağın vacibliyini yeni, müasir baxışlarla ümumiləşdirən ideyalar carçısı kimi daim diqqətdə saxlamışdır. O bu yolda birmənalı olaraq mətin, iradi səy göstərib, bu mənbələrin araşdırılaraq müzakirə mövzusu olmağını dəfələrlə öz yaradıcı mövqeyində sübut etmiş, məruzə və nitqlərində həmin ideyalar əsaslı dəlillərlə hasilə gətirmişdir.

Bu imkanlardan ardıcıl, mütənasib şəkildə faydalanmağın tərbiyələndirici mahiyyətini də ulu öndər etiqad və inam baxımından dəyərləndirmək milli-mənəvi dəyərlər probleminin araşdırılması istiqamətində iş aparmağın sosial-mədəni həyat və cəmiyyət üçün, həm də ümumxalq və ümumdövlət səviyyəli bir ideya, sosial birlik ünsürü əsil həyat keyfiyyətləri kimi canlandırmışdır.

Ulu Öndərin sosial-fəlsəfi, idraki-pedaqoji düşüncələrində milli-mənəvi dəyərlər sistemi-ideoloji mənbə kimi maarifləndirici məzmun mahiyyəti daşıyan kompleks tədbirlər təşkili üçün də həmişə aktual bir məsələ kimi irəli sürülmüşdür. O bu məsələləri müasir tələblərə cavab verən səviyyədə, elmi-nəzəri konsepsiyadan, təhsilləndirici xarakterdən, inkişafetdirici istiqamətdən araşdırılmasının lüzumluluğunun digər ölkə xalqları üçün də çox dəyərli anlatma mənbəyi xatırlayaraq yazırdı: "Hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək gənc nəsli daha da sağlam əhval-ruhiyyədə, saf əxlaqi əhval-ruhiyyədə tərbiyələndirməliyik". [3, s. 3]

Müdrik öndərin bu tövsiyələrindən güc alan hər bir Vətən övladının əzəli məqsədi məhz, yeni ruhda azərbaycançılığı, türkçülüyü, islami dəyərlərə bələdçiliyi formalaşdıran ideya-əxlaqi fəzilətlərə sahib çıxmağın metodoloji əsası, didaktik performansı kimi qəbul etmək olar.

Çünki, müasir məktəbin vacib problemlərindən biri tarixi-pedaqoji irsin gənc nəslə öyrədilməsi ilə bağlıdır. Tarixi-milli dəyərlərin elmi əsaslarla öyrətməyin imkanlarını əhatə edən və yeni pedaqoji-metodik prinsiplər üzrə mənimsətməyi nəzərdə tutan orijinal üsul və vasitələrdən faydalanmağın zəruriliyi indi həmişəkindən daha vacibdir. Bu işdə şübhəsiz, ta qədim zamanlardan boy almış, xalq təfəkküründən, şifahi və yazılı sənət abidələrindən süzülüb yaradılmış, təcrübələr sınağından çıxmış, milli-mənəvi dəyərlər sisteminin Heydər Əliyev irsindəki təhlil nümunələrinin məzmununu, mahiyyətini təbliğ edən pedaqoji-metodik yönümlü məsələləri müfəssəl şəkildə araşdırmaq, onların iş prinsiplərini üzə çıxarmaq, yaxşı və faydalı nə varsa, müasir təcrübədə onlara əsaslanmaq lazımdır.

Xalqın milli ruhuna bağlı bu dahi şəxsiyyətin tarixi-elmi, fəlsəfi-sosioloji, bədii-estetik, hüquqi-siyasi baxış və qayələrində bu problem ümdə yerdə durmuş, onun qayə və məqsədlərinin əsasını təşkil etmişdir.

Dövlətçiliyimizə, milli ihtişarımıza, azadlıq təşnəmizə, müstəqilliyimizə - milli vəzifələrimiz kimi baxan Heydər Əliyev bu sahədə əməli addımlar atmağın parlaq təcəssüm sahibi, ideya daşıyıcısı idi. Müstəqil Azərbaycanımızın xalq ehtişamına söykənən milli atributlarına – müstəqillik rəmzi olan üçrəngli milli bayrağımıza, gerbimizə, himnimizə hörmət bəsləməyi, onları daim əziz tutmağı, onların uğrunda hər şeyə hazır olmağı hər bir Vətən övladının sənət və ləyaqət simvolu, milli vəsifəsi hesab etməyi təlqin yaradıcı kredosu milli təhsil və tərbiyəmizin ideya, məslək mənbəyi idi.

Böyüyən nəslin milli-mənəvi fəzilətlərə yiyələnmək hissinin inkişafını daim diqqətdə saxlayan Ümummilli Lider Heydər Əliyev dönə-dönə xatırlatmışdır ki, doğma dilimizi bilmək, öyrənmək, sevmək, daim onun saflığını qorumaq, onun Dövlət dili səviyyəsində tətbiqi və in-

kişafına nail olmaq, cəmiyyətdə yayım arealını genişləndirmək, ümumxalq və ümumdövlət mənafeyindən dəyərləndirmək lazımdır. Ulu Öndər Heydər Əliyev bununla bağlı öz müdrik tövsiyələrini belə əsaslandırır: "Şəxsən arzum ondan ibarətdir ki, hər bir azərbaycanlı çox dil bilsin. Ancaq birinci növbədə öz ana dilini – dövlət dilini yaxşı bilsin. Bizim çox gözəl, zəngin, cazibədar dilimiz var. Bəlkə də biz bu dildə danışmağımıza görə öz dilimizin zənginliyini öz gözəlliyini hələ tam dərk edə bilməmişik. Ancaq bilin ki, bu həqiqətdir. Ona görə də bunu heç bir şeyə dəyişmək olmaz. Gənclərimiz nə qədər çox dil bilsələr, bir o qədər zəngin dünyagörüşünə malik olacaqlar. Amma ən əsası ondan ibarətdir ki, hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini – Azərbaycan dilini, dövlət dilini mükəmməl bilməlidir.

Başqa dilləri öyrənərkən öz dilimizi heç vaxt unutmayın və öz dilimizi heç vaxt başqa dilə dəyişməyin. Xalqın, millətin, insanın öz ana dilindən əziz heç bir şey ola bilməz". [2]

Bu gün gənc nəslə etik-mənəvi dəyərlərin ən bariz nümunələrini çatdırmaq olduqca nəcib və şərəfli iş olmalıdır.

Xüsusən Heydər Əliyevin ədalət, şərəf, ləyaqətin gözlənilməsi, xeyirxahlıq, sadəlik, təvazökarlığın tətbiqi, lovğalıq, təkəbbürlülük və şər qüvvələrə qarşı mübarizə, yoldaşlıq və dostluq, insan mənəviyyatını pardaqlayan öyüd və nəsihətlər müasir və gələcək milli pedaqoji fikir tariximizin silinməz salnaməsidir. Öz dəyərli mükamilələrində bu cür həssas, xeyirxah olmağın ictimai məzmununu əsil təəssübkeş vətəndaş qeyrəti ilə nizamlayan Heydər Əliyev bu məsələdə də gənclər üçün mütərəqqi ola biləcək tövsiyələr vermiş, bu günün ictimai siqlətinə tuş edən ideyalar aşkarlayaraq yazmışdır.

"Biz öz milli-mənəvi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik". [1,7]

Böyük mütəfəkkir, görkəmli tarixi sima olan Heydər Əliyevin ideya-mənəvi iradəsində təkamül tapan əsil insan və vətəndaşın zəruri keyfiyyətlərinin başlıca istiqamətlərini, tarixi-mədəni gerçəklərini öyrənmək və ondan müasir təlim-tərbiyə təcrübəsində istifadə olunması meyarlarını müəyyənləşdirmək, bu qiymətli mütərəqqi dəyərlərdən faydalanmağın müvafiq sistemini yaratmaq indi ən ümdə strategiya olmalıdır.

Ümumtəhsil məktəblərinin, cəmiyyətin, dövlətin qarşısında duran ən vacib və önəmli məsələlərdən biri də gənc nəslin mənəvi tərbiyəsi məsələsidir. Yaşından asılı olmayaraq insanların mənən zəngin olması, mənəviyyatlı olmaq səyləri, insanlar arasında münasibətlərdə mənəvi hisslər, həmçinin xeyirxahlıq, ürəyiaçıqlıq, səbrlilik, təmizlik, saflıq, nəzakətlilik, ləyaqətlilik, kollektivdə, ailədə, cəmiyyətdə özünü düzgün aparmaq bacarığı və s. bu kimi mənəvi keyfiyyətlər hər zaman cəmiyyət tərəfindən yüksək qiymətləndirilmişdir. Bu gözlənilən və digər çoxlu keyfiyyətlər mənəvi məzmununa daxildir və onlar xüsusi tərbiyəvi təsirlər tələb edir.

İnsanın mənəvi dəyərləri əsrlər boyu işlənib hazırlanmış, bizim dövrümüzə qədər gəlib çatmışdır. Bu mənəvi dəyərləri insanlığın həyat fəaliyyətinin müxtəlif dövrlərində təzahür etmiş dini təlimlər, müdriklərin mənəvi axtarışları, xalqın, etnosun adət-ənənələri əsasında formalaşmış sosial davranış qaydalarıdır. Bu təsadüf deyildir ki, insanın düşüncə vasitələri və həyat fəaliyyətinin əsasında duran dəyərlər mənəvi nöqteyi-nəzərindən, həyat simvolu kimidir, necə deyərlər nəsli mühafizə işinə xidmət etmişdir.

Mənəviyyat insanın olduğu kimi görünməsi, göründüyü kimi olmasıdır. Mövlana Cəlaləddin Rumi də demişdir: "Ya göründüyün kimi ol, ya da olduğun kimi görün". Mənəviyyat insa-

nın daxili aləminin zənginliyinin göstəricisidir. Mənəvi cəhətdən zəngin insanın sağlamlığı da mükəmməl olur. Mənəvi cəhətdən zəngin insan həyatdan zövq alır və rahat yaşayır. O, hər cür çətinliyə dözə bilir, ən çətin anlarda belə düzgün qərarlar çıxara bilir.

Milli-mənəvi dəyərlərimiz yaşlı nəsil tərəfindən gənc nəslə aşılanmalı, onlar milli-mənəvi dəyərlərə hörməti, dilimizi, tariximizi, mədəniyyətimizi, adət və ənənələrimizi bilməli, xeyirxahlıq, mərhəmət, qayğıkeşlik, insanlara hörmət və sevgi, vətənə məhəbbət kimi mənəvi keyfiyyətlərə yiyələnməlidirlər. Ulu Öndərimiz Heydər Əliyev gənclərin mənəvi tərbiyəsi haqqında, mənəviyyat haqqında Azərbaycan Gənclərinin Birinci Ümumrespublika Forumundakı nitqində demişdir ki, "Gənclərimizin qarşısında duran ən əsas vəzifələrdən biri mənəvi tərbiyə məsələsidir. Mənəvi tərbiyəni daim aparmaq və gənclərimizi yüksək mənəviyyat ruhunda tərbiyələndirmək lazımdır".

Ümummilli lider daim qeyd edirdi ki, dövlətçilik və milli ideologiyamızın gələcək təminatı gənclərin bugünkü və gələcək mənəviyyatına bağlıdır.

**Problemin aktuallığı.** Məqalə müstəqillik yoluna qədəm qoymuş respublikamızın yetişməkdə olan gənc nəslimizdə Ulu Öndərimiz Heydər Əliyevə sonsuz məhəbbət aşılamaq, onlarda milli-mənəvi dəyərlərimizin qorunması, milli şüur, mənlik şüuru, milli hisslər və milli xarakterin formalaşması baxımından aktuallıq kəsb edir. Bu baxımdan milli-mənəvi dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması bu gün daha çox aktualdır.

**Problemin elmi yeniliyi.** Məqalə Ulu Öndərimizin irsinə müraciət edən gənclərimizin dahi şəxsiyyətin mənəvi dəyərlərə bağlılıq fəaliyyətini səciyyələndirən baxışları məktəb və müəllim təcrübəsi üçün təhsilləndirici mənbədir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Böyüyən nəslin milli-mənəvi fəzilətlərə yiyələnmək hissini daha da inkişaf etdirilməsi, qorunması və bu qiymətli mütərəqqi dəyərlərdən zaman-zaman faydalanmaq baxımından məqalə mühüm praktik əhəmiyyətə malikdir.

## Ədəbiyyat


1. Abbasov A.N. Milli əxlaq və ailə etikası. Bakı: Mütərcim, 2016.
2. "Azərbaycan müəllimi" qəz., 1996, 6 fevral
3. Bəşirov V.P. Azərbaycan maarifpərvərlərinin mütərəqqi pedaqoji ideyalarının inkişafı (1870-1920-ci illər). Bakı: Oka-Ofset, 2008.
4. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. V cild. Bakı, 1998.
5. Heydər Əliyev, 1994-cü il avqustun 31-də Bakı şəhərinin təhsil işçiləri ilə görüşündəki nitqi. Müstəqilliyimiz əbədidir. İkinci kitab. Bakı: Azərnəşr, 1997.
6. Heydər Əliyev. 1978-ci il may ayının 18-də keçirilən Azərbaycan müəllimlərinin VI qurultayındakı nitqi. Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 2002.
7. Heydər Əliyev. 1999-cu il avqustun 31-də respublika təhsil işçiləri və ali məktəblərə daxil olmuş tələbələrlə görüşdəki nitqi. Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 2002.

**Т.Н. Юсубова**

**Гейдар Алиев о духовном воспитании молодого поколения**
**Резюме**

Статья посвящена защите национальных традиций, воспитанию национальных и духовных ценностей, национального самосознания, национальных чувств и национального характера среди социально-психологических и социально-педагогических проблем нашей республики, вступившей на путь независимости и в период быстрой интеграции в европейский страны. На сегодняшний день такие вопросы занимают главное место своей актуальностью.

**T.N. Yusubova**

**Heydar Aliyev on spiritual education of the young generation**
**Summary**

The article focuses on the protection of national traditions, inculcation of national and spiritual values, national consciousness, self-consciousness, national feelings and national character among the socio-psychological and socio-pedagogical problems of our republic, which has entered the path of indepedence at a time of rapid integration into European countries. Such issues take a main place with its urgency. In this regard, the protection of our national values and their transmission to future generations is even more important today. Because our national values reflect the identity of the Azerbaijani people.

**Redaksiyaya daxil olub: 16.01.2024**

*UOT 37.*

# HEYDƏR ƏLİYEV İRSİNDƏ TƏHSİL MƏSƏLƏLƏRİ

**Ayşən Təvəkkül qızı Salahova**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCİD:** 0009-0003-1122-0869
**E-mail:** aysensalah@icloud.com

***Açar sözlər:*** *Ümummilli Lider, Heydər Əliyev irsində təhsil, təhsilin inkişafı, Azərbaycan təhsili.*
***Ключевые слова:*** *Общенациональный Лидер, образование в наследии Гейдара Алиева, развитие образования, азербайджанское образование.*
***Key words:*** *National Leader, education in the legacy of Heydar Aliyev, development of education, Azerbaijani education.*

Heydər Əliyev dünya tarixinə silinməz və parlaq iz qoymuş böyük bir şəxsiyyətdir. Ümummilli lider Heydər Əliyev möhtəşəm fəaliyyətində təhsil məsələlərinə xüsusi yer vermişdir. Onun aşağıdakı fikirləri son dərəcə qiymətlidir: "Hər bir Azərbaycan gənci birinci növbədə öz dilini, ana dilini bilməlidir. Çünki bu dil anasının dilidir. Bu ölkənin dövlət dilidir və gənclərimiz bu dildə təhsil alsın, bu dildə yazsın, bu dildə oxusun. Dil hər bir millətin milli əsasıdır." (2, s. 83 s.).

XX əsrdə Azərbaycanın böyük nailiyyətləri içərisində təhsil, elm və mədəniyyət sahəsində əsl sıçrayış dövrü olduğu danılmaz həqiqətdir. Bu da bir tarixi həqiqətdir ki, bu gün milli təhsilimizin, elmimizin, mədəniyyətimizin inkişafında Azərbaycana rəhbərlik missiyasını əsrin üçdə biri müddətində uğurla yeni minilliyə daşıyan cənab Heydər Əliyevin müstəsna xidmətləri vardır.

"Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanlarını istifadə etməlidir" (1, s. 10 s). Dünya sivilizasiyasının tarixi təcrübəsi göstərir ki, elmə, təhsilə, mədəniyyətə yüksək qiymət verən dövlətlər nəinki öz ölkələrinin iqtisadi və mədəni yüksəlişini, həm də dünya mədəniyyətinə töhfə vermiş olur. Heydər Əliyev Azərbaycan təhsilinin inkişafı tarixindən danışarkən onun Azərbaycan müəllimlərinin on birinci qurultayında dediyi belə bir fikri əsas tutmalıyıq, xalqımızın maariflənməsi, təhsillənməsi üçün o dövr çox əhəmiyyətli bir dövr olmuşdur. Biz bunu qiymətləndirməliyik, heç vaxt unutmamalıyıq. Biz tariximizə doğru qiymət verməliyik. Keçən əsrin 70-ci illərindən etibarən 30 ildən artıq bir müddətdə Azərbaycanda elm, təhsil, mədəniyyətin və iqtisadiyyatın dinamik inkişafı ilə yanaşı dövlətimizin müstəqilliyinin möhkəmləndirilməsi H. Əliyevin adı ilə bağlıdır. Aparılan çoxsaylı araşdırmalar göstərir ki, ulu öndər nitq və çıxışlarında, eyni zamanda pedaqoji ictimaiyyətdə görüşlərində təhsilin bütün pillələrini əhatə edən, hamını düşündürən məsələlərə toxunmuşdur. Onu da qeyd etmək lazımdır ki, H. Əliyevin atalıq qayğısı nəticəsində dünyanın inkişaf etmiş 40-a yaxın ölkəsindən 3000-dən artıq azərbaycanlı gənci 160-a qədər ixtisas üzrə təhsil alır.

Heydər Əliyevi rəhbərliyi altında 1969-1982-ci illərdə Azərbaycanda 1155 kitabxana, 44 muzey, 1316 klub, 849 ümumtəhsil məktəbi tikilib istifadəyə verilmişdir. Bundan əlavə 15 mindən çox azərbaycanlı tələbə SSRİ-nin qabaqcıl ali məktəblərində təhsil almağa göndərilmişdir. H. Əliyev 80-ci illərin sonlarına doğru haqsız hücumlara məruz qalmışdır. Buna bax-

mayaraq əvəzində Azərbaycan xalqı nə qazanmışdır? Beş məktəb yaradılmışdır. Eyni zamanda ali məktəblərin sayı 12-dən 17-yə çatdırılmışdır. Azərbaycan gənclərinin birinci forumu 1996-cı il fevralın 2-də keçirilmişdir. Bu forumda Heydər Əliyev iştirak etmiş və 1997-ci il forumun keçirildiyi günü "Azərbaycan, gənclər günü" adlandırmış və sərəncam vermişdir. Fevral ayının ikisi "Azərbaycan gənclər günü" kimi qeyd olunur. Heydər Əliyev qeyd edir ki, insan təhsilinin əsasını orta məktəbdə alır. Bütün təhsil sistemində orta məktəb xüsusi yer tutmalıdır və ulu öndər bu təhsil haqqında deyib "Təhsil millətin gələcəyidir". 1979-cu ildə orta ümumtəhsil məktəblərinin şəbəkəsi 1965-ci illə müqayisədə 3 dəfə çox artaraq 765-dən 2117-yə yüksəlmişdir. Bundan əlavə bu illərdə 1145 ibtidai məktəb orta məktəbə çevrilmişdir. İnternat məktəblərinin də şəbəkəsi genişləndirilərək 1979-cu ildə sayı 22-yə çatdırılmışdır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin memarı olduğu yeni müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ilə 11 illik ümumi icbari təhsilə keçildi. Azərbaycan vətəndaşlarının pulsuz ümumi orta təhsilinə dövlət təminatı verildi. Heydər Əliyev təhsilin məzmunca milli müstəqilliyimizin prinsiplərinə uyğunlaşdırılmasında humanitar fənlər, xüsusən tarix, dil və ədəbiyyatın tədrisinin üstün tuturdu. O deyirdi: "Milli ideologiyamızı hər yerdə tətbiq etmək üçün məktəblərdə Azərbaycan xalqının tarixinin tədrisinə çox ciddi fikir vermək lazımdır. Gənclərimiz öz tarixini, öz tarixi keçmişini gərək yaxşı bilsin".

Heydər Əliyevin təhsilin inkişafı sahəsində xidmətlərini 3 mərhələyə bölmək olar.

1. Kadr hazırlığı
2. Təhsilin inkişafı
3. Təhsilin maddi texniki bazasının inkişaf etdirilməsi

Dünya azərbaycanlıların Qurultayındakı mərasimdə çıxış edən Ulu Öndər H. Əliyev azərbaycanlıların qarşısında məqsədlər barəsində fikirlərində qeyd edir ki, "Xalqı milli-mənəvi ənənələr qədər, dəyərlər qədər, dil qədər birləşdirən başqa bir vasitə yoxdur. Daim bu vasitələrdən istifadə etməliyik.... Azərbaycanlıları birləşdirən tarixi köklərimizdir, milli mənsubiyyətimizdir, milli-mənəvi dəyərlərimizdir, şerlərimizdir." Ümummilli Liderin rəhbərliyi ilə 1995-ci ildə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası yaradıldı. Burada konkret təhsil siyasəti formalaşdırıldı, yeniləşdirildi və təkmilləşdirildi. Bundan əlavə 1998-ci ildə "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" hazırlandı. Ölkə prezidenti 1999-cu ildə 15 iyun Proqramı imzaladı. Ulu Öndər H. Əliyev təhsil sahəsində aparılan islahatlar haqqında bu sözləri deyirdi: "Azərbaycan təhsil sistemində islahatların məqsədi ondan ibarətdir ki, bizim təhsil sistemimiz müvafiq standartlarına uyğunaşdırılsın." 2005-ci ildən etibarən Azərbaycan təhsil sistemi Avropa təhsil sisteminə, yəni Balonya prosesinə qoşulmuşdur. Balonya İtaliya dövlətinin şəhəridir. 1998 və 1999-cu illərdə Avropa ölkələri Balonya qətnaməsini təsdiq etmişlər. Buraya aşağıdakılar aid edilirdi:

1. Ali təhsildə kredit sistemini tətbiqi
2. Diplomlarının tanınması
3. İkipilləli təhsil sisteminə keçid və s.

Heydər Əliyev təhsildə milli-mənəvi dəyərlərin nəzərə alanımasını tələb edirdi. Bunun üçün təhsildə Azərbaycan xalqının qədim keçmişini, tarixini milli-mənəvi dəyərlərini əks etdirən mədəni irs nümunələrinin tədris və təbliğini ön plana çəkirdi. Heydər Əliyev "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubiley tədbirində demişdir. "Azərbaycan xalqının bizim eranın iki min ili ərzində keçib gəldiyi yol yenilməz, zəngin bir qəhrəmanlıq tarixidir." (1, s. 16-17 s.).

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə fəaliyyətinin bütün tərəflərini işıqlandırmaq üçün cildlərlə kitab yazılsa da, azlıq təşkil edir.

**Problemin aktuallığı.** Ulu Öndər Heydər Əliyev irsi bu gün ki təhsil sisteminin əsasını qoymuşdur. Heydər Əliyevin təhsil sistemində atdığı addımların əsas məqsədi hər şeydən əvvəl Azərbaycanın müstəqil respublika kimi inkişafı və beynəlxalq arenada özünə yer tutması idi

**Problemin elmi yeniliyi.** Problemin elmi yeniliyi Məqalədə Heydər Əliyevin təhsil sahəsində atdığı uğurlu və strateji addımlar öz əksini tapmışdır. Təhsil sahəsində qazanılmış uğurlar detallı araşdırılmalı və hazırki təhsil sistemi ilə uzlaşdırılmalıdır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqat təcrübi əhəmiyyət daşıyır.

### Ədəbiyyat

1. Heydər Əliyev Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 2002, 580 s.
2. Abbas Səmədov ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycanda təhsilə və təhsil xidmətlərinə qayğı. Gəncə, 2010.
3. Təhsil. Bilik. Məktəb. Bakı: Müəllim, 2006. -386 s.
4. İnternational Science Group. Madrid Spain February 28-march 03.2023.

**А.Т. Салахова**

### Вопросы образование в наследии Гайдера Алиева
### Резюме

Знакомство с деятельностью нашего общенационального лидера Гейдара Алиева дает богатую информацию в плане воспитания и развития подрастающего поколения. Гейдар Алиев считает важным, чтобы каждый молодой человек прежде всего учился на родном языке, писал на родном языке, читал на родном языке и говорил, что язык является национальной основой нации. Под руководством нашего общенационального лидера были построены и сданы в эксплуатацию библиотека, средняя школа, высшее учебное заведение.

**A.T. Salahova**

### Education issues in the legacy of Hayder Aliyev
### Summary

Acquaintance with the activities of our National Leader Heydar Aliyev provides rich information in terms of education and development of the young generation. Heydar Aliyev considered it important that every young person should first study in his native language, write in his native language, read in his native language, and he said that language is the national basis of a nation. Under the leadership of our national leader, a library, museum, general education school, and higher education schools were built and put into use.

**Redaksiyaya daxil olub: 15.03.2024**

***MƏKTƏBƏQƏDƏR TƏHSİL VƏ TƏRBİYƏ***
***ДОШКОЛЬНОЕ ОБРАЗОВАНИЕ И ВОСПИТАНИЕ***
***PRESCHOOL EDUCATION AND UPBRİNGİNG***

*UOT 373.2*

# MƏKTƏBƏQƏDƏR YAŞ DÖVRÜNDƏ OYUNLARIN ƏHƏMİYYƏTİ

**Şəfəq İslam qızı İslamova**
*Azərbaycan Dillər Universitetinin baş müəllimi*
**ORCİD:** 0009-0004-0546-3220
**E-mail:** sh.islamova@mail.ru

***Açar sözlər:*** *sosial davranış, məktəbəqədər təhsil, didaktik oyunlar, qaydalı oyunlar mütəhərrik, rollu oyunlar, struklaşdırılmış və struklaşdırılmamış rollu oyunlar.*

***Ключевые слова:*** *социальное поведение, дошкольное образование, дидактические игры, игры по правилам, ролевые игры, структурированные и неструктурированные ролевые игры.*

***Key words:*** *social behavior, preschool education, didactic games, rule-based games, role-playing games, structured and unstructured role-playing games.*

Məktəbəqədər yaşda uşaqların aparıcı fəaliyyət növü oyun olduğundan, onların məktəbə hazırlığının təşkilinin əsasında oyunlar durur. Uşaqların məktəb təliminə hazırlığının effektivliyini artırmaq məqsədi ilə təlim məşğələlərində didaktik oyunların tətbiq edilməsi faydalıdır. Tərbiyəçi uşağın oyuna olan marağından istifadə edərək, didaktik oyunu təlim məqsədinə yönəltməlidir. Əyləncəli oyun şəklində verilmiş bilik uşaqlar tərəfindən daha tez, möhkəm və asan qavranılır. Oyun elə bir təlim növüdür ki, burada şagird aktiv və yaradıcı şəkildə cəmiyyətin davranış qaydalarını və normalarını, insanların əməyə, ictimai əmlaka münasibətini, insanlar arasında qarşılıqlı münasibətləri öyrənir.

Məktəbəqədər təhsil - təhsilin ilk pilləsi olmaqla uşaqların erkən yaş dövründən intellektual, fiziki və psixi inkişafını, sadə əmək vərdişlərinə yiyələnməsini, istedad və qabiliyyətinin üzə çıxarılmasını, sağlamlığının qorunmasını, estetik tərbiyəsini, təbiətə və insanlara həssas münasibətinin formalaşmasını təmin edir. Məktəbəqədər yaşda uşaqların aparıcı fəaliyyət növü oyun olduğundan, onların məktəbə hazırlığının təşkilin əsasında da oyunlar durur.

Oyunlar *qaydalı və qaydasız* olur. Yaradıcı oyunlar uşaqlar tərəfindən yaradılan qaydasız oyunlardır. *Qaydalı oyunlar* uşaqların davranışlarını idarə etmək qabiliyyətini artırır, onların impulsivliyini azaldır və bununla da xarakterin formalaşmasına yardım edir. Qaydalı oyunlara - *didaktik, mütəhərrik, və rollu oyunlar* aid edilir.

Uşaqların məktəb təliminə hazırlığının effektivliyini artırmaq məqsədi ilə təlim məşğələlərində *didaktik oyunların tətbiq edilməsi* faydalıdır. Tərbiyəçi uşağın oyuna olan marağından istifadə edərək, didaktik oyunu *təlim məqsədinə* yönəltməlidir.

*Didaktik* oyunlar şərti olaraq 3 növə ayrılır: oyuncaqla (müxtəlif əşya) ilə oynanan oyunlar, şifahi və ya sözlü (tapmaca) oyunlar, loto (cüt şəkilli kart) oyunlar. Dərs zamanı didaktik oyunlardan istifadə uşaqlarda yaddaş, diqqət və təfəkkürün inkişafına kömək edir.

*Rollu oyun* oynayarkən şagird hər hansı bir obrazı canlandırır, öz təəssüratlarını üzə çıxarır. Oyun vəziyyətinin xəyal olduğunu anlayan uşaqlar buna baxmayaraq, olduqca real hisslər və təcrübələr yaşayır və bununla da daxili dünyalarını zənginləşdirirlər. Psixoloqlar hesab edirlər ki, rollu oyun uşaq oyunlarının inkişafının ən yüksək formasıdır. Rollu oyun uşaqların

idraki inkişafında böyük əhəmiyyət kəsb edir, onlarda diqqəti və yaddaşı inkişaf etdirir. [2, s.123]

Rollu oyun uşaqların özlərinə rol təyin etdikləri, həmən rolu mənimsəyib canlandırdıqları bir oyun növüdür. Bu, nağıl qəhrəmanı kimi fərqli biri və ya ana rolu ola bilər. Uşaqlar bəzən real həyatda öz əksini tapmış, bəzən isə öz təxəyyüllərinin məhsulu olan rolları oynayırlar.

— *Rollu oyunun nümunələri*

Rollu oyun bir çox formada ola bilər və rola girmək sadəcə "oyun" kimi görünsə də, inkişafetdirici öyrənmə prosesinin əsas tərkib hissəsidir. Bu, təşviq edilməlidir və uşaqların bu prosesdə istirak etməsi üçün çoxlu imkanlar yaradılmasına ehtiyac var.

— *Rollu oyunun növləri*

Rollu oyunun iki növü var – struklaşdırılmış və struklaşdırılmamış rollu oyun: Strukturlaşdırılmış oyunun əvvəlcədən müəyyən edilmiş quruluşu və gözlədiyiniz nəticəsi var. Valideyn və ya müəllim uşaqların oynaması üçün ssenari hazırlayır – məsələn, "hava limanı" qurur və uşaqlar orada mövcud olan rolları seçir və sonra həmin ssenaridə yaranan problemlərlə oyunu davam etdirirlər. Struklaşdırılmamış oyun zamanı isə uşaqlar öz planlı ssenarilərini seçməkdə azaddırlar və tez-tez əllərində olanlara əsasən öz oyunlarını qururlar.

— *Rollu oyunun faydaları*

Mütəxəssislər, rollu oyunu keyfiyyətli məktəbəqədər proqramların önəmli bir hissəsi hesab edirlər, çünki bu erkən uşaqlıq dövrü inkişafı üçün vacibdir. Rollu oyunun faydalarının bir neçəsini sizə təqdim edirik.

— *Rollu oyun özünütənzimləməni öyrədir*

Məktəbəqədər uşaqlar ani hərəkət edirlər, buna görə də rollu oyun öz duyğularını və hərəkətlərini tənzimləməyi öyrənmək üçün əla bir təməldir. Maraqlıdır ki, uşaqlar rollu oyun zamanı özləri üçün müəyyən etdikləri rola sadiq olmağa motivasiyalı olur, bu rolu riayət olunmalı qaydalar kimi görürlər. Bu onlara başqaları ilə əlaqələr qurmağa və planlaşdırmağa, həmçinin impulslarını idarə etmək bacarığını inkişaf etdirməyə kömək edir.

— *Rollu oyun* nitq qabiliyyətini inkişaf etdirir

Rollu oyun ekspressiv dili inkişaf etdirir və ondan istifadəni gücləndirir. Uşaqlar öz istəklərini həmyaşıdlarına çatdırmağa həvəslidirlər və buna görə də oynadıqları rolda danışmağı öyrənməlidirlər. Rollu oyun qrup işi zamanı utancaq və çəkingən olan uşaqlar üçün çox rahat bir mühitdir.

— *Rollu oyun* münaqişələri həll etməyi öyrədir

Həm struklaşdırılmamış, həm də struklaşdırılmış rollu oyun, münaqişənin həlli ilə bağlı öyrədilə biləcək məqamları özündə cəmləyir. Rollu oyun zamanı fikir ayrılıqları və münaqişələr qaçılmazdır ki, bu da uşaqlara fərqliliyi görmək və güzəştə getmək üçün şans verir.

— *Rollu oyun* riyazi və oxu bacarıqlarını gücləndirir

Rollu oyun oxuyub anlamanı da inkişaf etdirir, çünki uşaqlar sevdikləri nağıl və hekayə üzərində oyun qurmağı çox sevirlər. Oyunların bu müxtəlifliyi fərqli məqsəd daşıyan fənlərin tədrisini şagirdlər üçün daha maraqlı və cəlbedici etməyə imkan yaradır. Adətən:

— didaktik oyunlardan riyaziyyat, ana dili;

— rollu oyunlardan ana dili, həyat bilgisi, tarix;

— mütəhərrik oyunlardan fiziki tərbiyə, həyat bilgisi fənlərində istifadə edilir.

Didaktik oyunlar təlimi uşaqlar üçün əlverişli və cəlbedici formada həyata keçirməyə imkan verir, bu zaman təlimin vəzifəsi həm də uşağın oyundakı vəzifəsi hesab olunur.

**Problemin aktuallığı.** Məqalə uşaqların məktəb təliminə hazırlığının təsirliliyini artırmaq məqsədi ilə aparılan məşğələlərə mühüm töhfədir.

**Problemin elmi yeniliyi.** Məqalə məktəbəqədər təhsil pilləsində oyunların əhəmiyyəti məsələsinə həsr edilmişdir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə gənc tədqiqatçılar, doktorant və dissertantlar üçün faydalı olacaqdır.

## Ədəbiyyat

1. Ağayev Ə. Yeni təlimin metod və texnologiyalarından istifadənin nəzəri və praktik məsələləri // ARTPİ-nin Elmi əsərləri, 2006, **№ 2**

2. Bünyatova F., Abdulla B. Təlim və tərbiyədə interaktiv texnologiya. Bakı: Nurlan, 2000.

4. Həmzəyev M.Ə. Yaş və pedoqoji psixologiyanın əsasları. Bakı: Adiloğlu, 2003.

5. Hüseynzadə G.C. Xarici dillərin tədrisində islahatların tətbiqi. Bakı: ADU, 2009.

**Ш.И. Исламова**

## Значение игр в дошкольном возрасте
## Резюме

Поскольку ведущим видом деятельности дошкольников является игра, игры являются основой организации их подготовки к школе. Для повышения эффективности подготовки детей к школьному обучению целесообразно применять дидактические игры на учебных занятиях. Знания, данные в форме веселой игры, быстрее, прочнее и легче усваиваются детьми. Игра представляет собой вид обучения, при котором учащийся активно и творчески усваивает правила и нормы поведения в обществе, отношение людей к труду, общественному имуществу, взаимоотношениям между людьми.

**Sh.İ. İslamova**

## The importance of games in pre-school age
## Summary

As the leading type of activity of preschool children is play, games are the basis of organizing their preparation for school. In order to increase the effectiveness of children's preparation for school training, it is useful to apply didactic games in training sessions. Knowledge given in the form of a fun game is more quickly, solidly and easily grasped by children. The game is a type of training where the student actively and creatively learns the behavior rules and norms of the society, people's attitude to work, public property, mutual relations between people.

**Redaksiyaya daxil olub: 02.10.23**

***İBTİDAİ SİNİFLƏRDƏ TƏHSİL VƏ TƏRBİYƏ***
***ОБРАЗОВАНИЕ И ВОСПИТАНИЕ В НАЧАЛЬНЫХ КЛАССАХ***
***EDUCATION AND UPBRINGING IN PRIMARY CLASSES***

*UOT 372.3/.4*

# KİÇİK YAŞLI MƏKTƏBLİLƏRDƏ PROQRAMLAŞDIRMA DƏRSLƏRİNƏ MARAQ YARADILMASI (SCRATCH DİLİ)

**Elmira Zeynal qızı Alıyeva**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*baş müəllimi*
**ORCİD:** 0009-0001-0264-4390
**E-mail:** elmira.adpu@gmail.com

***Açar sözlər:*** *tədris proqramı, proqramlaşdırma, kompüter, şagird, motivasiya, yeni texnologiya.*
***Ключевые слова:*** *учебная программа, программирование, компьютер, студент, мотивация, новые технологии.*
***Key words:*** *curriculum, programming, computer, student, motivation, new technology.*

Məlum olduğu kimi, bizim dövrümüz yeni texnologiyaların günü-gündən inkişaf etdiyi və yeni növ tədris planlarının tətbiq edildiyi bir dövrdür. Bu gün dünyanın istənilən yerində yaşayan insanlar rahatlıqla internet şəbəkəsinə qoşularaq yeni biliklər əldə edə bilərlər. Bu onlarda zehni təfəkkürün inkişafına əsaslı şəkildə müsbət təsir edəcəkdir. Kompüter elmləri və kodlaşdırma bir-birini əlaqləndirən iki anlayışdır və bu gün dünya miqyasında tanınmaqdadır. Dünya kompüter elminə və texnologiyasına çox güvənir, bu da texnoloji işləri bu gün ən gəlirli hala gətirir.

Texnoloji innovasiyaların ağılasığmaz dərəcədə inkişaf etməsi köhnəlmiş stereotipləri aradan qaldıraraq dövrün tələbləri ilə ayaqlaşmağa təkan yaratmaqdadır. Bunun bariz nümunəsi olaraq deyə bilərik ki, bir sıra peşə sahələri üzrə insan əməyi ilə görülən işlərin əksəriyyətində zaman keçdikcə texnoloji avadanlıqlara üstünlük verilir. Bunun bir çox səbəbi ola bilər, lakin onlardan ən ön planda duranları minimum işçi sayı ilə maksimum gəlir əldə etmək istəyi, zamana və maliyyə vəsaitlərinə müəyyən mənada qənaət edilməsi və təbii ki, dövrün tələblərinə uyğunlaşması və ümumi cəmiyyətin tələbatının optimal şəkildə ödənilə bilməsidir.

Aydın məsələdir ki, Kompüter elmləri kompüterin özünü və kompüter proqramlaşdırma işlərini öyrənir. Kompüter elmləri hər kəsin bilməli olduğu maraqlı və faydalı fəndir. Biz rəqəmsal dövrdəyik və məlumatların oxunması, yazılması və saxlanmasının ənənəvi formaları sürətlə məhv olur. Beləliklə, uşaqlara kompüter elmlərini və kodlaşdırmanı gənc yaşda öyrətmək çox vacibdir.

Nəzərə almaq lazımdır ki, nə qədər kiçik yaşlardan məktəblilərə proqramlaşdırma və kompüter əsasları öyrədilsə, onların gələcəyi üçün bir o qədər yaxşı biliklər formalaşdırılar.

Kompüter elmləri və kompüter proqramlaşdırması bir problemi həll etmək üçün kompüter tərəfindən atılan addımlar seriyasını təyin edən alqoritmlərin istifadəsini əhatə edir. Alqoritmik təfəkkür uşaqlar üçün təkcə kompüter elmləri üçün deyil, həyatlarının digər sahələrində də faydalıdır.

Kiçik yaşlı məktəblilərdə ənənəvi təhsil sistemindən fərqli olaraq kurikulum tədris formasına əsasən şagirdlərin zehni qavrama biliklərindən daha çox təcrübədə tətbiq etməyi bacaracaqları biliklərə üstünlük verilməkdədir. Heç kimə sirr deyil ki, valideynlər övladları üçün yalnız ən yaxşısını istəyirlər və bu, rahat paltar və doyurucu yeməklərlə bitmir. Əsas məqsəd onlara həyatda möhkəm təməl verməkdir. Övladınız üçün edə biləcəyiniz ən yaxşı şeylərdən biri onlara arzuladıqları karyeranı davam etdirməyə imkan verəcək keyfiyyətli təhsil verməkdir.

Hal-hazırda orta məktəb şagirdlərinə Python proqramlaşdırma dili tədris olunur. Bununla yanaşı Rəqəmsal bacarıqlar və Scratch proqram dili platforma üzərindən şagirdlərə öyrədilməkdədir. Şagirdlərin kiçik yaşlardan proqramlaşdırmaya motivasiyalı olmaqları onların gələcəkdə İT (İnformasiya Texnologiyaları) sahəsində bacarıqlı olmaları üçün vacib amildir. Proqramlaşdırmanın öyrədilməsi zamanı ilkin olaraq alqoritmik təfəkkür olmalıdır. Yəni şagirdlərin yazacaqları proqramda ardıcıllığı bilməli və bunu kompüter vasitəsi ilə proqram koduna çevirməyi bacarmalıdır. Qeyd etdiyimiz kimi kiçik yaşlı məktəblilərdə 7-ci sinifdə Python və Scratch proqram dili öyrədilir. Scratch proqramlaşdırması kiçik yaşlılar üçün daha maraqlıdır. Belə ki, burada rəngli effektlərin və pişik karikaturasının olması, məişət həyatına uyğun gələ biləcək məsələlərin proqramda əks olunması məktəblilərdə proqramlaşdırmanı öyrənməyə motivasiyanı artıracaqdır. Bildiyimiz kimi şagirdlər real həyatda qarşılaşdıqları məsələləri təhsil prosesində gördükdə onlarda maraq yaranır. Mümkün qədər çalışmaq lazımdır ki, ibtidai siniflərdən proqram qurmağın təməli kimi alqoritmik bacarıqlar inkişaf etdirilsin.

Biz kiçik yaşlı məktəblilərdə proqramlaşdırmanı öyrətməyə həvəs yaratmaq üçün onlara real həyat nümunələrini göstərərək Scratch proqramlaşdırmasına keçid edə bilərik. Nəzərə alsaq ki, kiçik yaşlı məktəblilər cizgi filmlərini izləməyə meylli olurlar, bu zaman onlar üçün Scratch proqram kodu çox maraqlı olacaqdır. Sözü gedən proqramlaşdırma dilində pişik, gülçiçək, müxtəlif quşlara aid kaikaturalar və s. spraytlar mövcüddur. Burada ***"sprayt"*** dedikdə proqram kodunun icrası nəticəsində hərəkət edəcək karikatura nəzərdə tutulur. Şagirdlərin Scratch mühitində proqram qurmalarına aid müxtəlif nümunələr verilə bilər. Bizdə bu proqram dilinə aid bəzi nümunələri verə bilərik:

***"Scratch" proqramlaşdırma mühitində 3-5 ci siniflər üçün layihə:***

**1.** Aşağıda Scratch proqramlaşdırma mühiti ilə artıq tanış olan 3-5-ci sinif şagirdi tərəfindən tamamlanmaq üçün nəzərdə tutulmuş "SoundFlower" layihəsi verilmişdir.

**Məqsəd:** Kiçik yaşlı uşaqlarda musiqi və çiçəklərin hərəkəti ilə proqramlaşdırmaya marağı artırmaqdır.

**Layihə növü:** interaktiv animasiya.

**Müddət:** 90 dəqiqə

Layihənin inkişaf istiqamətləri:

1. Ekranda siz mahnı oxuduğunuz zaman rəqs edən bir çiçək təsəvvür edin, bu, SoundFlower-dir.
2. Bu, öz sehrini nümayiş etdirmək üçün sizdən mikrofon icazəsi tələb edir;
3. Musiqi ilə vizual kəsişmələri araşdırmaq üçün Remixes bölməsinə daxil olmaq lazımdır;
4. Bu zaman SoundFlower diaqonal olaraq üzür və bağın üzərinə çıxır;
5. Səthə çıxma anında "Long" səsi eşidilir və SoundFlower "Salam" deyir;
6. SoundFlower-in üzərinə tıkladığınız zaman geri qayıdır;
7. SoundFlower in hərəkəti geyimlərini dəyişməsini ifadə edir.

Yuxarıda qeyd olunan Alqoritmi səviyyələrə bölmək olar. Məsələn, tələbələr birinci sə-

viyyəni müəllimin köməyi ilə yerinə yetirirlər, ikinci səviyyə yalnız müəllimlə müzakirə olunur və müstəqil şəkildə həyata keçirilir. Üçüncü səviyyə müstəqil olaraq həyata keçirilir.

***Layihəni icra etmək üçün müəyyən səviyyələr vardır:***

**Səviyyə 1:** Musiqiliçiyə uyğun fon seçin və SoundFloweri dalğanın kənarına doğru hərəkət etmək üçün təyin edin (diaqonal və ya sadəcə yuxarı);

**Səviyyə 2:** kostyum dəyişikliyi, "long" səsi və "Salam" sözünü əlavə edin;

**Səviyyə 3:** ***SoundFloweri*** ilkin koordinatlarına geri qaytarın.

Bu layihə şagird layihə fəaliyyətlərini həyata keçirmək üçün Scratch dilinin imkanlarından necə istifadə edə biləcəyinizi göstərir. Beləliklə, Scratch proqramlaşdırmanın tədrisi üçün birinci dilin bütün üstünlüklərini özündə birləşdirir: sadədir, böyük potensiala malikdir, onunla tanışlıq tələbələri həvəsləndirən və maraqlandıran bir oyun vasitəsilə baş verə bilər. Hesab edilir ki, bu proqramlaşdırma mühitinin 3-5-ci siniflər üçün informatika proqramına daxil edilməsi məqsədəuyğundur, informatika ilə tanışlıq ondan başlamalıdır.

2. Aşağıda Scratch proqramlaşdırma mühiti ilə artıq tanış olan 3-5-ci sinif şagirdi tərəfindən tamamlanmaq üçün nəzərdə tutulmuş "Hide and Seek-GizlənQaç" layihəsi verilmişdir.

**Məqsəd:** Kiçik yaşlı uşaqlarda oyun modeli vasitəsi ilə proqramlaşdırma mühitinin tanıdılmasından ibarətdir.

**Layihə növü:** interaktiv animasiya.

**Müddət:** 135 dəqiqə

Layihənin inkişaf istiqamətləri:

1. Bu layihə Gobo adlı personajın hərəkətlərinə müvafiq olaraq tənzimlənmişdir;
2. Şagirdlər xal toplamaq üçün qrafikin üzərində mausun sol düyməsini kliklməklə spraytı hərəkət etdirə bilirlər;
3. Zamanı tənzimləmək üçün taymer əlavə etmək və ya Gobo-nu tutduqdan sonra baş verənləri dəyişdirmək mümkündür;
4. Layihəni yenidən qarışdırmağın başqa bir yolu Gobo-ya bənzər daha çox sprayt yaratmaqdır;
5. Şagirdlər bu layihədə oyunu qazanmaq üçün bütün simvolları tutmalı olacaqlar;
6. Şagirdlərin qavrama və yaş göstəricilərini nəzərə alaraq çətinlik səviyyəsini daha da artırmaq üçün simvolların ekranda görünmə müddətini qısaltmaq olar.

Yuxarıda qeyd olunan alqoritmi səviyyələrə bölmək olar. Məsələn, tələbələr birinci səviyyəni müəllimin köməyi ilə yerinə yetirirlər, ikinci səviyyə yalnız müəllimlə müzakirə olunur və müstəqil şəkildə həyata keçirilir. Üçüncü səviyyə müstəqil olaraq həyata keçirilir.

Layihəni icra etmək üçün müəyyən səviyyələr vardır:

**Səviyyə 1:** Oyun formasına uyğun fon seçin və Gobonu səthin kənarına doğru hərəkət etmək üçün təyin edin (diaqonal və ya sadəcə yuxarı);

**Səviyyə 2:** kostyum dəyişikliyi, "çıqqıltı" səsi və "Salam" sözünü əlavə edin;

**Səviyyə 3:** Gobo-nu ilkin koordinatlarına geri qaytarın.

Bu layihə şagird layihə fəaliyyətlərini həyata keçirmək üçün Scratch-in imkanlarından necə istifadə edə biləcəyinizi göstərir. Beləliklə, Scratch proqramlaşdırmanın tədrisi üçün birinci dilin bütün üstünlüklərini özündə birləşdirir: sadədir, böyük potensiala malikdir, onunla tanışlıq tələbələri həvəsləndirən və maraqlandıran bir oyun vasitəsilə baş verə bilər. Hesab edilir ki, bu proqramlaşdırma mühitinin 3-5-ci siniflər üçün informatika proqramına daxil edilməsi məqsədəuyğundur, informatika ilə tanışlıq ondan başlamalıdır. Oyun modeli vasitəsi ilə şagirdlərdə proqramlaşdırmaya maraq yaratmaq ən ideal təlim metodu hesab olunur.

**Problemin aktuallığı.** Müasir dövrdə proqramlaşdırma sahəsi digər tətbiqi sahələrdən daha ön planda olduğu üçün çalışmaq lazımdır ki, təhsilin ilkin illərindən öyrənənlərdə alqoritmik təfəkkür formalaşdırılsın, proqram kodu yazmaq üçün bacarıqlar öyrədilsin.

**Problemin elmi yeniliyi.** Proqram kodlarının yazılması zamanı ənənəvi metodlardan fərqli yeni üsullardan istifadə olunmalıdır. Yeni növ alqoritmlər əsasında proqramlaşdırma sahəsi inkişaf etdirilir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Kiçik yaşlı məktəblilər üçün proqram mühiti kimi Scratch proqramlaşdırlmasının öyrədilməsi onlarda zehni – alqoritmik təfəkkürün inkişafına müsbət təsir göstərəcəkdir. Fərqli proqram kodlarının yazılması bacarıqlarının öyrədilməsi şagirdlərdə proqramlaşdırma dillərini öyrənməyə motivasiyanı artırır.

## Ədəbiyyat


**Problemin elmi yeniliyi.** Kiçikyaşlı məktəblilərdə ekoloji mədəniyyətin aşılanması yollarının qanunauyğunluqları, meyarları və səviyyə göstəriciləri, habelə ehtimal olunan boşluqlar aşkar edilmişdir ki, bu da onların məktəb mərhələsində meydana gəlməsinin qarşısını almağa imkan verir.

**Problemin praktiki əhəmiyyəti və tətbiqi.** Məqalə ibtidai sinif müəllimlərinə, magistrant və tələbələrə kiçikyaşlı məktəblilərdə ekoloji mədəniyyəti formalaşdırmağa kömək göstərmək məqsədi ilə təqdim edilən iş metodikası ilə bağlıdır.

## Ədəbiyyat

1. Ə.Paşayev. Pedoqogika. Bakı: ADPU-nun nəşri, 2007, 600 s.
2. L.Ş. Əmrahlı, N.T. Rzayeva. Uşaq psixologiyası. Bakı, 2010, 280 s.
3. M.Ə. Həmzəyev. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı: “TS”, 2006, 169 s.

**П.А. Джавадзаде**

## Факторы, влияющие на успех обучения учащихся
## Резюме

Само понятие тренировочного успеха достаточно широкое, и при его интерпретации возникают определенные трудности. В определении этого понятия, по мнению О. А. Яшновой, успех главным образом определяется умением выбрать правильную позицию и тактику в критических ситуациях [6]. В учебной деятельности успешный ученик – это тот, кто способен преодолеть свои страхи, трудности, растерянность и неорганизованность, или, наоборот, отличник, тревожный, терзаемый нормативными требованиями и ожиданиями других, не может быть отнесен к успешным. Студента, на наш взгляд, потому что чтение не приносит ему ни радости, ни удовлетворения.

**P.A. Javadzade**

## Factors affecting students’ learning success
## Summary

It is important to carry out purposeful, planned and organized activities related to inculcating environmental culture in extracurricular activities in our secondary general education schools. It should not be forgotten that every person living and working today should be taught the concepts of environmental protection and economical use of its resources from a very young age. Environmental knowledge is of great importance for the graduated student to become an expert who loves nature and uses its resources sparingly.

**Redaksiyaya daxil olub: 27.03.2024**

*UOT 372.3/.4*

# İBTİDAİ SİNİFLƏRDƏ ŞAGİRDLƏRİN LÜĞƏT EHTİYATININ ZƏNGİNLƏŞDİRİLMƏSİ YOLLARI

**Aygün Akif qızı Nəzərli**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCID:** 0009-0001-5867-2956
**E-mail:** nezerliaygun930@gmail.com

***Açar sözlər:*** *nitq inkişafı, lüğət ehtiyatı, lüğət üzrə işin metod və priyomları, sistematiklik və ardıcıllıq, şifahi və yazılı nitqin səmərəliliyi.*

***Ключевые слова:*** *развитие речи, словарный запас, методы и приемы словарной работы, систематичность и последовательность, еффективность обучения.*

***Key words:*** *the development of speech, the headroom, methods and techniques of vocabulary work, systemic and predictive, effective learning.*

Şəxsiyyətin formalaşması pedaqoji təsirdən, bu təsirin nə qədər tez və əsaslı göstərilməsindən son dərəcə asılıdır. Məhz buna görə ölkəmizdə ümumtəhsil məktəbləri strateji əhəmiyyətli təlim-tərbiyə müəssisəsi mühüm dəyərləndirilir. Amma bu işdə uğura nail olmağın yolu ən əvvəl məktəbəqədər təlim və tərbiyə ocaqlarından keçir. Məktəbəqədər tərbiyə müəssisələri hazırda ibtidai təlim üçün möhkəm bünövrə hesab olunur. Uşaq bağçalarının qarşısında uşaqların hərtərəfli inkişaf etdirilməsi vəzifəsi qoyulmuşdur. Bu vəzifənin yerinə yetirilməsində nitq inkişafı mühüm rol oynayır.

Dilçilər, psixoloqlar, metodistlər və müəllimlərin hər biri nitq inkişafı məsələsini birgə həll etməyə çalışır. Bunların içərisində ən ehtiyatla yanaşılanı odur ki, bəziləri uşaqların nitqinin inkişafını özbaşına gedən bir proses hesab edirlər. Onların fikrincə, uşağın şüuru müxtəlif təsəvvürlər və anlayışlarla zənginləşdikcə, onun həyat təcrübəsi genişləndikcə nitqi də inkişaf edir. Ona görə də, nitq inkişafı üzrə xüsusi məşğələlərin təşkilinə ehtiyac yoxdur.

Nitqin insanların həyatında nə qədər mühüm rol oynaması hamıya məlumdur. İnsanlar nitqin köməyi ilə öz təəssüratlarını mübadilə etmək, bir-birini başa düşməklə yanaşı, həm də öz arzu və istəklərini ifadə edirlər. Nitq insanların bir-birinə qarşılıqlı təsir göstərmələri üçün güclü vasitədir. Söz adamlarda inam yaradır, onları əməyə, qəhrəmanlığa çağırır, pis əməllərdən çəkindirir, sevindirir, ağladır, güldürür və s.

Məqalədə şagirdlərin ibtidai siniflərdə nitqinin lüğət ehtiyatlarımızı zənginləşdirmə yollarını öyrədən müasir təhsil metod və texnologiyalardan istifadənin nəzəri və təcrübi məsələlərindən geniş bəhs olunmuşdur. Burada dioloji nitq, nitqi eşitmək və başa düşmək, danışığı davam etdirmək, suallara cavab vermək və müsahibinə sual vermək kimi komponentləri əhatə edilir. Dioloji nitq prosesi müsahibi diqqətlə dinləmək, səbirli olmaq nə dediyini başa düşmədən söhbətə qarışmamaq, təmkinli olmaq və s. kimi mədəni keyfiyyətləri gözləməyi tələb edir.

**Uşağın lüğət ehtiyatının zənginləşdirilməsi**

Uşaq ulu babalarımızın əsrlərdən bəri qoruyub saxladıqları və nəsillərdən-nəsillərə ötürdükləri bəşəri təcrübəni, biliyi və bacarığı nitqin köməyi ilə yaşlılardan öyrənir. Nitqin köməyi ilə uşağın şəxsi təcrübəsi zənginləşir, müstəqilliyi artır, təfəkkürü inkişaf edir. Yaşlılarla, yaşıdları ilə ünsiyyət uşağın ümumi inkişafının mühüm şərtidir. Ünsiyyət və fikir mü-

badiləsi silahı olan dil öz funksiyalarını yalnız nitqdə yerinə yetirir. Psixoloq A.A. Lyublinskaya yazır: "Dil ümumidir, nitq isə dildən fərdi istifadə prosesidir. İnsan öz ünsiyyət təcrübəsində adətən doğma dilinin zənginliyini təşkil edən lüğətin və müxtəlif qrammatik quruluşun yalnız kiçik bir hissəsindən istifadə edir. Bununla yanaşı, dil nitqdən zəngindir, belə ki, insan hər hansı şey haqqında danışmaqla ona və müsahibinə öz münasibətini bildirir. Adam işlətdiyi sözün mənasından da çox şey deyə bilir. Lakin adamın öz fikrini kifayət qədər dəqiq və incəliklə deyə bilməsi, ona təsir etməsi düzgün başa düşülməsi üçün o ana dilinə gözəl yiyələnməlidir".

Ana dili kiçik məktəb yaşlı uşaqların əqli və əxlaqi tərbiyəsinin mənbəyi və vasitəsidir. Uşaq, adətən, iki yaşından sonra danışmağa başlayır və 6-7 yaşında artıq ətrafındakılarla tam ünsiyyət saxlaya bilir. Uşağın nitqinin inkişafı onun ana dilinə yiyələnməsi deməkdir. Nitqin formalaşması bu dövrdə ana dilini heç bir şey əvəz edə bilməz. Ana dili uşağı onu əhatə edən adamların xarakteri ilə içərisində yaşadığı cəmiyyətlə onun tarixi ilə onun istəkləri ilə heç bir tarixçinin tanış edə bilmədiyi şəkildə tanış edir. Buna görə də uşaqların düzgün rabitəli və zəngin nitqə yiyələnmələri ibtidai sinif müəllimlərinin başlıca vəzifələrindən biridir.

Dilin başlıca vahidi söz üzrə ilk düzgün təşkil olunmadan, uşaqların lüğəti zənginləşdirilmədən nitq ünsiyyəti, həmçinin təfəkkürün inkişafı mümkün deyil. Uşaq yenicə dil açdığı dövrdə az miqdarda sözlə öz ehtiyatını ödəyə bildiyi halda məktəb dövründə fikrini ifadə etmək üçün daha çox sözlərdən və mürəkkəb dil vahidlərindən, mühüm morfoloji vasitələrdən və sintaktik formalardan da istifadə etməli olur. Uşaq artıq 2 yaşında 300-ə yaxın söz bilir, 3 yaşında isə onun söz ehtiyatı 1000-i keçir. O, bütün nitq hissələrindən istifadə edə bilir. İbtidai siniflərdə uşaqların lüğət ehtiyatının sürətlə zənginləşdirilməsi üçün əlverişli şərait yaradılır. Bu dövrdə uşaqların söz seçmələri onları əhatə edən şəraitdən, ətraf aləmdəki əşya və hadisələrdən həmçinin ünsiyyətdə olduğu adamların nitqindən asılı olur. Uşaqlarla məqsədyönlü ünsiyyət və təlim prosesi onların lüğətinə güclü təsir göstərər. Proqramında işlər hər şeydən əvvəl uşağın məişət lüğətinin zənginləşdirilməsinə ətraf aləmlə normal ünsiyyətinin təmin olunması üçün sözlərin seçilməsinə yönəldilir. Bu zaman uşaqda sözə maraq və həssaslıq artır. Nitqin və onun lüğət fondunun tərbiyə zənginləşməsi ibtidai sinif dövründə çox ciddi məsələlərdən biridir. Uşaq hər şeydən əvvəl dilin lüğət fondunun mənimsənilməsi, sözlərdəki nitq səslərini düzgün tələffüz etməyi öyrənməlidir. İbtidai təhsil, ibtidai siniflərdə müxtəlif mövzular və fənni tədris edən müəllim uşaqlarda şifahi nitqə yeni münasibət formalaşdırır. Nitq, onun lüğət ehtiyatı sözlərin səs cəhəti artıq şüurun predmeti olur. Uşaqlar söz və cümlə ilə praktik şəkildə tanış olurlar. Mətnlər üzərində iş dilimizin leksik fonduna əsaslanır. Bunun üzərində  sözlərin aydın və səlis, dilin normalarına uyğun tələffüzü formalaşdırır. Fonematik eşitmə, nəfəs alma, səsin tonunu ifadə etməklə xüsusi ilə intonasiya vasitələrindən səsin yüksəkliyi qüvvəsi sürəti məna vurğusu hasilə və s. düzgün istifadə etmə də sözlərin, lüğət fondundan düzgün istifadə etmə nitqin səs mədəniyyətinə daxildir. Çalışmaq lazımdır ki uşaqlar nitq ünsiyyəti prosesində, davranış da müsahibinə müraciət formasında sözləri seçməyi, yerində və düzgün istifadə etməyi öyrənsinlər.

Məktəbdə ana dili təlimin yalnız obyekti deyil, həm də vasitəsidir. Uşaqların nitqini inkişaf etdirmək onun məzmunu üzərində müntəzəm iş aparmaq onlara gördükləri əşya, hadisə haqqında cümlə qurmağı, məqamına görə lazımi sözü seçməyi, onlardan istifadə yolu ilə öz fikirlərinin qrammatik cəhətdən düzgün ifadəsini öyrətmək deməkdir. Uşaqlar heç vaxt lüğətin zənginləşdirilməsinə müasir dövrdə olduğu qədər ehtiyac duymamışlar. Müasir həyat hərtərəfli inkişaf edir, dəyişir, çoxsaylı yeni sözlərin yaranması və dilimizin lüğət tərkibinə daxil

edilməsi tələbini irəli sürür. Kifayət qədər söz ehtiyatı olmadan nitqi inkişaf etdirmək mümkün deyil. Buna görə də şagirdlərin leksikasını formalaşdırmaq, toplanmış söz ehtiyatı əsasında məlum sözlərin mənasını dəqiqləşdirmək və onların istifadə dairəsini genişləndirmək lazımdır. İbtidai siniflərdə lüğət üzrə iş spesifik xüsusiyyətlərə malik olmaqla, praktik xarakter daşıyır. Düzgün nitqə malik olmaq sözün mənasını, işlənmə sahəsini bilmək deməkdir. Söz o zaman fəallaşmış hesab olunur ki, şagird nəqletmə zamanı, ifadə və esse yazılarında ondan istifadə etsin.

Konkret əşya adları ilə bağlı sözlərin öyrədilməsi əyani izahla, yəni əşyanın özünün, şəklinin, modelinin nümayişi ilə müşayiət olunarsa, daha yaxşı nəticə verər. Əyani izah mümkün olmadıqda isə sözün məzmunu ilə bağlı qısa şərh vermək, onun sinoniminin (səma-göy), antoniminin (yoxuş-eniş), rus dilində qarşılığının (atəşfəşanlıq-salyut), növ-cins münasibətlərinin (taxt, dolab, divan, çarpayı, kreslo - mebel) yada salınması, yeri gəldikcə etimologiyasına müraciət olunması, morfoloji strukturunun təhlili priyomlarından da istifadə etmək mümkündür. Söz nitqdən kənarda, ayrılıqda mənimsənilə bilməz. Sözün əsl mənasının dərk olunması üçün onun söz birləşməsi, cümlə daxilində işlənməsi lazımdır. Bu, həm də şagirdlərdə sözdən yerində, dəqiq istifadə etmək bacarıqlarının formalaşdırılması baxımından faydalıdır. Yeni öyrənilmiş sözlər nitqdə müntəzəm təkrar olunmalı, möhkəmləndirilməlidir. Əks təqdirdə, lüğət üzrə iş, lüğətin zənginləşdirilməsi ilə bağlı istifadə olunan çalışmalar öz əhəmiyyətini itirər.

İbtidai sinif müəllimləri lüğət üzrə işin vacibliyini başa düşməli və dərsdə ona kifayət qədər vaxt ayırmalıdırlar. Lüğət üzrə iş də qrammatika, orfoqrafiya, orfoepiya üzrə işlər kimi, planlaşdırılmalıdır. Bu məqsədlə ibtidai sinif müəllimi:

Şagirdlər tərəfindən müntəzəm olaraq bu və ya digər sözün mənimsənilmə dərəcəsi öyrənilməlidir. Bu məqsədlə onların şifahi nitqini daim izləməli, yaradıcı yazılarını təhlil etməlidir.

Şagirdlərin fəal lüğətinə daxil etmək üçün sözlərin seçilməsi üzrə müntəzəm iş aparmalıdır (Müəllim bunu oxu dərsində öyrənilən bədii mətnlərdən, digər fənlərin dərsliklərindən, ibtidai sinif şagirdləri üçün nəzərdə tutulmuş lüğətlərdən seçməlidir).

**Problemin aktuallığı.** Maraqlı və geniş lüğət ehtiyatı, şagirdlərin müxtəlif sosial və mədəni mühitlərlə daha yaxşı əlaqə qurmağını, başqaları ilə daha effektiv şəkildə təmas yaratmağı və müzakirə edə bilməsini təmin edir.

**Problemin elmi yeniliyi.** İnteraktiv təlim metodu, lüğət oyunları və interaktiv təlim tətbiq etmək, şagirdlərin lüğət ehtiyatını əyləncəli bir şəkildə zənginləşdirməyə kömək edir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Praktik işlər, şagirdlərin öyrəndikləri lüğəti və dil biliklərini zənginləşdirir, onların müxtəlif mədəni və elmi məzmunları anlamalarına yardım edir və onları həyat boyu öyrənməyə həvəsləndirir. Bu da onların təhsil və sosial bacarıqlarını daha da inkişaf etdirməyə kömək edir.

## Ədəbiyyat

1. Kərimov Y.Ş. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Səda, 2013.
2. Kərimov Y.Ş. İbtidai siniflərin Azərbaycan dili dərslərində lüğət işinin əsasları. Bakı: Maarif, 1978.
3. https://blogreklamedu.blogspot.com/2020/08/ibtidai-sinif-sagirlri-ucun-oyrdici-pdf.html

4. Cəfərova N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası: Dərslik. I hissə. Bakı, 2016.

5. Həsənov M.M., Cəfərova N.B. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası: Dərslik. II hissə. Bakı, 2013.

**А.А. Назарли**

**Роль словарной работы в развитии речи учащихся**
**Резюме**

В статье изложены методы развития речи учащихся с помощью словарной работы. С этой целью рекомендуется использовать упражнения и дидактические игры лексического характера. Отмечается, что они должен способствовать расширению словарного запаса, умению выбирать из него слова, наиболее соответствующие содержанию высказывания и тем самым делать речь правильным, точным и выразительным.

**A.A. Nazarli**

**The role of work on vocabulary ın the development of the pupıls speech**
**Summary**

In this article was talked about the methods of development of students' speech by the help of work on vocabluary. For this reason was noted that the use of lexical exercises and didactic games are reasonable. By allowing to enrich vocabulary reserve, the development of the ability of choosing compatible word according to content they provide accuracy, exactness and expressiveness of speech.

**Redaksiyaya daxil olub: 21.02.2024**

*UOT 372.3/.4*

# РОЛЬ ОБРАЗОВАТЕЛЬНОЙ СРЕДЫ В ФОРМИРОВАНИИ ОТНОШЕНИЙ К ПРИРОДЕ У МЛАДШИХ ШКОЛЬНИКОВ

**Фатима Алекбер кызы Бадирова**
магистрант Бакинского Славянского Yниверситета
**ORCID:** 0009-0005-6004-5205
**E-mail:** faaslanova97@gmail.com

***Ключевые слова:*** *природа, окружающая среда, воспитательный процесс, формирование, отношение.*
***Açar sözlər:*** *təbiət, ətraf mühit, tərbiyə prosesi, formalaşdırma, münasibət.*
***Key words:*** *nature, environment, educational process, formation or development, attitude.*

Отношение к природе формируется не в один момент, а является результатом многогранной и систематической работы, включающей в себя как теоретическое обучение, так и практическую деятельность. Рассмотрим более подробно ключевые направления этой работы.

Интеграция экологического образования в учебные планы и программы является основополагающей. Это не только означает добавление специализированных курсов по экологии, но и включение экологических аспектов в изучение традиционных дисциплин, таких как биология, география, химия, социальные науки и даже история. Это позволяет учащимся видеть связи между различными областями знаний и понимать мультидисциплинарный характер экологических проблем. [1]

Проектно-ориентированное обучение позволяет учащимся применять теоретические знания на практике, работая над реальными проблемами. Создание и реализация проектов, направленных на улучшение экологической ситуации в школе, на местном уровне или в глобальном масштабе, не только способствует развитию критического мышления и командной работы, но и воспитывает чувство ответственности за будущее планеты.

Воспитательная работа, включающая экологическое волонтёрство, акции по озеленению, сбору и переработке отходов, играет важную роль в формировании экологической культуры. Такие мероприятия помогают учащимся осознать свою личную ответственность и вклад в охрану окружающей среды. Исходя из практики, могу сказать, в 2023 году мы с шестыми классами, на Шихово провели акцию «Защита окружающей среды». Вместе с учащимися шестых классов, очищали побережье Каспийского моря, обсуждали вред загрязнения экологии, путём не разлагаемых предметов. [2]

Современные образовательные технологии, включая интерактивные приложения, виртуальные лаборатории, онлайн-курсы и игры, делают процесс обучения более увлекательным и доступным. Эти технологии могут помочь учащимся лучше понять сложные экологические процессы и последствия человеческой деятельности на окружающую среду.

Важной частью образовательного процесса является организация экскурсий и практических занятий в природе, которые позволяют учащимся непосредственно взаимодействовать с окружающей средой. Такой опыт способствует развитию глубоких лич-

ных чувств и эмоциональной связи с природой, которая является мощным мотиватором для последующих экологически сознательных действий.

Создание в образовательных учреждениях атмосферы, способствующей экологически устойчивому образу жизни, является важным аспектом формирования отношения к природе. Это включает в себя практики бережного использования ресурсов, организацию зеленых зон, установку систем раздельного сбора отходов и многое другое. Создание такой среды способствует воспитанию у учащихся привычек, благоприятных для окружающей среды, которые они могут перенести в свою взрослую жизнь.

В целом, образовательная среда, ориентированная на формирование у учащихся глубокого понимания экологических проблем и активной позиции по их решению, является ключевым фактором в развитии устойчивого будущего.

Гасан Мамедов, занимаясь вопросами образования и его влияния на формирование личности, особое внимание уделяет роли образовательной среды в развитии отношений к природе. Он подчеркивает, что образовательная среда не просто способствует приобретению знаний, но и формирует ценностные ориентиры, взгляды и отношения учащихся, включая их взаимодействие с окружающей природной средой.[4]

В контексте его исследований, можно выделить несколько ключевых аспектов, через которые образовательная среда влияет на формирование отношений к природе:

**1. Ценностное воспитание:** Образовательная среда влияет на формирование ценностей и этических норм в отношении природы, воспитывая у учащихся уважение и ответственность за окружающую среду.

**2. Практическая деятельность:** Включение практических занятий, таких как экологические проекты, исследования и экскурсии, позволяет учащимся непосредственно взаимодействовать с природой, что способствует формированию более глубокого и осмысленного отношения к ней.

**3. Интеграция экологического образования:** Внедрение экологических знаний и принципов устойчивого развития в различные учебные дисциплины помогает учащимся понимать сложность и взаимосвязанность природных процессов и человеческой деятельности.

**4. Создание поддерживающей среды:** Образовательные учреждения могут создавать среду, которая поощряет экологически ответственное поведение, например, через организацию мероприятий по улучшению окружающей среды, раздельный сбор отходов и экономию ресурсов.

**5. Развитие критического мышления:** Способность критически анализировать экологическую информацию и новости, различать научные факты от мифов и дезинформации, что является важным элементом экологического образования и формирования сознательного отношения к природе.

Мамедов подчеркивает, что образовательная среда должна быть многоаспектной, включая не только передачу знаний, но и развитие навыков, формирование ценностей и стимулирование активного участия в экологически значимых практиках. Такой подход способствует формированию у обучающихся целостного и ответственного отношения к окружающей природной среде.

Заключение к теме "Роль образовательной среды в формировании отношений к природе" подчеркивает важность интегрированного и целостного подхода в образовании, который не только передает знания, но и формирует у учащихся глубокое понимание,

уважение и ответственность по отношению к окружающей природной среде. Вот ключевые моменты, которые могут быть выделены в заключении:

Формирование экологической сознательности: Образовательная среда играет критическую роль в развитии экологической осведомленности и сознательности учащихся, предоставляя им знания, навыки и ценности, необходимые для понимания и решения современных экологических проблем.

Развитие устойчивых поведенческих паттернов: через разнообразные образовательные программы и практики, учащиеся учатся принимать ответственные решения, которые способствуют защите и сохранению природы, формируя таким образом основу для устойчивого будущего.

Интеграция практического опыта: Непосредственное взаимодействие с природой через экскурсии, наблюдения и экологические проекты углубляет понимание учащимися экологических процессов и укрепляет их связь с окружающей средой.

Мультидисциплинарный подход: Образовательная среда, объединяющая различные дисциплины, способствует формированию комплексного взгляда на экологические вопросы, позволяя учащимся видеть междисциплинарные связи и целостность природных систем. [5]

Воспитание ответственности и активной гражданской позиции: Учащиеся приобретают не только знания, но и развивают чувство ответственности за окружающую среду, что мотивирует их к активным действиям по ее защите и улучшению.

В заключение, роль образовательной среды в формировании отношений к природе несомненно велика и многогранна. Она заложена не только в передаче знаний, но и в развитии ценностей, формировании навыков и стимулировании активной жизненной позиции, направленной на устойчивое взаимодействие с природой. Создание такой образовательной среды требует совместных усилий учителей, родителей, образовательных администраторов и всего общества. [3]

**Актуальность темы.** Она обусловлена не только нарастающими экологическими проблемами, но и необходимостью адаптации образовательного процесса к вызовам современности, целями устойчивого развития и стремлением воспитать ответственное и осознанное отношение к природе у будущих поколений.

**Научная новизна исследования.** Новизна исследования обусловлена глубоким анализом комплексного влияния образовательной среды на экологическое сознание и поведение младших школьников, а также разработкой и апробацией новых образовательных подходов и методик, направленных на устойчивое развитие и формирование нравственного отношения к природе.

**Практическое значение и применение в работе.** Проблема она включает в себя не только передачу знаний о природе и экологии, но и создание условий для развития глубокой эмоциональной связи детей с окружающей средой, а также формирование навыков и привычек, способствующих устойчивому взаимодействию с природой. В практической работе это можно реализовать через целый ряд направлений и методов.

**Литература**

1. Р.Р. Алиева и Ш. Г. Хасанова “Формирование экологической культуры у младших школьников в условиях природопользования” // Журнал “Наука и образование”.

2. Глазунова О.В., Маркова Л.А. Формирование у младших школьников готовности к экологической деятельности через систему экологических знаний и умений // Образование и наука, 2019, № 4, с. 101-109.

3. Конева И.В., Потехина Е.А. Экологическое воспитание младших школьников как фактор формирования их нравственного отношения к природе // Современные проблемы науки и образования. 2017. № 5. С. 89-93.

4. Kellert, S. R. (2005). Building for life: Designing and understanding the human-nature connection. Island Press.

**F.Ə. Bədirova**

**Təhsil mühitinin kiçik məktəbli uşaqların təbiətə münasibətinin formalaşmasındakı rolu**
**Xülasə**

Məqalədə kiçik yaşlı məktəblərin təbiətlə münasibətlərin formalaşmasındakı rolu haqqında kompleks yanaşmanın əhəmiyyəti vurğulanır. Bu yanaşma müxtəlif tədris fənlərinə ekoloji təhsilin inteqrasiyasını, real ekoloji problemlərin həllinə yönəlmiş praktiki məşğələlərin təşkilini və müxtəlif təhsil fəaliyyətləri vasitəsilə ətraf mühitə hörmətli münasibətin tərbiyəsini əhatə edir. Həmçinin təhsil mühitinin müasir ekoloji çağırışların dərk edilməsi üçün zəruri olan tənqidi düşüncənin inkişafındakı və ətraf mühitin qorunması sahəsində fəal vətəndaş mövqeyinin formalaşdırılmasındakı rolu qeyd edilir.

Təsirli ekoloji təhsilin, şagirdləri ekoloji fəaliyyətə cəlb etməyə və təbiətlə uyğun yaşam tərzinin formalaşdırılmasına motivasiya edə bilən dəstəkləyici, stimullaşdırıcı və maraqlı təhsil mühitinin yaradılması tələbi vurğulanır. Bu, yalnız nəzəri təlimi deyil, həm də praktik bacarıqların inkişafını, emosional cəlb olunmanı və hər bir şagirdin şəxsi inkişafını əhatə edir.

**F.Ə. Badirova**

**The role of the educational environment in shaping attitudes towards nature in young schoolchildren**
**Summary**

The article emphasizes the importance of a comprehensive approach in shaping young schoolchildren's relationships with nature. This approach encompasses the integration of environmental education into various teaching subjects, the organization of practical activities aimed at solving real environmental problems, and the cultivation of respectful attitudes towards the environment through various educational activities. Additionally, the role of the educational environment in developing critical thinking necessary for understanding modern ecological challenges and in shaping an active citizen's stance towards environmental protection is noted.

It highlights that effective environmental education requires the creation of a supportive, stimulating, and engaging educational environment that can motivate students to actively participate in ecological activities and to develop a lifestyle in harmony with nature. This involves not only theoretical teaching but also the development of practical skills, emotional engagement, and the personal development of each student.

**Redaksiyaya daxil olub: 05.04.2024**

*UOT 372.3/.4*

# KİÇİK MƏKTƏBLİLƏR ARASINDA ƏMƏKDAŞLIĞIN İNKİŞAFININ SOSİAL VƏ PEDAQOJİ ASPEKTLƏRİ

**Nuranə Nazim qızı Abdullayeva**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCİD:** 0009-0002-5787-6508
**E-mail:** nuraneabdullayeva18@gmail.com

***Açar sözlər:*** *kiçik məktəbli, müəllim, əməkdaşlıq, sosial, pedaqoji.*
***Ключевые слова:*** *маленький школьник, учитель, кооперативный, социальный, педагогический.*
***Key words:*** *student, teacher, cooperative, social, pedagogical.*

Əməkdaşlıq pedaqogikası 1980-ci illərin ən əhatəli pedaqoji ümumiləşdirmələrindən biridir. Bu, təhsildə çoxsaylı innovativ proseslərin yaranmasına səbəb olmuşdur. Birgə pedaqogikanın yaradıcı pedaqogika ilə müəyyən oxşarlıqları var ki, bu da uşaqlara təlim prosesində yaradıcı yanaşmağı və öz gələcəyinin yaradıcısı olmasını öyrədir. Pedaqogikanın hər iki sahəsində uşaq fərdi yaradıcı şəxsiyyət kimi qəbul edilir ki, onun ehtiyac və qabiliyyətlərinin tam inkişafına kömək etmək lazımdır. Müəyyən mənada pedaqoji əməkdaşlıq ideyası XX əsrin əvvəllərindəki ilk pedaqoji hərəkatlar - Maria Montessori pedaqogikası və Rudolf Steiner tərəfindən yaradılmış Valdorf pedaqogikasını əks etdirir [6, s.21]. Deyə bilərik ki, onlar digər pedaqoji cərəyanlarla yanaşı, yeni pedaqoji ideyanın əsasını təşkil etmişlər. Eyni zamanda, onlardan yalnız ən yaxşıları və zamanla sınaqdan keçirilmişlər götürülmüşdür.

Beləliklə, əməkdaşlıq pedaqogikası pedaqoji baxışlar sistemi, eləcə də XX əsrin 80-90-cı illərinin pedaqogikasında sosial-pedaqoji hərəkat, onun hakim totalitar pedaqogikanın antipodu kimi humanist qoludur. Əməkdaşlıq pedaqogikası həmin illər üçün yeni, qeyri-ənənəvi istiqamətdə təhsilin bütün subyektləri (şagird, ailə, müəllim və məktəb) arasında münasibətlər problemlərini həll etdi. O, pedaqogikanın inkişafının humanist qolunu təmsil etdi, tədris və tərbiyənin alternativ forma və metodlarının formalaşması üçün əsas oldu. Hal-hazırda müasir məktəblərdə müəllim və şagirdlər arasında fikir ayrılıqları və sürtünmələr getdikcə daha çox özünü, xüsusən də orta məktəbdə büruzə verir. Nəsillər arasında maraqların toqquşması getdikcə daha çox olur. Lakin müəllimlər pedaqoji ünsiyyət tərzinin buna necə təsir etdiyini görmür, bəziləri isə görmək istəmir. Bir mövqe tutaraq, nəticələrdən asılı olmayaraq, ondan yapışmağa çalışırlar. Ancaq münaqişə vəziyyətində bu və ya digər davranışa hansı pedaqoji ünsiyyət tərzinə uyğun olduğunu daha aydın təsəvvür edə bilsək, məktəbdə yaranan bir çox, hətta hamısı deyil, qarşıdurmaların qarşısını almaq olar. Bütün təlim prosesi ümumiyyətlə pedaqoji ünsiyyət tərzinin seçimindən asılıdır.

Prof. H.Ə. Əlizadə qeyd edir ki, hər bir müəllimin sinifdəki görünüşü sosial təmasların tellərinin mürəkkəb birləşməsinə bənzəyir [3, s.88]. Bu əlaqə çox güclü olmalı, eyni zamanda müəllim və şagirdlərin mənəvi həyatını birləşdirməlidir. Bu cür əlaqəyə nail olmazdan əvvəl müəllim və şagird münasibətlərinin demokratikləşdirilməsi problemini həll etmək lazımdır.

Prof. A.N. Abbasova görə, məktəbdə iki əsas fiqur müəllim və şagirddir. Onların sinifdə, dərsdənkənar fəaliyyətlərdə və asudə vaxtlarında ünsiyyəti təhsil prosesinin səmərəliliyinin vacib şərtinə, şagird şəxsiyyətinin formalaşması vasitəsinə çevrilir [1, s.18]. Amma indi

məktəb həyatının demokratikləşməsi, xüsusən özünüidarənin inkişafı istiqamətində geniş axtarışlar aparıldığı bir vaxtda təhsilə avtoritar-bürokratik, necə deyərlər, imperativ yanaşma faktları ilə qarşılaşırıq.

Bəzən məktəblərdə belə bir vəziyyətlə qarşılaşa bilərik: müəllimlər öyrənmə və nizam-intizamı təkmilləşdirməyə can atırlar, lakin yanlış yol - şagirdlərə qarşı mübarizə yolunu seçirlər, onları öz iradələrinə tabe etməyə çalışırlar və çox vaxt şəxsiyyət kimi bir anlayışı unudurlar. Nəticədə iki əks düşərgə yaranır: ümumi məqsədlər naminə deyil, öz maraqlarını müdafiə etmək üçün mübarizə aparan müəllimlər və şagirdlər. Digər nəticə isə şagirdlərin müəllimlərin və məktəblərin tələblərini rədd etməsidir.

Müəllimlər heç də həmişə təmasların təşkilində onların aparıcı rolundan xəbərdar deyillər. M. Sarıtaş ünsiyyətdə çətinliklər yarandıqda, onların təxminən 25%-i fəsadların "şagirdlərdən qaynaqlandığını" və onların pis davranışlarının nəticəsi olduğuna inanır [5, s.181]. Təəssüf etməliyik ki, mentor münaqişə vəziyyətinin yaradılmasında çox vaxt əhəmiyyətli olan "töhfəsindən" xəbərdar deyil. Müəllim və şagirdlər arasında ünsiyyətdə əsas şey hörmət və tələbkarlığa əsaslanan münasibətlər olmalıdır. Pedaqoji ünsiyyət müəllimin sinifdə və sinifdən kənarda şagirdlərlə əlverişli mühit yaratmağa yönəlmiş peşəkar ünsiyyətidir. Müəllimlə şagirdlər arasında ünsiyyət hər cür mənfi emosiyaları aradan qaldırmalı, anlama sevinci, fəaliyyət susuzluğu oyatmalı, "təhsil prosesinin sosial-psixoloji optimallaşdırılmasına" töhfə verməlidir.

Müəllimin ünsiyyətinin xarakteri də fənn hazırlığı ilə müəyyən edilir. Onun şəxsiyyətinin keyfiyyətləri də bu prizmadan qavranılır. Müəllimin ünsiyyətdə fərdi iştirakçı kimi mövqeyini, şagirdlərə nə dərəcədə diqqət yetirdiyini təhlil etmək bacarığının inkişafı daha az əhəmiyyət kəsb etmir.

Pedaqogikada müxtəlif tipli "lider"lərin sosial-psixoloji portretinin aydın xüsusiyyətləri işlənib hazırlanmış, onların komanda üzvləri ilə ünsiyyət texnikası təhlil edilmişdir. Ünsiyyətin ikinci tərəfinə - qarşılıqlı əlaqəyə diqqət yetirərək əsas liderlik üslublarını nəzərdən keçirək:

— Avtoritar üslub;
— Demokratik üslub;
— Liberal üslub [6, s.48].

Ən pis liderlik tərzi liberal üslubdur. Onunla iş, bir qayda olaraq, daha az yerinə yetirilir və keyfiyyəti daha pis olur. Şübhəsiz ki, daha çox arzuolunan və əlverişli üslub müəllim və şagirdlərin qarşılıqlı əlaqəsinin demokratik üslubudur. Demokratik üslub bütövlükdə kollektivlə və fərdi olaraq onun hər bir üzvü ilə qarşılıqlı əlaqənin effektivliyinin əsası və şərtidir. Yenilikçi müəllimlərin təcrübəsində müəllim və şagirdlər arasında münasibətlərin demokratikləşməsi istiqamətində yenidən qurulmasını müşahidə edirik. Burada demokratikləşmə elmi tövsiyələr, konkret tapşırıqlar və şərtlər nəzərə alınmaqla yaradıcı və işgüzar yanaşmadır. Təhsil strukturlarında münasibətlərin demokratikləşməsi probleminə həm indi, həm də yaxın gələcəkdə xüsusi əhəmiyyət verilir.

Demokratik üslub münaqişədə davranış strategiyası kimi əməkdaşlıq, uyğunlaşma və münaqişə vəziyyətlərinin həllində yumşaq, barışıq tərzi ilə xarakterizə olunur. İntuisiya həm də vacib keyfiyyətdir, lakin onu inkişaf etdirmək lazımdır, çünki intuisiya insanın öz üzərində uzunmüddətli praktik işinin nəticəsidir. Düşünmək olmaz ki, münasibətlərin demokratikləşməsi müəllimin hərəkətlərində tam özbaşınalıq deməkdir, burada azadlıq hamı tərəfindən qəbul edilmiş zərurətdir.

"Salam, uşaqlar!" kitabında Ş.A. Amonaşvili bu sözləri vurğulamışdır: "Hər dərsi müəllim uşaqlara hədiyyə kimi şərh etməlidir" [2, s.224]. Müəllim-şagird münasibətində birgə təlim

prinsipi şagirdin humanist yanaşmasında ifadə olunur. Müəllim və şagirdlərin əməkdaşlığı prinsip, tədris metodu və hətta yanaşma kimi başa düşülə bilər. Uşaq başqa insanlarla münasibət qurmadan şəxsiyyət kimi formalaşa bilməz. İnsan bioloji orqanizm olaraq uşaqlıqdan başqa insanlarla ünsiyyətə və münasibət qurmağa ehtiyac duyur. İnsanların özləri ictimai münasibətlərin, insanın şəxsiyyət və qabiliyyətlərinin məhsuludur, digər keyfiyyətlər ictimai münasibətlərdə formalaşır. Beləliklə, müəllim-şagird əməkdaşlığı cəmiyyətin inkişafı üçün müasir tələblərə cavab verən təhsil konsepsiyası sayıla bilər.

Pedaqoji əməkdaşlığın mahiyyəti ondan ibarətdir ki, müəllim tədris prosesini idarə etməkdə şagirdlərə arxalanır. Onları öz köməkçisi hesab edir, tədris prosesini təşkil edərkən, onlarla birgə problemləri həll edərkən onların fikirlərini, mülahizələrini, istək və təkliflərini nəzərə alır. Bu prosesdə müəllim uşaqları təlim prosesinə cəlb etməyə çalışır ki, onlar müəllimlə birlikdə təhsil prosesinin tamhüquqlu iştirakçısı və təşkilatçısı olur. Eyni zamanda, tədris prosesində müəllimin, tərbiyəçinin köməkçisidir.

Pedaqoji əməkdaşlığın nəticələrini formalaşdıraq:

I. şagird üçün:

— birgə fəaliyyət üçün motivasiyanın genişləndirilməsi və gücləndirilməsi;

— müvafiq hüquq və vəzifələrə malik cəmiyyətin üzvü kimi özünü dərk etməsi;

— şəxsiyyətlərarası qarşılıqlı əlaqə prosesində fərdi üslubun formalaşması;

— şəxsi əks etdirmənin inkişafı;

— təhsil (və digər) fəaliyyətin subyektinə çevrilməsi;

— "Mən konsepsiyası"nın aktiv formalaşdırılması;

II. bütün sinif üçün:

— sinifdə təhsil və idrak mühitinin optimallaşdırılması;

— təhsil fəaliyyətlərində və ondan kənarda əməkdaşlıq bacarıqlarını inkişaf etdirilməsi;

— tədris və məktəbdənkənar fəaliyyətlərin prosesi və nəticəsi üçün fərdi və kollektiv məsuliyyətin inkişafı;

— problem və münaqişə vəziyyətlərində optimal qarşılıqlı əlaqə üçün bacarıqların inkişafı;

— şəxsiyyətlərarası münasibətlərdə əməkdaşlığın təsirlərini birləşdirən qiymətləndirmə və qrup əks etdirmə sisteminin inkişafı;

— komandanın dəyəryönlü birliyinin formalaşması [4, s.167].

**Problemin aktuallığı.** Kiçik məktəblilər arasında əməkdaşlığın inkişafının sosial və pedaqoji aspektləri müxtəlif mövqelərdən nəzərdən keçirilir. Əməkdaşlıq pedaqogikasının əsas ideyaları arasında məcburiyyətsiz öyrənmə, irəliləmə, seçim azadlığı, müəllim və şagirdlərin birgə fəaliyyəti, proksimal inkişaf zonasında öyrənmə, şagirdin yaradıcılıq qabiliyyətlərinin və özünə hörmətinin inkişafı kimi məqamları qeyd etmək olar. Məqalədə şagirdlər arasında əməkdaşlığın sosial və pedaqoji aspektlərinə toxunulduğuna görə onu aktual hesab edə bilərik.

**Problemin elmi yeniliyi.** Bu məqalədə kiçik məktəblilər arasında əməkdaşlığın inkişafının sosial və pedaqoji aspektləri barədə sistemli şəkildə məlumat verilmişdir.

Bu məqalədə elmi ədəbiyyatda "əməkdaşlıq" anlayışı haqqında geniş məlumat verilmişdir.

Bu məqalədə pedaqoji əməkdaşlığın, müəllim-şagird əməkdaşlığının formalaşdırılması və nəticəsindən geniş bəhs olunmuşdur.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

**Ədəbiyyat**

1. Abbasov A.N. Pedaqogika: müxtəsər konspekt və sxemlər. Bakı: Mütərcim, 2007, 80 s.
2. Əhmədov H.H. Pedaqogika. Bakı: Elm və təhsil, 2018, 454 s.
3. Əlizadə H.Ə. Sosial pedaqogika. Bakı: Bakı Universiteti, 2013, 365 s.
4. Gündüz Y., Can E. Öğrenci görüşlerine göre ilköğretim ve ortaöğretim öğretmenlerinin sınıf yönetimi ilkelerine uyma düzeyleri // Kuram ve Uygulamada Eğitim Yönetimi Dergisi, cilt 19, sayı 3, 2013, s.419-446.
5. Sarıtaş M. Öğretmen adaylarının değerlendirmelerine göre sınıfta istenmeyen öğrenci davranışlarını değiştirmek ve düzeltmek amacıyla yararlanılan stratejiler // Uludağ Üniversitesi Eğitim Fakültesi Dergisi, XIX (1), 2006, s.167-187.
6. Джонсон Д., Джонсон Р., Джонсон-Халубек Э. Методы обучения. Обучение в сотрудничестве. СПб.: 2001, 256 с.

**Н.Н. Абдуллаева**

**Социально-педагогические аспекты развития взаимодействия между младшими учениками**
**Резюме**

Таким образом, необходимость и возможность включения сотрудничества в образовательный процесс определяются ожиданиями на разных уровнях: учебно-методическом (технологии образовательного сотрудничества, интерактивное обучение и т. д.), социально-педагогическом. Это ясно следует из новых образовательных стандартов, которые включают в себя следующие результаты обучения и воспитания школьников. Таким образом, учебная деятельность школьников в кооперативном формате в большей степени отвечает этим правилам, чем традиционная классно-урочная система.

**N.N. Abdullayeva**

**The social and pedagogical aspects of improving coorperation among young school children**
**Summary**

Thus, the necessity and possibility of including cooperation in the educational process is determined by expectations at different levels: teaching-methodical (technologies of educational cooperation, interactive training, etc.), social and pedagogical. This clearly follows from the new educational standards, which include the following among the outcomes of schoolchildren's education and upbringing. Thus, the educational activity of schoolchildren in the cooperative format meets these rules more than the traditional class-lesson system.

**Redaksiyaya daxil olub: 06.03.2024**

*UOT 372.3/.4*

# I SİNİF ŞAGİRDLƏRİNİN MƏKTƏBƏ ADAPTASİYASI

**Alagöz Məhəmməd qızı Şabanova**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCİD:** 0009-0003-6557-6350
**E-mail:** Psixoloq.shabanova@mail.ru

***Açar sözlər:*** *təhsil, məktəb, ibtidai sinif, şagird, I sinif, adaptasiya, uyğunlaşma, motivasiya, psixologiya, pedaqogika.*

***Ключевые слова:*** *образование, школа, начальный класс, ученик, первый класс, адаптация, мотивация, психология, педагогика.*

***Key words:*** *education, school, primary class, student, first grade, adaptation, motivation, psychology, pedagogy.*

Birinci sinif şagirdin məktəb həyatında ən vacib il hesab olunur. Məktəb mühitinə düzgün uyğunlaşma təlim prosesinə müsbət təsir göstərir, yeni biliklər əldə etməyə həvəsləndirir, yeni biliklərə inteqrasiyanı, yoldaşlıq və dostluq münasibətlərinin formalaşmasını asanlaşdırır.

Bağçadan sonra məktəbə alışmaq, demək olar ki, bütün uşaqlar üçün çətinlik yaradır. Məktəbəqədər yaşda uşaqdan fənlər tələb olunmur, dərslər oyun şəkildə keçirilir, uşaqlar qaçmağa, oynamağa vaxt tapır, yuxu və istirahət üçün bir saat ayrılırdı. Birinci sinifdə isə onların həyat rejimi dəyişir və uşaqlar dəyişən şərtlərə uyğunlaşmalı olurlar. (1, s.220).

I sinif şagirdlərinin yeni şəraitdə qarşılaşdıqları bəzi amillər onların məktəbə uyğunlaşmasına çətinlik yaradır:

- yeni gündəlik rejim;
- məktəbdə qarşılaşdıqları qaydalar və məhdudiyyətlər;
- sinif yoldaşları və müəllim ilə münasibətlər qurmaq ehtiyacı
- uşaq üçün yeni mühit yeni məsuliyyətlər və tələblər.

Məktəbə adaptasiya prosesi 1-ci sinfə yeni daxil olan şagirddən məktəbə müəyyən psixoloji hazırlıq səviyyəsi tələb edir. Müasir dövrdə müəyyən olunmuşdur ki, məktəbə psixoloji hazırlıq inteqral, mürəkkəb quruluşlu bütöv bir təhsildir və onun struktur komponentləri bir-biri ilə ierarxik olaraq bağlıdır.

L.A.Venger, Y.L.Kolominski, E.A.Panko və digər psixoloqların tədqiqatlarına əsaslanaraq hazırda məktəbə hazırlığın struktur komponentlərini aşağıdakı kimi göstərmək olar:

**Sosial-psixoloji hazırlıq** - uşaqda elə keyfiyyətlərin formalaşmasıdır ki, bu keyfiyyətlər ona sinif yoldaşları və müəllimlə əlaqə yaratmağa kömək etsin. Uşaq məktəbə, sinfə gəlir və burada uşaqlar ümumi işlə məşğuldurlar. O başqa uşaqlarla qarşılıqlı münasibətlər qura, uşaq cəmiyyətinə daxil ola, yoldaşları ilə birlikdə fəaliyyət göstərə, lazım gəldikdə güzəştə gedə və özünü müdafiə edə bilmək bacarığına malik olmalıdır. Beləliklə, bu komponent uşaqdan başqaları ilə ünsiyyət tələbatının olmasını, uşaq qrupunun maraq və ənənələrinə tabe ola bilmək, məktəb təlimi şəraitində məktəblinin rolunu yerinə yetirə bilmək bacarığını tələb edir.

**İntellektual hazırlıq** - ətraf aləm haqqında müəyyən biliklərin olmasını və idrak proseslərinin inkişafını tələb edir. Bunun üçün uşaqda lazımi bacarıqları formalaşdırmaq zəruridir. Buraya dərs tapşırığını seçmək və onu müstəqil fəaliyyətinin məqsədinə çevirə bilmək bacarığı aiddir. Belə əməliyyat uşaqdan intellektual inkişafın müəyyən səviyyəsindən başqa, ger-

çəkliyə dərk olunmuş münasibət, təəccüblənmək, yeniliklərin səbəblərini axtara bilmək qabiliyyətini də tələb edir.

**Emosional-iradi hazırlıq** - o zaman formalaşdırılmış hesab olunur ki, uşaq qarşısına müəyyən məqsəd qoya bilir, fəaliyyət planı müəyyənləşdirir və onun həyata keçməsinə çalışır. Eyni zamanda uşaqda emosional sabitliyin müəyyən səviyyəsi, lazım gəldikdə öz affektiv hərəkətlərini tənzim edə bilmək bacarığı tələb olunur.

Müşahidə olunan məktəb təcrübələrinə əsasən demək mümkündür ki, məktəbə adaptasiya prosesi sinir sisteminin xüsusiyyətlərinə əsasən bəzi uşaqlar üçün məktəbə uyğunlaşma digərlərinə nisbətən daha çətin ola bilir. Əsasən ibtidai sinifdə məktəbə adaptasiya prosesində çətinlik çəkən şagirdlər aşağıdakılardır:

• **Hiperaktiv uşaqlar.** Onların konsentrasiyası az olur, psixi xüsusiyyətlərinə görə daim hərəkət etməli və oturmamalıdırlar, parta arxasında bütöv bir dərs oturmaq onlar üçün əsl işgəncədir. Belə şagirdlər çox vaxt sinifdə nizam-intizamı pozurlar.

• **Yorğunluq həddi yüksəlmiş uşaqlar.** Passiv və ya tənbəl uşaqlarda demək olar. Bunun səbəbi fərdi xarakterik xüsusiyyətlər, ailənin xüsusi yanaşması və ya xroniki xəstəliklər ola bilər. Belə məktəblilər tapşırıqları yerinə yetirməkdən yayına bilər və bu hal onların akademik uğurlarını azaldır.

• **İstedadlı birinci sinif şagirdləri.** Məktəbə girməzdən əvvəl belə uşaqlar artıq geniş bilik ehtiyatına malik olur və tədrisin ilk ayları onlar üçün sadəcə təkrar, cansıxıcı olur. Buna görə də oynaya və dərsə qulaq asmaya bilərlər.

• Məktəbdə uyğunlaşma problemləri **valideynlərin tələblərinin artması** ilə bağlı ola bilər. Valideynlər nəzərə almalıdır ki, şagirdin məktəb mühitinə alışması uzun çəkə bilər və bu müddətdə uşaqdan çox şey (böyük akademik uğurlar) gözləmək lazım deyil.

Məktəbə uyğunlaşma prosesində valideynlər mühüm rol oynayır. Onların övladlarına yanaşma tərzi məktəbə adaptasiya prosesini asanlaşdıra və ya çətinləşdirə bilər. Şagirdin yeni bir şəraitə alışma dövrü hər şagirdin fərdi psixoloji xüsusiyyətlərinə uyğun olaraq fərqli müddət çəkə bilər. Bu müddət vəziyyətə uyğun olaraq iki həftədən altı aya qədər çəkə bilər. (3, s.114)

Birinci sinif şagirdinin məktəbə uyğunlaşması uşaqda **düzgün motivasiya** yaradılmasından başlayır. Şagirdin səhər məktəbə getmək istəyi məhz bununla əlaqəlidir. Məktəbə yeni cəlb edilən tələbənin öyrənmək üçün hər hansı cəhdləri nəticələrindən asılı olmayaraq yeni bir şey diqqəti cəlb etməlidir, ana və ata dəstəyini uşaq daim hiss etməlidir. Uşaq ailədən psixoloji dəstək hiss edərsə, onun heç bir qorxusu olmayacaq yeni bilinməyənlə üzləşmək və uğurlu adaptasiya üçün son dərəcə vacibdir.

**Problemin aktuallığı.** Müasir cəmiyyətdə uşaqlıqda formalaşan uyğunlaşma qabiliyyəti getdikcə daha çox əhəmiyyət kəsb edir. Bu bacarığın mühüm göstəricisi müəyyən sayda uşaq üçün minimum səviyyəyə çatmayan məktəb hazırlığıdır. Təcrübə göstərir ki, adaptasiya mürəkkəb quruluşa və mənşəyə malik çoxşaxəli hadisədir. Məktəbdə şagirdlərin təlimdəki geriliyini azaltmaq, hətta bəzi hallarda aradan qaldırmaq (qarşısını almaq) sahəsində məktəb tərəfindən toplanmış təcrübəyə baxmayaraq, bu problem aktual olaraq qalır.

**Problemin elmi yeniliyi**. Məktəbə yeni başlayan ibtidai sinif şagirdlərinin adaptasiya prosesinə təsir edən amillərdən ibarətdir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Dissertasiya materiallarından pedaqoji ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri, ibtidai sinif müəllimləri, kiçik sinif şagirdlərinin valideynləri ilə işdə istifadə oluna bilər.

**Ədəbiyyat**

1. Abbasova A.R. Müasir dövrdə gənclərin sosial mühitə adaptasiyasının psixoloji problemləri: Magistr dissertasiyası. Bakı, 2014.
2. Адаптация социальная / Психологический словарь. М., 1996.
3. Həmzəyev M.Ə. Pedaqoji psixologiya. Bakı: Maarif, 2001, 296 s.
4. Əliyev R.İ. Psixologiya tarixi: Dərslik. Bakı, 2006, 381 s.
5. Ələsgərova S.R. Təlimdə geri qalan şagirdlərlə işin təşkili // Azərbaycan dili və ədəbiyyatı tədrisi, 2018, № 3, s. 9-13.

**А.М. Шабанова**

**Адаптация первоклассников к школе**
**Резюме**

Первый год обучения в школе - чрезвычайно сложный, переломный период в жизни ребенка. На смену беззаботным играм приходят ежедневные учебные занятия. Они требуют от ребенка напряженного умственного труда, активизации внимания, сосредоточенной работы на учебных занятиях, удержания правильной рабочей позы. Занятия в школе, а также увлечение многих первоклассников телевизионными передачами, телефонами приводят к тому, что двигательная активность ребенка становится в два раза меньше, чем это было до поступления в школу. Потребность же в движении остается большой. Ребенка, пришедшего впервые в школу, встретит новый коллектив детей и взрослых. Ему нужно установить контакты со сверстниками и педагогами, научиться выполнять требования школьной дисциплины, новые обязанности, связанные с учебной деятельностью.

**A.M. Şabanova**

**Adaptation of first-graders to school**
**Summary**

The presented paper is devoted to finding out and analyzing the opinions of primary education teachers on the causes of the unsuccessful adaptation of current schoolchildren to the beginning of systematic education. To find out the above issues, pedagogical research was carried out at selected primary schools in Slovakia. The implementation of the research and the subsequent analysis of the research results confirmed that the length of teachers' pedagogical practice has a statistically significant effect on their views on the causes of adaptation difficulties in emotional, social, intellectual, and psychomotor areas of children's school readiness.

**Redaksiyaya daxil olub: 28.03.2024**

***RİYAZİYYATIN TƏDRİSİ METODİKASI***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ МАТЕМАТИКИ***
***METHODS OF TEACHING MATHEMATICS***

*UOT 372.851*

# ALQORİTMLƏR NƏZƏRİYYƏSİNDƏ ASSOSİATİV HESABLAMA

**Qurban İsa oğlu Əliyev**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti*
**E-mail:** qurban1919@mail.ru

**Səkinə İmran qızı Səfiyeva**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*
**ORCİD:** 0000-0002-7251-1673

***Açar sözlər:*** *alqoritm anlayışı, assosiativ hesablama, əlifba, söz, nizamlanmış əvəzləmələr.*
***Ключевые слова:*** *понятие алгоритма, ассоциативное исчисление, алфавит, слово, упорядоченные замены.*
***Key words:*** *algorithm concepts, associative computing, alphabet, word, ordered permutations.*

Alqoritmin xassələrindən biri onların konstruktiv obyektlərlə əlaqədar olmasıdır. Belə ki, natural ədədlər çoxluğu, tam və rasional əmsallı çoxhədlilər, rasional əmsallı tənliklər və onların sistemləri və s. konstruktiv obyektlərdir. Bu obyektlər üzərində biz müəyyən əməliyyatlar yerinə yetiririk. Mücərrəd əlifba isə müəyyən sonlu sayda simvollar çoxluğudur. Həmin simvolları bir-birinə qoşmaqla sözlər düzəldirik, sözlərdən isə cümlələr düzəldirik. Nəticədə sözlər üzərində hesab yaranır. Deməli, bu hesabi sözlər çoxluğu və əvəzləmələrin sistemindən ibarətdir. Bu obyektləri müəyyən sonlu əlifbanın sözləri vasitəsilə təsvir etmək, başqa sözlə kodlaşdırmaq olar.

Tutaq ki, bizə elementləri cüt-cüt fərqli olan müəyyən sonlu simvollar çoxluğu - əlifba verilmişdir. A=$\{a_1, a_2, \dots a_n\}$. Əlifbanın təşkil edən $a_i$ simvolları hərflər adlanırlar.

A əlifbasında söz əlifbanın hərflərindən düzəldilmiş və soldan sağa yazılan hərflər ardıcıllığına deyilir.

Məsələn: a) Onluq say sistemində A=$\{0, 1, 2, 3, 4, 5, 6, 7, 8, 9\}$ əlifbasında istənilən natural ədədin yazılışı 12, 4, 123, 432, 1011 sözdür.

b) Fərz edək ki, A=$\{0, 1\}$. Onda istənilən 000, 001, 0101, 1101, 1111, .... ikili ədədi A əlifbasında sözdür.

c) Əgər A=$\{a, b, c\}$ olarsa, onda b əlifbada aşağıdakı yığımlar sözlər olacaqdır:

abcc, cbbabbc, b, bbb, $\wedge$ (burada heç bir hərfi saxlamayan boş sözü göstərir).

Sözdə hərflərin sayı sözün uzunluğu adlanır. Boş sözün uzunluğu sıfra bərabərdir.

Eyni bir A əlifbasında iki P və Q sözləri eyni cür yazılmışlarsa, yəni uyğun mövqelərdə eyni simvollar yazılmışdırsa, onda onlar bərabər sözlər adlanırlar və P=Q kimi işarə edilirlər.

Eyni bir A əlifbasında iki P və Q sözləri üçün P sözünün sağına Q sözünün yazılması ilə alınan sözə P və Q sözlərinin kompozisiyası deyilir və Po Q və ya PQ kimi işarə olunur. Məsələn, əgər P=3431 və Q=569 olarsa, onda PQ=3431569, QP=5693431 olar.

Aydındır ki, sözlərin kompozisiyası komutativ deyil (PQ$\neq PQ$), lakin assosiativdir, yəni

əgər eyni bir A əlifbasında P.Q və R sözləri verilmişdirsə, onda (PoQ)oR=Po(QoR) = PQR.

Məsələn, P=321, Q=345, R=21 olarsa, onda

(PoQ)oR=(321o345)o21=321345o21=32134521;

Po(QoR)=321o(345o21)=321o34521=32134521 olar.

Tutaq ki A əlifbasında iki P və Q sözləri verilimişdir. Əgər Q sözü Q=PRS kompozisiyası şəklində göstərilə bilirsə, onda deyəcəyik ki, P sözü Q sözünə daxildir və ya Q sözü P sözünü özündə saxlayır. Burada R və ya S-boş söz ola bilərlər.

Məsələn, 36 sözü 45367364736 sözünə üç dəfə daxildir. Aydındır ki, hər bir söz özünü və boş sözü saxlayır. Əgər P sözü Q sözünə bir neçə dəfə daxildirsə, onda Q sözünü soldan sağa şərh etməklə birinci, ikinci və s. daxil olmadan danışılır.

Eyni bir A əlifbasında iki P və Q sözləri bir-birilə tire vasitəsilə birləşdirilmişdirsə, (P–Q) onda deyirlər ki, nizamlanmamış əvəzləmə verilmişdir. Əgər iki P və Q sözləri ox vsitəsilə birləşdirilmişlərsə, (P→ $Q$) onda əvəzləmə nizamlanmış adlanır.

Tutaq ki, R sözü P–Q əvəzləməsindən P sözünü saxlayır. P sözünün R sözünə hansısa daxil olmasını Q sözü ilə əvəz edək. Bu zaman R sözündən 1 addıma P–Q əvəzləməsi vasitəsilə yeni bir R1 sözü alınacaqdır.

Əvəzləmə nizamlanmamış olduqda P sözü Q sözünə və Q sözü P sözünə daxil ola bilər. Əgər əvəzləmə P→ $Q$ nizamlanmış olarsa, onda dəyişdirilmə yalnız ox istiqamətində aparılır. Məsələn, R=babba sözünə soldan sağa ab–abb əvəzləməsini tətbiq etsək, R1=babbba sözünü, eyni əvəzləməni sağdan sola tətbiq etsək, R2 = baba sözünü alarıq.

Məsələn, tutaq ki, 1) aa →c, 2) $bb$ → a, 3) cc→ Λ, əvəzləmələri verilmişdir. Onları R = abb sözünə tətbiq etsək, $\{abbc,\ aac,\ cc,\ \Lambda\}$ çoxluğu alınar.

Hər hansı A əlifbasında sözlər çoxluğunun hansısa bir yerləşmə sistemi vasitəsilə alınması assosiativ hesab adlanır. Bu tərifdən alınır ki, konkret hesablamanın verilməsi üçün əlifbanı və bu əlifbada əvəzləmələrin sonlu ardıcıllığını vermək kifayətdir.

Bu tərifdən alınır ki, konkret hesablamanın verilməsi üçün əlifbanı və bu əlifbada əvəzləmələrin sonlu ardıcıllığını vermək kifayətdir. Məsələn, B=$\{a, b, *, 0\}$ əlifbası və onda verilmiş dörd 1) ab→b*; 2) a* →0*; 3) *0 → $0$; 4) 0→ ∧ əvəzləmələri assosiativ hesablama verir. Müəyyən assosiativ hesablamada iki P və Q sözlərindən biri o birindən bu hesablamadan olan hansısa bir əvəzləmənin bir tətbiqi nəticəsində alınırsa, bu sözlər qonşu sözlər adlanırlar.

Tutaq ki, $A=\{a,b\}$, A əlifbasının a və b hərflərindən düzəldilən sözləri nəzərdən keçirək. Burada a, b, ab, ba, aa, bb, aab, aaab və s. yarada bilərik, Bu 2 hərfdən yaradılan bütün sözlər çoxluğunu $A^*$ ilə işarə edək. Burada sonsuz sayda söz vardır. Sözün uzunluğu anlayışı təyin olunur. A*– da 2 hərfdən düzəldilən iki yerli, 3 yerli, 4 yerli və s. Sözlər təşkil etmək olar. 1 yerli sözlər: a və b; 2 yerli sözlər: aa, bb, ab, ba-dır. A*-ya daxil olan sözləri təşkil edən hərflərin sayına onun uzunluğu deyilir. A* çoxluğunda uzunluğu 2 olan dörd söz (aa,ab,ba, bb), uzunluğu 3 olan 8 söz var. Uzunluğu 1 olan sözlərin sayı 2-dir (a,b). Heç bir hərf saxlamayan söz – "0 " uzunluqlu sözün olması qəbul olunub. Boş söz ∧ şəklində işarə edilir.

Praktikada bir sözün başqa söz ilə əvəz edilməsi üçün L↔M, L→M işarələmədən istifadə olunur. Birinci əvəzləmədə L sözünü M sözü ilə əvəz edilməsi icra olunur, ikinci əvəzləmədə L sözünü M sözü ilə əvəz et əmri verilir. Burada qonşu söz anlayışı yaranır.

Ancaq 1 əvəzləmə aparmaqla 1 sözdən başqa söz alınırsa, həmin sözlərə qonşu söz deyilir. Məsələn, ab → ba.

Misal 1. $A_1 = \{a, b, c\}$ əlifbasında aşağıdakı nizamlanmamış əvəzləmələri olan $I_1$ assosiativ hesablanmasına baxaq:

1. ba → ab
2. ca → ac
3. cb→ ***bc***
4. aa → ***c***
5. bb → ***a***
6. cc →∧

R sözünün P sözündən i nömrəli bir əvəzləməsi vasitəsilə alınmasını P⇒R ilə işarə edək.
<u>ababacb</u> və <u>cb</u> sözlərinin ekvivalent olmasını göstərək:

$$a\underline{ba}bacb \overset{1}{\Rightarrow} aa\underline{bb}acb \overset{5}{\Rightarrow} \underline{aa}aacb \overset{4}{\Rightarrow} c\underline{aa}cb \overset{4}{\Rightarrow} \underline{cc}cb \overset{6}{\Rightarrow} cb$$

Assoativ hesaba həndəsədən çoxlu misallar göstərmək olar. Məs. Bir fiqurun ox ətrafında firlanması nəticəsində yeni–yeni sözlər yarana bilər. Sadəlik üçün ABCD düzbucaqlısına baxaq və onların simmetriya oxunu çəkək. Bu düzbucaqlını simmetriya oxları ətrafında fırlatmaqla yeni–yeni sözlər düzəldilir.




ON oxu üzrə simmetriya–elementar çevirmələrdir. İki və daha çox çevirmələrlə düzbucaqlını özünə çevirmək olar.




eyni sözləri adi bərabərliklə işarə edək,

ba = ab (1); aa = ∧ (2); bb = ∧ (3)

Bu hesabla düzbucaqlının öz–özünə çevriməsi arasında əlaqə yaratmaq olar. (1), (2), (3) bərabərliklərindən alınır ki, ixtiyari qonşu sözlər bərabərdir. Təklifin tərsi də doğrudur. aa → ^, bb→^ əvəzləməsini tətbiq etməklə, aa..abb...b sözlərinin ^, a, b, ab sözlərinə ekvivalent olmasını alırıq.

Əgər bu prosesi icra etməklə əvvəlki söz alınırsa, deyirlər ki, alqoritm icra olunur.

Konquryent çevirmələrdə fiqur öz yerini dəyişir. Bu halda deyirlər ki, onlar bərabər deyil. Hər bir konquryent hal yeni bir sözdür. Beləliklə, konquryent çevirmələrin nəticəsində sözlər alınır. Bu assosiativ hesabdır.

Hər bir assosiativ hesablamada sözlərin ekvivalentlik problemi yaranır. İstənilən assosiativ hesablama üçün sözlərin ekvivalentlik problemini həll edən alqoritmi göstərməklə sözlərin ekvivalentliyinin ümumiləşmiş problemini də vermək olar.

Bir çox geniş problemin həll olunması uzun müddət şübhə yaradırdı. Sonralar bu şübhələr aradan qaldırıldı. İsbat olundu ki, ümumiləşmiş problem həll olunmayandır. 1946-1948-ci illərdə A.A.Makarov və E.Post tərəfindən sözlərin ekvivalentlik probleminin həll olunmadığı assosiativ hesablamalara aid misallar qurulmuşlar.

**Problemin aktuallığı.** Müasir dövrdə informasiya texnologiyasının inkişafı nəticəsində alqoritm anlayışı yalnız alqoritm nəzəriyyəsində deyil, həmçinin müasir elmin demək olar ki, bütün sahələrində tətbiq olunur. Alqoritmin riyazi dəqiqləşdirilməsi üsullardan biri də assosiativ hesabdan istifadə etməklə Normal Markov alqoritmin tətbiqidir. Məhz bu da məqalənin aktuallığını şərtləndirir.

**Problemin elmi yeniliyi.** Məqalədə Normal Markov alqoritminin tətbiqində assosiativ hesabdan istifadə olunur. Elmi yenilik ondan ibarətdir ki, məqalədə assosativ hesablamada bir çox misallarla nizamlanmış əvəzləmələr və qrafik sxemlərlə, eləcədə həndəsədən çoxlu misallar vasitəsilə izah olunmuşdur.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə göstərilən materiallardan əsasən alqoritmlər nəzəriyyəsi, informatika, eləcədə təhsildə İKT müəllimləri, magistrlər və bu sahədə tədqiqat aparan şəxslər istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Ə. M. Məmmədov. Alqoritmlər nəzəriyyəsi. Bakı, 2007.
2. R. Hümbətəliyev, H. Tağıyev, Ə.M. Məmmədov və s. Alqoritmlər nəzəriyyəsi. Bakı, 2019.
3. Матросов В.Л. Теория алгоритмов. М., 1989. –188 с.

**К.И. Алиев, С.И. Сефиева**

## Ассоциативные вычисления в теории алгоритмов
## Резюме

В статье рассматривается ассоциативные вычисления в теории алгоритмов. Объясняет ассоциативные вычисления с помощью упорядоченных замен и графических схем. В теории алгоритмов возникает необходимость математического уточнения алгоритма. Одним из них является обычный алгоритм Маркова. Ассоциативное исчисление также используется в обычном алгоритме Маркова.

**Q.İ. Aliyev, S.İ. Safiyeva**

**Associative computing in algorithm theory**

**Summary**

The article discusses associative calculations in the theory of algorithms. Explains associative calculations using ordered substitutions and graphical diagrams. In the theory of algorithms, the need arises for mathematical refinement of the algorithm. One of them is the regular Markov algorithm. Associative calculus is also used in the regular Markov algorithm.

**Redaksiyaya daxil olub: 28.02.2024**

*UOT 372.851*

# HİSSƏ VƏ KƏSR ANLAYIŞLARININ ÖYRƏDİLMƏSİ METODİKASI

**Həmidə Əlimuxtar qızı İsgəndərova**
*Lənkəran Dövlət Universitetinin magistrantı*
**ORCİD:** 0009-0003-9332-058X
**E-mail:** hemide.sgenderova@mail.ru

***Açar sözlər:*** *hissə, kəsr, sadə kəsr, ədədin hissəsi, hissəsi verilmiş ədəd, tam hissə modeli.*
***Ключевые слова:*** *дробь, дробь, простая дробь, дробное число, дробное число, модель целой дроби.*
***Key words:*** *fraction, fraction, simple fraction, fraction of a number, fractional number, whole fraction mode.*

Məktəb riyaziyyat kursunda ibtidai siniflərin riyaziyyat dərslərindəki mövzular elə qurulmuşdur ki, yuxarı siniflərdə riyaziyyat sistematik kursunun öyrənilməsi prosesində şagirdlər hər hansı çətinliklərə rastlaşmasınlar. Bu məqsədlə ibtidai siniflərin riyaziyyat kursu əsasən kəmiyyətlər üzərində düşür. Kəmiyyətlərin ölçülməsi onlar üzərində aparılan çevrilmələr, kəmiyyətlərin xırdalanması istiqamətində aparılan işlər hissə və kəsr anlayışlarının öyrənilməsini rahatlaşdırır. Bu anlayışlar əsasən üçüncü sinifdən başlayaraq əvvəlcə təsvirlər daha sonra hissə və kəsr anlayışları ilə əlaqəli şəkildə verilir. Dördüncü sinifdə şagirdlər sadə kəsrlərlə tanış edilir, ədədin hissəsinin tapılması hissəsinə görə ədədin tapılması məsələ həlli nümunələrində şagirdlərə çatdırılır.

Əyani vəsaitin köməyi ilə şagirdlərin hissə və kəsr anlayışlarını ilə tanış edilməsi həyata keçirilir, lakin əyani vəsaitlərdə dairə üstün tutulmalıdır. Düzbucaqlının bir hissəsi – düzbucaqlı, xətt parçasının bir hissəsi parça olduğu halda dairənin bu hissəsi dairə olmayıb, şəkil etibarilə də dairədən fərqlənir. Ancaq bu o demək deyil ki, biz kvadrat üçbucaq, dairədən istifadə etməməliyik. Ancaq kəsr ədədlərlə ilk tamaşa zamanı dairə və kürəyə oxşayan şəkillərdən istifadə olunur. Ümumilikdə hissə və kəsri öyrənərkən əyaniliyə üstünlük verilməlidir. Əyani vəsaitlərdən istifadə şagirdlərlə zehni gücləndirir.

Hissə anlayışı ilə tanışlıq III sinfin I ilində başlayır. Uşaqları hissə ilə tanış etmək onlarda konkret hissə haqqında dəqiq təsəvvür formalaşdırmaqdır. Praktik yolla daha yaxşı uşaqlarda hissə haqqında anlayışı inkişaf etdirmək lazımdır, məsələn: dairənin dörddə iki hissəsini almaq üçün dairəni dörd bərabər hissəyə bölmək və bu hissələrdən ikisini götürmək lazımdır. Hissə haqqında düzgün təsəvvürü formalaşdırılması üçün kifayət qədər əyani vəsaitlərdən istifadə etmək məsləhət görülür. Təcrübənin göstərdiyi kimi həndəsi fiqurlar daha əlverişlidir.

Vasitənin təkcə müəllimdə yox, şagirdlərdə də olması çox vacibdir. Uşaqları o vaxt hazır şəkildə görə bilirik ki, onlar sərbəst şəkildə, məsələn: dairənin, kvadratın yarısını, parçanın dövrdə birini və s. ala bilsinlər.



Uşaqları hissə ilə necə tanış edildiyini göstərək.

Hər bir şagirddə və müəllimdə əyani vəsait olan bir neçə dairə, kvadrat, düzbucaqlı olmalıdır. Müəllim çalışmalıdır ki, onda olan əyani vəsait uşaqlardakı əyani vəsaitlərdən böyük olsun. İki eyni dairəni götürün. Onlardan birini iki bərabər hissəyə bölün (Necə qatlamaq və kəsmək lazım olduğunu  müəllim göstərir.)

Bu bütöv dairədir, bu isə dairənin yarısıdır, başqa cür deyirik ki, dairənin ikidə bir hissəsi. Bütöv dairədə neçə yarım hissə var? (iki). Onları göstərin, şagirdlər göstərirlər (şəkil 1).



Müəllim:

Düzbucaqlı götürün. Düzbucaqlının ikidə bir hissəsini və ya yarısını necə almaq olar? (Onu iki bərabər hissəyə bölməklə və bu hissələrdən birini götürməklə) əməl edin.

Şagirdlər bunu müxtəlif yollarla edə bilərlər. Məsələn: kvadratı diaqonal üzrə kəsərək iki bərabər üçbucaq ala bilərlər və yaxud da ortadan düz xətt boyunca ayıraraq iki bərabər düzbucaqlı ala bilərlər. Kvadratın iki bərabər hissəyə bölünməsinə aid başqa təklif də irəli sürmək olar.

Müəllim: Dairənin ikidə bir hissəsini necə aldıq? (Dairəni iki bərabər hissəyə böldük və bu hissələrdən birini götürdük). Kvadratın ikidə bir hissəsini necə aldıq? Şagirdlər bu suala cavab verirlər.

Dairənin kvadratın ikidə bir hissəsi necə adlandırılar? (dairənin yarısı kvadratın yarısı).

Bir dairədə neçə yarım dairə var? (iki). Beləliklə uşaqlar başa düşürlər ki, altıda bir parçanın (düzbucaqlı, kağız zolağı) altı bərabər hissəyə bölmək və bu hissələrdən birini götürmək lazımdır.

“Əvvəlcə kvadratın (dairənin) hansı hissənin kəsildiyi (rəngləndiyi) tapın” kimi tapşırıqlar verilir. III sinfin riyaziyyat dərsliyində belə bir maraqlı çalışma verilib.



M,-15sm uzunluqda ipin üçdə bir hissəsini beşdə bir hissəsinin uzunluğunu tapın.

Şagirdlər 15 sm uzunluğunda zolağı kəsrlər sonda üçdə bir hissəsini tapmaq üçün onu üç bərabər hissəyə bölüb, bu hissələrdən birini götürürlər. Uşaqlar praktik olaraq bölməni yerinə yetirirlər. 15:3=5(sm) Cavab: 5sm. Digərləri də bu qayda ilə həll edilir. Daha sonra bu tipdə məsələlər verilir. Əli taxta parçasından 4 sm kəsir.

Bu bütün taxtanın üçdə bir hissəsidir. Taxta hansı uzunluqda idi? Bunun üçün Əlinin kəsdiyi ölçüdə taxta çəkirik.

Müəllimə: Kəsilmiş hissə bütün taxtanın hansı hissəsini təşkil edir?

Şagird: Üçdə bir

Müəllim: Bütün hissənin necə göstərək?

Şagird: Üç dənə 4 sm götürərək.

Müəllim: Niyə?

Şagird: 4 sm taxtanın üçdə bir hissəsidir, bütün taxtada isə üç dənə üçdə bir var.

Müəllimə: Taxta neçə sm idi?

Şagird: 5-i 3-ə vurduq. Misalı yazdıq 5•3=15 Cavab:15

Şagirdlərin kəsr ilə tanışlığı isə IV sinifdə dərs ilinin II yarısında olur. İbtidai siniflər riyaziyyat proqramında kəsr anlayışının öyrədilməsinə dörd saat ayrılıb.

Kəsr anlayışı da hissə ilə tanışlıq kimi əyani vasitələrin köməyi ilə öyrənilir.

III sinifdə "hissələr" mövzusunun tədrisi nəticəsində sadə kəsr haqqında məlumatları vermək üçün şagirdlər kifayət qədər hazırlığa malik olurlar.

Deməli, sadə adi kəsrlər haqqında əyani təsəvvürlərin formalaşdırılması əsaslanır:

1) Praktik işlərə və əyani vasitələrə

2) Hissələr haqqında qazandıqları bilik və vərdişlərə

3) Şagirdlərin intuitiv biliklərinə

"Hissələr" mövzusunun davamı olaraq eyni şeylər qısaca təkrarlanır, uşaqlar müəllim göstərişi ilə dairəni, düzbucaqlının iki və dörd bərabər hissəyə bölünür. Onların ikidə bir, dörddə bir hissələri göstərilir. Aşağıdakı qaydada fiqurların bərabər bölünməsi ardıcıllığı aparılır.



(şəkil 4)

- 2, 4, 8 bərabər hissələrə bölmə
- 3, 6 bərabər hissəyə bölmə
- 5, 10 bərabər hissəyə bölmə

Hissə. İki rəqəmin köməyi ilə yazılır. Dairənin, kvadratın ikidə bir hissəsi bu cür yazılır - $\frac{1}{2}$. 2 rəqəmi dairənin, kvadratın və ya başqa fiqurun (və ya əşyanın) iki bərabər hissəyə bölündüyünü 1 rəqəmi isə bu hissələrdən birinin götürüldüyünü göstərir. Şagirdlər iki bərabər hissəyə böldükdə dairəni yarısına - $\frac{1}{2}$ yazırlar və bu yazılışdakı hər rəqəmin nəyi göstərdiyini izah edirlər. Müəllim şagirdlərə sürət və məxrəc istilahlarını öyrətmək üçün- $\frac{4}{8}$ kəsrini yazaraq bu kəsrin necə olduğunu soruşur.

Şagird - dairəni (kvadratı) səkkiz bərabər hissəyə bölüb, onlardan dördünü götürürük.

Müəllim - Kəsr neçə ədədlə göstərilir?

Şagird - İki ədədlə

Müəllim - xəttin altında yazılan ədəd nəyi göstərir?

Şagird- Bu cür paylardan, hissələrdən neçəsi götürülmüşdür?

Müəllim belə məlumat verir: Xəttin altında olan ədədə məxrəc deyilir. Məxrəc fiqurun neçə bərabər hissəyə bölündüyünü göstərir, amma xəttin üstündə bu cür hissələrin neçəsinin götürüldüyünü göstərir və buna kəsrin sürəti deyilir. Xəttə isə kəsr xətti deyilir. 4 - surətdir; 8 isə məxrəc. Şagirdlər bu istilahları dəftərlərinə yazır. Bunların tərifini söyləyir və sonra da danışıqlarında bunlardan istifadə edirlər.

Kəsrləri öyrənməsinin ən yaxşı yolu onların müqayisəsidir ki, bu da əyani vasitələrin köməyi praktik yolla verilir. Kəsrlərlə əlaqədar həll edilən məsələlər əyaniləşdirilməlidir. İllüstrasiya əsasında kəsrlər oxunur, yazılır və müqayisə edilir.

Kəsrləri müqayisə edilməsini öyrədərkən məxrəcləri 3, 6, 8 olan kəsrlər 5,10 olan kəsrlər, 3, 6, 9 olan kəsrlər ayrılıqda müqayisə edilməsidir. V sinifdə yalnız məxrəcləri bərabər olan kəsrlərin müqayisəsi verilir. Məxrəcləri müxtəlif olan ən müxtəlif kəsrlərin müqayisəsi daha sonrakı illərdə keçirilir. Kəsrlərin müqayisəsi məsələ və çalışmaların həlli ilə daha yaxşı mənimsədilir. Ümumilikdə hissələr haqqında təsəvvürlərin formalaşdırılması üçün əyanilik mühüm rol oynayır, xüsusilə də, həndəsi fiqurlardan dairə və düzbucaqlılar vasitəsi ilə dairənin bərabər hissələrə bölünməsi nəticəsində alınan hissələr dairəyə oxşamadığı üçün görmə yaddaşında daha tez həkk olunur. Buna da iki məzmunda praktik iş aparmaq olar.

1) verilmiş əşyanın bərabər hissələrə bölünməsi

2) alınmış hissələri birləşdirmək, yenidən əvvəlki əşyanın alınması

I-IV siniflərin riyaziyyat kursu öz məzmunu etibarı ilə elə qurmuşdu ki, şagirdlər V-XI siniflərdə riyaziyyatın sistematik kursuna öyrənməkdə çətinlik çəkməsinlər. Aşağıdakı bir neçə məsələ və çalışmalara baxaq.

1) $\frac{1}{4} * \frac{4}{3}; \frac{2}{5} * \frac{4}{5}; \frac{4}{6} * \frac{1}{6}$ kəsrləri verilmişdir. Ulduz işarəsinin yerinə < , > , = işarəsindən uyğun olanı yazmaq tələb olunur. Bunu aşağıdakı kimi izah etmək mümkündür. İki zolaq çəkilir. Hər iki zolaq dörd bərabər hissəyə bölünür. I zolağın bir hissəsi, II zolağın isə üç hissəsi rənglənir. Aşağıdakı şəkil uşaqlara əyani olaraq göstərilir ki,



$\frac{3}{4}$ kəsri $\frac{1}{4}$ kəsrindən böyükdür.

Digər kəsrlərdə bu qayda ilə öyrənilir.

2) IV sinif riyaziyyat kitabında bu tip bir məsələ var: “Uzunluğu 10 sm olan düzbucaqlının sahəsi; tərəfi 8 sm olan Kvadratın sahəsini $\frac{2}{3}$-nə bərabərdir. Düzbucaqlının enini tapın”. Bu kimi məsələləri həll edərkən şagirdlər yalnız kəsr haqqında çalışmalar həll etmir, keçmiş biliklərə söykənərək həm kvadratın, həm də düzbucaqlının sahəsini necə tapıldığın da xatırlayırlar.

Ona görə də şagirdlərə məsələ verərkən onların hərtərəfli inkişafını nəzərə almaq, keçmiş bilikləri xatırlatmaq və möhkəmləndirmək, gələcək mövzulara zəmin yaratmaq lazımdır.

**Problemin aktuallığı.** Təqdim olunan məqalə Riyaziyyatın ibtidai kursunun materialları içərisində çox mühüm tətbiqi əhəmiyyəti olan “hissə və kəsr” anlayışlarının öyrədilməsi metodikasına həsr olunub. Bu anlayışlar şagirdlər tərəfindən nisbətən çətin mənimsənilir.

Ona görə də məqalənin təlimin səmərəliliyinin yüksəldilməsi baxımından çox aktualdır.

**Problemin elmi yeniliyi.** Qeyd olunduğu kimi hissə və kəsr anlayışları ibtidai məktəbin riyaziyyat kursunun əsas anlayışlarından biridir. Onların öyrədilməsinə bir çox metodik yanaşmalar mövcuddur. Müəllimin apardığı tədqiqat işində əsas ideya ondan ibarətdir ki, müx-

təlif cisimlərin bərabər bölünməsi, rənglərdən istifadə etməklə şagirdlərin maraq və diqqətini istiqamətləndirməklə hissə və kəsrlərin düzgün dərk olunmasını və həmçinin onların düzgün müqayisəsini canlı şəkildə (dairələr, kvadrat həmçinin digər fiqurlar üzərində) şagirdlərə çatdırılmasını göstərir. Bərabər kəsrləri daha əyani şəkildə göstərilməsi həyata keçirilir və mahiyyəti düzgün mənimsənilir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Yerinə yetirilən tətqiqat işinin praktik əhəmiyyəti ondan ibarətdir ki, məktəbin ibtidai siniflərində təhsil alan şagirdlər irəli sürülən metotik ideyalardan istifadə etdikdə "hissə və kəsr" haqqında geniş təsəvvürə malik olur və bu anlayışların mənasını düzgün dərk edir və sonrakı mövzuların mənimsəmələrində baza rolunu oynayır.

Onu da qeyd edək ki, irəli sürülən metodik ideya ibtidai sinif müəllimləri, həmçinin tələbələri, magistr və doktorantlar üçün də əhəmiyyətlidir.

### Ədəbiyyat


1. Riyaziyyat proqramı: III-IV siniflər üçün. Bakı, 2006.
2. Həmidov S.S. I-IV siniflərdə riyaziyyatın tədrisi metodikası. Bakı, 2004.
3. Пчелко А.С Методика преподавания арифметики в начальной школе. М., 1949.


**Х.А. Искендерова**

### Методика обучения понятиям частей и дробей
### Резюме

Математика играет важную роль в жизни человека. Изучение и преподавание этого предмета – непростая задача. Тем не менее, мы, учителя, должны объяснять на языке, понятном детям. Для полного понимания понятия частей 1 на уроке обязательно необходимы наглядные пособия.

**H.A. İsgandarova**

### Methodology of teaching consepts of parts and fractions
### Summary

Mathematics plays an important role in human life. Learning and teaching this subject is not an easy task. Nevertheless, we teachers must explain in a language that children will understand. To fully understand the concept of parts and fractions, the lesson definitely needs visual aids

**Redaksiyaya daxil olub: 01.04.2024**

***XARİCİ DİLLƏRİN TƏDRİSİ METODİKASI***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ ИНОСТРАННЫХ ЯЗЫКОВ***
***METHODS OF TEACHING FOREIGN LANGUAGES***

*UOT 372.881.116.11*

# СОПОСТАВИТЕЛЬНОЕ ИЗУЧЕНИЕ ФРАЗЕОЛОГИЗМОВ ПРИ ОБУЧЕНИИ РУССКОМУ ЯЗЫКУ КАК ИНОСТРАННОМУ

**Афаг Аллахверди гызы Садыгова**
*доктор философии по педагогике, доцент*
*Азербайджанский государственный университет культуры и искусств*
**ORCİD:** 0009-0007-6770-2460
**E-mail:** bafaq.sadiqova@mail.ru

***Ключевые слова:*** *процесс обучения, специфика, фразеологические обороты, лексика, коммуникация, словосочетания.*
***Açar sözlər:*** *tədris prosesi, spesifikasiya, frazeoloji birləşmələr, leksika, ünsiyyət, söz birləşmələri.*
***Key words:*** *learning process, specifics, phraseological units, vocabulary, communication, phrases.*

Содержание обучения любому иностранному языку изменяется в соответствии с целями обучения иностранным языкам на конкретном этапе исторического развития системы образования. Проблема комплексного развития коммуникативной деятельности учащихся азербайджанской школы на русском языке является главной проблемой современной методики преподавания русского языка как иностранного. Обучение русскому языку учащихся, живущих в среде другого языка, требуют нового подхода, который отличается от существующих методических систем преподавания русского языка.

При изучении лексики любого языка предусматривается применять различные приемы и методы. Для обоснования методики работы над лексикой при обучении русскому языку необходимо выделить те аспекты, которые представляют наибольшую трудность для обучающихся и вместе с тем важны при практическом овладении русской речью.

К числу таких вопросов относятся лексическое значение слова, объединение ряда лексических значений в одном. Именно здесь мы сталкиваемся с наиболее ярким проявлением специфики родного языка в области лексики. Лексическое значение слова в русском языке и в родном языке обучающихся часто не совпадают по своему объёму, и это приводит к большому количеству лексических ошибок в речи обучающихся.

Рассмотрение ряда вопросов, связанных с лексическим значением слова и с его сочетаемостью с другими словами на материале русского языка, поможет обоснованию подхода к изучению лексики русского языка при работе с обучающимися; выделить тот лексический материал, который представляет наибольшую трудность для обучающихся и который должен быть в центре внимания учителя, определить основные методы при овладении лексикой русского языка.

К числу таких трудностей при обучении русскому языку относится и изучение фразеологических словосочетаний. Фразеологические словосочетания специфичны для

каждого языка и, в основном не переводятся на другие языки. В этом случае нам поможет эквиваленты, имеющиеся на родном языке, хотя не все фразеологизмы имеют эквиваленты. Тогда следует разъяснение того или иного фразеологического словосочетания знакомыми учащимся словами или наглядными пособиями: предпочтительно использование в учебном процессе электронных средств.

Значение того или иного слова или словосочетания следует рассматривать в связи с закономерностями лексической системы в целом. Такой подход к раскрытию значения слова, словосочетания важен и для практики преподавания.

Эффективность обогащения лексического запаса обучающихся зависит от особенностей существующих источников, от специфики их использования, целенаправленности словарной работы. Организация работы по обогащению лексического запаса происходит целенаправленно: путем чтения текстов и работы по этим текстам; путем выполнения различных лексических, лексико-орфографических, лексико-грамматических и других упражнений. В процессе работы над текстом словарный запас обучающихся пополняется эпитетами, сравнениями, метафорами, фразеологизмами. Формирование лексического запаса при работе над текстами учебников по русскому языку связано с комплексным изучением материала курса русского языка [1, с.157].

Фразеологические обороты относятся более сложным единицам. Как и слова, фразеологизмы выполняют различные функции в процессе коммуникации. Фразеология русского языка представляет важную часть системы языка. Без овладения минимумом фразеологического богатства невозможны правильное понимание русской речи, как в устной, так и в письменной форме, свободное общение на русском языке.

Фразеологизм отличается от слова, и усвоение его протекает иначе. Фразеологизм – это особая единица языка с дифференциальными признаками воспроизводимости, семантической целостности, устойчивости, состоящая, в отличие от слова, из двух или более ударных компонентов [2, с.165].

Для употребления фразеологизмов в речи, надо сформировать умение автоматически воспроизводить их как семантически и структурно целую, устойчивую единицу. В выборе способа семантизации фразеологизма и введения его в речь должен осуществляться дифференцированный подход. Прежде всего, целесообразность и эффективность того или иного способа семантизации и введения в речь фразеологизма зависят от лингвистических и лингводидактических его особенностей. По-разному следует раскрывать значение фразеологизмов, имеющих структурно-семантические эквиваленты в родном языке обучающихся и не имеющие их. При раскрытии значения фразеологизма не могут быть механически использованы способы семантизации слова.

Основная масса фразеологических оборотов обладает оценочным значением, то есть выражает положительную или (чаще) отрицательную характеристику лица или предмета. Удачно употребленный фразеологический оборот оживляет речь, делает ее более эмоциональной. Вся работа по обучению фразеологических словосочетаний должна строиться на основе учета тех трудностей, которые вызывают усвоение фразеологической единицы. В практике обучения русскому языку широкое распространение получило раскрытие значения фразеологизма с помощью перевода. Конечно, перевод является одним из экономных приемов семантизации, однако в раскрытии значения фразеологизмов использование его должно быть ограничено. Прием перевода фразеологизма словом или словосочетанием целесообразен на начальном этапе обучения,

если другие приемы оказываются неэффективными вследствие слабого владения русским языком.

Однако применение перевода должно быть строго ограничено на среднем и продвинутом этапах обучения. Нужно иметь в виду, что перевод русских фразеологизмов фразеологическими сочетаниями родного языка связан с большими трудностями. Он целесообразен в случае, если помогает пониманию всей сложной смысловой структуры фразеологизма, обеспечивает его адекватное понимание и правильное употребление. Между тем случаи полного совпадения по семантике, структуре и образной основе фразеологизмов русского и родного языков редки. Точная передача фразеологизмов на родной язык невозможна. Поэтому целесообразно раскрывать значения фразеологизма средствами русского языка. В методике обучения русской фразеологии эффективны следующие приемы семантизации: использование синонимов (лексических эквивалентов и свободных словосочетаний), использование синонимичных и антонимичных фразеологизмов, развернутое толкование на русском языке, введение в контекст. Экономно и эффективно ознакомление обучающихся со значением фразеологизма путем использования синонимов, лексических эквивалентов и свободных словосочетаний. Например: *в двух шагах – рядом, близко; бок о бок – совсем рядом; не покладая рук – усердно; ломать голову – напряженно думать, размышлять и т.д.*

Фразеологические сочетания почти не имеют омонимических им свободных словосочетаний. Особенностью их является то, что входящие в их состав слова могут заменяться синонимическими. Например, *вертеться под ногами – путаться под ногами, почва уходит из-под ног – земля уходит из-под ног, тучи сгущаются – тучи собираются, надевать маску – носить маску, ловить на слове – поймать на слове, с неба свалился – с луны свалился, глаза слипаются – глаза закрываются, бросать на ветер – кидать на ветер, чесать язык – мозолить язык* и т.д.

Фразеологические обороты почти непереводимы на другой язык, так как они имеют целостное значение, а составляющие фразеологизм слова как бы теряют собственное значение. Но есть фразеологизмы, которые имеют эквиваленты на родном языке. Хотя эти словосочетания по своему построению в корне отличаются от русского, но смысл почти полностью совпадает. Например, рассмотрим фразеологизм – *приказал долго жить.* Этот фразеологизм имеет эквивалент на азербайджанском языке – *ömrünü sənə bağışladı.* Значение обоих фразеологизмов одинаковое – *умереть.* И структура обоих словосочетаний одинаковая: состоят из трех слов. Или же фразеологизм *золотые руки* имеет на азербайджанском языке полностью совпадающий по значению эквивалент – *qızıl əllər.* Богатство лексики русского языка дает возможность употребить в разных контекстах синонимичные фразеологизмы.

Как и слова, фразеологизмы выполняют различные функции в процессе коммуникации. В методике обучения русской фразеологии эффективны следующие приемы семантизации: использование синонимов (лексических эквивалентов и свободных словосочетаний), использование синонимичных и антонимичных фразеологизмов, развернутое толкование на русском языке, введение в контекст. Экономно и эффективно ознакомление обучающихся со значением фразеологизма путем использования синонимов, лексических эквивалентов и свободных словосочетаний. Например: *как с неба свалился* и *как снег на голову* – синонимичные фразеологизмы – означают *внезапно, неожиданно; в двух шагах – рядом, близко; бок о бок – совсем рядом; не покладая рук –*

*усердно; ломать голову – напряженно думать, размышлять и т.д.*

По употреблению различаются активные и пассивные фразеологизмы. Редко употребляются фразеологизмы *бить челом – почтительно просить о чем-либо или жаловаться на кого-либо; барашек в бумажке – взятка.* Появились и фразеологизмы-неологизмы: например, *группа риска.*

Самой употребляемой является группа фразеологизмов, которые имеют сниженно-разговорную или разговорно-просторечную стилистическую окраску: *без царя в голове – глуп, недалек; лежать на боку – бездельничать; семь пятниц на неделе – о частых изменениях решений; водить за нос – обманывать; как баран на новые ворота – с тупым недоумением, ничего не соображая (смотрит кто-либо); вставлять палки в колёса – умышленно мешать кому-либо что-либо делать, чинить препятствия; нож в спину – предательское поведение по отношению к кому-либо;*

Фразеологизмы, которые употребляются в современном русском языке, имеют различное происхождение. Есть фразеологизмы, которые возникли в далёком прошлом, другие созданы в последние времена. Но основную часть фразеологизмов составляет фразеологизмы исконно русского происхождения. Например: *бить баклуши, водой не разольёшь, во весь голос, брать за живое, держать язык за зубами, водить за нос, морочить голову, как на ладони, под горячую руку и др.*

Предпочтительно предлагать учащимся задания увлекательного характера. Несмотря на трудность, учащиеся охотно выполняют предлагаемые задания типа: а) скажите эквиваленты этих фразеологизмов на родном (азербайджанском) языке: *Ни рыба ни мясо – nə ətdir, nə də balıq; ломать голову – baş sındırmaq; приказать долго жить – ömrünü sənə bağışladı; держать ухо востро – qulağını şəkləmək; пускать пыль в глаза – gözə kül üfürmək и др.;* 2) предлагаются картинки с разными изображениями и требуется найти соответствующий к картинкам фразеологизм. Учащиеся рассматривают картинки и находят фразеологизм, соответствующий данной картинке; в) найдите фразеологизмы с названиями животных и птиц: *белая ворона, куры не клюют, стреляный воробей, волк в овечьей шкуре, как кошка с собакой, крокодиловы слёзы, купить кота в мешке* и др.; г) предлагаются разные слова, например: *голова, глаза, нос, рука, нога, язык, вода.* Учащиеся должны найти фразеологизмы с этими словами: например, *сломя голову, ломать голову; повесить нос, зарубить на носу; мастер на все руки, сидеть сложа руки; пускать пыль в глаза, глаза на мокром месте и др.* Такие задания помогают эффективному усвоению фразеологических словосочетаний.

Вся работа по обучению русской фразеологии должна строиться на основе учета тех трудностей, которые вызывают усвоение фразеологической единицы. Несмотря на трудность усвоения фразеологизмов, учащиеся с большим интересом изучают их. Следует максимально учитывать общий и конкретный уровень подготовленности учащихся. На современном жизненном этапе как никогда возникает необходимость владения иностранным языком и каждый обучающийся сегодня заинтересован в практическом его использовании. Учитель должен использовать такие способы преподавания, которые имеют развивающий характер и способствует совершенствованию коммуникативной компетенции у учащихся.

**Актуальность проблемы** заключается в том, что изучение фразеологизмов имеет важное значение при обучении русскому языку как иностранному, потому что исполь-

зование фразеологизмов в речи делает ее выразительной и стилистически окрашенной.

**Научная новизна.** Исследование проблемы с аспекта сопоставительного изучения фразеологизмов на уроках РКИ в азербайджанской школе.

**Практическая значимость.** Будет полезным материалом при обучении РКИ.

### Литература

1. Жуков В.П., Жуков А.В. Школьный фразеологический словарь. М.: Просвещение, 1989. 384 с.

2. Крючкова, Л.С. Практическая методика обучения русскому языку как иностранному / Л.С. Крючкова, Н.В. Мощинская − Москва: Наука, − 2009. –– 480 с.

3. Методика преподавания русского языка. Ленинград, 1981, с.157

4. Методика обучения иностранным языкам. Учебное пособие. – Казань, КФУ, 2016. – 189с.

5. Учебный словарь русского языка /под ред. Ф.Г. Гусейнова. – Баку: Мутарджим, 2007. – 1000 с.

6. Шанский Н.М. Лексикология современного русского языка. М., 1974, с.165

**A.A. Sadıqova**

### Rus dilinin xarici dil kimi tədrisində frazeoloji birləşmələrin müqayisəli öyrənilməsi
### Xülasə

Milli auditoriyanın tələbələrinin lüğət ehtiyatının zənginləşdirilməsinin səmərəliliyi mövcud mənbələrin xüsusiyyətlərindən, istifadə xüsusiyyətlərindən, lüğət işinin məqsədyönlü aparılmasından asılıdır. Mətn üzərində işləmə prosesində şagirdlərin lüğət ehtiyatı epitetlər, müqayisələr, metaforalar, frazeoloji vahidlərlə zənginləşir. Frazeoloji vahidlər daha mürəkkəb vahidlərə aiddir. Sözlər kimi frazeoloji vahidlər də ünsiyyət prosesində müxtəlif funksiyalar yerinə yetirirlər. Sinonimlərdən, leksik ekvivalentlərdən və sərbəst ifadələrdən istifadə etməklə tələbələri frazeoloji vahidlərin mənası ilə tanış etmək və mənimsənilməsini təmin etmək lazımdır.

**A.A. Sadıgova**

### Comparative study of phraseological units in teaching Russian as a foreign language
### Summary

The effectiveness of enriching the vocabulary of students of a national audience depends on the characteristics of existing sources, the specifics of their use, and the focus of vocabulary work. In the process of working on the text, students' vocabulary is replenished with epithets, comparisons, metaphors, and phraseological units. Phraseological units refer to more complex units. Like words, phraseological units perform various functions in the communication process. Economically and effectively familiarize students with the meaning of phraseological units through the use of synonyms, lexical equivalents and free phrases.

**Redaksiyaya daxil olub: 29.03.2024**

*UOT 372.881.111.1*

# İNGİLİS DİLLİ MƏTNLƏRDƏ MODALLIQ KATEQORİYASININ ÖYRƏNİLMƏSİ

**Mayisə Elşad qızı Qaraşova**
*Sumqayıt Dövlət Universitetinin magistrantı*
**ORCID:** 0009-0002-5659-2386
**E-mail:** mayaqarashova@gmail.com

***Açar sözlər:*** *dilçilik, modallıq, modallığın xüsusiyyətləri, modallıq kateqoriyası, ingilis dili.*
***Ключевые слова:*** *лингвистика, модальность, особенности модальности, категория модальности, английский язык.*
***Key words:*** *linguistics, modality, features of modality, category of modality, English language.*

Dilçilik ədəbiyyatında modallıq natiqin ifadəsinin məzmununa münasibətini, nitqin hədəf təyinatını, ifadənin məzmununun reallıqla əlaqəsini ifadə edən semantik kateqoriyadır. Modallıq kateqoriyası linqvistik universaldır və dilin əsas kateqoriyalarından biri kimi önə çıxır. Bu məqalə müasir ingilis dilinin qrammatikasında ən populyar və maraqlı sahələrdən biri olan modallıq kateqoriyasını araşdırır. Modallığın müxtəlif növləri müəyyən edilmiş, nümunələr və ingilis mətnlərində modal sözlərin işləmə xüsusiyyətləri verilmiş, təqdim olunan istifadə nümunələrə ətraflı izahat verilmişdir.

Tədqiqatın aktuallığı müasir ingilis dilinin nəzəri qrammatikası nöqteyi-nəzərindən modallıq kateqoriyasının hərtərəfli nəzərdən keçirilməsinin, modal sözlərin sistemləşdirilməsinin vacibliyi, onların dilçilikdə statusunun müəyyənləşdirilməsi zərurətilə bağlıdır. Dilin inkişafının əsas və ən mühüm qanunlarından biri dilin bir keyfiyyətdən digər keyfiyyətə tədricən keçid qanunudur. İngilis dilində tarixi dəyişikliyin konkret hallarına nəzər salsaq, bu qanunun təsiri çox açıq görünür. Dilçiliyin müasir inkişaf mərhələsində müxtəlif dillərdə modallığın təkamülü problemi xüsusi əhəmiyyət kəsb edir, çünki modallıq mərkəzi dil kateqoriyası olmaqla yanaşı universal xarakter daşıyır.

Modallıq kateqoriyası iki növə bölünür: obyektiv və subyektiv. Obyektiv modallıq istənilən frazeoloji vahidin məcburi elementidir və cümlənin strukturunu müəyyən edən kateqoriyalar sırasına daxildir. O, zaman kateqoriyası ilə sıx bağlıdır və kontekstdən və zaman parametrlərindən asılı olaraq dəyişir.

Subyektiv modallıq danışanın ifadə olunana münasibətini ifadə edir və obyektiv modallıqdan fərqli olaraq nitqin istəyə bağlı elementi hesab olunur. Onun mövcudluğu danışanın şəxsi üstünlüklərindən və ünsiyyət kontekstindən asılıdır. Bu iki modallığın başa düşülməsi və bir-birindən fərqləndirilməsi mətnin təhlili və şərhinin mühüm aspektidir, çünki onlar deyimin mənasında əhəmiyyətli dəyişikliklər edə bilər.

İngilis mətnlərində modallıq, natiqin hadisələrin və ya hərəkətlərin mümkünlüyünə, zərurətinə, arzuolunanlığına və ya məcburi xarakterinə münasibətini ifadə edən mühüm linqvistik kateqoriyadır. Modal fellərdən və digər leksik və qrammatik vasitələrdən istifadə etməklə ifadə olunur [5].

Modal fellər: Bir hərəkətə və ya vəziyyətə münasibət bildirən və cümlənin mənasına nüans əlavə edən fellərdir. Aşağıda ən çox yayılmış modal fellərin bəzilərinin və onların əsas mənalarının daha ətraflı təsviri verilmişdir:

Can: Bacarıq, imkan və ya icazəni ifadə edir. Məsələn, "I can speak English" (Mən ingilis dilində danışa bilirəm). “Can” həmçinin aşağıdakı nümunədə olduğu kimi icazəni ifadə etmək üçün istifadə edilə bilər:

“Can I go to a party?” (Mən partiyaya gedə bilərəmmi?) - burada “can” icazə tələbini ifadə edir.

Bu modal fel ingilis qrammatikasında mühüm rol oynayır və bizə gündəlik ünsiyyətdə qabiliyyət və icazənin müxtəlif aspektlərini ifadə etməyə imkan verir. Could: Adətən keçmiş zamanda istifadə olunur və həmçinin qabiliyyət, fürsət və ya nəzakətli xahişi ifadə edir. Məsələn, “She could play the piano when she was a child” (O, uşaq ikən fortepiano çala bilirdi).

“Could” nəzakətli sorğu və ya təklifləri ifadə etmək üçün də istifadə edilə bilər: “Could you pass the salt, please?” (Lütfən, duzu ötürə bilərsinizmi?) - burada nəzakətli bir xahiş ifadə edir. Bu modal fel ingilis dilində bacarıq və nəzakət ifadəsinə rəngarənglik əlavə edir və müxtəlif kontekstlərdə geniş istifadə olunur [2].

May: İcazə və ya ehtimalı ifadə edir. Məsələn, “You may go to the party if you finish your homework” (Ev tapşırığını bitirsən partiyaya gedə bilərsən). “May” həmçinin aşağıdakı nümunədə olduğu kimi icazəni ifadə etmək üçün istifadə edilə bilər:

“May I use your phone?” (Telefonunuzdan istifadə edə bilərəmmi?) - burada “ola bilər” icazə üçün nəzakətli sorğunu ifadə edir. Bu modal fel şifahi və yazılı ingilis dilində icazə və imkanın müxtəlif aspektlərini ifadə etməyə imkan verir.

Might: Tipik olaraq “ol”dan daha zəif ehtimalı ifadə etmək üçün istifadə olunur. Məsələn, “It might rain tomorrow” (Sabah yağış yağa bilər). “Might” modal feli mətnə və ya söhbətə daha ehtiyatlı və ya spekulyativ ton verir və baş verməsi müəyyən olmayan imkanları ifadə etmək üçün faydalıdır.

Must: Öhdəlik, zərurət və ya yüksək dərəcədə inam ifadə edir. Məsələn, “You must wear a seatbelt in the car” (Maşında təhlükəsizlik kəməri taxmalısınız). Bu modal fel həm də məsləhət və ya tövsiyələri ifadə etmək üçün istifadə edilə bilər, burada müəyyən bir hərəkətin həyata keçirilməsinin arzuolunan olduğunu göstərir [2].

Shall: Təklifləri bildirmək və ya kömək təklif etmək üçün istifadə olunur. Məsələn, “Shall I help you with your luggage?” (Baqajınızla bağlı sizə kömək edə bilərəmmi?).

Should: Məsləhət və ya zəruriliyi ifadə edir. Məsələn, “You should eat more fruits and vegetables” (Daha çox meyvə və tərəvəz yeməlisiniz).

Will: Adətən gələcək vaxtı və proqnozları ifadə etmək üçün istifadə olunur. Məsələn, “I will meet you at the airport tomorrow” (sabah sizi hava limanında qarşılayacağam).

Would: Çox vaxt şərti cümlələrdə və nəzakətli xahişlərdə istifadə olunur. Məsələn, “If I were you, I would take the job” (Mən sənin yerində olsam, bu işi götürərdim) [2].

“Must”, “should”, “will”, “would”, “can”, “could”, “may”, “might” və “need” kimi modal fellər ingilis qrammatikasında mühüm rol oynayır və can fərziyyə və reallığın müxtəlif çalarlarını ifadə edir. Müasir dilçilər onlara obyektiv və subyektiv reallıq nöqteyi-nəzərindən yanaşırlar, burada modal fellər obyektiv faktları və imkanları, giriş söz və ifadələri isə subyektiv qiymətləndirmə və gözləntiləri əks etdirir

“Can” və “may” felləri adətən mümkün hərəkətləri və hadisələri çatdırmaq üçün ixtisaslaşmışdır. Onlar müəyyən hərəkətləri yerinə yetirmək qabiliyyətini və ya icazəsini göstərir. Lakin “must”, “should” və “might” felləri təkcə öhdəlik ifadə etmir, həm də hadisələrin baş vermə ehtimalını ifadə edə bilir. Onlar hadisələrdə əminlik və ya ehtimal dərəcəsini müəyyən etmək üçün “bəlkə”, “ehtimal”, “əlbəttə” və başqaları kimi giriş sözləri ilə yaxından işləyirlər.

Bu modallar və giriş sözləri ingilis dilində dəqiq və nüanslı ifadələr yaratmaq üçün vacibdir və natiqlərə və yazıçılara öz fikirlərini və gözləntilərini daha dəqiq ifadə etməyə kömək edir [3].

Nəticə olaraq, modallıq kateqoriyası ingilis dilinin qrammatikasında və cümlə strukturunda mühüm rol oynayır və natiqə mətndəki hadisələrə və hərəkətlərə münasibət bildirməyə imkan verir. Müxtəlif modal fellər və onların birləşmələri ingilis mətnlərində məna və nüansları daha dəqiq çatdırmağa imkan verir. Modallıq kateqoriyası müxtəlif cəmiyyətlərdəki mədəni xüsusiyyətləri və normaları da əks etdirir. Fərqli mədəniyyətlər modal ifadələrə fərqli mənalar verə bilər. Modallığın öyrənilməsi tərcüməçilər və mədəniyyətlərarası ünsiyyət mütəxəssisləri üçün vacibdir, çünki dillər arasındakı modallıq fərqlərini başa düşmək məna və niyyəti dəqiq çatdırmağa kömək edir.

**Problemin aktuallığı.** Müasir dövrdə ingilis dilində modallığın öyrənilməsi linqvistik təhlilin əsas amilidir. Ünsiyyətdə modallıq vacib rol oynayır, çünki o, danışığa nitqin məzmununa, məsələn, imkan, zərurət, ehtimal və s. kimi münasibət bildirməyə imkan verir. Bu səbəbdən məqalənin mövzusu aktualdır.

**Problemin elmi yeniliyi.** Məqalədə modallıq kateqoriyaları araşdırılmış, modallıq kateqoriyasının qrammatikada vacibliyi öyrənilmişdir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalənin praktiki əhəmiyyəti ondadır ki, məqalənin nəticələri gələcəkdə bu mövzuda yazılan elmi işlərdə istifadə oluna bilər.

## Ədəbiyyat

1. Аржанова И. А. Дискурсивная функция выражения в функциональном аспекте, Вестник Мордовского университета, 2008, № 3, с. 117–118.

2. Аржанова И. А. Лингвопоэтические особенности англоязычного художественного текста, Язык, культура, коммуникация: контексты современности, Саранск, 2000, с. 26.

3. Ахманова О.С. Словарь лингвистических терминов: Словарь, М.: Стереотип, 2013, 45 с.

4. Виноградов В.В. Исследования по грамматике русского языка: Учебно-методический материал, М.: Наука, 2000, 54 с.

5. Голубева Т.М. Модальные глаголы (английский как второй язык): учебник для вузов, М.: РИФ «Интеграф», 2008, 79 с.

6. Качалова К.Н. Практическая грамматика английского языка: учебник для вузов, Израилевич. М.: Ладком, 2012, 36 с.

**М.Э. Гарашова**

## Категория модальности обучения в английских текстах
## Резюме

В лингвистической литературе модальность - смысловая категория, выражающая отношение говорящего к содержанию своего высказывания, целевому назначению речи, связь содержания высказывания с действительностью. Категория модальности является лингвистической универсалией и выделяется как одна из основных категорий

языка. В данной статье рассматривается категория модальности, одно из самых популярных и интересных направлений в современной грамматике английского языка. Определены различные виды модальности, приведены примеры и особенности использования модальных слов в английских текстах, даны подробные пояснения к представленным примерам употребления.

Актуальность исследования связана с необходимостью всестороннего рассмотрения категории модальности с точки зрения теоретической грамматики современного английского языка, важностью систематизации модальных слов и определения их статуса в лингвистике.

**M.E. Garashova**

**Category of learning modality in English texts**
**Summary**

In the literature of linguistics, modality is a semantic category that expresses the attitude of the speaker to the content of his expression, the target designation of the speech, the relationship of the content of the expression with reality. The category of modality is a linguistic universal and stands out as one of the main categories of language. This article examines the category of modality, one of the most popular and interesting areas in modern English grammar. Different types of modality are defined, examples and features of working of modal words in English texts are given, detailed explanation is given to the presented usage examples.

The relevance of the research is related to the necessity of a comprehensive review of the category of modality from the point of view of the theoretical grammar of the modern English language, the importance of systematizing modal words, and determining their status in linguistics.

**Redaksiyaya daxil olub: 23.02.2024**

***PEDAQOJİ TEXNOLOGİYALAR***
***ПЕДАГОГИЧЕСКИЕ ТЕХНОЛОГИИ***
***PEDAGOGICAL TECHNOLOGIES***

*UOT 37.0*

# PEDAQOJİ TEXNOLOGİYALAR TƏLİM PROSESİNİN PLANLAŞDIRILMIŞ SİSTEMİ KİMİ

**Sara Elşad qızı Həşimbəyli**
*Sumqayıt Dövlət Universitetinin magistrantı*
**ORCID:** 0009-0009-5731-4899
**E-mail:** kerimova.sara@mail.ru

***Açar sözlər:*** *təfəkkür, fəal təlim, bələdçi, uşaq, təlim, tədqiqatçı, bacarıq və vərdişlər, şagird, problemli vəziyyət.*

***Ключевые слова:*** *мышление, активное обучение, руководитель, ребенок, обучение, исследователь, навыки и привычки, ученик, проблемная ситуация.*

***Key words:*** *thinking, active learning, guide, child, training, researcher, skills and habits, student, problem situation.*

Sosial keyfiyyətlər, bilik əldə etmək, pedaqogikanın texnologiya ilə əlaqəsi, görkəmli pedaqoq A.S. Makarenkonun adı ilə bağlıdır. Makarenko ötən əsrin 30-cu illərində pedaqoji texnologiyalar haqqında məlumat vermiş və onların xüsusiyyətlərini nümayiş etdirmişdir. A.S. Makarenko özünün məşhur “Pedaqoji poema” əsərində yazırdı ki, pedaqogikamızda aparıcı rol əxlaqi məsləhətlərin məntiqidir.

Pedaqoji texnologiyaların pedaqogikada tədqiqatçılar tərəfindən kütləvi şəkildə tətbiqi ötən əsrin 60-cı illərinin əvvəllərinə təsadüf edir. Bunun əsas səbəbi Amerika və Avropa ölkələrində məktəb islahatlarıdır. Bu sahədə bir çox Amerika və Avropa alimləri J. Korlle, B. Blum, D. Vruner, G. Seys, C. Oskarellin, rus maarifçiləri P. J. Galperin, N.T. Talizina, N. Yanda, J. K. Babanski, P. M. Erdmiyev, V. S. Kukuşindir, V.A.N.M. Kazımov, B.A. Əhmədov, A.X.Paşayev, F.A. Pestpalkodan Rüstəmov və başqaları, Azərbaycan maarifçiləri. Göstərilə bilər. Bu tədqiqatçılar təhsil texnologiyaları və təhsil texnologiyaları anlayışlarını ayrıca izah etmiş və pedaqoji texnologiya anlayışına aydınlıq gətirmişlər.

A. Mehrabovun, Ə. Abbasovun, Z. Zeynalovun, R. Həsənovun “Pedaqoji texnologiyalar”ında pedaqoji texnologiyalar təhsil, təlim, tədris və s. ehtiva edir. Burada yazılır: “Pedaqoji texnologiya təhsil prosesinin layihələndirilməsinin sistemli metodu kimi öz mahiyyətinə görə səciyyələnir”.

Göründüyü kimi, pedaqoji texnologiyalar pedaqoji prosesin sistemli, ardıcıl və planlı hissəsidir və burada ardıcıl və qarşılıqlı əlaqədə olan hərəkət sistemi və dinamizmi mövcuddur. Bu prosesdə pedaqoq və müəllim uşaqlar və şagirdlərlə qarşılıqlı əlaqədə müəyyən üsul və vasitələrin köməyi ilə əldə edilən bir və ya bir neçə təhsil məqsədini həyata keçirirlər.

Tədris prosesində metod və vasitələr, təlim metodları toplusundan ibarətdir. Tərbiyə metodları - uşaqların təhsil mərhələlərinə uyğun olaraq müəllimin rəhbərliyi altında müəyyən bilik, bacarıq və vərdişlərə yiyələnməsi, inkişaf etdirilməsi və inkişaf etdirilməsi prosesidir.

Respublikamızın təhsil sistemində həyata keçirilən islahatlar və yeniliklər gənc nəsildə vacib olan bir çox zəruri keyfiyyətlərin formalaşmasına geniş imkanlar yaradır. Sosial keyfiyyətlərin məcmusu - biliklərə, yaradıcılığa yiyələnmək, müasir elmi-texniki yenilikləri tapmaq,

onlardan istifadə etmək, öz qabiliyyətlərini reallaşdırmaq və s. bu baxımdan böyük əhəmiyyət kəsb edir.

Təcrübə və araşdırmalar göstərir ki, XXI əsrdə yaşayıb-işləyəcək bugünkü uşaqların yeni dövrün tələblərinə uyğun təhsil və tərbiyəsi üçün ənənəvi təhsil və metodlar yetərli deyil. Odur ki, dünyanın müxtəlif ölkələrinin qabaqcıl təcrübəsini öyrənməklə fəal təhsil metodlarından istifadə etmək və tədris prosesini aktivləşdirmək, təhsil metodlarını yeniləmək, uşaqların fəallığını təmin etməyə yönəlmiş aktiv, iş formalarından istifadə etmək, yeni təhsil texnologiyalarını mənimsəmək və tətbiq etmək lazımdır. Bunları bacarmaq çox vacibdir.

Yeni pedaqoji texnologiyaların tətbiqi daha çox təhsilin məqsədlərindən asılıdır. Ona görə də təhsilin nəticəsi onun məqsədləri ilə sıx bağlı olduğundan, hər bir müəllim təhsil prosesində texnoloji prosesləri planlaşdırarkən ilk növbədə bu prosesin məqsədinin nə olduğunu aydın şəkildə anlamalı və bütün vasitələri bu məqsədin həyata keçirilməsinə yönəltməlidir.

Beləliklə, istər məktəbəqədər təhsil müəssisələrində, istərsə də orta ixtisas təhsili müəssisələrində təhsil texnologiyası təhsil prosesinin təşkilati-metodik vasitəsi kimi çıxış edir, bu prosesin qarşılıqlı asılılığını və onun həyata keçirilməsi mexanizmini özündə ehtiva edir.

Tədris prosesində şagirdlərin tədris-idrak fəaliyyətinin təşkili və idarə edilməsi əsasən fəaliyyətə istiqamətləndirmənin stimullaşdırılmasının təşkilindən, təhsil və inkişaf fəaliyyəti üçün şəraitin yaradılmasından asılıdır.

Digər asılılıq müəllimin pedaqoji ustalığı və məharəti ilə bağlıdır. Belə ki, müəllim yüksək peşəkarlıq və didaktik bacarıq hazırlığına dair nəzəri və praktiki biliklərə yiyələndikcə onun texnoloji proseslər haqqında pedaqoji təfəkkürü genişlənir. O, təşkil etdiyi təlimin, dərslərin, tərbiyəvi fəaliyyətin ən kiçik elementlərinə belə yaradıcı münasibət bəsləyir, onu müəyyən mənada "yenidən qurur" və potensial istedadlarını üzə çıxarır. Onların digər müəllim və müəllimlərdən fərqi məhz bu fərdi üslubda, pedaqoji problemlərin həllində unikal texnologiyalardan, yəni "müəllif texnologiyalarından" istifadəsində özünü göstərir.

Hazırda yeni yanaşmaların tətbiqi təhsil prosesinin təkmilləşdirilməsi vasitəsidir və dünya təhsil sistemində təhsil sisteminin müasirləşdirilməsinin əsas strateji istiqamətlərindən biri kimi nəzərdən keçirilir. Son illər təhsil sistemində aparılan islahatlar onun məzmununun təkmilləşdirilməsini, fəal təlim metodlarının tətbiqini zəruri edir.

Bu mənada fəal təlim metodlarının pedaqoji prizmadan öyrənilməsi, onların kurslarda tətbiqinin yayılması və qabaqcıl təcrübənin yayılması problemi problemin əhəmiyyətini artırır.

**Problemin aktuallığı.** Yeni təlim texnologiyalarından istifadə dərsin mahiyyətini dəyişir, uşaqları tədqiqata həvəsləndirir, onları təlim predmetinə çevirir. Bu metodların üstünlüklərindən biri də onların demokratik, dinamik və mühafizəkarlıqdan uzaq olmasıdır. Bu vəziyyət ən zəif, sakit, qorxaq, melanxolik tipli uşaqların belə hərəkətə keçməsinə səbəb olur.

**Problemin elmi yeniliyi.** Müasir təlim texnologiyalarının təhsil prosesinə daxil edilməsi şagirdlərin qeyri-fəallığının aradan qaldırılmasına, lazım olan təfəkkür xüsusiyyətlərinin formalaşdırılmasına, təlimin keyfiyyətinin yüksəldilməsinə şərait yaradaraq, respublikamızda təhsil sahəsində islahat proqramında göstərilən demokratikləşdirmə, humanisləşdirmə, diferensiallaşdırma, fərdiləşdirmə, inteqrasiya və humanitarlaşdırma prinsiplərini həyata keçirməyə imkan verir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Yeni təlim texnologiyaları şagirdlərdə sərbəst düşünmək və işləmək bacarıqlarını artırır, müqayisə etmək, nəticə çıxarmaq qabiliyyətlərini inkişaf etdirir.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasında təhsil üzrə Dövlət Strategiyası. Bakı, 2013.
2. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: Hüquq ədəbiyyatı, 2010.
3. İlyasov M. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Bakı: Elm və təhsil, 2018.
4. Mehrabov A. O. Səriştəli müəllim hazırlığının problemləri. Bakı: Elm və təhsil, 2015.
5. Mehrabov A., Abbasov Ə., Zeynalov Z., Həsənov A. Pedaqoji texnologiyalar. Bakı, 2006.

**С.Э. Гашимбейли**

**Педагогические технологии как последовательная планированная система учебного процесса**
**Резюме**

В статье рассказывается о педагогических технологиях, как о последовательной планированной системе учебного процесса. Отмечается, что эти технологии направлены на устранения пассивности детей, развивают навыки мышления, креативности и служат повышению качества обучения, а также способствуют реализации принципов индивидуализации, дифференсации, интеграции предусмотренный Программой Реформ Образования Азербайджанской Республики. Однако при применении педагогических технологий следует учитывать особенности занятия и их соответствие теме и целям занятия.

**S.E. Hashimbayli**

**Pedagogical technologies as a consistent planned educational process system**
**Summary**

The article describes pedagogical technologies as a consistently planned system of the educational process. It is noted that these technologies are aimed at eliminating the passivity of children, develop thinking skills, creativity and serve to improve the quality of education, as well as contribute to the implementation of the principles of individualization, differentiation, integration provided for by the Education Reform Program of the Azerbaijan Republic. However, when applying pedagogical technologies, one should take into account the particularities of the lesson and their correspondence to the theme and objectives of the lesson.

**Redaksiyaya daxil olub: 07.03.2024**

# MÜASİR DÖVRDƏ İNNOVASİYALAR PEDAQOJİ PROSESİ FƏALLAŞDIRAN AMİL KİMİ

**Xədicə Azad qızı Əsgərova**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCID:** https:0009-0002-1735-8976
**E-mail:** askerova.xedice@mail.ru

***Açar sözlər:*** *innovasiya, texnologiya, müəllim, pedaqogika, tədris planı, təhlil.*
***Ключевые слова:*** *инновации, технологии, учитель, педагогика, учебная программа, анализ.*
***Key words:*** *innovation, technology, teacher, pedagogy, curriculum, analyses.*

İnnovasiya - yeniliyin məzmunu və reallaşmasıdır. "İnnovasiya" və "yenilik" anlayışları sinonimlərdir, çox hallarda eyni mənada istifadə olunurlar. İnnovasiya (yenilik) - yeninin yaradılması və tətbiqi prosesidir, yəni elm, texnika, iqtisadiyyat və idarəetməni birləşdirən mürəkkəb intellektual prosesdir. O, istehsal və istehlak münasibətləri kompleksini əhatə edir. Geniş mənada innovasiya dedikdə yeniliklərin (yeni texnologiya, məhsul, xidmət, istehsal, maliyyə, kommersiya) inzibati, təşkilati-texniki və sosial-iqtisadi qərarlar şəklində mənfəətli istifadəsi başa düşülür. Bu səbəbdən də həm "innovasiya", həm də "yenilik" terminləri eyni mənada işlənilir. İnnovasiyanı yaradan və tətbiq edən insanlara innovator deyirlər. İnnovator olmadan innovasiya və innovativ inkişaf mümkün deyil. İnnovator yaradıcı, qeyri-standart təfəkkürə, yüksək erudisiya və savada, sahibkarlıq qabiliyyətinə malik olmalıdır. Bu xüsusiyyətlər isə keyfiyyətli təhsil hesabına yarana bilər. Təhsildə innovasiya dedikdə müxtəlif yeniliklərin təlim-tərbiyənin məqsəd, məzmun, metod və formalarına tətbiqi, təhsilin iqtisadiyyatı, təşkili və idarə edilməsində pedaqoq və təhsilalanın müştərək fəaliyyətlərinin yeni biliklər əsasında təşkili nəzərdə tutulur.

Pedaqoji proses pedaqoji sistemdə baş verir. Pedaqoji sistem komponentlərin (hissələrin) sabit və möhkəm birliyidir. Əgər bu birlikdə baş verən dəyişikliklər (yeniliklər) müəyyən edilmiş həddi keçərsə, onda sistem dağılar, onun yerində başqa xassələri olan yeni sistem əmələ gələr. Hər hansı pedaqoji sistemin strukturu bir-birilə qarşılıqlı əlaqədə olan elementlərin məcmusundan ibarətdir [1]: 1) şagirdlər; 2) təlim və tərbiyənin ümumi və xüsusi məqsədləri; 3) təlim və tərbiyənin məzmunu; 4) təlim və ərbiyə prosesi; 5) müəllimlər; 6) texniki təlim vasitələri; 7) təlim və tərbiyə işinin təşkili formaları; 8) təlim, təhsil-tərbiyə prosesinin idarə olunması; 9) təlim və tərbiyə prosesinin texnologiyası; 10) təlim və tərbiyə prosesinin nəticələri.

Yeni pedaqoji ədəbiyyatda innovasiya pedaqogikası (bu onun qeyri-rəsmi, şərti adıdır) təhsil-tərbiyənin paradiqmalarını dəyişməyi tələb edir. Paradiqma nəzəri və praktik problemlərin həllinin əsasına qoyulan hakim nəzəriyyədir. İnnovatorlar belə hesab edirlər ki, klassik pedaqoji nəzəriyyə köhnəlmişdir, yeni şəraitdə indiki nəsillərə o nəzəriyyə əsasında təhsil-tərbiyə vermək olmaz. Müasir pedaqogika praktikada o qədər də dəyişdirici təsir göstərə bilmir. Belə olduğu halda o, inzibati-amirlik dövründə formalaşan ideyaları ilə ölkəmizin təhsil sistemini "qidalandırmaqda" davam edir [3].

Pedaqoji nəzəriyyənin və onun ardınca məktəbin gedəcəyi yol təlimin, təhsil-tərbiyə prosesinin fundamental əsaslarını müəyyənləşdirməsindən, yeni elmin və təhsil-tərbiyənin praktikasının hansı metodoloji əsas üzərində qurulmasından asılıdır. Pedaqogika elmi nəzəriyyələr

sistemidir. Obyektivlik, məqsədəuyğunluq, sabitlik, ziddiyyətsizlik onun əsas səciyyəvi xüsusiyyətləridir. Hər hansı bir elmi nəzəriyyə kimi pedaqogikanın sistemini də elmi prinsip layihələşdirir, birləşdirir və saxlayır. Çünki obyektiv nəzəriyyənin əsas prinsipi ideoloji prinsip yox, ancaq elmi prinsip ola bilər.

Təhsil, təlim, tərbiyə prosesinin optimallaşdırılması bütünlükdə pedaqoji sistemə aid edilən innovasiyadır. Optimallaşdırma (optimum – ən yaxşı) mümkün olan variantlardan ən yaxşısını seçib götürmək prosesidir. Pedaqoji sistem kimi mürəkkəb, dinamik, çoxplanlı sistemdə təlim, təhsil, tərbiyə prosesinin qurulmasının və təşkilinin, orada məqsədlərə nail olmağın minlərlə mümkün variantları mövcuddur. Konkret şəraitdə onlardan ancaq biri ən yaxşı ola bilər. Onu axtarıb tapmaq optimallaşdırmanın başlıca vəzifəsidir. Bu vəzifə mümkün variantları müqayisə etmək və alternativləri qiymətləndirmək yolu ilə həll edilir.

Optimallaşdırma pedaqoji sistemin qarşıya qoyulmuş məqsədinə uyğun olmalıdır. Çünki həmin sistem o məqsədə nail olmaq üçün yaradılıb. Bu şəraitdə əldə edilən optimallıq digər şərait üçün yararlı olmaya da bilər. Ona görə ki, optimallaşdırma anlayışı həmişə konkretdir. Optimallaşdırmanın nəzəri və praktik istiqamətləri vardır.

Nəzəri aspektdə – "optimallaşdırma" anlayışının sinonim variantları hesaba (uçota) alma, müqayisə, tutuşdurma hesab olunur. Praktik aspektdə "optimallaşdırma" pedaqoji sistemin innovasiyası, yenidən təşkili və qurulması, qarşıya qoyulmuş vəzifələri həll etmək üçün onun ən yaxşı vəziyyətə gətirilməsi kimi başa düşülür. Optimallaşdırma vəzifələrin həlli meyarlarının seçilməsindən başlayır. Optimallaşdırmanın meyarı əlamətdir, göstəricidir. Onun əsasında inkişaf prosesinin mümkün variantları qiymətləndirilir və onlardan ən yaxşısı seçilir. Məntiq tələb edir ki, meyarda ancaq və ancaq bir göstərici (parametr) olsun. Amma pedaqogikada o, kompleks halda olur. Çünki pedaqoji sistemdə baş verən proseslərin səbəb-nəticə əlaqələrini bir-birindən ayırmaq mümkün deyil. Təlim-tərbiyə prosesi o zaman optimal hesab olunur ki, orada şagirdlər və müəllimlər yüklənmir və maksimum nəticə əldə olunur. Təcrübə göstərir ki, müəllim və şagirdlərin həddindən artıq yüklənməsi onların iş qabiliyyətini azaldır və sağlamlıqlarına pis təsir göstərir [2].

Pedaqoji ədəbiyyatda təlim-tərbiyə prosesinin optimallaşdırılmasının əsas meyarı kimi bir-biri ilə üzvi əlaqəsi olan iki göstərici əsas götürülür:

1. Müəyyən şəraitdə şagirdlərin təhsil-tərbiyəsi və inkişafında maksimum mümkün olan nəticələr əldə etmək;
2. Həmin yaşda olan şagirdlərin sinif və ev işinə ayrılan vaxt normalarını gözləmək.

Məktəbin, müəllimin və şagirdlərin fəaliyyətinin aşağıdakı səviyyələri məlumdur:

1) qeyri-kafi səviyyə;
2) böhran səviyyə;
3) müvafiq səviyyə;
4) optimal səviyyə.

Optimallaşdırma həm də qabaqcıl müəllimlərin təcrübəsinə istinad edir. Lakin onunla məhdudlaşmır. Tədqiqatlar göstərir ki, təlim-tərbiyə prosesini müvəffəqiyyətlə optimallaşdırmaq üçün müəllim aşağıdakı şəxsi keyfiyyətlərə malik olmalıdır:

1) yaradıcı təfəkkür üslubuna;
2) təfəkkür çevikliyinə;
3) təfəkkür konkretliyinə;
4) təfəkkür sistemliliyinə;
5) qərarlar qəbul edən və fəaliyyət göstərən zaman həddi gözləmək qabiliyyətinə;

Təhsil ocaqlarında yenilikçi mühitin yaradılması üçün, ilk növbədə təşkilati, metodiki, psixoloji tədbirlər kompleksi həyata keçirilməlidir. Məktəbin texnoloji avadanlıqlarla təchiz edilməsinə, müəllimlərin iş metodikasının innovativ xarakter almasına və onlarda yenilik etmək motivlərinin və təşəbbüskarlığın yaranmasına xüsusi diqqət göstərilməlidir. Yeniliyə meylliliyin olması müəllimlərdə ona nail olmağa stimulları artır və onları köhnə metodlarla işləməkdən uzaqlaşdırır. Münasibət dəyişir, öyrənmə motivləri güclənir. Bunlar isə müəllimlərin bir peşəkar kimi səriştəliliyinin artmasına, dərinləşməsinə qüvvətli təsir göstərir. Lakin bunlar da öz-özünə və birdən-birə yaranmır.

**Problemin aktuallığı.** Müasir dövrdə tədris prosesində innovasiyaların tətbiqi əsas tələblərdən biridir. Pedaqoji prosesdə innovasiyaların həm müəllim, həm şagirdlərə qazandırdığı müsbət cəhətlər və onun pedaqoji əhəmiyyətinin araşdırılması aktual məsələlərdəndir.

**Problemin elmi yeniliyi.** Son dövrlərdə tədris prosesinə innovasiyaların təsir dairəsi genişlənmişdir və bu proses gələcəkdə də davam edəcəkdir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqaləni orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Kazımov N.M. Məktəb pedaqogikası. Bakı, 2011, 440 s.
2.https://kayzen.az/blog/pedaqoq/451/pedaqoji-prosesin-yenil%C9%99%C5%9Fm%C9%99si-innovasiyalar.html
3. https://www.muallim.edu.az/www.old/arxiv/2014/04/49.htm

**Х.А. Аскерова**

## Инновация как фактор активизации педагогического процесса в современную эру

### Резюме

Инновация (от английского слова «innovation», что означает «нововведение») в широком смысле означает инновации, внедряемые в педагогическую систему с целью улучшения хода и результатов образовательного процесса. Инновация, т. е. нововведение, происходит за счет внутренних ресурсов педагогической системы (в смысле внутренних). Инновации – это идеи, процессы, инструменты и результаты, объединенные в качественно улучшенную педагогическую систему. Это очень важная и актуальная задача обновления педагогической системы, требующая грамотного анализа и творческого педагога.

За последнее десятилетие многое изменилось. Были созданы новые парадигмы, концепции, инновации и инвестиции, государственные стандарты и альтернативные учебные программы, новые типы школ.

**X.A. Asgarova**

**Innovatıon as a factor actıvatıng the pedagogıcal process ın the modern era**

**Summary**

Innovation (derived from the English word “innovation”, meaning “innovation”) in a broad sense means innovation implemented in the pedagogical system in order to improve the progress and results of the educational process. Innovation, i.e. innovation, takes place at the expense of the internal resources of the pedagogical system (in means internal). Innovation is ideas, processes, tools and results taken together in a qualitatively improved pedagogical system. It is a very important and urgent task for the renewal of the pedagogical system, it requires a competent analysis and a creative teacher.

A lot has changed in the last decade. New paradigms, concepts, innovations and investments, state standards and alternative curricula, new types of schools were created.

**Redaksiyaya daxil olub: 27.03.2024**

***İNKLÜZİV TƏHSİL MƏSƏLƏLƏRİ***
***ВОПРОСЫ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ***
***ISSUES IN INCLUSIVE EDUCATION***

*UOT 376*

# İNKLUZİV TƏHSİL SAHƏSİNDƏ MAARİFLƏNDİRMƏ İŞLƏRİNİN ƏHƏMİYYƏTİ

**Şikar Əli oğlu Hüseynov**
*Sumqayıt Dövlət Universitetinin dosenti*
**Zərifə Fərəməz qızı Cəlilova**
*Sumqayıt Dövlət Universitetinin magistrantı*
**ORCID:** 0009-0000-0131-3373
**E-mail:** zarifa.calil@gmail.com

***Açar sözlər:*** *inkluziv, strategiya, maarifləndirmə, patologiya, təhsil.*
***Ключевые слова:*** *инклюзивный, стратегия, образование, патология, образование.*
***Key words:*** *inclusive, strategy, education, pathology, education.*

Nelson Mandelan demişdir: “İnsanların hüquqlarını inkar etmək, onların insanlığına meydan oxumaqdır”.

Maarifləndirmə işlərinin neqativ, məlumatsız münasibətin aradan qaldırılmasında mühüm rolu var. Maarifləndirmə əlilliyi olan insanların hüquqlarının tam şəkildə həyata keçirilməsi üçün zəruridir. Əlillərin bütün hüquqlarından istifadə etmək səlahiyyətləri vardır. Bu hüquqlar Birləşmiş Millətlər Təşkilatının Əlillərin Hüquqları Konvensiyası və digər beynəlxalq insan hüquqları sənədləri ilə qorunur.

Əlillik patologiyaların, çatışmazlıqların və ya funksional məhdudiyyətlərin (əlilliyə sırf tibbi yanaşma) səviyyələri ilə müəyyən edilmir, əksinə, əlilliyi olan şəxslərin cəmiyyətdə bərabər əsasda tam və səmərəli iştirakına mane olan münasibət və ətraf mühit maneələri arasında qarşılıqlı əlaqə nəticəsində yaranır. Əlillik mühiti xüsusi əlilliyi olan insanlar üçün uyğun olmayan, onların müstəqil yaşamasına və cəmiyyətlə qarşılıqlı əlaqəsinə mane olan mühitdir. Əlillik yaradan mühit informasiyanın, nəqliyyatın, xidmətlərin və ya tikilmiş ətraf mühitin əlçatan olmamasından, ayrı-seçkilik yaradan qanunvericilikdən və mənfi münasibətdən (stereotiplərlə əlaqəli) yaranır. Bu problemin həlli üçün universal dizaynın təşviqi ilə birlikdə əlilliyi olan şəxslərin hüquqları ilə bağlı maarifləndirmənin aparılması mühüm rol oynayır.

Əlilliyi olan şəxslər tez-tez onlara aid edilən mənfi stereotiplərdən irəli gələn təcrid və sosial və hüquqi ayrı-seçkiliklə üzləşirlər. Bu problemlərin həlli ilkin mərhələdə, yəni bağçalarda, məktəblərdə maarifləndirmə işini gücləndirməkdir. İnklüziv təhsil sistemi gələcək yetkinlərin əlilliyi olan şəxslərə münasibətini dəyişdirmək üçün mühüm addımdır. İşəgötürənləri əlilliyi olan şəxslərin peşəkar inklüzivliyinə kömək etmək üçün əlilliyi əvəzinə onların qabiliyyətlərini vurğulayaraq onları işə qəbul etməyə təşviq etmək üçün daha çox məlumatlılığın artırılmasına ehtiyac var.

Əlilliyi olan şəxslərin cəmiyyətə tam inteqrasiyasına nail olmaq üçün maarifləndirmə mühüm amildir. Uzun illərdir ki, əlillər cəmiyyətə görünmür və cəmiyyətdən kənarda qalırlar. Cahillik, stereotiplər və cəmiyyətin onlara qarşı korluğu ucbatından onların inteqrasiyasına və iştirakına sosial, hüquqi və ekoloji maneələr yaranıb, onların səlahiyyətlərinin itirilməsinə və

marginallaşmasına gətirib çıxarıb. Beləliklə, daha inklüziv və dəstəkləyici bir cəmiyyətin yaradılması ilk növbədə əlilliyi olan şəxslərə münasibətin dəyişdirilməsini tələb edir. Maarifləndirmə strategiyaları bir-birini tamamlayan iki prinsiplə idarə olunur. "İtələmə prinsipi" insanlara nə etməli olduqlarını və əməl etməməyin mənfi nəticələrini izah edərək yuxarıdan aşağıya doğru bir yanaşma tətbiq edir. İnsanlar yeni tələbə əməl etmək üçün müvəqqəti olaraq öz davranışlarını dəyişə bilərlər, lakin onlar bunu etmək üçün daxili motivasiyaya malik deyillər və bunun zəruri olduğuna əmin olmaya bilərlər. Əksinə, "çəkmə prinsipi" ortaq məqsədə nail olmaq üçün görüləcək tədbirləri birgə yaratmaq və birgə istehsal etmək üçün əvvəlcədən rol alan iştirakçıları, əlilliyi olan şəxsləri və digər maraqlı tərəfləri cəlb edərək aşağıdan yuxarıya doğru bir yanaşma tətbiq edir. İnsanlar bu zaman hərəkətə keçməyə həbəslənəcəklər, çünki strategiyaları özləri yaratmış olacaqlar. Bu nüans prosesi daha effektli və davamlı edəcəkdir.

Təbii ki, bu prosesdə əlilliyi olan şəxslərin özlərinin iştirakı vacib elementdir. Tolerantlığı və inklüzivliyi təşviq etməyin ən yaxşı yollarından biri əlilliyi olan şəxslərin əsas fəaliyyətlərdə iştirakını təşviq etməkdir. Maarifləndirmə kampaniyasının uğuru çox şeydən asılıdır:

— məzmununun və dizaynının daxili keyfiyyətindən;

— hakimiyyət orqanlarının fəal münasibəti;

— əlilliyi olan şəxslərin özlərinin və bütün digər müvafiq maraqlı tərəflərin (media xüsusilə təsirli ola bilər) cəlb edilməsi;

Əvvəlcə inklüziv təhsilin nə demək olduğunu başa düşmək vacibdir. İnklüziv təhsil əlilliyindən, sağlamlığından, sosial-iqtisadi vəziyyətindən, cinsindən və irqindən asılı olmayaraq bütün uşaqların ehtiyaclarını ödəyən təhsil sistemidir. Ümumiyyətlə, bu, sinifdə öyrənmə üçün hər hansı potensial maneəyə cavab verə bilir. GSE-nin Tədqiqatlar üzrə Baş Direktoru olan Makoelle hesab edir ki, İnkluziv təhsilin həyata keçirilməsində əsas maneə insanların uşaqların xüsusi ehtiyaclarını dərk etmə tərzidir. İnsanların böyük bir hissəsi fərqli olan, əlilliyi olan bir uşaq sahibi olmaqdan utanır. Əgər insanlar hələ də əlilliyi olan uşaqların məktəblərdə təhsil ala bilməyəcəyinə inanırlarsa, deməli inklüziv təhsilin gələcəyi yoxdur. Məhz buna görə də məlumatlandırma işləri artırılmalı və valideynlər bu münasibətləri dəyişdirməli olduqlarını anlamağa başlamalıdırlar.

Bəzi ölkələrdə inklüziv təhsil çoxdan tətbiq edilib və çoxsaylı maarifləndirmə və təbliğat kampaniyaları aparılıb. Bu Azərbaycan üçün zaman məsələsidir. Bir çox alim və professorlar bu mövzuda təqdimatlar verir, müəllimlər və Təhsil Nazirliyinin rəsmiləri üçün seminarlar keçirirlər və görünür ki, indi inklüziv təhsilin əslində nə olduğu barədə getdikcə daha aydın başa düşülür. Bu komanda əlillərin təhsil almasına kömək etmək üçün yaradılmış Heydər Əliyev Fondu kimi qeyri-hökumət təşkilatları ilə birgə maarifləndirmə işləri aparır. Hər il 21 mart Dünya Daun günü, 2 Aprel Dünya Autizm Maarifləndirmə günü, 3 Dekabr Beynəlxalq Əlillər günü qeyd edilir və istər məktəb, istər digər təhsil müəssisələrində maarifləndirmə tədbirləri, iclasları keçirilir. QHT ədalətli təhsilin təmin edilməsi üçün məktəblərlə işləyir. Komanda həm də dövlət orqanlarında məsləhətçi kimi fəaliyyət göstərir və onların təşəbbüslərini yüksək qiymətləndirir.

Təhsil Nazirliyi Dövlət Proqramında müəyyən edib ki, məktəblərin və məktəbəqədər müəssisələrin bir çoxunda inklüziv təhsil üçün şərait yaradılmalıdır. Belə layihələr artıq bir neçə pilot məktəbdə tətbiq edilib.

İnklüziv təhsil sistemini həyata keçirmək üçün iki növ təlim tələb olunur. Müəssisə rəhbərlərinə inklüziv məktəblərə uyğun struktur və idarəetmə sistemlərini inkişaf etdirmək öyrə-

dilməlidir, çünki belə məktəblərin idarə edilməsi homojen məktəbi idarə etməkdən fərqlidir. Bundan əlavə, bütün uşaqların ehtiyaclarını ödəmək üçün fənn metodologiyasını və pedaqogikasını inkişaf etdirmək üçün müəllimlər yenidən hazırlanmalıdırlar. Həm də pedaqoji institutlarda təhsil alan gələcək müəllimlərin tədris planı dəyişməlidir ki, onlar ali təhsil alıb hansısa məktəbə gedəndə sinifdə müxtəlif tələbələrə kömək etməyə hazır olsunlar. Təlimlə yanaşı, əlil arabası üçün panduslar, eşitmə qüsurlu insanlar üçün işarələr və görmə qüsurlu şəxslər üçün xüsusi göstərişlər kimi uyğun infrastruktura ehtiyac var. Məktəblər əvvəldən bu ehtiyacları nəzərə almaq üçün tikilməmişdi və infrastruktur təminatı resursların mövcudluğuna toxunur.

Uşaq bağçalarında və ali təhsil müəssisələrində inklüziv təhsilə diqqət yetirmək üçün inklüziv təhsil komandası daha da genişləndirilməlidir.

**Problemin aktuallığı.** İnkluziv təhsil sistemində maarifləndirmə işləri daha da genişləndirilməli və bütün təhsil pillələri bu prosesdə aktiv şəkildə iştirak etməlidir. Məqsəd təhsilin hər kəs üçün əlçatan və yetərli olmasıdır.

**Problemin elmi yeniliyi.** Müasir təhsil sistemi üçün yeni anlayış olan İnkluziv təhsilin nəinki bütün təhsil pillələri üçün, həm də bütöv cəmiyyət üçün tətbiqi vacibdir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** İnkluziv təhsilin "Xüsusiləşdirmə" deyil, "Daxil etmə" olduğunu cəmiyyətə öyrətmək məqsədilə müəllimələr, valideynlər və tələbələr istifadə edə bilərlər, maarifləndirmə işlərinin aparılmasında köməkçi vəsait kimi yararlana bilərlər.

## Ədəbiyyat


1. Avropa İttifaqı, Regional İnkişaf İctimai Birliyi. İnklüziv təhsil (Məlumat kitabçası). Tərtib etdi: M. Əliyev. Bakı, 2018.

2. Avropa İttifaqı, Azərbaycan Respublikası Təhsil Nazirliyi, UNICEF, RİİB. Dr. Peter Grimes, Marieke Stevens, Arlene dela Cruz, Tricia Mercado, Kaisa Ligaya Sol Cruz "İnklüziv sinifdə təlimin təşkili" mövzusunda ixtisasartırma proqramının oxu materialı. Bakı, UNICEF-in Azərbaycan nümayəndəliyi, 2019, 80 s.

3. Cəfərova L., Qasımova A., Rüstəmova İ., Əzimzadə A., Ələkbərov F., Həsənova T. Məktəbəhazırlıq qruplarında inklüziv təlimin təşkili: Müəllimlər üçün metodik vəsait. Bakı, 2021, 74 s.

4. Dostuzadə D.Ə. Sağlamlıq imkanları məhdud uşaqlarla işə dair // İbtidai məktəb və məktəbəqədər tərbiyə, 2004, .№ 2

5. Dr Peter Grimes Marieke Stevens Arlene dela Cruz Tricia Mercado Kaisa Ligaya Sol Cruz. Uşaq və ailə dəstək planı. Bakı: İdeal Print, 2019, 39 s.


**Ш.А. Гусейнов, З.Ф. Джалилова**

## Значение просветительской работы в сфере инклюзивного образования
## Резюме

Для реализации системы инклюзивного образования необходимы два типа обучения. Руководителей учреждений следует обучать разработке структур и систем управ-

ления, подходящих для инклюзивных школ, поскольку управление такими школами отличается от управления однородной школой. Кроме того, учителя должны пройти переподготовку для разработки предметной методологии и педагогики, отвечающих потребностям всех детей.

**Sh.E. Hüseynov, Z.F. Jalilova**

**The importance of educational work in the field of inclusive education**

**Summery**

Two types of training are required to implement an inclusive education system. Heads of institutions should be trained to develop structures and management systems suitable for inclusive schools, as managing such schools is different from managing a homogenous school. In addition, teachers must be retrained to develop subject methodology and pedagogy to meet the needs of all children.

**Redaksiyaya daxil olub: 04.03.2024**

***UŞAQLARIN AİLƏDƏ TƏRBİYƏSİ***
***ВОСПИТАНИЕ ДЕТЕЙ В СЕМЬЕ***
***UPBRİNGİNG CHILDREN IN THE FAMILY***

*UOT 37.0*

# AİLƏDƏ UŞAQLARIN MƏNƏVİ MƏDƏNİYYƏTİNİN FORMALAŞDIRILMASI

**Jalə Natiq qızı Əzimli**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCİD:** 0009-0007-5132-5728
**E-mail:** zhala.azimlee@gmail.com

***Açar sözlər:*** *mənəvi dəyərlər, mənəvi mədəniyyət, ailə, ailədə mədəniyyət.*
***Ключевые слова:*** *моральные ценности, нравственная культура, семья, культура в семье.*
***Key words:*** *moral values, moral culture, family, culture in the family.*

Ailə uşaqların mənəvi dəyərlərin və mədəniyyətin formalaşmasında mühüm rol oynayır. Uşaqlar ətraf ilə ilk qarşılıqlı münasibətlərini ailələri vasitəsilə qurur və əxlaqi dəyərləri, davranışları və etik anlayışları valideynlərindən əxz edirlər. Bu səbəbdən də ailə böyüməkdə olan nəslin əxlaqının saflaşmasında, mənəvi keyfiyyətlərinin təşəkkül tapıb formalaşmasına böyük kömək göstərir.

İlk tərbiyəçilər olan ata-analar məqsədi eyni zamanda uşaqlarının nümunəvi davranışa yiyələnmələrinə nail olmaqdır. Valideynlərin öz davranışları, münasibətləri və etik dəyərlərə sadiqliyi uşaqların həmin dəyərləri mənimsəməsində həlledici rol oynayır. Ata-anaların şəxsi nümunəsi uşaqları düzgün istiqamətə yönəldir.

Valideynlərin uşaqlara göstərdiyi xoş niyyət və hörmət mənəvi inkişafın əsas amilidir. Hörmət ilə yaradılan ünsiyyət tərzi uşaqları başqa insanlara da eyni qaydada hörmət etməyə və empatiya qurmağı alışdırır. Valideynlər uşaqlara doğru ilə yanlış arasındakı fərqi öyrətməklə onlarda mənəvi mədəniyyəti formalaşdıra bilərlər. Bunun üçün gündəlik həyat təcrübələrindən faydalanmaq mümkündür. Məsələn, qərarların qəbulu zamanı diqqətli və ehtiyatlı olmaq, tərbiyə metodlarından düzgün istifadə etmək, uşaqların nümunəvi davranışını, yaxşı hərəkətini gördükdə onları rəğbətləndirmək tərbiyə işinin səmərəliliyinə imkan verir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ailə dəyərlərlə bağlı belə bir fikir söyləmişdir: “Xalqımızın yaşaması, öz mənliyini, qürurunu qoruması üçün ailə dəyərləri, milli dəyərlər əvəzolunmaz rol oynamışdır”.

Valideynlər tərbiyə işləri zamanı cəmiyyətə töhfə vermənin vacibliyini vurğulamalıdırlar. Uşaqlara başqalarına kömək etməyin dəyərini və cəmiyyətə faydalı olmağın vacibliyini öyrətmək əxlaqi mədəniyyət yaradır.

Mənəvi mədəniyyətin formalaşdırılması prosesində uşaqda öz mənəviyyatını təkmilləşdirmək tələbatı meydana gəlir, o, fəal olur, öz üzərində işləyir, cəmiyyətdə necə davranmağın, nə kimi mənəvi norma və prinsipləri rəhbər tutmağın vacibliyini anlayır, rəftar və hərəkətlərində bu qaydalara, cəmiyyətin birgə yaşayış normalarına əməl etməyə çalışır.

Uşaqların mədəni davranış tərbiyəsində əsas yerləri səmimilik, sadəlik, təvazökarlıq, xeyirxahlıq, dosta-yoldaşa sadiqlik, sədaqətli olmaq, düzlük, doğruçuluq, dostluq, yoldaşlıq, ədalətlilik və s. kimi keyfiyyətlər tutur [5, s. 211].

Bunlar mühüm əxlaqi keyfiyyətlərdir. Həmin keyfiyyətlərə ilk növbədə ailədə yiyələnmək, daha sonra özünütərbiyə və ictimai tərbiyə ilə onların təkmilləşdirilməsi qayğısına qalmaq lazımdır.

Bir çox valideynlər mənəvi mədəniyyəti uşaqlar aşılamaq üçün din və onun təsirlərindən istifadə edir. Bəs din uşağa necə təsir edə bilər? Din uşaqların ruhlarına, etik dəyərlərə, mənəvi görüşlərə və məsuliyyət hissinə səmərəli şəkildə təsir göstərir. Mənəvi dəyərlər, hörmət, məsuliyyət, mərhəmət kimi mühüm dəyərlər uşaqlara öyrədilir. İçində mərhəməti olan bir uşaq həm ailəsinə, həm özünə, həm də ətrafına daim yararlı olacaqdır. Ona görə də dini dəyərləriin tərbiyəvi imkanlarından faydalanmaq lazımdır.

Ailənin mənəvi dəyərləri, valideynlərin nümunəvi davranışları uşaqların mənəviyyatını cilalayır, onları həyata hazırlayır, həyatda fəal mövqe tutmağı onlara öyrədir.

Nəticə. Ailə uşağın tərbiyə aldığı ilk mühitdir. Valideynlər ilk tərbiyəçilərdir. Uşaqların tərbiyəsi işi təkcə valideynlərdən birinin (məsələn, ananın) deyil, hər iki valideynin, hətta ailənin yaşlı üzvlərinin mühüm vəzifələridir. Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Ailə Məcəlləsi uşaqların tərbiyəsində valideynlərin vəzifələrini müəyyən edir.

**Problemin aktuallığı.** Tədqiqatın aktuallığı ondan ibarətdir ki yeni ailələr və ya uşaqlarını yenidən tərbiyə etmək istəyən valideynlər, hansı fəaliyyət və vasitə növlərindən istifadə etməyi nəzərdən keçirə bilərlər.

**Problemin elmi yeniliyi.** Tədqiqatda ailələrin görə biləcəyi bir sıra fəaliyyət nümunələri öz əksini tapmışdır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə qeyd olunan fəaliyyət növləri valideynlər üçün nümunə rolunu oynaya bilər.

## Ədəbiyyat

1. Abbasov A.N. Milli əxlaq və ailə etikası: Ali təhsil müəssisələri üçün dərslik. Bakı: Mütərcim, 2015.

2. Abbasov A.N. Ailə pedaqogikası: Ali təhsil müəssisələri üçün dərslik. Bakı: Mütərcim, 2021.

3. Abbasov A.N., Məmmədzadə R.R. Ailə pedaqogikası: Müntəxəbat. Ali təhsil müəssisələri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2021.

4. Abbasov A.N. Ailə dəyərləri: Ali təhsil müəssisələri üçün dərslik. Bakı: Mütərcim, 2023.

5. Əlizadə Ə.Ə, Abbasov A.N. Ailə: Ümumtəhsil məktəblərinin 9-cu sinifləri üçün dərslik. Bakı: Maarif, 1989.

6. Əlizadə Ə.Ə, Abbasov A.N. Ailə həyatının etika və psixologiyası: Müəllim üçün metodik vəsait. Bakı: Maarif, 1988.

7. Əlizadə Ə.Ə, Abbasov A.N. Ailə həyatının etika və psixologiyası üzrə müntəxəbat: Ümumtəhsil məktəblərinin 9-cu sinifləri üçün dərslik. Bakı: Maarif, 1989.

8. Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 2006.

9. Mədəniyyət tarixi və nəzəriyyəsi: Ali məktəblər üçün dərslik / M.J. Manafova, N.T. Əfəndiyeva və S.A. Şahhüseynovanın ümumi red. ilə. Bakı: Sabah, 2008.

10. A.İ. Əhmədli. Uşaqlarda davranış normalarının tərbiyə edilməsinin yolları və vasitələri. Bakı, 2008.

**J.N. Азимли**

**Формирование нравственной культуры детей в семье**
**Резюме**

Так же, как семья играет ключевую роль во многих важных вопросах, она также играет важную роль в формировании начальных характеристик нравственной культуры, придаваемых детям. В результате семья должна прививать детям такую культуру, чтобы их поведение и отношение, общение с друзьями соответствовали существующим моральным нормам и правилам поведения, и они могли понимать, что и как, их суть.

**J. N. Azimly**

**Formation of moral culture of children in the family**
**Summary**

Just as the family plays a key role in many important issues, it also plays an important role in the initial moral culture characteristics given to children. As a result, the family should inculcate in children such a culture that their behavior and attitude, communication with their friends is in accordance with the existing moral norms and rules of conduct, and they can understand what is and how, their essence.

**Redaksiyaya daxil olub: 14.03.2024**

***TƏHSİLİN İDARƏEDİLMƏSİ MƏSƏLƏLƏRİ***
***ВОПРОСЫ УПРАВЛЕНИЯ ОБРАЗОВАНИЕМ***
***İSSUES OF EDUCATIONAL MANAGEMENT***

*UOT 371.*

# TƏHSİLİN DEMOKRATİK İDARƏ OLUNMASI MƏQSƏDYÖNLÜ FƏALİYYƏTDİR

**Fəridə Mikayıl qızı Allahverdiyeva**
*Bakı Qızlar Universitetinin dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
**ORCİD:** 0009-0007-4354-3338
**E-mail:** feride.esed1@ gmail.com
**Sevda Sultan qızı Tağıyeva**
*Bakı Qızlar Universitetinin dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
**E-mail:** sevdasultanbdu@gmail.com

***Açar sözlər:*** *sosial iqtisadi, obyektiv şərait, elmi hazırlıq, nəzəri hazırlıq, idarə etmək, demokratik, humanist baxış, təhsil sistemi, iqtisadi-siyasi, mütərəqqi.*

***Ключевые слова:*** *социально-экономическая, объективная обстановка, научная готовность, теоретическая готовность, управлять, демократический, гуманное видение, образовательная система, политико-экономический, прогрессивный.*

***Key words:*** *social-economic, objective situation, scientific readiness, theoretical readiness, manage, democratic, humane vision, educational system, political-economical, progressive.*

Müəllim və onun cəmiyyətdə gördüyü işləri yüksək qiymətləndirən böyük yunan filosofu Platon və Aristotel uşaq və gənclərin tərbiyəsində, şəxsiyyət kimi yetişməsində müəllimin rolunu yüksək qiymətləndirmişlər. Əlbəttə, pedaqoji fəaliyyətin başlıca subyekti xüsusi təhsil görmüş müəllim, öyrədən, bilik verən, tərbiyə edəndir. Müasir dünyamız tarixin enişli-yoxuşlu yolları ilə irəliləyir, sosial-iqtisadı dəyişikliklər elm və texnikanın nəhəng sıçrayışları ilə müşayiət olunur, insan biliyi misilsiz dərəcədə genişlənir. Müasir dövrdə təlim prosesinə və təhsil və tərbiyənin məzmununa, müəllim kadrlarının elmi nəzəri hazırlığına və əməli fəaliyyətinə verilən tələblər xeyli artmışdır. Respublikamızda yaradılmış hüquqi baza əsaslı islahatların həyata keçirilməsinə geniş imkanlar açır. Bu məqsədlə xüsusi sərəncamlar imzalanmışdır və bu sərəncamlardan irəli gələn vəzifələri müəyyənləşdirmək, yerinə yetirilməsi yollarını seçmək təhsil sistemində respublikada qazanılmış mütərəqqi ənənələri saxlamaqla, inkişaf etmiş ölkələrin təhsili idarəetmə sisteminə keçirmək lazım gəlir. Buna görə bütün təhsil müəssisələrinə müstəqillik verilməli, idarəetmədə demokratik idarəetmə prinsipləri əsas götürülməli, idarəetmənin müasir çevik mexanizmi yaradılmalıdır.

Təcrübə göstərir ki, idarəetmə fəaliyyətinin səmərəsi idarəetmənin nəzəri və tətbiqi məsələlərinə, metodoloji əsaslarına və tenologiyalarına yaxşı yiyələnməklə sıx bağlıdır. Bu gün Azərbaycan Respublikasının Təhsil Qanunu, Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramı və bazar iqtisadiyyatının tələbləri təhsilin və təhsil müəssisələrinin fəaliyyətinin daha səmərəli demokratik prinsiplər əsasında təşkilini və idarə edilməsini təkmilləşdirməyi yeni vəzifələrdən biri kimi qarşıya qoyur.

Azərbaycan Respublikasının Təhsil Qanununda deyilir ki, təhsil cəmiyyətdə və dövlətin

inkişafının əsasında durmaqla strateji əhəmiyyətə malik olan və üstün inkişaf etdirilən fəaliyyət sahəsidir. Azərbaycan Respublikasının təhsil sistemi milli zəminə, ümumbəşəri dəyərlərə əsaslanır və demokratik xarakter daşıyır.

Təhsil sisteminin demokratik və humanist prinsiplər əsasında idarə edilməsi üçün təhsil işçiləri təhsil sahəsində dövlət siyasətinin mahiyyətini, onun milli-mənəvi tələblərini dərindən bilməlidirlər. Təlim və tərbiyənin məzmununu dövlətin müəyyənləşdirdiyi standartlara uyğun şəkildə təmin etmək hər bir təhsil işçisinin məktəb rəhbərinin, pedaqoji kollektivin başlıca vəzifələrindəndir.

İdarəetmə — qarşıya qoyulmuş məqsəd və vəzifələri həll etmək üçün idarəetmə subyektlərinin müvafiq obyektlərə təsir göstərməsi ilə bağlı fəaliyyət növüdür. Təhsilin idarə edilməsi dedikdə pedaqoji proses iştirakçılarının məqsədyönlü qarşılıqlı təsiri başa düşüiür. Təhsildə gedən yeniləşmələr onun idarəetmə funksiyalarının ciddi şəkildə dərinləşdirilməsini tələb edir və təlim-tərbiyənin gələcəyini əvvəlcədən görmək, idarəetmə sistemini düzgün seçmək, hər bir işi vaxtında icra etmək əsas məsələ kimi qarşıda durmuşdur. Ümummilli liderimiz Heydər Əliyev demişdir: “Məktəb elə bir prosesdir, orqanizmdir ki, hamı — şagird də, tələbə də, müəllim də, bütün kollektiv də inkişafdadır”. Buna görə təhsil müəssisələrinin ahəngdar inkişafını təşkil etmək, təhsil sahəsində çalışanların, müəssisə rəhbərlərinin başlıca vəzifəsidir, çünki təhsil sahəsində qazanılan hər bir müvəffəqiyyət həmin vəzifənin necə yerinə yetirilməsindən asılıdır.

İdarəetmə prosesi müəyyən xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətləri dərindən öyrənmədən  və onu nəzərə almadan idarəetmə işini lazımi səviyyədə qurmaq çətindir. Təhsil demokratik dəyərlərin inkişaf etdirilməsinə görə əsas amillərdən biridir. Çünki təhsil, qabaqcıl texnologiyaların mənimsənilməsinə kömək edir. Dünya təhsilində daima modelləşdirmə aparılır. Təhsilin demokratkliyi təhsilin fundamentallığının artırılması, habelə təhsilin humanistləşdirilməsidir. Demokratik təhsil sisteminin məqsədi totalitar təhsil sistemindən xeyli fərqlənir. Demokratik təhsilin məqsədi demokratik qaydalar və təcrübəyə dair olan, hər şeyi bilmək istəyən müstəqil vətəndaşların formalaşması üçün şəraitin yaradılmasıdır.

Demokratik idarəetmədə mövqe və fikirlərin müxtəlifliyini öyrənmək, onlardan istifadə etmək və vahid hakim ideologiyaya yol verməmək üçün geniş imkanlar yaranır. Təhsildə azad axtarış ruhu demokratik prinsiplərin həyata keçirilməsində böyük əhəmiyyətə malikdir. Elə azad axtarışın özü demokratik dəyər hesab olunur. Demokratik təhsil sistemi dünyada hamı tərəfindən qəbul olunur. Onun bir çox elementlərini inkişaf etdirmək və təkmilləşdirmək zəruri hesab olunur. İndi əminliklə demək olar ki, vaxtı keçmiş totalitar təhsil metodları sərbəst rəqabət nəticəsində öz yerini yeni təhsil vasitələrinə və metodlarına vermişdir. İndi təhsil işçiləri bu vaxtadək toplanmış dünya təcrübəsini, iqtisadi, siyasi, sosial və mədəni inkişafın xalqımıza xas olan xüsusiyyətlərini daha dərin öyrənməli və başqa ölkələrin demokratik ideyalarına yaradıcılıqla yanaşmağa, onların yaxşı cəhətlərindən istifadə etməyə diqqət yetirməlidirlər.

Təhsil sisteminin idarə edilməsində yeniləşmənin müxtəlif istiqamətdə qoyulmasına diqqəti artırmaq lazımdır. Təhsili idarə etmə obyektiv qanunlara əsalandıqda bu işi elmi əsasda qurmaq və yüksək nəticə əldə etmək mümkündür. Obyektiv şəraiti nəzərə almaqla, təhsilin idarə edilməsinin müxtəlif variantlarından istifadə edilməlidir. Təhsil müəssisəsini idarə edən bəzi rəhbərlər şəraitdən şikayətlənərək köhnəlikdən əl çəkə bilmirlər. Köhnə sistemi dəyişmək və yenilik axtarmaq istəməyən idarəçi özündə cəsarət tapmalıdır və öz ideyalarını inandırıcı şəkildə həyata keçirməyə çalışmalıdır. İstər idarəetmədə tam sərbəstlik olsun, istərsə də idarəetmənin məzmunundan irəli gələn yeniləşdirmək fikri olsun, fərqi yoxdur rəhbər demok-

ratik fikirli adamlar içərisindən seçilməlidir. Əgər idarə edən rəhbər demokratik fikirlidirsə, pedaqoji kollektivə yalnız məsləhət vermək qalır və belə halda tədrisin keyfiyyətinə diqqət yetirmək üçün daha çox imkan yaranır.

İdarəetmənin səmərəli təşkili üçün onun prinsiplərini yaxşı bilmək və ondan düşgün istifadə etmək lazımdır. Demokratik idarəetmə sistemində hazır resept vermək olduqca çətindir. Rəhbərlik-pedaqoji kollektiv, rəhbərlik-şagirdlər, müəllimlər-valideynlər sisteminə üstünlük verilməlidir. Yaxşı düşünülmüş və planlı həyata keçirilən məqsəd idarəetmə işinə düzgün istiqamət verir, kortəbiilik və təsadüflərdən uzaqlaşmağa kömək göstərir. Çünki şüurlu surətdə dərk olunmuş və yaxşı düşünülmüş məqsəd yoxdursa, onda fəaliyyət də yoxdur.

Demokratik idarəetmə fəaliyyətinin optimallaşdırılması onun əsas vasitələrindən biri hesab olunur. Təhsildə rəhbərlikdə ictimai dövlət idarəetməsinə üstünlük verilməsi idarəetmənin təşkilatçılıq funksiyasının daha da təkmilləşdirilməsi onun bütün mərhələlərinin ilkin və vacibi hesab edilir. Buna görə də, təhsil sistemində demokratiyanın vacibliyi zərurəti meydana çıxır.

Müəllimlərin bir çoxu öz fəaliyyətində əvvəlki vərdiş etdiyi inzibati-amirlik metodlarından əl çəkə bilmirlər. Müəllimin fəaliyyətindəki bütün sahələri öyrənmək, ona istiqamət vermək birinci növbədə məktəb rəhbərinin üzərinə düşür. Məktəbdə qazanılmış müvəffəqiyyət yaranmış problemlərin düzgün həyata keçirilməsindən çox asılıdır.

Sosial tədqiqatlar göstərir ki, müəllimlərin əksəriyyəti təhsilin yeniləşməsində gedən proseslərdə nə etmək lazım gəldiyini bilmir və bəzi hallarda təlim-tərbiyə işlərində çətinlik çəkir, onlar dərs prosesində hər bir uşağın inkişafı üçün optimal şəraitin yaradılmasında nöqsanlara yol verir, istedadlarını gözdən qaçırır. Hələ də ayrı-ayrı pedaqoji kollektivlərdə öz fəaliyyətini səmərəli qura bilməyən, şagirdlərlə demokratik və humanist qaydada sistemli şəkildə iş aparmaqda nöqsanlara yol verənlər var.

Son zamanlar təhsilin demokratik idarə edilməsi sahəsində müxtəlif və maraqlı fikirlər formalaşıb. İdarəetmə təhsilin məzmunundan irəli gəlir. Əvvəlcə təhsilin məzmununu yeniləşdirmək, sonra isə onun idarə edilməsi haqqında fikirləşmək lazımdır. Belə fikirlər birinci növbədə tədris planları, proqramları və dərsliklərin günün tələbləri baxımından yeniləşdirilməsinin həyata keçirilməsinin ön plana çəkilməsinə üstünlük verməkdir. Təhsil müəssisələrinin demokratikləşdirilməsinin ilk addımları pedaqoji kollektivlə aparılan iş, onların əməyinin qiymətləndirilməsi və nüfuzunun artırılması üçün görülən tədbirlərdir.

Təhsilə rəhbərlikdə ictimai dövlət idarəetməsinə üstünlük verilməsi, idarəetmənin təşkilatçılıq funksiyasının daha da təkmilləşdirilməsinin, onun bütün mərhələlərinin ilkin və vacibi hesab edilir. Cəmiyyətimizi idarə edən kadrların işdə yol verdikləri ciddi nöqsanların bir çoxunun kökləri məktəbdən artıb inkişaf edir.

Həyatımızın bütün sahələrində olduğu kimi, təhsil sisteminin demokratik ruhda yeniləşməsi üçün son illər də təhsil müəssisələrinin məsuliyyəti xeyli yüksəldilmiş, idarəetmənin bir sıra yeni formaları irəli sürülmüşdür.

İndi respublikamızın bütün şəhər və rayonlarında idarəetmə formalarından biri kimi rayon (şəhər) və məktəb şuraları yaradılmışdır. Şurada ideya-mənəvi tərbiyə, ictimai tərbiyə, əmək və peşəyönlü təlim, kadrlarla iş və maddi texniki bazanın möhkəmləndirilməsi və s. kimi bölmələr daim fəaliyyət göstərir.

Şurada eyni zamanda mədəni-maarif, idman məsələləri ilə əlaqə yaratmaqla sinifdənxaric və məktəbdənkənar işlərin təşkilinə, müəssisələrin ixtisaslı kadrlarla tam təmin olunması üçün gənclərin peşəyə istiqamətləndirilməsinə diqqət yetirilir, müəllim əməyinin qiymətləndiril-

məsi, nüfuzunun qaldırılmasına qayğı göstərilir.

Məktəb şurasının işinin əsas istiqamətlərindən biri də şagirdlərin təlimi ilə bağlı məsələlərin həllidir. Məktəb şurası təlim-tərbiyə prosesinin o cümlədən şagirdlərin arzusu nəzərə alınmaqla ayrı-ayrı fənlərin dərindən öyrənilməsinin təşkilinə, məktəbin iş rejimi, daxili intizam qaydaları, şagirdlərin biliklərini və davranışlarını demokratik əsaslarla qiymətləndirilməsi, müəllimlərin attestasiyası və metodiki işin təşkili məsələlərinin həllində hər cür kömək göstərir.

Deməli, məktəb şurası aşağıdakı istiqamətləri əsas götürür:

a) təlim-tərbiyə işinin planını hazırlamaq, kadrların yeniləşdirilməsini müzakirə və təsdiq etmək.

b) şagirdlərin mükəmməl təhsil alması üçün tədris-metodik bazanın yaradılması.

c) şagirdlərin təlimi ilə bağlı məsələlərin həlli.

d) şagirdlərin sinifdənxaric və məktəbdənkənar tərbiyə işlərinin həyata keçirilməsinə şərait yaratmaq, uşaqların tərbiyəsində valideynlərin, ictimai təşkilatların məsuliyyətinin artırılması və s.

Məktəb şurası öz işi Elm və Təhsil Nazirliyinin məktəb şurası haqqında əsasnaməsinə uyğun qurur. Bütün bunları nəzərə alaraq demokratik əsaslarla təhsilin idarə olunması Azərbaycan Respublikası Təhsil Qanununda deyildiyi kimi "Təhsil cəmiyyətdə dövlətin inkişafının əsasında durmaqla strateji əhəmiyyətə malik olan və üstün inkişaf etdirilən fəaliyyət sahəsidir. Azərbaycan Respublikasının təhsil sistemi milli zəminə, ümumbəşəri dəyərlərə əsaslanır, demokratik xarakter daşıyır".

Təhsil islahatı ilə bağlı təhsil müəssisələrində idarəetmənin məzmunu və texnologiyasının yeniləşməsi, maddi texniki bazanın möhkəmlənməsi istiqamətində xeyli iş görülmüş, ciddi dəyişiklər aparılmışdır. Deməli, təhsili demokratik idarəetmə məqsədəuyğun qərar qəbul etməyə, idarəolunan obyektini təşkil etməyə, ona nəzarət etməyə, tənzimlənməyə yönəlmiş fəaliyyət, düzgün informasiya əsasında işin təhlili və onun yekunlaşdırılması kimi başa düşülür. Təhsil sistemini demokratik idarə etmək, həmin müəssisənin daxilində baş verən mürəkkəb pedaqoji, təşkilati və metodiki prosesləri və münasibətləri şüurlu olaraq tənzimləmək deməkdir.

**Problemin aktuallığı.** Demokratik üslub normal ünsiyyət qurmağa, sağlam sosial psixoloji mühit yaratmağa, insanın şəxsi ləyaqət hissini qorumağa, rəhbər işçinin nüfuzunu yüksəltməyə və başlıcası, səmərəli idarəetməyə imkan verir. Təhsilin demokratik idarə olunması müəllimlərin pedaqoji fəaliyyətinə əsaslı təsir göstərir. Bu təsir xüsusən ilk növbədə müəllimin pedaqoji ünsiyyət üslubuna, onun xarakterinə təsir edir.

**Problemin elmi yeniliyi.** Təhsilin demokratik idarə edilməsi üçün idarəedənin pedaqoji təhsilini daima artırmalı, formalaşdırmalı və o, bir peşəkar müəllim kimi özünün pozitiv və neqativ keyfiyyətlərini dərk edib idarəçiliyi avtoritarlıqdan, liberallıqdan uzaqlaşıb demokratik əsaslarla qurmaq qabiliyyətinə malik olmalıdır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə təhsildə idarəetmənin nəzəri əsaslarını, təşkilati və praktik məsələlərinin şərhinə həsr edilmişdir. Məqalədən praktik məqsədlə müəllimlər, pedaqoqlar, ali və orta ixtisas məktəbinin tələbə və magistrantları, nəzəri cəhətdən isə elmi iş yazarkən istifadə edilə bilər.

**Ədəbiyyat**

1. Allahverdiyeva F.M., Tağıyeva S.S. Pedaqogika: Dərs vəsaiti. Bakı: Elm və təhsil, 2018.

2. Cabbarov R. Təhsil müəssisələrində təlim-tərbiyə işlərinin idarə edilməsi və planlaşdırılması məsələləri. Bakı: Müəllim nəşriyyatı, 2014.

3. Rəsulov S.C., Əzizov R.Z. Orta ümumtəhsil məktəbin idarə edilməsinin əsas istiqamətləri. Bakı: Müəllim, 2010.

4. İsmixanov M.A., Bəxtiyarova R.Ə. Məktəbin idarə edilməsi. Bakı, 2012.

5. Məmmədzadə R., Abdullayev A., Kərimova F., Cbbarov R., Rəsulov S., Quliyev Ə. Təhsilin idarə edilməsinin bəzi problemləri. Bakı, 2008.

6. Cabbarov R. Təhsil müəssisələrinin idarə edilməsi məsələləri. Bakı: Müəllim, 2011.

**Ф.М.Аллахвердийева, С.С. Тагиева**

**Демократическое развитие образования есть целенаправленная деятельность**
**Резюме**

Образовательная система полагается на национальную почву и на всеобщие принципы, имея, демократический характер. Статья включает основные принципы демократического управления образовательной системы, а также включает подготовку учителей на основе демократических принципов. Решение проблем поставленные для менеджеров описаны в статье. Разные инновации в образовательной системе были предложены в данной статье.

**F.M. Allahverdiyeva, S.S. Taghıyeva**

**The democratic management of education is a purposeful activity**
**Summary**

The educational system is rely on national ground and on universal values and consider an democratic attitude. The article includes the principles of the democratic management of the educational system and prepare teachers based on democratic principles. The solvency of the issues for the managers is described as a priority in this article. The different innovations of the management of the educational system is proposed in the article.

**Redaksiyaya daxil olub: 05.04.2024**

*UOT 371.*

# BİRİNCİ KURS TƏLƏBƏLƏRİNİN ADAPTASİYA MƏSƏLƏLƏRİ

**Səbinə Vaqif qızı Rüstəmova**
*Azərbaycan Dillər Universitetinin müəllimi,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
**ORCID:** 0000-0002-5392-4384
**E-mail:** sabina.rustemova.87@inbox.ru

***Açar sözlər:*** *adaptasiya, dezadaptasiya, ali təhsil, uğunlaşma, ali məktəb mühiti, akademik tələblər, motivasiya, ünsiyyət çətinlikləri.*

***Ключевые слова:*** *адаптация, дезадаптация, высшее образование, адаптация, вузовская среда, академические требования, мотивация, трудности общения.*

***Key words:*** *adaptation, disadaptation, higher education, adaptation, higher school environment, academic requirements, motivation, communication difficulties.*

Adaptasiya sözü latınca uyğunlaşma mənasını verir. Ətraf mühitin dəyişməsi adaptasiya prosesini zəruri edir çünki hər bir varlıq yeni mühitə uğunlaşma prosesindən keçməlidir. Bu baxımdan universitet tələbələri də tam orta məktəbi bitirdikdən sonra ali məktəb mühitinə düşmüş olurlar. Ali məktəb mühiti orta məktəb mühitindən fərqlənir. Bu istər təlim prosesinin quruluşu baxımından, istərsə də yeni insan kontingenti baxımından yenilikdir. Təlim prosesindəki yeniliklər, yeni tələbə yoldaşları, yeni müəllimlər tələbələri adaptasiya prosesinə sövq edir. Bir də başqa şəhər və rayonlardan gələnləri nəzərə alsaq tamamilə fərqli mühitin yarandığını müşahidə etmiş oluruq. Bu proses isə heç də asan keçmir. Belə ki, tələbələr dəstək ala bilmirlərsə, bu onların öyrənmə prosesinə mənfi təsir etmiş olur.

Tələbə üçün təlim baxımından universitetdə oxumaq təhsilə və digər akademik fəaliyyətlərə yeni baxış tərzi deməkdir. Ali məktəblərdə onlar orta məktəblərdən fərqli olaraq daha çox tapşırıq alırlar və bu tapşırıqlara daha müstəqil, məsuliyyətli yanaşmaları tələb olunur. Tapşırıqları yerinə yetirmək üçün verilən sərbəstlik və akademik öhdəlik məsələlərini tənzimləmək birinci kurs tələbələri üçün çətinlik yaradır. Gənclər daha çevik akademik mühit, institusional dəyişiklik yaşamaqdan əlavə həmkarları və müəllimləri ilə münasibətlərin yeni modellərini əhatə edən bir sıra dəyişikliklərlə üzləşməli olurlar.

Uyğunlaşma çətinliyi adətən 4 qrupa bölünür. 1) Qrup motivasiya məsələlərində özünü göstərə bilir. Bu peşəyə sahiblənməkdə zəif olan motivasiya ilə əlaqələndirilə bilər. Tələbələrin çoxu balı çatmadığı üçün oxuduqları peşəni seçdiklərini arqument kimi göstərirlər. Xüsusən müəllimlik ixtisasında təhsil alan tələbələr qəbul vaxtı az bal topladıqları üçün bu ixtisası seçdiklərini vurğulayırlar.

Tarixi reallıq belədir ki, Azərbaycan Respublikası YUNESKO Beynəlxalq Təşkilatı tərəfindən “Təhsil əsri” elan edilmiş XXI əsrə möhtərəm Prezident cənab Heydər Əliyevin rəhbərliyi altında milli təhsil sistemində əsaslı islahatların reallaşdırılması şəraitində daxil olmuşdur. (3.788 s.) Cənab prezidentin müəyyənləşdirdiyi inkişaf strategiyası təhsil sahəsində məqsədyönlü islahatların aparılması, qarşıya çıxan problemlərin həlli bütün bunlar artıq öz müsbət nəticələrini vermişdir.

Təhsildə idarəetmə dedikdə, onu idarə edən subyektlərin qarşılıqlı səyləri nəticəsində, təhsil sisteminin sabit işləmə rejimini təmin etmək, keyfiyyət baxımından irəliyə aparmaq və cəmiyyətin inkişaf səviyyəsindən geri qalmamaq başa düşülür. Təhsil müəssisəsinin idarəetmə subyektləri əsasən onun rəhbərləri (direktoru, onun müavinləri), müəllimləri, şagirdləri, valideynləri və tədris prosesinin təşkilində iştirak edənlər nəzərdə tutulur.

Məktəbin idarəetmə məsələlərinə məktəbin idarə edilməsi, pedaqoji kollektiv, məktəb direktoru və onun müavinlərinin fəaliyyətinin təşkili, məktəbdə metodik iş, məktəbdaxili nəzarət, məktəb sənədləri və s. daxildir. Bu məsələlər Azərbaycan Respublikasının Təhsil Qanununa (2009), həmin qanuna uyğun milli və beynəlxalq aktlara, həmçinin təhsil müəssisələrinin fəaliyyətini tənzimləyən Əsasnamə və Nizamnamələrə, Təhsilin İnkişafı üzrə Dövlət Strategiyasına (2013) əsaslanır. (1.51 s.)

İdarəetmənin təşkilati strukturu üç ünsürdən (elementdən) ibarətdir: idarəetmə həlqələri; idarəetmə səviyyələri; onlar arasındakı qarşılıqlı münasibətlər. Bunları qısaca nəzərdən keçirək. (2.94 s.) İdarəetmə strukturunun bir ünsürü kimi təhsil sistemində idarəetmə həlqələrinə bunlar daxildir: Təhsil Nazirliyi, onun idarə, şöbə və sektorları (bölmələri); yerli təhsil şöbələri; təhsil müəssisələri. İdarəetmənin bu həlqələri onun müvafiq səviyyələrini təşkil edir. İdarəetmə səviyyələri dedikdə, idarəetmə sistemində müəyyən pillə tutan idarəetmə həlqələrinin məcmusu başa düşülür. Təhsil orqanları sistemində idarəetmə strukturu müəyyən səviyyələrdən ibarətdir. İdarəetmənin strukturunu əsasını idarəetmə həlqələri və səviyyələri arasında qarşılıqlı əlaqə və münasibətlər təşkil edir. Ümumiyyətlə idarəetmə strukturu daxilində idarəçilik prosesi baş verir və bu da idarəetmədə iştirakçılar arasında müəyyən vəzifələri və funksiyaları

yaradır. İdarəetmə həlqələri və səviyyələri arasında qarşılıqlı münasibətlərin üç növü vardır: şaquli, üfüqi və diaqonal idarəçilik münasibətləri. Şaquli idarəçilik münasibətləri rəhbərlər və onların tabeliyində olanlar arasındakı tabelilik münasibətlərini əks etdirir. Üfüqi idarəçilik münasibətləri eyni idarəçilik səviyyələrində olan əməkdaşlar arasındakı qarşılıqlı münasibətləri əks etdirir. Diaqonal münasibətlər əsasən yuxarı səviyyəli qərarları icra edir və bir-birilə əlaqəli olan idarəetmə həlqələri arasında meydana çıxan münasibətlərdir.

Tamamilə açıq görünür ki, inkişaf etmiş təhsil sistemi, onun məqsəd və vəzifələri dəqiq müəyyən edilmədən və təhsilin idarə edilməsinin müvafiq təşkili olmadan cəmiyyət mənəvi və intellektual cəhətdən geri qalır. Təhsilin idarə edilməsinin əsas məqsədi cəmiyyətin və dövlətin təhsil sisteminin qarşısında qoyduğu məqsəd və vəzifələrin uğurla həyata keçirilməsini təmin etməkdir.

Təhsil cəmiyyətdə qəbul edilmiş dəyərlər, norma və qaydalar əsasında şagirdin şəxsi inkişafına, öz müqəddəratını təyin etməsinə sosiallaşmasına yönəlmiş fəaliyyətdir. Təhsil fərdin tərbiyəsi və təlimi sistemi, habelə əldə edilmiş, bilik, bacarıq, dəyərlər, funksiyaları, əməliyyat təcrübəsi və səriştələrin məcmusudur. (4, 48 s.) Təhsilin idarə edilməsi təkcə təhsil müəssisəsinin və tədris prosesinin idarə edilməsi ilə bağlı deyil, həm də işçilərin təhsil yolu ilə təşkilatın inkişafına, təşkilatın pedaqoji funksiyalarının genişləndirilməsinə, korporativ mədəniyyətinin formalaşdırmasına yönəlmiş fəaliyyət kimi fəaliyyət göstərir, kadrların innovativ fəaliyyətdə cəlb edilməsi hər bir təhsil işçisi üçün maraqlı bir araşdırma mövzusuna çevrilmişdir

İdarəetmənin məqsədi gələcəkdə həyata keçiriləcək ideyanın, əvvəlcədən müəyyən edilmiş formasıdır. İdarəetmə dedikdə, qərarların qəbul edilməsinə, idarəetmə obyektinin verilmiş məqsədə uyğun təşkilinə, monitorinqə, tənzimləməsinə, etibarlı məlumat əsasında nəticələrin təhlilinə və yekunlaşdırılmasına yönəlmiş fəaliyyət başa düşülür. Təhsilin bütün vəsilələrində, o cümlədən məktəbə, pedaqoji prosesə, hadisə və obyektlərə rəhbərlik edərkən təhsilin özünəməxsus qanunauyğunluqlarını nəzərə almaq vacibdir. Pedaqoji rəhbərlik, təhsili idarəetmə mühüm əhəmiyyətə malikdir.

Təhsili idarəetmənin obyektinə bütün təhsil sistemi, o cümlədən tədris, elmi tədqiqat və məktəbdənkənar uşaq müəssisələri; təhsil şöbələri və s. daxildir, Tədris-tərbiyə prosesini idarəetməkdə əsas məqsəd şəxsiyyətin inkişafını təmin etməkdir, Tərbiyə, təlim və təhsil prosesi dövlət təhsil sistemi, ictimai təşkilatlar, ayrı-ayrı vəzifəli şəxslər, eləcə də özəl müəssisələrdə rəhbərlər tərəfindən idarə olunur. Buradan belə qənaətə gəlmək olur ki, təhsilin idarə edilməsi cəmiyyətin artan təhsil ehtiyaclarını ödəmək və əvvəlcədən müəyyən edilmiş ümumi və xüsusi məqsədlərə nail olmaq prosesidir. Təhsil müəssisəsini faydalı və səmərəli şəkildə idarə etmək, inkişaf etdirmək rəhbərin funksiyalarının funksional borcudur. Təhsil müəssisəsinin uğuru onun idarə edilməsindən asılıdır.

Azərbaycanda təhsilə üstün strateji əhəmiyyətli sahə kimi yanaşılması, fasiləsiz, milli təhsil konsepsiyasının həyata keçirilməsi təhsilin milli bəşəri inteqrasiyasına nail olmaqla onun dünya standartlarına uyğunlaşdırılması Azərbaycan Respublikasının təhsil siyasətinin əsas mahiyyətini təşkil edir. Bunlar isə təhsilin idarə edilməsi qarşısında yeni tələblər qoyur.

**Problemin aktuallığı.** Təhsilin keyfiyyəti onun düzgün idarə edilməsindən başlayır. Elmi-texniki tərəqqinin nəticəsi olaraq günü-gündən informasiyaların artdığı qloballaşan bir dövrdə təhsilin idarə edilməsi məsələsi daha böyük aktuallıq kəsb edir.

**Problemin elmi yeniliyi.** Son əsrdə təhsil müəssisələrində idarəetmənin keyfiyyət dəyişikliyi təhsil siyasətinin əsas mahiyyətini təşkil edir. Keyfiyyət təminatının təhsili idarəetmə

qarşısında yeni tələblər qoymağı günümüzün aktual məsələlərindən biridir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə Azərbaycan məktəb və pedaqoji fikir tarixi fənninin tədrisində eləcə də, ali və orta ixtisas təhsili müəssisələrinin müəllimləri, tələbələri və magistrantlar istifadə edə bilər.

## Ədəbiyyat

1. F. Allahverdiyeva, S. Tağıyeva. Pedaqogika: Dərs vəsaiti. Bakı: Elm və təhsil, 2018, 408 s.
2. H.B.Bayramov. Dövlətin təhsil siyasəti: Dərslik. ADPU-nun nəşriyyatı. Bakı, 2020, 320 s.
3. Misir Mərdanov, Faiq Şahbazlı. Azərbaycanın təhsil siyasəti. I kitab. Bakı, 2005, 832 s.
4. Mələk Zamanova. Təhsildə keyfiyyətin sistemli idarə edilməsi. Bakı: Elm və təhsil, 2017, 188 s.

**У.Н. Эдильханов**

## Сущность и организационная структура управления образованием
## Резюме

Управление в образовании означает обеспечение стабильного функционирования системы образования, опережение ее по качеству, не отставание от уровня развития общества в результате совместных усилий субъектов, ею управляющих. Субъектами управления образовательным учреждением являются в основном его руководители (директор, его заместители), преподаватели, обучающиеся, родители и лица, участвующие в организации образовательного процесса.

**U.N. Edilkhanova**

## The nature and organizational structure of educational management
## Summary

Management in education means ensuring the stable functioning of the education system, advancing it in terms of quality, and not lagging behind the level of development of the society as a result of the combined efforts of the subjects who manage it. management subjects of the educational institution are mainly its leaders (director, his deputies), teachers, students, parents and those involved in the organization of the educational process.

**Redaksiyaya daxil olub: 15.03.2024**

# PSİXOLOGİYA
# ПСИХОЛОГИЯ
# PSYCHOLOGY

***ÜMUMİ PSİXOLOGİYA***
***ОБЩАЯ ПСИХОЛОГИЯ***
***GENERAL PSYCHOLOGY***

*UOT 159.9*

## PSİXOLOGİYADA QORXU EMOSİYASI (FOBİYA) PROBLEMİ, KORREKSİYA METODLARI

**Yeganə Ramazan qızı Mikayılova**
*Bakı Qızlar Universitetinin baş müəllimi*
**ORCİD:** 0009-0002-8526-3688
**E-mail:** mikayilovazerife559

***Açar sözlər:*** *qorxu, fobiya, həyəcan, diaqnostika, korreksiya, terapiya.*
***Ключевые слова:*** *страх, фобия, тревога, диагностика, коррекция, терапия.*
***Key words:*** *fear, phobia, anxiety, diagnosis, correction, therapy.*

Qorxu emosiyası hələ sivilizasiyanın ən erkən mərhələlərində, ibtidai icma dövründə yaşamış insanların davranışında müşahidə olunmuş, onları mövcud təhlükələrdən qorumuş, həyat uğrunda mübarizə şəraitində sağ qalma şanslarını artırmışdır. Bu baxımdan bəşəriyyətin ən qədim dövrlərində də, müasir günümüzdə də qorxu problemi öz aktuallığını itirməmişdir. Antik dövr mütəfəkkirləri Epikür, Lukretsi Kar, Platon, Aristotel qorxu emosiyası haqqında müxtəlif fikirlər səsləndirərək bu problemə böyük önəm vermişlər. Hobbs, Dekart, Spinoza kimi filosoflar isə qorxu fenomenini fəlsəfi baxımdan təhlil etmişlər. XX əsrin əvvəllərindən başlayarq bu problem Amerika və Qərb psixologiyasında geniş tədqiq edilmiş və bu sahədə bir çox eksperimental tədqiqatlar aparılmışdır (Z.Freyd, S.S.Tomkins). Emprik faktların təhlili göstərir ki, qorxu əsas və müstəqil emosiyadır, onu digər emosiyalarla kombinə olunmuş şəkildə təhlil etmək olmaz. Qorxu qeyri-müəyyən deyil, o, konkret təhlükəyə konkret reaksiyadır. Qorxunu həyəcandan fərqləndirən də məhz bu cəhətləridir. Həyəcan qorxu anına qədərki bir mərhələdir ki, situasiyanın təhlükəli kimi qavranılması və qiymətləndirilməsi fonunda meydana çıxır [2, s.117]. Qorxunun fəallaşdırıcıları qismində tələbatlar, müxtəlif emosiyalar, koqnitiv proseslər çıxış edə bilər.

Bir çox hallarda qorxu emosiyası praktik psixologiyada fobiya anlayışı ilə eyniləşdirilir.

Fobiya nədir? Fobiya real olmayan və dərk olunmamış qorxulardır, hansı kı gündəlik həyat fəaliyyətimizdə, iş həyatımızda, insanlarla qarşılıqlı münasibətlərimizdə, əşyalara münasibətdə problem yaradır.

Müasir psixoloji ədəbiyyatda fobiyanın 600-dən çox növünə rast gəlmək mümkündür. Bunlar arasında ən geniş yayılan növləri aşağıdakılardır:

Qaranlıqdan qorxma — skotofobiya;

Şimşək və ildırımdan qorxma — brontofobiya;

Hündürlükdən qorxma — akrofobiya;

Təklikdən, tək qalmaqdan qorxma — monofobiya;

Açıq yerlərdən və nəqliyyatdan qorxma — aqrofobiya;
Qapalı yerlərdən qorxma — klaustrofobiya;
Ölümdən qorxma — tanatafobiya [4, s.245].

Fobiyanın əlaməti olaraq daim qorxu yaradan situasiyadan qaçmaq və panik tutmaların olmasıdır. Fobiyanı aşağıdakı əlamətlərə görə tanımaq və diaqnozlaşdırmaq olar:

- Boğulma hissi, boğazda spazm;
- Güclənmiş ürək döyüntüsü;
- Zəiflik hissi;
- İndicə ürəyi gedəcək hissi;
- Soyuq tər;
- Güclü qorxu və dəhşət hissi;
- Bütün bədənin əsməsi;
- Qusma və ya mədənin fəaliyyətinin pozulması;
- Bədəniniz sanki sizin deyil və artıq bədəninizə nəzarət edə bilmirsiz;
- Ağlınızı itirdiyinizi hiss edirsiz [3, s.326]

Əgər bu əlamətlərdən dördü varsa onda fobiyanın olduğunu təxmin etmək olar.

Fobiyanın yaranmasının 7 əsas modeli mövcuddur. Dünya psixoloji ədəbiyyatında bu aşağıdakı kimi təsnifatlandırılır:

1. Psixoloji travmalar nəticəsində yaranan fobiyalar;
2. Simptomun yaratdığı qorxu (Halqavari model - V.Frankl);
3. Valideynlər tərəfindən ssenarinin yazılması;
4. Daxildəki uşağın bədbəxt olması və gizli suisid;
5. Özünə zidd tələbat və arzuların olması;
6. İsterik fobiyalar;
7. Emosianal asılılıq [3, s.325].

Fobiyanın yaranma səbəbləri içərisində *psixoloji travmalar* ilkin yeri tutur. Fobiyalar bir-birlərindən travmatik situasiyanın xarakterinə və dərəcəsinə görə fərqlənir. Nəticə isə eyni olur: qurban pozisiyası. Bu pozisiya özündə mənfi emosiyaları, travma yaradan situasiya ilə assosativ əlaqəni birləşdirir. Terapevtin əsas vəzifəsi pasiyentin qurban pozisiyasından çıxarmaq və ilişib qaldığı emosiyalardan qurtarmaqdır. Məsələn, kütlə qarşısında çıxış etməkdən, sağlıq deməkdən, dərs danışmaqdan qorxmaq bu tip fobiyalara aiddir. Bu tip fobiyaların səbəbi çox zaman məktəbəqədər dövrə qədər gedir, bu zaman xəyali terapiyadan istifadə olunur.

*Simptomun yaratdığı qorxu (Halqavari model - V.Frankl).* Burada fobiyanın yaranmasına səbəb travma deyil. Belə ki, bu modelə əsasən insan xoşagəlməz hisslər keçirdiyi zaman qorxu yarana bilər və qorxu öz növbəsində bu simptomları gücləndirə bilər. Bu proses halqavarı olaraq o zamana qədər davam edir ki, sonda insan güclü təlaş yaşayır və bir daha həmin situasiya ilə rastlaşmaq istəmir. Məsələn, liftə minən insan xoşagəlməz hisslər yaşayır, nəticədə qorxmağa başlayır və qorxunun təsiri ilə siptomlar güclənir, spazmlar tutmağa başlayır. Bundan sonra isə insan daha heç vaxt liftə minmir. V. Frankl belə fobiyaları aradan qaldırmaq üçün aşağıdakı metodları təklif edir: əgər insan terapiya zamanı qorxuya köklənsə onda siptomlar güclənəcək və fobiya daha da şiddətli olacaq. Buna görə də, axının əksinə getmək lazımdır. Nəticədə zəncir qırılır və fobiya itir. Burada əsas məqsəd simptomu zəiflətməkdir. Bu halda insan qorxduğu şeyi yenidən yaşamaq istəməlidir. Terapiya zamanı eyni zamanda pasiyent terapevtlə birlikdə gülməli frazalar da hazırlayırlar. Digər bir metod isə qorxduğun obraza xəyali toxunmaq və ona xoş hisslər bəsləməkdir. Məsələn, hörümçəkdən qorxan

insan ona xəyali toxunaraq ona xoş hisslərini göstərə bilər. Nəticədə fobiya aradan qalxacaq [5, s.73].

*Valideynlər tərəfindən ssenarinin yazılması.* Bu fobiyalar valideynlər tərəfindən yaradılır. E. Bernin tranzakt analizində deyildiyi kimi, valideyn ssenari vasitəsi ilə uşağı nə iləsə qorxuda və ya ona gücsüzlüyünü, zəifliyini təlqin edə bilər: "Hara çıxmısan, düş yıxılarsan"; "Sən elə zəifsən ki çətin bu işin öhdəsindən gələsən" və s. Bu halda terapiya ssenarinin dəyişdirilməsi ilə aparılır. Belə ki, insan üçün yazılmış ssenari fikrən ləğv olunur və pasiyent yeni ssenari yazır, onu dəfələrlə özünə təkrarlayır. Məsələn, uşağa təlqin olunmuş hündürlük qorxusunu bu metodla korreksiya etmək olar.

*İsterik fobiyalar.* Bu tip fobiyalar çətin aradan qaldırılan fobiyara aiddir. Çünki burada əsas motiv səlahiyyət qazanmaq, təəssürat yaratmaq, başqa adamları manipulyasiya etmək, nəyəsə qarşı etiraz etmək olur. Fobiya gizli məqsədlərə çatmaq üçün istifadə edilir. Məsələn, metrodan qorxu. Tələbə qız universitetə  getmək istəmədiyi və dərs oxumaq istəmədiyi üçün bu tip fobiya yaranmışdır. Digər bir xanım isə rəfiqələrindən və əks cinsdən diqqət görmək üçün bu tip fobiyadan  istifadə edir [6, s.125].

Qorxunun korreksiyası ilə bağlı ən müasir metodlardan biri rus psixoloqu professor N.D. Linde tərəfindən işlənilmiş emosional obrazlı terapiyadır. Bu metodika  qorxunu doğuran həqiqi səbəbləri tez bir müddətdə müəyyənləşdirməyə və onu korreksiya etməyə imkan verir. Obrazla işləyən N.D. Linde həm obrazın problemin psixoloji baxımdan təhlilini, həm də bu problemin həlli üçün obraza fikrən təsiri nəzərdə tutur. Bu metod çərçivəsində daha tez nəticələr əldə etməyə imkan verən, obrazın dəyişilməsinə xidmət edən müxtəlif üsullar mövcuddur. Əslində N.D. Linde otuza yaxın üsul göstərir. Onlardan ən əhəmiyyətli olanları aşağıdakılardır: 1) seyr etmə; 2) fikri iş; 3) dialoq; 4) ziddiyyətlərin qarşılıqlı təsiri; 5) əvəz edilmə; 6) hissin ifadə edilməsi; 7) obrazın taleyinin öyrənilməsi; 8) müstəqil xəyal qurma; 9) neqativ enerjinin konversiyası; 10) paradoksal həll metodu və s. [6, s.125].

Qorxunun sosializasiyasının tədqiqi göstərir ki, ailə travmatik mənbə kimi uşağı qorxunun təsirinə məruz qoyan ən əhəmiyyətli göstəricidir [1, s.135]. Valideynlər uşağa qorxunun mənbəyi ilə mübarizə aparmağı öyrətməli, daim "əlçatan" olmalı, onun yaşantılarını bölüşməli, qorxu yaşantısına qarşı uşaqda dözümlülülk tərbiyə etməlidir.

**Problemin aktuallığı.** İnsanların əksəriyyətinin qorxu, fobiya və həyəcanla əlaqədar mütəmadi psixoloqlara müraciət etməsi problemin aktual əhəmiyyət kəsb etdiyinə işarə edir.

**Problemin elmi yeniliyi.** Məqalədə qorxu emosiyası anlayışı elmi təhlilə məruz qalmaqla, müxtəlif  fobiyalar fərqləndirilir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Problemin həllinin praktik yolları və istiqamətləri göstərilir, müxtəlif psixoloqların fobiya texnikaları təsvir olunur.

## Ədəbiyyat

1. Биик  Дж  У. Тренинг преодоления социофобии. Руководство по самопомощи. М., Изд-во института психотерапии, 2003. – 226 с.

2. Василюк   Ф. Е.   Психология переживания. Анализ преодоления критических ситуаций. М., Изд-во МГУ, 1984, 199 с.

3. Каплан  Г.И., Сэдок  Б. Дж. Клиническая психиатрия. В 2 т. Т 1. М., Медицина, 1994. – 671 с.

4. Карвасарский Б. Д. Психотерапия в России ретроспектива и задачи дальнейшего развития // Клиническая психология. Хрестоматия / Сост. и общая редакция Н. В. Тарабриной. СПб Питер, 2000. – с. 243-250.
5. Линде Н.Д. Коррекция фобий методам эмоционалъно-образной терапии. Вопросы психология, 2006, № 2, с.68-79.
6. Линде Н.Д. Основы современной психотерапии. М., Академия, 2002, 275 с.

**Й.Р. Микайылова**

**Проблема эмоции страха в психологии**
**Резюме**

Что такое фобия? Фобии — это нереалистичные и нереализованные страхи, которые вызывают проблемы в нашей повседневной деятельности, нашей трудовой жизни, нашем взаимодействии с людьми и наших отношениях с вещами. Тот факт, что большинство людей регулярно обращаются к психологам по поводу страха, фобий и тревожности, свидетельствует об актуальности проблемы.

**Y.R. Mikayılova**

**The problem of the emotion of fear in psychology**
**Summary**

What is a phobia? Phobias are unrealistic and unrealized fears that cause problems in our daily activities, our work life, our interactions with people, and our relationship with things. The fact that the majority of people regularly turn to psychologists for fear, phobias and anxiety indicates that the problem is of urgent importance.

**Redaksiyaya daxil olub: 29.03.2024**

***PEDAQOJİ PSİXOLOGİYA***
***ПЕДАГОГИЧЕСКАЯ ПСИХОЛОГИЯ***
***PEDAGOGICAL PSYCHOLOGY***

*UOT 159.9*

# UŞAQLARDA ƏXLAQİ DAVRANIŞIN VƏ MƏSULİYYƏT HİSSİNİN FORMALAŞMASININ PSİXOLOJİ MƏSƏLƏLƏRİ

**Şahnaz Mustafa qızı Quliyeva**
*Sumqayıt Dövlət Universitetinin dosenti*
**ORCİD:** 0000-0002-7648-502X
**E-mail:** shahnaz1969@mail.ru
**Natəvan Füzuli qızı Səfərova**
**ORCID:** 0009-0006-2242-4826
**E-mail:** natavansafarova92@gmail.com

***Açar sözlər:*** *uşaq, şəxsiyyət, əxlaq, məsuliyyət, dost, kollektiv, hiss, borc.*
***Ключевые слова:*** *ребенок, личность, мораль, ответственность, друг, коллектив, чувство, долг.*
***Key words:*** *child, personality, morality, responsibility, friend, collective, feeling, debt.*

Müasir dövrdə psixologiya elminin əsas məsələlərindən biri uşaqlarda əxlaqi davranış və məsuliyyət hissinin düzgün formalaşmasının psixoloji əsaslarını aydınlaşdırmaqdan ibarətdir. Biz bilirik ki, bu prosesdə cəmiyyət xüsusi rol oynamaqla həm sosial qruplar vasitəsilə, həm də kütləvi informasiya vasitələri ilə, eyni zamanda, təbliğat vasitələri ilə əxlaqi davranışın, borc və məsuliyyət hissinin formalaşmasında əsas rol oynayır. Uşaqların əxlaqi davranışının, borc və məsuliyyət hissinin formalaşması prosesi mürəkkəb xarakter daşımaqda ardıcıl və müntəzəm olaraq həyata keçirilən xüsusi rəhbərlik tələb edir. Əxlaq – ictimai şüurun formalarından biri olub, insanların mənəvi simasını, özünə, başqalarına bütövlükdə cəmiyyətə münasibətini ifadə edən keyfiyyətlərin məcmusudur və cəmiyyət inkişaf etdikcə, ictimai-iqtisadi formasiyalar dəyişdikcə əxlaqi keyfiyyətlərdə də dəyişikliklər olmuşdur. Bu baxımdan qeyd edə bilərik ki, müasir dövrdə uşaqların davranışının düzgün formalaşması üçün onlara aşılanan əxlaqi keyfiyyətlər min illər boyu xalq tərəfindən yaradılmış olan əsas ümumbəşər əxlaqi sərvətləri, həm də insanların davranış və qarşılıqlı münasibətlərinə aid müasir normaları əhatə edir ki, bu normalar da uşaqlara lap kiçik vaxtlardan etibarən üzv olduğu kiçik sosial qruplar vasitəsilə aşılanır. Uşaqlara aşılanan əxlaqi keyfiyyətlərin sosial-psixoloji mahiyyəti ondan ibarətdir ki, o istənilən situasiyada öz insanpərvərlik, nəzakətlilik, sadəlik, ədəblilik, mərifətlik, vətənpərvərlik, xeyirxahlıq, düzlük, doğruçuluq, əməksevərlik kimi keyfiyyətləri ilə ətrafdakılara nümunə olsun. Bu baxımdan ailə ilkin sosial qrup kimi cəmiyyətin əsas tərkib hissəsi olmaqla xüsusilə böyük rol oynayır. Böyüklərlə ünsiyyət prosesində uşaqlar xalqımıza məxsus əxlaqi sərvət və ideallar sisteminə yiyələnməklə öz davranış və rəftarını tənzimləməyi öyrənir. Ona görə də valideynlər kiçik yaşlarından etibarən uşaqlarla münasibətləri düzgün qurmalı və onlarda özünütərbiyənin düzgün formalaşmasına çalışmalıdırlar ki, yenidən tərbiyəyə ehtiyac duyulmasın. Bunun üçün də uşaqlarla münasibət hörmət və tələbkarlıq prinsipinə əsaslanmalı və onların hər bir davranış və rəftarının motivinə xüsusi diqqət yetirilməli, lazım olduqda düzgün istiqamət verilməlidir. Əxlaqi davranışın düzgün formalaşması üçün situasiyadan asılı olaraq müvafiq üsul və vasitələrdən istifadə

edilməlidir. Əksinə, müvafiq üsul və vasitələrdən düzgün istifadə edilməməsi nəinki uşaqların davranış və rəftarındakı qüsurların aradan qalxmasına səbəb olmur, həm də həmin qüsurların daha dərin köklər salmasına, yeni mənfi əlamətlərin daxil olmasına gətirib çıxarmaqla əxlaqi şüurun düzgün formalaşmamasına səbəb olur [3, s.57-58].

Çox vaxt böyüklər tərəfindən uşaqlara öz davranış və rəftarında əxlaqi biliklərə malik olduqları halda ona əməl etmədikləri tez-tez irad tutulur. Bu tez-tez tutulan iradların sosial- psixoloji nəticəsi ondan ibarətdir ki, uşaqlarda özünə qarşı inam itir, biliklə əməl arasında əlaqə pozulur, biliyin tətbiqi üçün münasib şərait yaranmır. Bu baxımından valideynlər yalnız öyüd-nəsihətçi olmaqdan uzaqlaşmalı və uşaqlarda əldə etdikləri əxlaqi bilik və təsəvvürləri öz davranışlarına tətbiq etmək meyli və adəti yaratmağa çalışmalıdırlar. Bunu isə yalnız sözlə, verbal yolla həyata keçirmək mümkün deyildir. Hər şeydən əvvəl uşaqların şüuruna yeridilən əxlaqi bilik və anlayışlar onların inamına çevrilməlidir. Psixoloji tədqiqatlar göstərir ki, uşaqlarda əxlaqi bilik və anlayışların inama çevrilməsi üçün həmin bilik və anlayışların davranış motivləri və onlara uyğun əxlaqi adətlər sistemində möhkəmləndirilməsi tələb olunur. Uşaqlara müsbət əxlaqi hissləri aşılamaq üçün elə situasiya yaratmaq lazımdır ki, onlar bu zaman qüvvətli müsbət nümunə ilə qarşılaşsın, həmin prosesdə iştirak edərək müvafiq hisslər keçirsin. Uşaqlar bu zaman öz inam və idealı mövqeyindən çıxış edərək özünü və bütün ətrafdakıları qiymətləndirməyə başlayır. Bu prosesdə böyüklərin, valideynlərin uşaqlara olan münasibəti güclü xarici təsir qüvvəsi kimi özünü göstərir. Uşaqların xarici təsirlə daxili aləminin qarşılıqlı əlaqəsinin, ona göstərilən xarici təsirə şəxsi münasibətinin xarakteri burada mühüm rol oynayır. Ona görə də uşaqların şəxsi təcrübəsi böyüklərin ondan tələb etdiyi əxlaq normalarına zidd olarsa, bu zaman uşaqlar bu tələbləri formal olaraq mənimsəyər, ona yalnız böyüklərin nəzarəti zamanı əməl edər. Həyati hadisələr göstərir ki, uşaqlarla qarşılıqlı münasibətlər düzgün qurulmadıqda böyüklərin tələblərinə formal şəkildə tabe olmur, özünü ona qarşı qoyur, öz şəxsi əqidəsində qalır və özünə yoldaşlıq mühiti, yəni referent qrup seçir, davranış və rəftarını da həmin qrupun normaları əsasında tənzimləyir. Belə uşaqların normal şəraitdə valideynlərinin tələblərini mənimsəməsi və onu öz tələbinə çevirməsi birdən-birə baş vermir, bu bir sıra mərhələlərdən keçməli olur. İlk dövrlərdə uşaqlar həmin tələbi xarici, məcburi tələb kimi qəbul etməli olur və sonra isə həmin tələbi könüllü olaraq qəbul edir, öz vəzifəsini, borcunu dərk edir. Son mərhələdə kənarda verilən əxlaqi tələb uşaqların şəxsi və daxili tələbinə çevrilməklə özünə qarşı həqiqi tələbkarlıq meydana gəlir.

Uşaqlarda əxlaqi şüurun düzgün formalaşması üçün kiçik yaşlarından onun şüuruna, hisslərinə, davranışına məqsədyönlü, ardıcıl olaraq təsir göstərmək lazımdır. Bunun üçün cəmiyyətin əxlaqi idealları və tələbləri ilə tanış etmək, əxlaqi bilikləri əxlaqi əqidələrə çevirmək, bu əqidələrin sistemini yaratmaq; sabit əxlaqi hisslər və əxlaqi keyfıyyətlər, yüksək davranış mədəniyyəti və əxlaqi adətləri formalaşdırmaq lazımdır. Ona görə də uşaqlar özlərində şəxsiyyətin müsbət keyfıyyətlərini inkişaf etdirməli və öz davranışlarındakı bu və ya digər nöqsanı aradan qaldırmalarına cəhd göstərmək şüurunu formalaşdırmaq lazımdır. Onların öz şəxsiyyətinə tənqidi yanaşması, öz davranışlarını təhlil edib qiymətləndirməsi, qüsurlarını görməsi və dərk etməsi hissinin düzgün inkişafi əxlaqi şüurun düzgün formalaşmasında əsas amillərdən biridir. Əxlaqi şüürün düzgün formalaşmasında uşaqlarda özünütərbiyə proqramının düzgün tərtib edilməsi, yəni hansı keyfiyyətləri inkişaf etdirmək lazım gəldiyini, hansılarının isə aradan qaldırmağın zəruru olduğunun müəyyənləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir ki, buna valideynlər yaxından köməklik göstərməlidirlər. Kiçik yaşlarından uşaqlarla münasibət düzgün qurulduqda özünütərbiyə prosesi də düzgün formalaşır ki, nəticədə uşaq öz dav-

ranış və rəftarına düzgün nəzarət edir və qiymətləndirir. Qeyd etdiyimiz bütün bu proseslər uşaqlarda əxlaqi şüurun düzgün formalaşmasını sosial-psixoloji baxımından tənzimləyir.

Ata-ananın bütün hərəkətləri, düşüncələri, fəaliyyət və davranışları uşaqlarda şəxsi keyfıyyətlərin formalaşmasında mənfı və müsbət istiqamətdən təsir göstərir. Çünki valideynlər uşaqlarının davranışlarına fikir verdikləri kimi uşaqlar da öz ata-analarının hərəkətlərinə göz qoyur, onları bir etalon kimi götürərk davranış və rəftarları ilə maraqlanırlar. Sözü ilə əməli vəhdət təşkil etməyən valideynlərin davranış və rəftarı uşaqların mənlik şüuruna təsir edir. Ona görə valideynlər unutmamalıdır ki, o, öz uşaqlarının hərtərəfli şəxsiyyət kimi düzgün formalaşmasına görə dövlət qarşısında hüquqi və ictimai məsuliyyət daşıyır. Uşaqlar üçün valideyn nümunəsindən təsirli vasitə yoxdur. Bu səbəbdən də valideynlər öz davranışına, danışığına, insanlarla münasibətinə fıkir verməli, əxlaq normalarına hörmətlə yanaşmalı və uşağına nümunə olmalıdır. Çünki uşaqlar öz ata və analarının timsalında sosial təcrübəni mənimsəyərək şəxsiyyət kimi formalaşırlar [5, s.206, 207].

Uşaqların davranışının formalaşmasında valideynlərinin şəxsi nümunəsi daha böyük əhəmiyyət daşıyır. Kiçik yaşlı uşaqların gözündə ana və ata etalondur. Buna görə də valideyn uşağını şəxsiyyət kimi düzgün formalaşdırmaq üçün özü ardıcıl olaraq özünütərbiyə ilə məşğul olmalıdır. Ozünətərbiyə bilavasitə qabaqcıl mütərəqqi ictimai əxlaqla əlaqədardır. Uşaq cəmiyyətdə mövcud olan mütərəqqi əxlaqın tələblərini mənimsəmək, onu öz əqidəsinə, vərdişlərinə çevirmək, mütərəqqi ictimai əxlaqın tələblərini öz hərəkət və davranışlarının meyarı etmək yolu ilə özünü düzgün istiqamətdə tərbiyə edə bilər. Uşaqların özünütərbiyə prosesi müxtəlif amillərə istinad etməklə qızların əxlaqi həyatının müxtəlif sahələrində özünü müxtəlif şəkillərdə sosial-psixoloji baxımdan təzahür etdirir. Özünütərbiyənin əsas istinad vasitələrindən biri özünənəzarətdir. Uşaq özünə nəzarət etməyi, öz nöqsanlarını görməyi, öz davranış və rəftarına kənardan baxa bilməyi, öz əməllərində yaxşını pisdən seçməyi bacarmalıdır ki, öz əxlaqı şüurunu, şəxsiyyətini düzgün inkişaf etdirə bilsin.

Uşaqların əxlaqi şüurunun formalaşmasında həm də onun ünsiyyətdə olduğu dostlar kiçik sosial qrup kimi əsas rol oynayır. Uşaqların əxlaqi şüurunun formalaşmasında nəinki dostlar, hətta onların valideynləri də vasitəli şəkildə təsir göstərir. Bunun üçün də valideynlər hər zaman öz uşaqlarının dost seçiminə nəzarət etməli və onların valideynlərinin şəxsiyyəti ilə maraqlanmalıdırlar.

Bəzi ailələrdə uşaqlarla düzgün qurulmayan münasibət onların ailədə təcrid olunmasına səbəb olur ki, bu da onların ailədə ünsiyyət tələbatının ödənilməməsinə səbəb olur. Belə uşaqların bəzən həmyaşıd uşaqlar arasında da ünsiyyət tələbatı ödənilmədiyindən onlar əkscinslər arasında ünsiyyət tərəfdaşı axtarmalı olurlar ki, bu zaman da onların seçimi düz və ya səhv ola bilər. Ona görə də hər bir ailədə uşaqların əxlaqi davranışının düzgün formalaşması üçün ona sağlam mühit yaradılmalı, onunla münasibətdə onun maraqları, tələbat-motivasiya sahəsi nəzərə alınmalıdır. Ən vacib psixoloji məsələlərdən biri uşaqlarda əxlaqi davranışın düzgün formalaşması üçün onun xarakteri, temperament və qabiliyyətlərinin tipi nəzərə alınmalı, onlarla ümumi deyil, fərdi münasibət qurulmalı, eyni zamanda, davranış və rəftarlarının düzgün inkişafı ilk növbədə məsuliyyət hissi düzgün formalaşdırılmalıdır. Məsuliyyət hissi uşaqların hər bir hərəkət və davranışının yalnız özü üçün deyil, ailə üçün də nə ilə nəticələnəcəyini başa düşməyə imkan yaradır. Bu baxımdan da məsuliyyət hissi uşaqların nə etdiyinin mənasını düzgün, şüurlu olaraq dərk etməsini nəzərdə tutur. Məsuliyyət hissinə malik olan uşaqları heç də cəzadan qorxduğu üçün deyil, ailəni, qohumları pis vəziyyətə salmamaq üçün pis hərəkətlərdən əl çəkir və hər bir hərəkətinə diqqət yetirir. Məsuliyyət hissi uşaqların ləyaqətlə

davranmağa, fəaliyyət göstərməyə təhrik edən qüvvətli hisslərdən olmaqla onlarda əxlaqi şüurun düzgün inkişafına xidmət edir.

Uşaqların davranışı, hərəkəti, fəaliyyəti cəmiyyətlə bağlıdır. Odur ki, əxlaqi şüurun obyekti ayrı-ayrı adamlar, insan qrupları, rəfiqələr, dostlar, münasibətdə olduğu qızlar və oğlanlar, onlar arasındakı münasibətlər, həyati hadisələr, eləcə də öz hərəkət və davranışı ola bilər. Əgər bu hadisələrə münasibət mövcud cəmiyyətin birgə yaşayış qaydalarına uyğun gələrsə, müəyyən əxlaq normalarına müvafiqdirsə, o zaman uşaqlarda müsbət əxlaqi hisslər yaranır. Bəzən də uşaqlar cəmiyyətdə mövcud olan əxlaq normalarına uyğun hərəkət etmir, öz mənafeyini cəmiyyətin mənafeyindən üstün tutur. Bu halda onda fərdiyyətçilik, bədxahlıq, paxıllıq və s. kimi mənfi əxlaqi hisslər kök salır. Öz hərəkət və davranışının ictimai əxlaqa, sosial normalara, milli-mənəvi dəyərlərə uyğun gəlmədiyini dərk edən və bunun üçün dərin iztirab keçirən uşaqlarda təəssüf, heyifsilənmək, utanmaq, xəcalət çəkmək kimi əxlaqi hisslər baş qaldırır. Müxtəlif həyat şəraitində yaşayan qızların əxlaqi hissləri, düşüncələri də məzmun etibarı ilə bir-birindən tamamilə fərqlənir. uşaqların əxlaqi davranışlarının düzgün formalaşmasında tərif və məzəmmət olunma, rəğbətləndirmə və cəzalandırma mənfi təhriklərin və düzgün olmayan davranış formalarının qarşısını alır. İstərsə ailədə, istərsə də məktəbdə təriflənmə və rəğbətləndirmə şişirdilməməli, eyni zamanda məzəmmət və cəzalandırma da ədalətli olmalıdır. Uşaqları tərifləyərkən və rəğbətləndirərkən çalışmaq lazımdır ki, davranış və rəftarlarına müvafiq dəyərləndirmə aparılsın ki, bu uşaqların özləri tərəfindən davranış və rəftarlarının düzgün qiymətləndirilməsinə və özünütərbiyənin, özününəzarətin düzgün formalaşmasına imkan yaratsın. Uşaqlarda əxlaqi davranışın və məsuliyyət hissinin düzgün formalaşmasında məktəb, şagird kollektivi də əsas və daha uğurlu rol oynayır. Hər bir şagird kollektivi öz üzvlərinə təsir edir və onlardan müvafiq davranış tərzinə əməl etməyi tələb edir. Müəllim və şagird kollektivinin uşaqların əxlaqi davranışının düzgün fomalaşmasında sağlam tənqidi, ciddi tələbkarlığı qüsurların aradan qaldırılmasında xüsusi əhəmiyyət kəsb edir. Məktəbdə uşaqların əxlaqi davranışının formalaşmasında müəllimin sözü ilə əməli vəhdət təşkil etməli və müəllim şəxsi nümunəsindən düzgün istifadə etməlidir. Şagird kollektivinin üzvləri arasındakı dostluq, qarşılıqlı anlaşma, bir-birinin qayğısına qalmaq, bir-birinin sevincinə və kədərinə şərik qalmaq, eyni zamanda uşaqların bəzilərinin rəftar və davranışlarında özünü göstərən laqeydlilik, lovğalıq, təkkəbürlülük, kobudluq və s. keyfiyyətlər sosial-psixoloji baxımdan uşaqların davranış və rəftarının formalaşmasına öz təsirini göstərir. Şagird kollektivi hər bir uşağın özünü düzgün dərk etməsində, öz davranış və rəftarını sosial normalar əsasında düzgün qiymətləndirilməsinə məsuliyyətlə yanaşmasında mühüm rol oynayır və uşaqların şəxsiyyət kimi düzgün formalaşmasında sağlam rəqabət aparmalarına imkan yaradır. [3, s. 59-60]. Müasir dövrdə Qərb dövlətlərinə inteqrasiya etdiyimiz bir zamanda inteqrasiyanın mahiyyəti uşaqlara düzgün anladılmalıdır və onlar dərk etməlidirlər ki, dünyanın hansı məkanında olmasından asılı olmayaraq, xalqımıza məxsus və bizim bir azərbaycanlı kimi tanınmağımızda müsbət milli əxlaqi keyfıyyətlərimizi hər zaman davranış və rəftarlarında əks etdirməli, bunun üçün hər zaman məsuliyyət hissini unutmamalı və elmi inkişafla inteqrasiyaya uyğunlaşmalıdırlar. Ona görə də istər ailədə, istər məktəbdə, istərsə də bütövlükdə cəmiyyət çərçivəsində planlı, ardıcıl, mütəşəkkil təlimatlandırma işləri aparmalıdır.

**Problemin aktuallığı**. Müasir dövrdə uşaqların hərtərəfli şəxsiyyət kimi formalaşdırılması Psixologiya elminin və cəmiyyətin diqqət yetirdiyi əsas məsələlərdən biridir. Bu baxımından uşaqlarda əxlaqi davranış və məsuliyyət hissinin düzgün formalaşdırılması xüsusi aktuallıq

kəsb edir.

**Problemin elmi yeniliyi**. Məqalədə uşaqlarda müasir dövrdə əxlaqi davranış və məsuliyyət hissinin düzgün formalaşdırılmasının elmi-nəzəri əsasları təhlil edilmiş və əldə edilmiş psixoloji faktlar Psixologiya elminin bu istiqamətdə araşdırmalarına elmi töhfə olmuşdur.

**Problemin praktik əhəmiyyəti və tətbiqi**. Məqalə uşaqlarda əxlaqi davranış və məsuliyyət hissinin düzgün formalaşdırılmasınında həm valideynlər, həm də müəllimlər üçün istinad mənbəyi olacaqdır.

## Ədəbiyyat

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı: Qapp-poliqraf, 2003, 345 s.
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Ali məktəblər üçün dərslik. Bakı: Maarif, 2003, 534 s.
3. Bayramov Ə.S. Şagirdlərdə əqli keyfiyyətlərin inkişaf xüsusiyyətləri. Bakı: Maarif, 1967, 350.
4. Əliyev R.I. Şəxsiyyət və onun formalaşmasının etno-psixoloji əsasları. Bakı: Araz, 2000, 195 s.
5. Əliyev B.H., Cabbarov R.V. Təhsildə şəxsiyyət problemi. Bakı: Təhsil, 2008, 134 s
6. Cavadov R.Ə., Tağıyeva G.V. Ekstremal şəraitlərdə psixoloji xidmət. Ali məktəblər üçün dərslik. Bakı: ADPU-nun mətbəəsi, 2006, 258 s.
7. Quliyeva Ş.M. Ümumpsixoloji praktikum. Dərs vəsaiti. Sumqayıt: SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 2021, 428 s.

**Ш.М. Кулиева, Н.Ф. Сафарова**

## Психологические вопросы формирования нравственного поведения и чувства ответственности у детей

### Резюме

В статье говорится о психологических основах правильного формирования нравственного поведения и чувства ответственности у детей в современное время. В этом процессе уделяется внимание психологическим аспектам особой роли общества, особенно социальных групп, средств массовой информации и пропаганды в формировании нравственного поведения детей, чувства долга и ответственности, с научно-теоретической и практической точки зрения. Взгляд процесс формирования у детей нравственного поведения, чувства долга и ответственности Его сложный характер требует специального руководства, последовательно и регулярно реализуемого, что подробно анализируется в статье.

**Ş.M. Quliyeva, N.F. Safarova**

## Psychological issues of formation of moral behavior and sense of responsibility in children

### Summary

The article talks about the psychological foundations of the correct formation of moral behavior and sense of responsibility in children in modern times. In this process, attention is paid to the psychological aspects of the special role of society, especially social groups, and mass media and propaganda in the formation of children's moral behavior, sense of duty and responsibility, from a scientific-theoretical and practical point of view. The process of forming children's moral behavior, sense of duty and responsibility Its complex nature requires special guidance that is consistently and regularly implemented, which is extensively analyzed in the article.

**Redaksiyaya daxil olub: 07.03.2024**

*UOT 376.*

# DİSLEKSİYA PROBLEMİ OLAN ŞAGİRDLƏRLƏ İŞİN TƏŞKİLİ

**Humay Eyvaz qızı Mehdiyeva**
*Azərbaycan Dillər Universiteti Pedaqogika kafedrasının müəllimi*
Orcid kod:0009-0006-3247-7163
**E-mail:** humaymehdiyeva83@gmail.com

***Açar sözlər:*** *disleksiya, korreksiya üsulları, tez və düzgün oxuma, spesifik oxu pozuntusu.*
***Ключевые слова:*** *дислексия, методы коррекции, быстрое и правильное чтение, специфические нарушения чтения в логопедии.*
***Key words:*** *dyslexia, correction methods, fast and correct reading, specific reading disorders in speech therapy.*

Dünyada hər gün bir çox uşaq disleksiya adlanan xəstəlik səbəbindən öyrənmə çətinliyi ilə üzləşir. Disleksiya (qədim yunan dilindən pozulma mənasını verən prefiks və "sözlər, nitq") ümumi öyrənmə qabiliyyətini qoruyarkən yazı və oxu bacarıqlarını mənimsəmək qabiliyyətinin seçici şəkildə pozulmasıdır. [18]. Tarixən əksər Avropa ölkələrində "disleksiya" anlayışı yazı dili ilə bağlı bütün problemləri ehtiva edir: Digər məktəblilərdən fərqli olaraq, bu pozğunluğu olan uşaqlar oxumaqdan və yazmaqdan çətinliklə zövq alırlar, çünki onlar üçün uğur qazanmaq üçün diqqətin mərkəzləşməsi, daimi məşq və maksimum səy tələb edən ağır işdir.

Loqopediyada disleksiya müxtəlif aspektlərdə nəzərdən keçirilir: psixoloji və pedaqoji [4; 5;10;12;15;16], klinik və psixoloji [6; 11], psixolinqvistik [8] və psixofizioloji [2; 9; 14; 17].

Bununla belə, bu mürəkkəb pozğunluğun mexanizmlərinin aydınlaşdırılması, həmçinin optimal şəraitin, effektiv metodların və korreksiya üsullarının axtarışı ilə bağlı məsələlər bu günə qədər öz aktuallığını itirmir. Bunun səbəbləri son onilliklərdə disleksiyadan əziyyət çəkən ibtidai məktəblilərin sayının davamlı olaraq çox olması (müxtəlif müəlliflərə görə 3,5-dən 25%-ə qədər) və disleksiyanın aradan qaldırılmasının çətinliyidir.

Bir çox elm adamı qeyd edir ki, disleksiya təkcə ana dilində müşahidə olunmur. Müəyyən edilmişdir ki, dildə fonemlərin nisbətində aşkar uyğunsuzluqların olması oxunun mənimsənilməsi prosesini xeyli çətinləşdirir. Buna görə də, bir fonem müxtəlif qrafemlərlə işarələnə bilən və əksinə, eyni qrafem müxtəlif fonemləri (məsələn, rus, ingilis və ya fransız) ifadə edə bilən "şəffaf" orfoqrafiyaya malik dillərdə disleksiya daha çox yayılmışdır.

Bu spesifik oxu pozğunluqları rus alimlərin əksəriyyətinin fikrinə əsaslanır. Belə ki, T.A. Altuxova [1], A.N.Korneva [6], S.N.Kostromina, L.Q.Naqaeva [7] və başqaları həm nitqin funksional sisteminin bütün komponentlərinin ümumi inkişaf etməməsi nəticəsində yaranır. Eyni zamanda R.İ.Lalaeva [8 ], M.N.Rusetskaya [13] kimi mütəxəssislər səbəb kimi həm də görmə funksiyalarının kifayət qədər inkişaf etməməsini görürlər.

Təəssüflə qeyd etmək istərdik ki, araşdırma zamanı Azərbaycan dilində bu problemlə bağlı təməlli ədəbiyyata rast gəlmədik [19]. Ümid edirik ki, bu məqalədə toxunduğumuz məsələlər alimlərimizin və mütəxəssislərimin diqqətini bu problemə yönəldəcək.

Disleksiya səs və qrafik simvollara əsaslanan bütün dillər üçün ümumidir. Odur ki, disleksiya məktəb bacarıqlarının əldə edilməsinə ciddi maneələr yaradır.

Eyni zamanda, ana dilini öyrənməklə yanaşı, gimnaziya və liseylərin təhsil kursuna getdikcə bir deyil, iki xarici dil daxildir, halbuki disleksiya üçün ilkin şərtləri olan uşaqlar öz-

lərini belə nüfuzlu təhsil müəssisələrinə inteqrasiya edirlər.

Xüsusi oxu pozğunluğu olan uşaqların yüksək yayılmasını, bu pozğunluğun davamlılığını və onun akademik fəaliyyətə ümumi təsirini nəzərə alsaq, onun aradan qaldırılması üçün inteqrasiya olunmuş tibbi-psixoloji-pedaqoji yanaşmanın zəruriliyi göz qabağındadır.

Bu araşdırmada xüsusi oxu pozğunluğundan əziyyət çəkən şagirdlərlə korreksiya və loqopedik işlərə müxtəlif pedaqoji ixtisaslardan olan mütəxəssislərin cəlb edilməsi təcrübəsi öz əksini tapmışdır.

Valideynlərin bu prosesə cəlb edilməsi hazırda iş yükü və həyatlarının getdikcə məşğulluğu, bu mövzuda biliyin olmaması, disleksiyanın aradan qaldırılmasına yönəlmiş faydaların olmaması və bəzən özlərini belə bir şeyə qərq etmək istəyinin olmaması səbəbindən çətin bir işdir.

Yuxarıda göstərilənlərin hamısı disleksiyanın korreksiyası kimi mürəkkəb problemə təkcə valideynlərin və xarici dil müəllimlərinin cəlb edilməsinin zəruriliyini təsdiqləyir.

Məlumdur ki, məktəbdə təhsil uşaqların tez və düzgün oxumaq, oxuduqlarının mahiyyətini dəqiq dərk etmək bacarığına əsaslanır. Oxu bacarıqlarının inkişafı, xüsusilə testlər və qiymətləndirmələr zamanı şagirdin tapşırığın mənasını oxumağa və anlamaq üçün vaxtının olub-olmamasını müəyyən edir. Bundan əlavə, məktəb yaşında oxumaq idrak funksiyasını yerinə yetirir, çünki uşaqlar dərslərdən boş vaxtlarında özləri böyük miqdarda bilik əldə etməlidirlər. Buradan belə nəticə çıxır ki, oxumağın davamlı pozğunluqları (disleksiya) təkcə məktəbdə özəl həyatınının azalmasına deyil, həm də uşağın sosial uyğunlaşmamasına səbəb olur.

Araşdırılma nəticəsində müəyyən edilmişdir ki, disleksiya və disqrafiyadan əziyyət çəkən uşaqlar xarici dillərlə yanaşı, doğma dilini də öyrənməkdə çətinlik çəkirlər. Bu dillərin hər ikisi fonetik (səs) kateqoriyasına aiddir.

Disleksiya özünü aşağıdakı formalarda göstərə bilər:

**Oxuma dəqiqliyi ilə bağlı çətinlik.** Disleksiyası olan uşaqlar və böyüklər tez-tez sözləri dəqiq deşifrə etməkdə çətinlik çəkirlər, buna görə də ucadan oxuyarkən səhv edə bilərlər.

**Yavaş oxu tempi.** Disleksiyası olan uşaqlar adətən yaşıdlarından daha yavaş oxuyurlar.

**Səhv yazı.** Sözlərdəki hərflərin ardıcıllığını tanımaqda və yadda saxlamaqda çətinlik çəkdiyi üçün disleksiya insanın sözləri düzgün yaza bilmə qabiliyyətinə təsir edir.

**Fonemik şüurla bağlı problemlər.** Fonemik eşitmə dilin minimal elementlərini tanımaq qabiliyyəti ilə ifadə olunur. Bu, fonetik cəhətdən oxşar sözləri ayırd etmək üçün xüsusilə vacibdir. Məsələn: “hörük – keçi”, “siçan – kasa”, “dəbilqə – nağıl”. Disleksiyası olan insanlar oxumağın inkişafı üçün çox vacib olan bu bacarıqla çox vaxt çətinlik çəkirlər. Fonoloji yaddaşla bağlı çətinliklər dilin səslərini yadda saxlamaq və onlarla işləmək qabiliyyətinə aiddir. Oxumaq və yazmaq üçün vacibdir.

**Sözləri tanımaqda çətinlik.** Disleksiyası olan uşaqlar ümumi sözləri tanımaqda və tez emal etməkdə, həmçinin onları əzbər öyrənməkdə çətinlik çəkə bilərlər.

Qeyd edək ki, disleksiya zəka, motivasiya və ya görmə ilə bağlı problemlərlə əlaqəli deyil. Bunun beynin strukturunda və funksiyasında, xüsusən də dilin işlənməsində iştirak edən bölgələrdəki fərqlərdən qaynaqlandığı düşünülür.

Disqrafik ibtidai sinif şagirdlərinin sayı, son 5 ildə illik monitorinqlərə əsasən, 35,5-38,5%, disleksiya ilə isə 11,0-12,5% arasında dəyişir. Bununla əlaqədar direktor simasında məktəb rəhbərliyinin dəstəyi ilə xarici dil dərslərinə loqopedik işin üsul və üsullarının tətbiqi üzrə eksperimentin keçirilməsi qərara alınıb.

Təcrübə 2011-ci tədris ilindən indiyədək həyata keçirilib. Eyni zamanda, digərləri ilə ya-

naşı, disleksiyası olan uşaqlara da gimnaziyada oxunan bütün fənləri, o cümlədən xarici dilləri mənimsəmək tapşırığı verilir.

Müəllimlərinin prioritet vəzifələrindən biri belə şagirdləri uyğunlaşdırmaq və təhsili uşağın güclü tərəflərini aktivləşdirəcək şəkildə qurmaqdır, yəni şagirdə məlumatı qavramağın bütün mövcud yollarından istifadə etməyə kömək etməkdir. Məqsədlərə çatmaq üçün loqopedik üsullardan istifadə edərək xarici dilini öyrənmək üçün əlavə hazırlıq tətbiq etmək qərara alındı.

Uşaqlara pedaqoji təsir və pozulmuş funksiyaların korreksiyası kompleksdə həyata keçirilir. Uşaqlar loqopedik dərslərə və əlavə xarici dili dərslərinə qatılırlar. Bu işə korreksiyaedici tədris metodlarından istifadə edən iki xarici dili müəllimi, loqoped və yazılı nitq pozğunluğu olan uşaqların valideynləri cəlb olunub.

Bu eksperiment tətbiqi xarakter daşıyır və nitq fəaliyyətinin bütün növlərini: danışma, dinləmə, oxu və yazının fəal mənimsənilməsi olan xarici dillərin tədrisinin praktiki məqsədinin həyata keçirilməsi ilə bağlı problemlərin həllinə yönəldilmişdir. Oxumağın və yazmağın insanın həyatında əhəmiyyətini, həm öz ana dilində, həm də xarici dildə oxuyub yazmaq bacarığını qiymətləndirmək mümkün deyil.

Təcrübələrdə məqsəd həm də maarifləndirmə işi idi, çünki narahatedicidir ki, xarici dil müəllimlərinin disleksiyası olan uşaqların tədrisi problemlərindən xəbərsizliyi onlara qərəz yaradır, buna görə belə uşaqların qismən savadsızlığı onların ənənəvi təhsili ilə izah olunur: tənbəllik", "aşağı motivasiya" və ya "qeyri-kafi zehni qabiliyyətlər".

Əsasən, disleksiya problemləri yalnız loqopediyanın və təbabətin obyekti idi. Disleksiyanın aradan qaldırılması probleminə xarici dilləri öyrənmək prizmasından yanaşmaq prioritet hal kimi özünü göstərir. Eyni zamanda, disleksiyası olan uşaqlara yazı bacarıqlarının öyrədilməsini uşağın şəxsiyyətinin kompleks, yaradıcı inkişafının bir hissəsi hesab edirik. Tədris mühiti ilə tədris metodlarının əlaqəsi, nitq patologiyası olan uşaqlara xarici dili öyrətmək üçün optimal metodların axtarışı ilə bağlı mühüm məsələ ön plana çıxır.

Söz və cümlə səviyyəsində disleksik səhvlərin (təhlükəsizliklər, hərflərin dəyişdirilməsi, aqrammatizmlər) yaranmasının və düzəldilməsinin qarşısını almaq üçün loqopedik təcrübədən bəzi xüsusi məşqləri uyğunlaşdırdıq: akrofonik oxuma (verilmiş sözlərin ilk hərfləri ilə oxunur, bundan sonra uşaq yeni söz uydurmalı və istədiyi şəkli seçməlidir); sözlərin rəqəmlərlə oxunması (yeni sözlər rəqəmlərlə nömrələnmiş əsas sözün hərflərindən hazırlanmalıdır); müvafiq rəqəmlərin ardıcıllığına əsasən sözləri oxumaq; sözlər qrupundan təkini tapmaq; ayrı-ayrılıqda verilmiş sözlərdən cümlələr qurmaq, pozulmuş ardıcıllıqla verilmiş cümlələrdən mətn qurmaq.

Xarici dillərin öyrənilməsində nitq terapiyası üsullarından istifadənin bir xüsusiyyəti, bizim vəziyyətimizdə fransızca, müxtəlif analizatorların (vizual, eşitmə, toxunma, kinestetik) və ya R.I.-ə görə maksimum daxil edilməsidir. Lalayeva "multimodal afferentasiyalara maksimum etibar prinsipi" [8, s.110].

Ayrılmış əlifbaların, sözlərin, oyun tapşırıqlarının və texniki tədris vasitələrinin geniş istifadəsi işin səmərəliliyini artırmağa və dərslər üçün müsbət motivasiya yaratmağa kömək edir.

Yadda saxlamaq lazımdır ki, nitq pozğunluğu olan uşaqlar, bir qayda olaraq, tez yorulur və diqqəti asanlıqla yayındırır, buna görə də tez-tez fəaliyyət növünü dəyişdirmək, uşaqların diqqətini bir iş formasından digərinə keçirmək, nəzərə almaq lazımdır. uşağın performansı, onun motor və nitq inkişafının xüsusiyyətləri.

Həm də mənimsəniləcək məlumatları diqqətlə dozalamaq, daim və eyni zamanda tapşırıqları və nitq materialını tədricən çətinləşdirmək lazımdır. Müəllimin şagirdlərin dərslərə marağını qoruyub saxlamaq və uğur situasiyası yaratmaq bacarığı vacibdir.

Bununla belə, disleksiya həmişə həll edilə bilməyən bir problem deyil. Düzgün yanaşma və dəstək ilə disleksiyası olan uşaqlar öyrənmələrində üstün ola bilərlər. Bu yazıda disleksiyası olan uşaqlarda özlərinə inamını qoruyarkən oxu və yazma bacarıqlarını inkişaf etdirməyə kömək etmək istəyən müəllimlər və valideynlər üçün məsləhətləri paylaşacağıq.

| Müəllimlər üçün bəzi faydalı məsləhətlər | Valideynlərə tövsiyə olunur: |
|---|---|
| Birincisi, valideynlərdən uşağın hansı xüsusi pozğunluq növü barədə məlumat almaq vacibdir. Nəticələr disleksiya üçün xüsusi testdən istifadə etməklə əldə edilir. Diaqnoz loqoped, xüsusi təhsil müəllimi, nevroloq və nevropsikoloq tərəfindən qoyula bilər. | Əgər uşağınızda belə bir pozğunluq varsa, əsəbləşməyin, həyəcan təbili çalmayın və ya əvvəlcədən imtina etməyin. Qərb alimləri disleksiyası olan insanlar arasında kifayət qədər çox ağıllı insanların olduğu qeyri-adi bir model müəyyən ediblər. Buna görə disleksiya tez-tez “dahilərin xəstəliyi” adlandırılır. Yüksək intellektual göstəricilər beynin sağ yarımkürəsinin kompensasiyalı inkişafının nəticəsi ola bilər. |
| Disleksiya növünə uyğun olaraq uşağın ehtiyaclarını nəzərə alan fərdiləşdirilmiş kurikulum hazırlayın. Disleksiyası olan uşağın dili anlamasını və inkişafını artırmaq üçün müxtəlif tədris metodları və materiallarından istifadə edin. NaLesson portalında yerləşdirilən korreksiya üsullarından istifadə edə bilərsiniz – “İbtidai məktəb şagirdlərində disleksiyanı düzəltmək üçün istiqamətlər və üsullar”. | Lazım gələrsə, mütəxəssislərlə əlaqə saxlayın. Psixoloqlar, nevroloqlar və loqopedlər dəyərli kömək və məsləhətlər verə bilərlər. Məktəb fənləri üzrə repetitorlarla əlavə dərsləri laqeyd yanaşmayın. |
| Şagirdin güclü tərəflərinə diqqət yetirin. Şagirdin digər fənlər üzrə istedadı ola bilər, məsələn, rəsm və ya bədən tərbiyəsi, ona görə də onun qabiliyyətləri bu sahələrdə inkişaf etdirilməlidir. | Öyrənməni artırmaq üçün mövcud texnologiyadan istifadə edin. Disleksiyası olan uşaqlar üçün oxumağı və yazmağı asanlaşdırmağa kömək edən xüsusi proqramlar və proqramlar var. |
| Öyrənmək üçün müxtəlif multisensorlu kanallardan istifadə edin. Ola bilsin ki, uşaq eşitmə və ya toxunma yolu ilə məlumatı daha yaxşı qavrayır, ona görə də inkişaf məşqləri də təlim proqramına daxil edilməlidir. | Birlikdə oxumağa çalışın, çünki bu, uşağınızın dil bacarıqlarını inkişaf etdirmək üçün əla bir yoldur. Qoy bəyəndiyi kitabları seçsin. Bu müsbət oxu təcrübəsi yaradacaq. |
| Səbirli olun, tələbəyə istənilən mövzunu öyrənmək üçün daha çox vaxt verin, həmçinin istirahətə ehtiyacı da unutmayın. Dərslər qısa, lakin müntəzəm olmalıdır. | Uşağınızı həvəsləndirin və dəstəkləyin, onun güclü tərəflərini, qələbələrini və nailiyyətlərini vurğulayın. Yaxşı özünə hörmət mənfi emosiyaların və stressin öhdəsindən gəlməyə kömək edir. |

| | |
|---|---|
| Müasir tədris texnologiyalarından istifadə edin. Məsələn, oxumaq və yazmaq üçün xüsusi kompüter proqramları, disleksiyası olan bir uşağın öyrənməsini çox asanlaşdıra bilər. | Müəllimlərlə müntəzəm əlaqə saxlayın və uşağınızın öyrənmə ehtiyaclarını birlikdə müzakirə edin. Daimi əməkdaşlıq kurrikulumun yenilənməsinə və problemli mövzulara diqqət yetirilməsinə kömək edəcək. |
| Şagirdinizi həmişə həvəsləndirin və dəstəkləyin. Onun nailiyyətlərini və səylərini vurğulamaq vacibdir. | Disleksiyanı ətraflı anlamağa çalışın. Bu pozğunluq haqqında nə qədər çox bilsəniz, uşağınıza bir o qədər yaxşı dəstək ola bilərsiniz. |
| Yadda saxlamaq lazımdır ki, hər bir uşağın özünəməxsus inkişaf tempi var və müvafiq səy və dəstək ilə o, həyatın bütün sahələrində uğur qazana və öz potensialına çata bilər. | Ani nəticələr gözləməyin. Disleksiyası olan bir uşaq üçün təhsil almaq vaxt apara bilər. Daimi nizamlılığı qorumaq və səbirli olmaq vacibdir. |
| Yeni öyrənmə üsullarına açıq olun və yanaşmalarınızı təkmilləşdirməyə hazır olun, çünki disleksiya mürəkkəb problemdir və fərqli yanaşmalar tələb edə bilər. | Uşağınızın maraqlarını sinifdən kənarda inkişaf etdirin. İdman, incəsənət, musiqi və digər fəaliyyətlər həmişə şagirdin emosional intellektinə və psixofiziki vəziyyətinə uyğundur. |

**Problemin aktuallığı.** Son zamanlar ümumtəhsil məktəblərində, o cümlədən xarici dilləri yüksək səviyyədə bilən şagirdlər arasında “qarışıq” disleksiya ilə rastlaşmaq getdikcə daha çox yayılmışdır. İnsan kapitalının önəmliyi vurğulanan müasir dünyada dil bacarıqları həm ana dilində həm də xarici dillərin ifadəsində xüsusilə nəzərə çarpır.

**Problemin elmi yeniliyi.** Disleksiya ömür boyu davam edən bir xəstəlik olsa da, erkən diaqnoz və müvafiq təhsil tədbirləri uşağın oxuma və yazma bacarıqlarını əhəmiyyətli dərəcədə yaxşılaşdıra və məktəbdə və gələcək karyeralarında uğur qazanmağa imkan verə bilər.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Bu məqalə disleksiyadan əziyyət çəkən uşaqlarla işləyən mütəxəssislər, xüsusən loqopedlər, ədəbiyyatı müəllimləri, xarici dil müəllimləri üçün maraqlı ola bilər.

### Ədəbiyyat

1. Алтухова Т.А. Коррекция нарушений чтения у учащихся начальных классов школы для детей с тяжелыми нарушениями речи: дис. ...канд. пед. наук. – М., 1995.

2. Ахутина Т. В. Нейропсихологический подход к изучению трудностей письма и чтения // Ранняя диагностика, профилактика и коррекция нарушений письма и чтения: материалы II междунар. конф. Рос. ассоциации дислексии. – М.: Изд-во Моск. соц.-гуманит. института, 2006. – С. 14–23.

3. Гальперин П.Я. Психология мышления и учение о поэтапном формировании умственных действий // Исследования мышления в советской психологии. – М., 1966. – С. 236–277.

4. Иншакова А.Г. Различные типы дислексии и их взаимосвязь с нарушениями речевого развития у младших школьников // Вестн. КГУ им. Н.А. Некрасова. – Т. 14. – Кострома, 2008. – № 2. – С. 190–196.

5. Каше Г.А.Предупреждение нарушений чтения и письма у детей с недостатками произношения // Недостатки речи у учащихся начальных классов массовой школы. – М.: Просвещение, 1966. – С. 105–129.

6. Корнев А.Н. Нарушения чтения и письма у детей. – СПб.: МиМ, 1997. – 286 с.

7. Костромина С.Н., Нагаева Л.Г. Как преодолеть трудности в обучении чтению. Упражнения, задания, конспекты занятий. – М.: Ось-89, 2006. – 240 с.

8. Лалаева Р.И. Нарушения чтения и пути их коррекции у младших школьников: учеб. пособие. – СПб.: Лениздат; Изд-во Союз, 2002. – 224 с.

9. Левашов О.В. Нарушения зрительного восприятия при дислексии. Теории и гипотезы / Изучение нарушений письма и чтения. Итоги и перспективы: материалы I Междунар. конф. Российской ассоциации дислексии. – М.: Изд-во Моск. соц.-гуманит. ин-та, 2004. – С.146–156.

10. Левина Р.Е. Недостатки чтения и письма у детей. (Алексия и аграфия). – М.: Учпедгиз, 1940. – 72 с.

11. Мнухин С.С. О врождённой алексии и аграфии // Логопедия: Методическое наследие / под ред. Л.С. Волковой: в 5 кн. – М. ВЛАДОС, 2003. – Кн. IV: Нарушения письменной речи: Дислексия. Дисграфия. – С. 7–11.

12. Никашина Н.А. Опыт преодоления недостатков произношения, чтения и письма у учащихся первых классов // Вопросы логопедии (Недостатки речи, чтения и письма у учащихся младших классов) / под ред. Р.Е. Левиной. – М.: Изд-во АПН, 1959. – С. 75-134.

13. Русецкая М.Н. Нарушения чтения у младших школьников: Анализ речевых и зрительных причин: моногр. – СПб.: КАРО, 2007. – 192 с.

14. Симерницкая Э.Г. Нейропсихологическая дисгностика и коррекция школьной неуспеваемости // Нейропсихология сегодня / под ред. Е.Д.Хомской. – М., 1995. – С. 154–160.

15. Спирова Л.Ф. Соотношение между недостатками произношения, чтения и письма // Вопросы логопедии (Недостатки речи, чтения и письма у учащихся младших классов) / под ред. Р.Е. Левиной. – М.: Изд-во АПН, 1959. – С. 75–134.

16. Ястребова А.В. Коррекция нарушений речи у учащихся общеобразовательной школы. – М.: Просвещение, 1984. – 159 с.

17. Aaron P.A. Is There a Visual Dyslexia? // Annals of Dyslexia. – 1993. – Vol. 43

18. www.disleksiya

19. www. disleksiya haqqında kitablar.

**Х.Э. Мехтиева**

## Организация работы с детьми с дислексией
### Резюме

В статье отражена проблема оптимизации коррекционно-педагогической работы по устранению дислексии у учащихся младших классов, обучающихся в учреждениях с углубленным изучением иностранных языков. Эта проблема настолько плохо изучена, что требует дальнейшего рассмотрения. В статье подчеркнуты описание и направления содержания коррекционно-логопедической работы, необходимость вовлечения в этот процесс учителей иностранного языка, а также родителей, методы работы с учащимися по устранению дислексии. Также в статье приведены специальные методические рекомендации по устранению дислексии у учащихся.

**H.E. Mehdiyeva**

**Organization of work with children with dyslexia**
**Summary**

In the article, the problem of optimization of correctional-pedagogical work to eliminate dyslexia among elementary school students studying in institutions where foreign languages are studied in depth is reflected. This problem is so poorly understood that it warrants further consideration. In the article, the description and directions of the content of corrective speech therapy work, the need to involve foreign language teachers as well as parents in this process, and methods of working with students to eliminate dyslexia are emphasized. The article also provides special methodological recommendations for eliminating dyslexia in in pupils.

**Redaksiyaya daxil olub: 06.03.2024**

*UOT 159.9*

**KOMMUNİKATİV SƏRİŞTƏ UŞAQ ŞƏXSİYYƏTİNİN MƏDƏNİ KEYFİYYƏTLƏRİNİN FORMALAŞMASI AMİLİ KİMİ**

**Pərvanə İldırım qızı İmanova**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*
**ORCİD:** 0000-0002-9542-4804
**E-mail:** imanova.pervane@bk.ru

***Açar sözlər:*** *məktəbəqədər yaş, ünsiyyət mədəniyyəti, kommunikativ şəriştə, fəaliyyət.*
***Ключевые слова:*** *дошкольный возраст, культура общения, коммуникативная компетентность, активность.*
***Key words:*** *preschool age, communication culture, communicative competence, activity.*

Ünsiyyət mədəniyyətinin formalaşdırılması məktəbəqədər pedaqogikanın ən mühüm vəzifələrindən biridir. Məktəbəqədər inteqrativ mühit cəmiyyətin bir modelidir. Bir insanın cəmiyyətdəki uğuru, sosiallaşma üçün xüsusilə vacib olan ünsiyyət mədəniyyətinin səviyyəsindən asılıdır. Çünki bu, cəmiyyətdəki hər hansı bir fəaliyyətin səmərəliliyinə əhəmiyyətli dərəcədə təsir göstərir.

Ünsiyyət şəxsiyyətin inkişafında həlledici rol oynayır. Ünsiyyət olmadan şəxsiyyətin formalaşması ümumiyyətlə mümkün deyil. Məhz ünsiyyət prosesində təcrübənin mənimsənilməsi, biliklərin toplanması, praktik bacarıqların, münasibət və inancların formalaşması baş verir. Yalnız ünsiyyət zamanı estetik hisslər, mənəvi ehtiyaclar inkişaf edir, xarakter formalaşır.

Kommunikativ səriştə mədəni yanaşma nöqteyi-nəzərindən fərdin inkişaf xüsusiyyətlərinin tərkib hissəsi kimi özünü əks etdirir.

Elmi və pedaqoji ədəbiyyatda tez-tez rast gəlinən, gündəlik həyatda geniş istifadə olunan aşağıdakı mədəni xüsusiyyətləri ayırd edə bilərik: ünsiyyət mədəniyyəti və ya kommunikativ mədəniyyət, şəxsiyyətlərarası mədəni münasibətlər, davranış mədəniyyəti, nitq mədəniyyəti, düşüncə mədəniyyəti, mədəni hisslər və s. Qeyd etdiyimiz bu mədəni xüsusiyyətlər müxtəlif elmlərin (psixologiya, pedaqogika, fəlsəfə və s.) tədqiqat obyektinə çevrilmiş, tədqiq edilmiş və nəticələr əldə edilmişdir.

Ünsiyyət mədəniyyəti ümumi davranış mədəniyyətinin ən vacib komponenti və fərdin mənəvi inkişafı üçün zəruri şərt hesab olunur. Uşağın böyüklər və həmyaşıdları ilə ünsiyyət norma və qaydalarını yerinə yetirməsi hörmətə, xoş niyyətə, ictimai yerlərdə, evdə nəzakətli davranış tələblərinə riayət etməyə əsaslanır.

Ünsiyyət mədəniyyətinin əsasını müəyyən qanun və qaydalara uyğun təşkil edilən və tənzimlənən etiket qaydaları təşkil edir.

**Etiket** - insanlar arasında münasibətlərin zahiri ifadəsini tənzimləyən qaydalar və normalar məcmusu daxil olmaqla, cəmiyyətdə müəyyən edilmiş davranış qaydası, ədəb-ərkan, müraciət və salamlaşma formalarında, ictimai yerlərdə davranışında, insanın xarici görünüşündə təzahür edir. Etiket ünsiyyəti müəyyən qanun və qaydalara uyğun təşkil edir və tənzimləyir.

Ünsiyyət mədəniyyəti anlayışı çoxşaxəlidir. Ünsiyyət mədəniyyəti insanın kommunikativ fəaliyyətinin əxlaqi və estetik xüsusiyyətlərini üzə çıxarır. O, informasiyanın, davranış və nitq vasitələrinin məzmununun ünsiyyətdə olanlar arasında mənəvi münasibətlərin və qarşılıqlı

anlaşmanın qurulmasına töhfə verdiyi kommunikativ fəaliyyəti təşkil etmək bacarığında özünü göstərir. Ünsiyyət mədəniyyəti cəmiyyətdə formalaşmış və qəbul edilmiş mədəni dəyərlər, ənənələr və ünsiyyət normaları əsasında qurulur. Müəyyən bir cəmiyyətdə, dövlətdə, bölgədə qəbul edilmiş ünsiyyət mədəniyyəti normalarını bilmək insana onun üçün yeni sosial mühitdə tez bir zamanda anlayış və dəstək tapmağa imkan verir. Bu baxımdan onun hələ kiçik yaşlarından uşaqlara mənimsədilməsi olduqca zəruridir.

Məktəbəqədər yaşda uşaqlara hamıya ( öz həmyaşıdlarına, böyüklərə və s.), eyni zamanda başqa mədəniyyətlərin nümayəndələrinə hörmətli münasibət, müxtəlif millətlərin nümayəndələri ilə təmaslara hazır olmaq, ümumbəşəri dəyərlərə əsaslanan ünsiyyət mədəniyyəti qaydalarını tətbiq etmək bacarığı və bir-birinə münasibətdə tolerantlıq tərbiyə etməyə xüsusi diqqət vermək lazımdır.

Psixoloji və pedaqoji ədəbiyyatlarda "Kommunikativ mədəniyyət" və "Ünsiyyət mədəniyyəti" anlayışlarının hər ikisindən istifadə olunur. Lakin "Ünsiyyət mədəniyyəti" anlayışı ilə yanaşı, onun xarici analoqu sayıla bilən "kommunikativ mədəniyyət" anlayışından kifayət qədər daha geniş istifadə olunur. Bu anlayışların hər ikisi mahiyyət etibarı ilə yaxınlıq təşkil edir.

Şəxsiyyətin hərəkət və davranışında ünsiyyət mədəniyyətinin təzahürü müxtəlif şəkildə özünü göstərir:

— birbaşa ünsiyyətdə özünü göstərən xüsusiyyətlər (ünsiyyətçillik, nəzakətlilik və s.);
— ünsiyyət zamanı fərdin şəxsi keyfiyyətləri, idrakı qabiliyyətləri;
— nitq mədəniyyəti;
— mədəni davranış və s.

Ünsiyyət mədəniyyətinin komponentlərini müəyyən edərkən L.S. Kolmoqorova (2002), hər hansı bir mədəniyyət növündə (pedaqoji, psixoloji, ünsiyyət mədəniyyəti, duyğular mədəniyyəti və s.) aşağıdakı komponentləri müəyyən edir:

***1) koqnitiv (savadlılıq əsas bilik və bacarıqlar kimi);***
***2) səriştəlilik;***
***3) dəyər-semantik;***
***4) refleksiv şəkildə qiymətləndirmə;***
***5) mədəni yaradıcılıq*** [4, s.79].

Savadlılıq (sadə bilik və bacarıqlar) mədəniyyətin "əsaslarını" təşkil edir, onun inkişafı əsasən çox vaxt yaş, fərdi və digər xüsusiyyətlərin nəzərə alınmasından başlayır. Savadlılıq mədəniyyətin inkişafında ilk addımdır, normal inkişaf edən hər bir insan üçün əlçatandır. Kommunikativ mədəniyyətdə kommunikativ savad əsas kommunikativ bilik və bacarıqlara sahib olmaq kimi xarakterizə edilə bilər.

Səriştəlilik problemlərin həllində (bu halda ünsiyyət problemləri) effektiv qərarlar qəbul etməyə imkan verən biliklərin təşkilinin xüsusi növü kimi başa düşülür. Səriştəlilik bilik və bacarıqlara əsaslanan fəaliyyətlərin (xarici və daxili) səmərəliliyi və konstruktivliyi ilə xarakterizə edilə bilər, yəni insanın qarşısında duran vəzifə və problemləri həll etmək üçün bilik və bacarıqlardan səmərəli istifadə deməkdir. Kommunikativ səriştə öz keçmiş təcrübəsindən və sosial-tarixi təcrübədən adekvat istifadə etməyi nəzərdə tutur. Bu, konkret insan, konkret vəziyyət haqqında biliklərə yiyələnməklə əlaqələnir.

Bəşər mədəniyyətinin dəyər-semantik komponenti şəxsi əhəmiyyətli və şəxsi dəyərli arzuların, idealların, inancların, baxışların, mövqelərin, münasibətlərin məcmusudur. Bu xüsusiyyətlər fərdin daxili dünyasının əsasını təşkil edir. Dəyərlər bir insanın mədəniyyətinin "özəyi"

kimi müəyyən edilə bilər.

Dəyər sistemi özünü və başqalarını qiymətləndirmək, münasibət bildirmək və seçim etmək üçün zəruri olan müəyyən bir koordinat sistemi kimi çıxış edir. Humanist ənənələrə uyğun olaraq hesab etmək olar ki, mədəni insanın malik olduğu dəyərlər insanın daxili dünyasının unikallığına, psixoloji təcrübəsinə açıq maraq və müsbət dəyər münasibəti ilə xarakterizə olunur.

İnsanın mədəniyyəti mənimsəməkdə fəaliyyətinin məqsədlərini və nəticələrini dərk etməsi, habelə onda baş verən daxili dəyişikliklər, özünü dəyişən bir şəxsiyyət, fəaliyyət subyekti kimi dərk etməsi onun mədəniyyət göstəricisi kimi əks olunur.

Refleksiya fərdin inkişafı və özünü inkişaf etdirmə mexanizmi kimi özünü tanımanın və özünütənzimləmənin əsas intellektual vasitəsidir. Refleksiv mexanizm sayəsində insan öz inkişafının yeni səviyyələrinə keçir. Qarşılıqlı anlaşmanın qurulması mexanizmi olan refleksiya insanın özünü dərk etməsini, eləcə də ünsiyyət partnyoru tərəfindən "mənini qavraya biləcəyini" anlamaqda iştirak edir. Burada söhbət həmsöhbətin qavrayışına əsaslanaraq bir-birini əks etdirməkdən gedir, lakin qavrayış prosesinə əlavə olaraq bir sıra zehni əməliyyatlar da daxildir ki, bu da təkcə partnyoru dərk etməyə deyil, həm də onun daxili zehni fəaliyyətini tamamlamağa imkan verir [7, s. 37].

Mədəni yaradıcılıq prosesi - insan kiçik yaşlardan başlayaraq həm mədəniyyətin yaradılmasında bir iştirakçı kimi çıxış edir, həm də onun formalaşmasına səbəb olur. Hər bir insan hazır metod və ya üsulları olmayan həyat problemləri ilə üzləşir. İnsan əldə etdiyi mədəniyyət səviyyəsinə əsaslanaraq yeni fəaliyyət və davranış üsulları, yeni ünsiyyət üsulları, formaları yaradır və yaradıcılığını həyata keçirir. Bunun ilk addımları məhz məktəbəqədər yaşdan başlayır. Uşaqların özlərini sərbəst ifadə edə biləcəyi və ünsiyyətdən müsbət emosiyalar ala biləcəyi xoş niyyətli atmosferin yaradılması çox vacibdir. "Xoş, mehriban, hörmət və tələbkarlığa əsaslanan ünsiyyət uşaqların inkişafı və fəaliyyəti üçün daha çox əlverişli şərait yaradır" [2, s. 127].

Ünsiyyət mədəniyyəti mahiyyət etibarı ilə ümumi ünsiyyət mədəniyyəti və peşəkar ünsiyyət mədəniyyəti anlayışlarını özündə əks etdirir.

Ümumi mədəniyyət dar, xüsusi fəaliyyət növlərinin xüsusiyyətlərindən asılı olmayaraq, gündəlik vəzifələrin geniş spektrini həll etməyə, konkret peşədən asılı olmayaraq geniş sosial rolları yerinə yetirməyə hazırlığı müəyyən edən funksiyalar, vəzifələr, xüsusiyyətlər və parametrlərlə xarakterizə olunur. Məsələn, yetişməkdə olan hər bir gənc nəslin nümayəndəsi müəyyən səviyyədə ümumi ünsiyyət mədəniyyətinə malik olur. Uşaq ilkin ümummədəni keyfiyyətləri ailədə, daha sonra digər sosial institutlarda (məktəbəqədər təhsil müəssisəsində, məktəbdə və s.) mənimsəməyə başlayır. Sistemləşmiş təhsil mühiti çərçivəsində uşaqlarda ümummədəni dəyərlər inkişaf edir. Məhz buna görə də ümumi mədəniyyətin tərkib hissələrindən biri kimi uşağın kiçik yaşlarından tərbiyəsində buna nail olunmalıdır.

Psixoloji ədəbiyyatda mövcud olan ünsiyyət mədəniyyətinin bir çox tərifləri vardır:

— nəzakətlilik, təmkinlilik, mehribanlıq, tərəf müqabilini dinləmək bacarığı və başa düşmək arzusu, onların zövqünə, fikirlərinə, ovqatına hörmətlə yanaşmaq, sevinc və kədərini anlamaq, dərdinə şərik olmaq-bütün bunlar ünsiyyət mədəniyyətinin əlifbasıdır. Hamı bu əlifbanı öyrənməli, mənimsəməlidir (Ə.Ə. Əlizadə);

— özünün şəxsi keyfiyyətlərini düzgün qiymətləndirən hər bir müəllim ünsiyyət mədəniyyətinə yiyələnmək üçün hansı keyfiyyətlərin zəruri olduğunu da dərindən bilməli və bunu özündə tərbiyə etməyi bacarmalıdır (M.İ. İlyasov);

— cəmiyyətdə olan münasibətlər normalarına riayət etmək (E.V. Sokolov);

— başqalarına münasibətdə duyğuları idarə etmək bacarığı (M.N. Noçevnik);

— ünsiyyət vasitələri və şəxsiyyətlərarası qarşılıqlı əlaqə qanunları sahəsində fərdin bilik, bacarıq və vərdişlərinin məcmusu (V.V. Sokolova);

— şəxsiyyət münasibətlərinin əxlaqi yönümü (L.B.Volçenko, A.I.Titarenko);

— ünsiyyət formalarının, vasitələrinin və üsullarının keyfiyyət səviyyəsi (I.A. Popov, E.P. Savrutskaya);

— şəxsiyyətin sosiallaşması və özünü inkişafının nəticəsi olan insan və digər insanlar arasında qarşılıqlı əlaqənin forma və üsullarının keyfiyyət səviyyəsi (I.F. Petrova).

İnsanın kommunikativ mədəniyyəti ünsiyyət vasitələrinin adekvat seçilməsi və istifadəsinə əsaslanan məqsədyönlü və effektiv şəxsiyyətlərarası qarşılıqlı əlaqəni təmin edən bilik, bacarıq və vərdişlərin məcmusudur, habelə şifahi və yazılı ünsiyyət şərtlərində həmsöhbətlərə təsirini proqnozlaşdırmaq, ünsiyyətdə məlumat əldə etmək bacarığıdır (A.Q. Samoxvalova , 2012).

A.Q. Samoxvalova ünsiyyət mədəniyyətini formalaşdıran aşağıdakı bir sıra mədəni komponentlər toplusunu qeyd edir:

• kommunikativ vəziyyətin şərtlərinə adekvat cavab verən emosional mədəniyyət;

• plana uyğun gələn və reallığı etibarlı şəkildə əks etdirən qərarlar qəbul edilməsinə yönəlmiş idrak fəaliyyətinin spesifik formaları olan koqnitiv mədəniyyət;

• ünsiyyət problemlərinin optimal həlli üçün nitqin asan qurulmasını təmin edən bilik, bacarıq və vərdişlərin məcmusu kimi başa düşülən nitq mədəniyyəti.

"Ünsiyyət mədəniyyəti insan üçün adekvatlıq, uğur, fərdi orijinallıq... ünsiyyət mənbəyinə çevrilir; yüksək səviyyədə özünə hörmət təmin edir; kommunikativ sferada fərdin özünü inkişafını stimullaşdırır" [6, s.127].

Məqsədyönlü təlim-tərbiyə prosesi mədəniyyətin mənimsənilməsindən, onun səriştəli ötürülməsindən ibarət ən mühüm vəzifəni yerinə yetirir.

Peşəkar pedaqoji ünsiyyət mədəniyyəti tərbiyəçi-müəllimin peşə fəaliyyətinə şəxsi hazırlığı, onun ümumi və pedaqoji mədəniyyət səviyyəsindən asılıdır. Tərbiyəçi-müəllimin peşəkar ünsiyyət mədəniyyəti nə qədər yüksəkdirsə, bir o qədər çox ünsiyyətin məzmununa və təbiətinə təsir etmək imkanına sahib olur.

Peşəkar pedaqoji ünsiyyətə ünsiyyət mədəniyyətinin tərkib hissəsi kimi baxılır ki, burada tərbiyəçi-müəllimin nitqi, davranışı, jesti, mənəvi və əxlaqi dəyərləri əsas rola malik olur. Bu xüsusiyyətlərə malik tərbiyəçi-müəllim bütün ünsiyyət qaydalarını dərin humanist prinsiplər əsasında həyata keçirməklə uşaqlarda insanlara, ətrafdakı canlılara hörmət, xoşməramlıq, tolerantlıq kimi xarakterik xüsusiyyətləri aşılamaqla yanaşı, onlarda nəzakətli davranışın inkişafına da səbəb olur. Nəzakət ünsiyyət qabiliyyəti kimi müxtəlif vəziyyətlərdə davranış qaydalarına riayət etməklə xarakterizə olunur.

L.S. Vıqotski uşağın zehni inkişafını onun "mədəniyyətə qovuşması" kimi qiymətləndirirdi. Onun əsərlərində mədəni inkişafın mahiyyəti, mədəni davranışın strukturu, funksiyaları və genezisi, yəni ali psixi funksiyalar araşdırılır. O, psixikada fövqəltəbii, sosial mənşəli dəyişiklikləri təyin etmək üçün "mədəni inkişaf" anlayışından istifadə edir. Buna görə də biz bu termini "zehni mədəniyyət", "zehni proseslər mədəniyyəti", "zehni fəaliyyət mədəniyyəti", "ali psixi funksiyalar" anlayışları ilə sinonim şəkildə əlaqələndiririk. Məhz bu baxımdan L.S. Vıqotski mədəni inkişafın ümumi genetik qanununu formalaşdırdı: "Uşağın mədəni inkişafındakı hər bir funksiya səhnədə iki dəfə, iki səviyyədə görünür, əvvəlcə sosial, sonra psixoloji,

əvvəlcə insanlar arasında, interpsixik kateqoriya kimi, sonra uşaq daxilində, intrapsixik kateqoriya kimi" [3, s.145].

Mədəni inkişaf insanın sosial həyatının və ictimai fəaliyyətinin məhsuludur. Sual yaranır: nə pasport, nə də zəka yaşı ilə müəyyən edilə bilinməyən insanın mədəni yaşını necə təyin etmək olar?

Mədəniyyətin prosessual aspektini təsvir edərkən adekvat anlayışlar, fikrimizcə, formalaşma, təhsil, inkişaf deyil, formalaşma, genezis, inkişaf - "inkorporasiya"sıdır.

"Təşəkkül" və "tərbiyə" anlayışlarını bütövlükdə bəşər mədəniyyətinə deyil, mədəniyyətin ayrı-ayrı komponentlərinə aid etmək olar. Bu, ilk növbədə, təlim, təhsil və fərdi inkişaf səviyyəsini ifadə edən şəxsi mədəniyyət anlayışının özü ilə bağlıdır. İkincisi, formalaşma prosesi bir çox xarici və daxili, obyektiv və subyektiv amillərin təsiri altında baş verir. Beləliklə, mədəniyyət bütövlükdə formalaşmır, mədəniyyət mənimsənilir, insanlar ona cəlb olunur və bu proses həmişə xüsusi təşkil olunmuş şəraitdə baş vermir.

Şəxsiyyətin kommunikativ mədəniyyətinin, eləcə də kommunikativ səriştəsinin əsasları təhsil prosesində formalaşdırılır. Lakin onun formalaşdırılması insanın ünsiyyət təcrübəsidir. Kommunikativ mədəniyyətin, o cümlədən kommunikativ səriştənin mənimsənilməsinin əsas mənbələri aşağıdakılardır:

Xalq mədəniyyətinin sosial-normativ təcrübəsi;

Xalq mədəniyyətinin istifadə etdiyi ünsiyyət dillərini bilmək;

Müxtəlif şəraitdə şəxsiyyətlərarası ünsiyyət təcrübəsi;

Mədəni qavrayış təcrübəsi [5, s.107].

Ünsiyyət təcrübəsi insanın ünsiyyət mədəniyyətinin strukturunda xüsusi yer tutur. Bir tərəfdən, o, sosial xarakter daşıyır və mədəniyyətin daxili norma və dəyərlərini özündə cəmləşdirir, digər tərəfdən isə fərdidir, çünki o, fərdi kommunikativ qabiliyyətlərə və fərdin həyatında ünsiyyətlə əlaqəli psixoloji hadisələrə əsaslanır. Bu təcrübənin dinamik tərəfi ünsiyyətdə reallaşan, insanın sosial inkişafını təmin edən sosiallaşma və fərdiləşmə proseslərindən, habelə onun ünsiyyət vəziyyətinə reaksiyalarının adekvatlığından və onların orijinallığından ibarətdir.

Kommunikativ mədəniyyətin formalaşması üçün kiçik yaşlardan uşaqlarda idrakın inkişafına, estetik və yaradıcı cəhətdən səmərəli təlim mühitinin formalaşmasına, sosial-emosional sferanın yaradılmasına, ətraf aləmin şüurlu şəkildə dərk olunmasına, qavranılmasına şərait yaratmaq xüsusilə vacibdir. Hərtərəfli inkişaf prosesinin səriştəli təşkili və həyata keçirilməsi ünsiyyətin müxtəlif modellərinin tətbiqinə şərait yaradır. Bu modellər fərdin kommunikativ erudisiyasının əsasını qoyur, ünsiyyət mədəniyyətinin dəyər-semantik komponentinin inkişafına töhfə verir və kommunikativ əlaqəsini genişləndirir.

Beləliklə, ünsiyyət mədəniyyəti və ya kommunikativ mədəniyyət fərdin ümumi və ya peşəkar mədəniyyətinin tərkib hissəsi olan mürəkkəb bir hadisədir. Onun formalaşdırılmasına erkən yaşlardan başlanılması böyüyən nəslin həm sosial adaptasiyasına, həm də bir cəmiyyət üzvü kimi formalaşmasına mühüm töhfə verdiyindən ona hələ məktəbəqədər yaşdan başlanılması olduqca vacibdir.

**Problemin aktuallığı.** Yetişən gənc nəslin tərbiyəsi, təhsili bir başa onlara yaradılan şəraitdən, məqsədyönlü təsirdən asılı olaraq dəyişir. Şəxsiyyətin formalaşdırılması ünsiyyət vasitələrinin adekvat seçilməsi, onun istifadəsində məqsədyönlü və effektiv şəxsiyyətlərarası qarşılıqlı əlaqənin təmin edilməsi ilə əlaqəli şəkildə həyata keçirilir.

**Problemin elmi yeniliyi.** Uşaq şəxsiyyətinin mədəni keyfiyyətlərinin formalaşmasında kommunikativ şəriştənin, ünsiyyət mədəniyyətinin rolu araşdırılmış və erkən yaşdan başlayaraq onun təsir imkanlarının genişləndirilməsinin əhəmiyyəti əsaslandırılmışıdr.

**Problemin praktik əhəmiyyəti.** Məqalədən məktəbəqədər təhsil müəssisəsində çalışan tərbiyəçi-müəllimlər, valideynlər, loqopedlər, psixoloqlar faydalana bilər.

**Ədəbiyyat**

1. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri / Ə.Ə.Əlizadə.- Bakı: Pedaqogika. 2004, 432 s.
2. İlyasov M.İ. Müəllimin pedaqoji ustalığı / M.İ.İlyasov.- Bakı: "Elm və təhsil". 2013, 215 s.
3. Выготский Л.С. Психология развития человека. — М.: Изд-во Смысл; Изд-во Эксмо , 2005. — 1136 с, ил.
4. Колмогорова, Л. С. Диагностика психологической культуры школьников / Л. С. Колмогорова. – Москва: ВЛАДОС, 2002. – 320 с.
5. Руденский, Е. В. Социальная психология: курс лекций / Е. В. Руденский. – Москва: ИНФА-М ; Новосибирск: ИГАЭИУ, 1997. – 224 с.
6. Самохвалова, А. Г. Деловое общение: секреты эффективных коммуникаций: учебное пособие / А. Г. Самохвалова. – 2-е изд., перераб. и доп. – Санкт-Петербург: Речь, 2012. – 333 с.
7. Уланова, А.Ю. Модель психического как ментальная основа коммуникативной успешности детей 4 - 6 лет: специальность 19.00.13 «Психология развития, акмеология»: диссертация на соискание ученой степени кандидата психологических наук / Уланова Анна Юрьевна. – М., 2015. – 201 с.

**П.И. Иманова**

**Коммуникативная компетентность – это культура личности ребенка как фактор формирования своих качеств**
**Резюме**

Формирование культуры общения – одна из важнейших задач дошкольной педагогики. Дошкольная интегративная среда является моделью общества. Успех человека в обществе зависит от уровня культуры общения, что особенно важно для социализации. Потому что это существенно влияет на эффективность любой деятельности в обществе. Для того, чтобы подготовить педагога-психолога к решению этой и других проблем, необходимо формирование коммуникативной культуры личности, в том числе одной из её составляющих – коммуникативной компетентности.

**P.İ. İmanova**

**Communicative competence is the child's personality culture as a factor in the formation of their qualities**

**Summary**

Forming a culture of communication is one of the most important tasks of preschool pedagogy. The preschool integrative environment is a model of society. A person's success in society depends on the level of communication culture, which is especially important for socialization. Because it significantly affects the effectiveness of any activity in society. In order to prepare the educational psychologist to solve this and others problems, it is necessary to form a communicative culture of the individual, including one of its components – communicative competence.

**Redaksiyaya daxil olub: 15.02.2024**

*UOT 159.9*

# YENİYETMƏLİK DÖVRÜNÜN YAŞ VƏ PSİXOLOJİ PROBLEMLƏRİ

**Sevda Ağasəlim qızı Məsimzadə**
*Bakı Dövlət Universitetinin dissertantı*
**ORCİD:** 0009-0005-4329-7873
**E-mail:** sevdamesimzade@mail.ru

***Açar sözlər:*** *yeniyetməlik, yaş faktoru, fizioloji proses, psixoloji xüsusiyyətlər.*
***Ключевые слова:*** *подростковый возраст, возрастной фактор, физиологический процесс, психологические особенности.*
***Key words:*** *adolescence, age factor, physiologicial process, psychological characteristics.*

İnsan doğulduğu gündən cəmiyyət həyatına daxil olur, sosiallaşır və özünəməxsus inkişaf mərhələsi keçir. İnsanın inkişafında bioloji, sosial və psixoloji olmaqla bir çox amillər iştirak edir. Yeniyetməlik dövründə psixoloji böhranı və fizioloji dəyişiklikləri anlamaq üçün yeniyetməlik dövrünü və bu zamana qədər olan dövrlərin normal inkişafını bilmək vacibdir. İnsan hələ ana bətnində ikən bir çox xarici mühit təsirlərinə reaksiya verməkdədir. Belə ki, ananın yaşadığı kədər doğulmamış körpənin hərəkətlərinin azalmasına, ananın yaşadığı sevinc anlarında isə hərəkətliyində artmanın olması ən bariz misallardan biridir. Bu proseslər beyinin orqanik inkişafının təzahürü olaraq ortaya çıxır. Bir insanın şəxsiyyət kimi formalaşmasında yeniyetməlik dövrünün əvəzsiz rolu vardır.

Müasir dövrdə yeniyetmələr arasında aqressiv davranış geniş yayılıb və artmaqdadır. Belə yeniyetmələr cəmiyyətə olan dəyər və münasibətləri deformasiyaya uğradır. Eqoizm, ətrafdakıların hisslərinə laqeydlik, neqativ davranış belə yeniyetmələrin tipik xüsusiyyətlərindəndir.

**İnsanın şəxsiyyət kimi formalaşmasında yaş mərhələlərinin rolu.**

Təsadüfi deyil ki, insanın inkişafını nəzərdən keçirərkən aşağıdakı mərhələlərə bölürlər:

1. Körpəlik dövrü (2 yaşa qədər);
2. Uşaqlıq dövrü - məktəbə qədər (2-6 yaş);
3. Məktəb dövrü (6-12 yaş);
4. Yeniyetməlik (12-18 (22) yaş);
5. Yetkinlik (22 yaş sonrası).

Bu dövrlər həm insanın fiziologiya baxımından inkişafına, həm də psixoloji inkişafı nəzərə alınaraq ayırd edilmişdir. Əgər hər bir dövrə ayrı-ayrı nəzər salsaq, bir-birindən ayırd edildiyinin şahidi olmaq o qədər də çətin olmayacaqdır. Bir az daha incələyəcək olarsaq, 2 yaşına qədər olan bir körpənin anasından tam olaraq asılı olduğunu, həmin yaşda bir insandan gözlədiyimiz yemə və tualet davranışlarının tamamilə anaya bağlı olduğunu görərik. Bu dövrdə olan insan anadan ayrı özünü hiss etməz, anadan ayrı qaldığı vaxtlar həyəcanı yüksək, çox vaxt ağlamaqla keçirər. Çünki, özünü ananın bir parçası olaraq görür və ana ayrıldığı vaxt tərk edilmiş kimi hiss etməkdədir. İnsan 6 yaşına gəlincə artıq bir çox şeyi, rahatlıqla gəzməyi, oynamağı, yeməyi, tualetini eyni zamanda öz fikrini qismən ifadə etməyi artıq öyrənmişdir. Bu dövrdə bir insan ata anadan ayrı bir fərd olduğunu anlamaqda, eyni zamanda ailənin ayrılmaz bir parçası olduğunu zənn etməkdədir. Yaxşı və pis olan şeyləri təxmin edə bilir, ancaq bu

sifətlər özünün deyil eyni zamanda ata və ananın düşüncəsinə əsasən formalaşır. 12 yaşına gəlmiş bir insan ona verilən tapşırıqları yerinə yetirir, xarakterin əsası qoyulur, yaxşı və pisi bir birindən ayıra bilir. Tapşırıqları yerinə yetirməyəndə necə cəzalanacağını ön görür. Konkret təfəkkür formalaşır, məntiqə əsaslı düşüncə formalaşır. Yeniyetməlik dövrü isə insanın inkişaf mərhələləri arasında həm fiziki, həm hormonal, həm zehni cəhəti ilə ən çox dəyişikliyə məruz qalan və eyni zamanda çox sürətlə baş verən bir çox dəyikliyi əhatə edir. Bu və başqa yönləri ilə yeniyetməlik insan inkişafında ən ciddi mərhələ sayılır. Yeniyetməlik mərhələsi öz daxilində 3 hissəyə ayrılır:

1. erkən yeniyetməlik;
2. orta yeniyetməlik;
3. gec yeniyetməlik.

Hər bir dövrün özünə məxsus xarakterik cəhətləri vardır. Yeniyetməliyin başlanğıcında hormonal proseslərin dəyişməsi ilə insanın xarici görünüşü dəyişir, qızlarda qadın bədən quruluşu formalaşır, menstural dövr başlayır, oğlanlarda səs dəyişməsi, kişi bədən quruluşu formalaşmağa başlayır. Bu zaman ətrafların eyni zamanda bədənin simmetriyası pozulur, hərəkətlərdə kobudluq ortaya çıxır. Bu dəyişiklik eyni zamanda zehni dəyişikliklərlə birgə baş verir. Öz cinsinə aid davranışlar qabarmağa başlayır, əks cinsə qarşı maraq yaranır. Şəxsiyyət formalaşmağa başlayır. 16 yaşlarına çatan birisi artıq yetkin insanlar qədər, yaxşı və pisi bir-birindən ayırd edə bilir, kədərin sevincin nə olduğunu, nifrətin sevginin nə olduğunu anlayır. Yeniyetməliyin sonuna doğru isə artıq öz hisslərinə hakim olmağı, lazım gəldiyində onları cilovlamağı bacarır. Bütün burada sadaladığım proseslər və sadalamaqda kitabların belə yetərsiz qaldığı məqamlar nəticə etibari ilə bir insanın şəxsiyyət olaraq formalaşmasına səbəb olur. Bu dövr və eyni zamanda bura qədər olan mərhələlərdə genetik faktorların üzərinə formalaşan ailə daxili münasibətlər, bağça, məktəb, məhəllə, universitet mühiti kimi faktorlar bir şəxsiyyətin formalaşmasında mühim rola malikdirlər. Əgər təkrar mərhələlərə göz atacaq olarsaq, məktəbə qədər dövrdə uşaqların çox təriflənməsi, etdiyi istənilən davranışların üzərində çox dayanılması, sevilməyən davranışlarının görməzdən gəlinməsi, eyni zamanda təqlid qabiliyyətləri inkişaf etdiyinə görə nümunə olunması bu mərhələni normal başa vurmağa kömək olacaqdır. Məktəb dövrü uşaqlıq zamanı isə bir öncəki sadalananlarla yanaşı cəza tətbiq edilməsi, ancaq bu cəzanın uşağın özünə qarşı olmadığını sadəcə etdiyi yanlış davranışa görə verildiyinin vurğulanması vacibdir. Təbii ki, cəza yaşa uyğun verilməlidir. Eyni zamanda musiqi, idman incəsənət kimi müxtəlif sahələrə təşviq edilməli, kurs və məktəblərə yönləndirilməlidir.

**Yeniyetməlik dövründə psixoloji problemlər.**

Müasir dövrümüzün dinamikliyi zəminində yeniyetmələrin problemlərinin psixoloji istiqamətdə tədqiq olunmasında yeni cəhətlər özünü büruzə verir. Yeniyetməlik problemlərinə gender aspektindən yanaşma da mühüm əhəmiyyət kəsb edir. Yeniyetmələrin problemlərinə gender baxımından yanaşma onların şüurunun, davranışının formalaşmasında böyük əhəmiyyət kəsb edir. Müasir dövrdə yeniyetmələr üçün ümumi cəhət, onların şəxsiyyət kimi formalaşmasında maksulinizasiyanın və feminizasiyanın ön plana çıxmasından ibarətdir. Bu mövqedən çıxış edərək, kişinin güclü, müstəqil, aktiv, aqressiv, şəxsi nəailiyyətlərə yönəlmiş və s. qadının isə zərif, dözümlü, zəif, asılı, emosional, nəzakətli, ailənin maraqlarına istiqamətlənmiş olmasına xüsusi diqqət yetirilir.

**Yeniyetməlik dövrünün özü yüksək risk qrupunu təmsil edir. Bu özünü bir sıra amillərdə göstərir:**

1. Psixotermonal proseslərdən başlayaraq, "Mən" konsepsiyasının yenidən qurulması ilə tamamlanan, yeniyetməlik dövrünə keçmənin çətinlikləri;
2. Yeniyetmənin təqdim etdiyi sosial mövqenin qeyri-müəyyənliyi və məhdudluğu;
3. Sosial nəzarətin mexanizmlərinin yeniləşməsi ilə şərtlənmiş ziddiyyət: "normalar və böyüklərə itaətkarlıqla əsaslanmış heç bir təsir gücünə malik olmayan uşaq nəzarət formaları, böyük nəzarət vasitələri isə təxmin edilən şüurlu intizam və özünə nəzarət isə ya hələ yoxdur və ya hələ möhkəmlənməyib".

İnsanın inkişafında bioloji, sosial və psixoloji olmaqla bir çox amillər iştirak edir. Bu nöqteyi nəzərdən psixoloqlar hesab edirlər ki, uşaq və yeniyetmələrin inkişafında iştirak edən ən mühüm sosial qrup ailədir. Ailə sosial mövqenin formalaşmasına təsir edən ən vacib amillərdən biridir. Hər bir ailə ümumi cəhətlərlə yanaşı eyni zamanda özünəməxsus və unikal xüsusiyyətlərə malikdir. Yeniyetməlik dövrü ailənin bütün üzvlərinin sosial, şəxsi və ailəvi münasibətlərin sınağa çəkildiyi dövrdür.

Şəxsiyyətin formalaşmasında valideynin rolu əvəzsizdir. Övlada qayğı ilə birgə valideynlər yeniyetmənin "Mən" konsepsiyasının, hisslərinin, həyat planlarının, təfəkkürün formalaşmasında mühüm rol oynayır. Valideynlər arasında tərbiyə ilə bağlı razılıq pozulursa, yeniyetməyə mənəvi, psixoloji cəhətdən yaxın, onun dayağı olan insanların mübahisəsi, xüsusilə bu mübahisəyə onun səbəb olması yeniyetməni narahat edir. Bəzən yeniyetmələrdə olan əsəb gərginliyinin, həyəcanın, aqressiyanın yaranmasında məhz belə situasiyalar az rol oynamır. Yeniyetmə üçün ailə üzvləri arasındakı münasibətlərin necə olması, valideynlərin ona münasibəti çox vacibdir. Bəzi hallarda yeniyetmənin aqressiv davranışına valideynlərin kobud cəza növlərini seçmələri də səbəb olur. Ailədə fiziki zorakılıq yeniyetmədə valideynlərinə, özünə, yaşıdlarına qarşı neqativ hisslər yaradır. Aqressivlik problemi ilə rastlaşan bir çox valideynlər yeniyetmələrin problemli olması ilə razılaşmaq istəmir. Bəzi valideynlər tez-tez birə bir sualla müraciət edirlər: "Niyə mənim övladım qəddardır?", "Qızımın mənə kobud cavab verməsinə nə səbəb ola bilər?" və s. Hörmətli valideynlər, əgər sizin ailədə aqressiv yeniyetmə varsa, əvvəlcə öz davranışınıza tənqidi yanaşmağa çalışın. Aqressiv davranış modeli barəsində ilk biliklərini də yeniyetmələr ailədə mənimsəyirlər. Bəzi tədqiqatçılar yeniyetmə aqressiyasının səbəblərini yeniyetməlik dövründə yaranan fizioloji dəyişiklikdə görür. Cinsi yetişkənlik dövründə endokrin vəzilərində olan dəyişikliklər nəticəsində yeniyetmənin davranışında emosional reaksiyalar üstünlük təşkil etməyə başlayır. Yeniyetmənin aqressiv davranışının səbəblərini araşdırarkən, nəticə aydındır: aqressiv davranışın yaranmasında bioloji, psixoloji və sosioloji amillər mühüm rol oynayır.

Yeniyetmədə aqressiyanın təzahürünə təkcə uşağın inkişafında olan problemlər deyil, həm də situativ amillər də təsir göstərə bilər. Məsələn, bu başqalarının yeniyetmələrə verdiyi qiymət, qisas almaq və ya nəyin isə qarşılığını vermək arzusu ilə bağlı meydana çıxa bilər. Yeniyetməlik dövründə aqressiya bir çox hallarda ətrafdakıların davranışına cavab reaksiyası və ya "qisas" arzusu ilə bağlı ola bilər. Əgər yeniyetmənin aqressiv hərəkətə cavab vermək imkanı olmursa, nəticədə yeniyetmədə frustrasiya halı yüksəlir, lakin aqressiv motivin səviyyəsi ləngiyir.

Yeniyetmələrin əsas psixoloji problemlərini aradan qaldırılması üsulları kimi istifadə edilə bilər:

1. Yeniyətməlik dövrünün normal inkişafı olaraq ailədən uzaqlaşma, dost qruplarına yaxınlaşmanı nəzərə aldığımızda ailənin məsuliyyət verməsi, xüsusi ilə pul xərcləməsi, geyimi, otağı, dərsləri baxımından artıq yeniyətmənin ixtiyarına verilməli, müəyyən müddətlərlə

hesabat alınmalıdır.

2. Yeniyetməlik dövrünün təlatümlü keçməsi eyni zamanda bir çox psixi xəstəliklər üçün də zəmin hazırlamaqdadır. Davranışların gözlənilməz istiqamətdə dəyişməsi, aqressivliyin həddən artıq artması, dərs müvəffəqiyyətinin çox düşməsi, zərərli vərdişlərə meylliyin yaranması yeniyətmələrin ailələri, mühiti, məktəbi üçün SOS siqnalı daşımaqdadır. Bu dəyişiklərin erkən vaxta hiss edilməsi, anlayışla öhdəsindən gəlinməsi üçün yeniyetmə ilə birgə çıxış yolunun tapılması bir çox halda geri dönüşlü bir proses olmaqdadır. Psixi xəstəlikləri daha çox depressiv simptomlarla anlayırıq. Depressiv simptomların ən az 2 həftədən uzun sürməsi nəzərdə tutulur. Depressiv simptomlar davranış pozuntularından, şizofreniya xəstəliyinə qədər bir çox psixiatrik xəstəlikdə büruzə verdiyinə görə diqqət edilməlidir.

3. Depressiv simptomlar ağırlaşdıqda insanın düşüncələrindən biri də özünə zərər vermək, intihara meyilliyin yaranmasıdır. Təbii ki, bu proses heç bir zaman anidən özünü göstərmir. Çox zaman ətrafdakılar dəyişikliyi hiss edir, vaxtında edilən yardımla intihar fikri yaranmadan depressiv simptomlar geriləyir. Baş verən dəyişmələr zamanında aşkar edilmədikdə, intihar düşüncələri artıq yeniyetmənin əsas düşüncələri halına gəlir. Dolayısı ilə bu fikirlər hər hansı bir formada ifadə də olunur. Bunun üçün ifadə edilən intihar fikri, ifadə formasından asılı olmayaraq ya zarafat ya ciddi mütləq şəkildə diqqətə alınmalı, bu fikirlər keçənə və yardım üçün istiqamətləndirilənə qədər insan yalnız buraxılmamalıdır.

**Problemin aktuallığı.** Cəmiyyətdə həm psixoloji həm də fizioloji sağlam şəxsiyyətin formalaşmasında yeniyetməlik dövründə yaşanan psixoloji problemlərin təsiri danılmazdır. Bu problemləri yalnızlıq istəyi, işləmək istəksizliyi, can sıxıntısı, narahatçılıq, qaydalara qarşı direniş, cinsiyyətə hədsiz maraq, həssaslığın artması, özgüvənsizlik kimi psixoloji hallar ilə müşahidə edirik. Bu kimi halların baş verməməsi üçün nizamlı əməl edilən qaydalara riayət etmək vacibdir.

**Problemin elmi yeniliyi.** Yeniyetmələrin əsas psixoloji problemlərini aradan qaldırılması üsulları vasitələrini əks etdirməkdir. Yetkinlik - fərdin qarşı cinslə yaxınlaşması və bu yaxınlaşmanın nəticəsi olaraq, fiziki və hissiyyat baxımından doyuma çatması kimi adlandırılmaqdadır. Yetkinlik sadəcə fizioloji inkişafla bağlı deyil, hissi və zehni inkişafla da əlaqədardır. Uşaqlıqda başlayan yetkinlik qavramı, yeniyetməlik dövründə pik nöqtəyə çatır. Bu problemlərin öyrənilməsinə gələcəkdə də ehtiyac vardır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Yeniyetməlik dövründə böyümə və bədən dəyişikliklərinin davranış və qaydalar üzərindəki təsirlərini yaş dövrü ardıcıllığı ilə qeyd etməkdir.

## Ədəbiyyat

1. Azərbaycan müəllimi. - 2014. - 30 may. - s.9.
2. S.İ. Seyivov, M.Ə. Həmzəyev. Psixologiya: Ali məktəblər üçün dərslik. Bakı, 2013, 466 s.
3. Q. Əzimov, Psixologiya: Ali məktəblər üçün dərslik. Bakı, 2016, 367 s.
4. http://org.az

**С.А. Масимзада**

**Возраст и психологические проблемы подросткового возраста**
**Резюме**

В развитии человека участвуют многие факторы, в том числе биологические, социальные и психологические. Чтобы понять психологический кризис и физиологические изменения в подростковом возрасте, важно знать период подросткового возраста и нормальное развитие периодов, предшествующих этому периоду. Эти процессы появляются как проявление органического развития мозга. Подростковый возраст имеет незаменимую роль в формировании человека как личности. Агрессивное поведение среди подростков широко распространено и в настоящее время увеличивается. Такие подростки деформируют ценности и отношение к обществу. Эгоизм, безразличие к чувствам других, негативное поведение – типичные характеристики таких подростков.

**S.A. Mesimzade**

**Age and Psychological Problems of Adolescence**
**Summary**

Many factors, including biological, social and psychological, are involved in human development. In order to understand the psychological crisis and physiological changes during adolescence, it is important to know the period of adolescence and the normal development of the periods leading up to this time. These processes appear as a manifestation of the organic development of the brain. Adolescence has an indispensable role in the formation of a person as a personality. Aggressive behavior among teenagers is widespread and increasing in modern times. Such teenagers deform the values and attitudes towards the society. Egoism, indifference to the feelings of others, and negative behavior are typical characteristics of such teenagers.

**Redaksiyaya daxil olub: 27.02.2024**

***SOSİAL PSİXOLOGİYA***
***СОЦИАЛЬНАЯ ПСИХОЛОГИЯ***
***SOCIAL PSYCHOLOGY***

*UOT 159.9.2.316.37*

# GENDER STEREOTİPLƏRİNİN DAVAMLILIĞINI TƏMİN EDƏN MEXANİZMLƏR

**Səxavət Nəsrəddin qızı Əliyeva**
*Bakı Dövlət Universitetinin dosenti,*
*psixologiya üzrə fəlsəfə doktoru*
**ORCİD:** 0000-0002-5136-677X
**E-mail:** saxavat aliyeva@bsu.edu.az

***Açar sözlər:*** *gender rolları, sosial-mədəni təsirlər, gender stereotipləri, şəxsiyyətlərarası münasibətlər, mədəni normalar.*

***Ключевые слова:*** *гендерные роли, социокультурные влияния, гендерные стереотипы, межличностные отношения, культурные нормы.*

***Key words:*** *gender roles, socio-cultural influences, gender stereotypes, interpersonal relations, cultural norms.*

Gender stereotiplərinin davamlılığı mədəni, sosial və psixoloji mexanizmlərin mürəkkəb şəbəkəsində möhkəmlənmiş mürəkkəb bir fenomendir. Gender stereotipləri, cinsinə görə fərdlər üçün uyğun hesab edilən davranışlar, atributlar və rollar haqqında geniş yayılmış inancları və gözləntiləri əhatə edir, ictimai tərəqqiyə baxmayaraq, davam edir. Bu girişdə mədəni ənənələrin, sosial amillərin, koqnitiv qərəzlərin, media təsirlərinin və institusional strukturların qarşılıqlı təsirini araşdıraraq, gender stereotiplərinin dözümlülüyünə töhfə verən mexanizmləri tədqiq edilir.

Mədəni ənənələr, gender rolları ilə bağlı gözləntiləri nəsillərə ötürməklə, ictimai normaların formalaşmasında təməl qüvvə kimi çıxış edir. Sosial amillər, bu stereotipləri daha da möhkəmləndirir, çünki fərdlər erkən yaşlarından sosial gözləntiləri mənimsəyirlər. İnsan psixologiyasından qaynaqlanan koqnitiv qərəzlər stereotipik düşüncənin davam etdirilməsində, ənənəvi gender normalarının möhkəmləndirilməsində rol oynayır.

Media güclü bir sosial təsir vasitəsi kimi gender stereotiplərinin həm əks olunmasında, həm də formalaşmasında çox vaxt ikili rol oynayır. O gender rollarının müxtəlif formalarda, o cümlədən reklamlarda, filmlərdə və populyar mədəniyyətdə, mövcud stereotiplərin möhkəmlənməsinə töhfə verir və ya onlara meydan oxuyur.

Üstəlik, təhsil, iş yeri və digər sektorlardakı institusional strukturlar siyasətlər, təcrübələr və sistematik qərəzlər vasitəsilə istəmədən gender stereotiplərini davam etdirirlər. Cəmiyyətin tərəqqisinə baxmayaraq, müxtəlif davamlılıq mexanizmlərinə görə gender stereotipləri davam edir. Bu davamlılıq mexanizmlərinə təsdiq qərəzliliyi, selektiv diqqət, sosial öyrənmə, stereotip təhlükəsi, şəxslərarası gücləndirmə, institusional amillər, koqnitiv dissonans kimi mexanizmlər aiddir.

**1. Təsdiq qərəzliliyi**

Təsdiq qərəzliliyi, fərdlərin mövcud inanclarını təsdiq edən məlumatı seçərək bəyənmə meylinə istinad edir, eyni zamanda bu inanclara zidd olan məlumatlara məhəl qoymur və ya rədd edir. Bu koqnitiv qərəz, fərdlərin məlumatı necə şərh etməsinə və yadda saxlamasına

təsir edir, əvvəlcədən düşünülmüş təsəvvürləri gücləndirən qavrayış filetri yaradır.

Gender stereotipləri çoxluğunda təsdiqləmə qərəzliyi, müxtəlif səviyyələrdə fəaliyyət göstərir. Fərdlər ənənəvi gender rollarına uyğun gələn, cəmiyyətin gözləntilərini gücləndirən məlumatlara seçici şəkildə baxa bilərlər. Məsələn, təsdiqedici qərəz, fərdləri kişilərin və ya qadınların stereotipik davranışlara uyğun gəldiyi halları fərq etməsinə və yadda saxlamasına səbəb ola bilər, eyni zamanda bu normalara etiraz edən halları nəzərdən qaçıra bilər [8, s. 429].

Təsdiq qərəzliliyi, mediada cinsiyyət amillərinin təsviri kontekstində xüsusilə təsirlidir. Ənənəvi gender rollarına uyğun gələn media məzmununa məruz qalan şəxslər bu cür təmsilləri daha çox yayılmış və reallığı təmsil edən kimi qəbul edə bilərlər. Bu qərəzli şərh, mövcud stereotipləri gücləndirir. Təsdiq qərəzliliyi, həm də fərdlərin davranışları və ifadələri, cinslə bağlı əvvəlcədən mövcud olan inanclarına uyğun şəkildə şərh edə bildiyi şəxslərarası qarşılıqlı əlaqədə özünü göstərir. Gender normalarına uyğunluğa əsaslanan tərif və ya tənqid, sosial dairələrdə ənənəvi gözləntiləri daha da gücləndirməklə, seçici şəkildə işlənə bilər.

Təhsil və peşəkar şəraitdə təsdiqləmə qərəzliyi, cinsə əsaslanan səriştə və fəaliyyətin qiymətləndirilməsinə təsir göstərir. Qiymətləndiricilər şüursuz şəkildə gender stereotiplərinə uyğun gələn, işə qəbul, yüksəliş və imkanlarla bağlı qərar qəbul etmə proseslərinə təsir edən məlumatlara üstünlük verir. Bu qərəzli qiymətləndirmə, sistemli bərabərsizlikləri davam etdirir və gender əsaslı gözləntiləri gücləndirir.

Təsdiq qərəzi, fərdlərin özünü qavrayışına və şəxsiyyətinin inkişafına təsir göstərir. Ənənəvi gender rollarına uyğun gələnlər, onların sosial gözləntilərə uyğunluğunu gücləndirən məlumatlara seçici şəkildə baxırlar. Əksinə, gender normalarına meydan oxuyan fərdlər, müqavimətlə və ya təcrübələrinin rədd edilməsi ilə qarşılaşırlar ki, bu da təsdiqləmə qərəzinin güclənməsinə şərait yaradır [9, s. 888].

Təsdiq qərəzi, fərdlərin ənənəvi inancları necə qavramasına, şərh etməsinə və möhkəmləndirməsinə təsir edən gender stereotiplərinin güclü davamlılığı mexanizmidir. Genderə münasibətin formalaşmasında təsdiq qərəzinin rolunu dərk etmək, cəmiyyətin gözləntilərinə meydan oxuyan və onları yenidən formalaşdıran strategiyaların hazırlanması üçün vacibdir. Məlumatlılığı inkişaf etdirməklə və informasiya ilə tənqidi əlaqəni təşviq etməklə, biz təsdiqləmə qərəzliyi dövranını qırmaq, daha ədalətli cəmiyyət qurmaq istiqamətində işləyə bilərik.

**2. Selektiv diqqət**

Selektiv diqqət, fərdlərin diqqətini cəmiyyətin gözləntilərinə uyğun gələn məlumatlara yönəltməklə gender stereotiplərinin davam etdirilməsində mühüm rol oynayır. Media təmsilləri, reklamlar və gündəlik qarşılıqlı əlaqələr çox vaxt stereotipik gender rollarını vurğulayır və gücləndirir. Selektiv diqqət fərdləri bu təsvirləri mənimsəməyə vadar edir, kişilik və qadınlıq haqqında ənənəvi inancların davam etdirilməsinə şərait yaradır [7, s. 699].

Selektiv diqqət, fərdlərin məlumatın müəyyən aspektləri üzərində cəmləşdiyi, digərlərinə məhəl qoymayan koqnitiv prosesə aiddir. Bu, selektiv diqqət, şəxsi inanclar, mədəni təsirlər və fərdi təcrübələr də daxil olmaqla müxtəlif amillərdən təsirlənir. Gender stereotipləri kontekstində selektiv diqqət, fərdlərin gender rolları ilə bağlı məlumatları necə qavradığını və şərh etdiyini formalaşdırmaqda mühüm rol oynayır.

Selektiv diqqət, fərdlərin diqqətini ənənəvi gender normalarına uyğun gələn məlumatlara yönəltməklə gender stereotiplərində fəaliyyət göstərir. Media təmsilləri, şəxsiyyətlərarası qarşılıqlı əlaqə və ictimai işarələr çox vaxt stereotipik gender rollarını gücləndirir, fərdlərin diqqətini cəlb edir və ictimai gözləntilərin davamlı olmasına şərait yaradır.

Selektiv diqqət, fərdlərin ənənəvi gender gözləntilərini gücləndirən məlumatları seçici şə-

kildə emal edə bildiyi şəxslərlərarası qarşılıqlı əlaqədə özünü göstərir. Gender normalarına uyğunluğa əsaslanan tərif və ya tənqid, fərdlərin qavrayışında prioritet ola bilər, sosial dairələrdə ictimai gözləntilərin davam etdirilməsinə töhfə verə bilər [1, s. 34].

Selektiv diqqət, gender stereotiplərinin başqa bir davamlılıq mexanizmi olan təsdiqləmə qərəzliyi ilə sıx bağlıdır. Təsdiq qərəzi nümayiş etdirən fərdlər, selektiv diqqətin təsdiqləmə meylini gücləndirdiyi gücləndirici dövr yaradaraq, gender haqqında əvvəlcədən mövcud olan inancları təsdiqləyən məlumatlara seçici şəkildə baxa bilər və əksinə.

Selektiv diqqətin gender stereotiplərinə təsirini yumşaltmaq, müxtəlif səviyyələrdə qəsdən səylər tələb edir. Media savadlılığı, proqramları fərdlərə stereotipik təsvirləri tənqidi təhlil etmək və sorğulamaq imkanı verir. Şəxslərarası qarşılıqlı əlaqədə və institusional təcrübələrdə müxtəlif perspektivləri təşviq etmək, selektiv diqqət qərəzlərinin qarşısını almağa kömək edir, daha ədalətli mühiti təşviq edir.

Selektiv diqqət, fərdlərin gender rolları ilə bağlı məlumatları necə emal etməsinə və şərh etməsinə təsir edən gender stereotiplərinin əhəmiyyətli davamlılığı mexanizmidir. Genderə münasibətin formalaşmasında selektiv diqqətin rolunu dərk etmək, cəmiyyətin gözləntilərinə meydan oxuyan və yenidən formalaşdıran strategiyaların hazırlanması üçün çox vacibdir. Məlumatlılığı gücləndirməklə və informasiya ilə tənqidi əlaqəni təşviq etməklə, biz seçici diqqət dövrəsini qırmaq və daha ədalətli cəmiyyət qurmaq istiqamətində işləyə bilərik.

**3. Sosial öyrənmə**

Sosial öyrənmə nəzəriyyəsi, fərdlərin başqalarını müşahidə və təqlid etməklə davranış, münasibət və dəyərlər əldə etdiyini irəli sürür. Gender stereotipləri kontekstində sosial öyrənmə mexanizmləri sosial gözləntilərin ötürülməsinə kömək edir. Uşaqlar ailə üzvlərinin, həmyaşıdlarının və media xadimlərinin davranışlarını müşahidə edərək, ənənəvi normaları nəsillər boyu davam etdirərək gender rollarını öyrənirlər.

Albert Bandura tərəfindən hazırlanmış sosial öyrənmə nəzəriyyəsi davranışın formalaşmasında müşahidə yolu ilə öyrənmənin vacibliyini vurğulayır. Bu nəzəriyyəyə görə, fərdlər başqalarının hərəkətlərini və nəticələrini müşahidə edərək öyrənirlər və bu öyrənilən davranışlar təqlid və təkrarla gücləndirilir. Gender stereotipləri kontekstində sosial öyrənmə, gender rolları ilə bağlı ictimai gözləntilərin ötürülməsinə kömək edir [3, s. 1000].

Ailə vahidi sosial öyrənmə üçün əsas kontekst rolunu oynayır, fərdlərin erkən yaşlarından gender rollarını dərk etmələrinə təsir göstərir. Uşaqlar valideynlər, bacı-qardaşlar və baxıcılar tərəfindən modelləşdirilmiş davranışları müşahidə edir və mənimsəyir, kişilik və qadınlıq ilə bağlı ictimai gözləntiləri mənimsəyir. Ailə dinamikası fərdlərin gender rolları haqqında ilkin anlayışının formalaşmasında həlledici rol oynayır, stereotiplərin davamlı olmasına kömək edir.

Fərdlər uşaqlıq və yeniyetməlik dövründə irəlilədikcə həmyaşıd qrupları sosiallaşmanın təsirli agentlərinə çevrilirlər. Həmyaşıdlarla münasibətlərdə sosial öyrənmə gender normalarını gücləndirir, fərdlər cəmiyyətin gözləntilərinə uyğun davranışları müşahidə edir və təqlid edir. Həmyaşıdların təsiri gender stereotiplərinin davam etdirilməsinə kömək edir, fərdlərin münasibət və davranışlarını mövcud normalara uyğun formalaşdırır.

Media güclü təsir mənbəyi kimi sosial öyrənmə üçün mühüm platforma rolunu oynayır. Məşhurlar və media xadimləri tez-tez nümunə kimi xidmət edir və onların davranışları, həyat tərzləri sosial öyrənmə üçün şablon olur. Media təmsilçiləri ənənəvi gender rollarını gücləndirir, müşahidə yolu ilə öyrənmə yolu ilə ictimai gözləntilərin daxililəşdirilməsinə şərait yaradır.

Təhsil mühitləri, sosial öyrənmə üçün əlavə imkanlar təmin edir. Müəllimlər və tədris materialları öz davranışları, rəftarları və sinif dinamikası vasitəsilə istəmədən gender stereotiplərini davam etdirə bilərlər. Pedaqoqların və institusional təcrübələrin təsiri tələbələrin gender rollarını dərk etmələrinə təsir edərək sosiallaşma prosesinə təsir edir.

Sosial öyrənmə, təşkilati mədəniyyətlərin və peşəkar qarşılıqlı əlaqələrin gender normalarını gücləndirdiyi iş yerinə yayılır. Ənənəvi gender rollarına riayət edən rol modelləri və rəhbərləri müşahidə etmək, fərdlərin müvafiq iş yeri davranışı haqqında qavrayışlarını formalaşdıra, peşəkar şəraitdə gender stereotiplərinin davam etdirilməsinə töhfə verir [5, s. 5].

Sosial öyrənmə mexanizmlərini hədəf alan müdaxilə strategiyalarının həyata keçirilməsi, gender stereotiplərinin yenidən formalaşdırılması üçün çox vacibdir. Təhsil proqramları, iş yerindəki təşəbbüslər və media savadlılığı kampaniyaları, sosial öyrənmə yolu ilə davam etdirilən ənənəvi gender normalarına meydan oxuyaraq, alternativ hekayələri təşviq edə və fərdlərə müxtəlif rol modelləri təqdim edə bilər.

Sosial öyrənmə müşahidə və təqlid yolu ilə fərdlərin gender rollarını dərk etməsinə təsir göstərən gender stereotiplərinin əhəmiyyətli davamlılığı mexanizmidir. Sosial öyrənmənin təsirini dərk etmək, sosial gözləntilərə meydan oxuyan və yenidən formalaşdıran məqsədyönlü müdaxilələrin hazırlanması üçün vacibdir. Maarifləndirməni gücləndirməklə, tənqidi əlaqəni təşviq etməklə və alternativ modellər təqdim etməklə, cəmiyyət sosial öyrənmə dövrəsini qıra bilər.

**4. Stereotip təhlükəsi**

Stereotip təhlükəsi, insanların sosial qrupları ilə əlaqəli mənfi stereotipləri təsdiq edə biləcəyi vəziyyətlərlə qarşılaşdıqda, hiss etdikləri narahatlığa aiddir. Gender kontekstində fərdlər gender əsaslı stereotiplərə uyğunlaşmaq, onların davranışlarına, fəaliyyətlərinə və qərar qəbul etmələrinə təsir etməklə bağlı narahatlıq və ya qorxu yaşaya bilər.

Stereotip təhlükəsinin fəaliyyət göstərdiyi görkəmli sahə akademik mühitdir. Məsələn, qadınlar riyazi qabiliyyətləri haqqında stereotipləri təsdiqləməkdən qorxa bilərlər ki, bu da riyaziyyatla əlaqəli tapşırıqlarda irəliləyişin azalmasına səbəb olur. Gender stereotiplərinin obyektivindən mühakimə olunma gözləntiləri, psixoloji təzyiq yaradaraq, fərdlərin öz potensiallarını tam şəkildə yerinə yetirməsinə mane olur [7, s. 700].

Stereotip təhlükəsi karyera seçimlərinə və trayektoriyalara təsir edərək peşəkar mühitlərə yayılır. Qadınlar, gender əsaslı stereotipləri təsdiqləmək qorxusu səbəbindən kişilərin üstünlük təşkil etdiyi sahələrdə narahatlıq keçirirlər. Bu təhlükə karyera yolları, yüksəlişlər və liderlik rolları ilə bağlı qərarlara təsir göstərərək, iş yerində ənənəvi gender normalarının davam etdirilməsinə şərait yaradır.

Kəsişmə, mürəkkəb stereotip təhlükəsi konsepsiyasını təqdim edir, burada çoxsaylı təcrid olunmuş identiklikləri idarə edən fərdlər mürəkkəb problemlərlə üzləşirlər. Məsələn, rəngli qadınlar həm cinsi, həm də irqi ilə bağlı stereotip təhlükəsi ilə üzləşə bilər ki, bu da təzyiqin artmasına və onların fəaliyyətinə potensial mənfi təsirlərə səbəb olur [6, s. 424].

Stereotip təhlükəsi fərdlərin psixi sağlamlığına zərərli təsir göstərə bilər. Stereotipləri təsdiqləmək qorxusu ilə əlaqəli stress və narahatlıq, təzyiqin artmasına və rifahın azalmasına şərait yaradır. Stereotip təhlükəsinin psixoloji təsirini başa düşmək, onun fərdlərə geniş təsirini aradan qaldırmaq üçün çox vacibdir.

Stereotip təhlükəsi, fərdlərin davranışlarına və seçimlərinə təsir edən gender stereotiplərinin güclü davam etdirilməsi mexanizmidir. Stereotip təhlükəsinin geniş təsirini tanımaq, cəmiyyət gözləntilərinə meydan oxuyan və yenidən formalaşdıran müdaxilələrin inkişafı üçün

həyati əhəmiyyət kəsb edir. Maarifləndirməni gücləndirməklə, institusional dəyişiklikləri həyata keçirməklə və fərdlərə stereotip təhlükəsinə qarşı müqavimət göstərmək səlahiyyətini verməklə, cəmiyyət gender stereotiplərinin dövrəsinin qırılmasına nail ola bilər.

**5. Şəxslərarası gücləndirmə**

Ailələr, həmyaşıd qrupları və icmalar daxilində şəxsiyyətlərarası qarşılıqlı əlaqələr gender stereotiplərinin davamlı olmasına kömək edir. Ənənəvi gender rollarının tərif, tənqid və ya incə işarələrlə gücləndirilməsi, fərdlərin ictimai gözləntilərə uyğunlaşmasına təsir göstərir. Gender stereotiplərinin ötürülməsində və mənimsənilməsində, şəxsiyyətlərarası münasibətlər həlledici rol oynayır [8, s. 429].

Ailə, erkən sosiallaşma üçün, əsas kontekst rolunu oynayır və ailə münasibətlərində şəxsiyyətlərarası möhkəmlənmə, fərdlərin gender normalarını mənimsəməsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Valideynlər, qayğı göstərənlər və bacı-qardaşlar çox vaxt istəmədən davranışlar, gözləntilər və rəylər vasitəsilə ənənəvi gender rollarını gücləndirir, uşaqların uyğun cinsi davranış haqqında anlayışını formalaşdırırlar.

Fərdlər, uşaqlıq və yeniyetməlik dövründə irəlilədikcə həmyaşıd qrupları sosiallaşmanın təsirli agentlərinə çevrilirlər. Həmyaşıdlarla münasibətlərdə şəxsiyyətlərarası möhkəmlənmə, gender normalarına sosial uyğunluğu təşviq edir. Ənənəvi rollara sadiqliyə əsaslanan tərif və ya tənqid, fərdlərin davranışlarına təsir göstərərək, sosial dairələrdə gender stereotiplərinin davam etdirilməsinə səbəb olur [10, s. 211].

Kişi və qadınların xarakterində ifadə olunan stereotiplər, onların düşüncə tərzlərini və davranışlarını müəyyənləşdirir. Araşdırmalar göstərir ki, onların çoxu tarixən davam edən sosial-mədəni amillərdən irəli gəlir. Bu stereotiplər, kişi və qadını əksər parametrlərdə fərqli rakurslardan təmsil olunmalarına şərait yaradır (cədvəl 1).

Kişi və qadınların xarakterində ifadə olunan stereotiplər

**Cədvəl 1**

| Xarakter | Kişi | Qadın |
|---|---|---|
| Digərlərinə münasibət | Birbaşa | Çevik |
| Tərifə münasibət | Zəifləyir | Ehtiraslanır |
| Tənqidə münasibət | Aqressiv | Sakit |
| Qərarın əsası | Ağıl | Hissiyat |
| Xarakter | Qapalı | Açıq |
| Ətrafa münasibəti | Realistik, tənqidi | İdeal, duyğulu |
| Davranış | Təmkinli | Emosional |
| Təfəkkür tərzi | Sözlü-məntiqli | Vizual-hərəkətli |
| Diqqət obyekti | Məzmun | Forma |
| Müşahidə və dəqiqlik | Aşağı | Yüksək |
| Oriyentasiya | İşgüzar | Şəxsi |
| Maneləri dəfetmə üsulları | Zəka, güc | Hiylə, zirəklik |
| Problemlərə yönəlmə | Perspektiv | Cari |
| Emosional dəstəyə ehtiyac | Aşağı | Yüksək |

Təhsil mühitində şəxsiyyətlərarası möhkəmlənmə, gender stereotiplərinin davamlı olmasına şərait yaradır. Müəllimlər, sinif yoldaşları və təhsil materialları incə işarələr, gözləntilər və

qarşılıqlı əlaqələr vasitəsilə ənənəvi gender rollarını təsadüfən gücləndirir. Fərdlərin təhsil mühitində aldıqları rəy, onların özünü qavrayışını formalaşdıra və gələcək qərarlarına təsir edə bilər.

İş yeri şəxsiyyətlərarası möhkəmlənmənin baş verdiyi başqa mühüm kontekstdir. Həmkarlar, rəəhbərlər və təşkilat mədəniyyətləri qarşılıqlı əlaqələr, gözləntilər və qiymətləndirmələr vasitəsilə gender stereotiplərini davam etdirirlər. İş yerinin dinamikası, ənənəvi gender normalarının möhkəmlənməsinə töhfə verir, karyera seçimlərinə və irəliləyiş imkanlarına təsir edir.

Romantik münasibətlərdə şəxsiyyətlərarası möhkəmlənmə, gender stereotiplərinin davam etdirilməsində mühüm rol oynayır. Tərəfdaş gözləntiləri, ünsiyyət nümunələri və ortaq məsuliyyətlər, ənənəvi gender rollarının gücləndirilməsinə kömək edir. Romantik münasibətlərdəki dinamika, insanların davranışlarına və seçimlərinə təsir edərək, cəmiyyətin gözləntilərinin davamlı olmasına kömək edir.

Şəxslərarası möhkəmlənmə, daha geniş mədəni və icma təsirlərini əhatə edir. Sosial normalar, gözləntilər və ənənələr, mədəni qruplar daxilində qarşılıqlı əlaqələr vasitəsilə gender stereotiplərinin davam etdirilməsinə şərait yaradır. Mədəni kontekstlərdə ənənəvi rolların gücləndirilməsi, fərdlərin mənsubiyyət hisslərinə və ictimai gözləntilərə əməl etməsinə təsir göstərir.

Cüzi aqressiyalar, tez-tez incə və qərəzsiz ifadələr, gender stereotiplərinin şəxsiyyətlərarası möhkəmlənməsinə kömək edir. İncə işarələr, dil seçimləri və şifahi olmayan ünsiyyət, ənənəvi gender normalarını davam etdirir. Cüzi aqressiyaları tanımaq və onlara müraciət etmək, stereotipləri gücləndirən incə mexanizmləri ortadan qaldırmaq üçün çox vacibdir.

Şəxslərarası möhkəmlənmə, nəsillər boyu fəaliyyət göstərir və gender stereotiplərinin nəsillərarası ötürülməsinə kömək edir. Ailələr və icmalar daxilində ötürülən davranışlar, münasibətlər və gözləntilər ənənəvi gender rollarını davam etdirir, sonrakı nəsillərin dünyagörüşünü formalaşdırır.

Şəxslərarası möhkəmlənmə, gender stereotiplərinin əhəmiyyətli davamlılığı mexanizmidir, sosial qarşılıqlı əlaqə vasitəsilə fərdlərin inanc və davranışlarını formalaşdırır. Şəxslərarası dinamikanın təsirini dərk etmək, cəmiyyətin gözləntilərinə meydan oxuyan və onları yenidən formalaşdıran strategiyaların hazırlanması üçün vacibdir. Maarifləndirməni təşviq etməklə və müxtəlif səviyyələrdə müdaxilələri həyata keçirməklə, cəmiyyət şəxsiyyətlərarası möhkəmlənmə dövrəsinin zəifləməsinə səbəb ola bilər.

Yekun olaraq deyə bilərik ki, gender stereotipləri, fərdlərin psixoloji rifahına və davranışına dərin təsir göstərir. Stereotipin daxililəşdirilməsi, özünü məhdudlaşdıran inanclara və özünə hörmətin azalmasına səbəb ola bilər. Çünki fərdlər cəmiyyətin gözləntilərinə uyğun gəlmək üçün, təzyiq hiss edirlər. Təzyiq, karyera seçimlərini əhatə edir, qadınlar və kişilər tez-tez özlərini ənənəvi olaraq cinsiyyətləri ilə əlaqəli sahələrə yönəldirlər. Bu stereotiplər həm də gender əsaslı zorakılıq və ayrı-seçkiliyin davamlı olmasına şərait yaradır.

Gender stereotipləri, gender identikliyinin və mənlik konsepsiyasının inkişafına kömək edir. Fərdlər cəmiyyətin gözləntilərini mənimsəyərək, onların cinsinə uyğun nəyin məqbul və ya uyğun olduğuna dair inanclar formalaşdırırlar. Psixoloji təsir, gender rollarının gücləndirilməsini, potensial olaraq özünüifadəni məhdudlaşdırmağı və cəmiyyət normalarına uyğunluğu təşviq edir.

Gender stereotipləri çox vaxt qeyri-real gözəllik standartlarını və gözləntilərini davam etdirir, fərdlərin heysiyyətinə və bədən imicinə təsir göstərir. Stereotip, cazibədarlıq ideallarına

uyğun gəlmək üçün, bədən dismorfiyası və özünə hörmətsizlik kimi psixi sağlamlıq problemlərinə səbəb olur.

Gender stereotipləri ilə formalaşan ictimai gözləntilər fərdlərin karyera seçimlərinə və istəklərinə təsir göstərir. Müəyyən peşələri xüsusi cinslərlə əlaqələndirən stereotiplər, imkanları məhdudlaşdıra və fərdləri ənənəvi normalardan kənar karyera qurmaqdan çəkindirə bilər. Bu, peşəkar icraya mane ola bilər və gender əsaslı peşə seqreqasiyasını davam etdirir.

Təhsil mühitində gender stereotipləri stereotip təhlükəsi kimi tanınan fenomen vasitəsilə akademik fəaliyyətə təsir göstərir. Öz cinsinə dair mənfi stereotipləri təsdiqləmək qorxusu, fərdlərin etimadını sarsıda və onların akademik nailiyyətlərinə mane olur.

Gender stereotipləri, münasibətlərdə gözləntiləri formalaşdıraraq, şəxsiyyətlərarası dinamikaya təsir göstərir. Müəyyən edilmiş gender rolları ünsiyyət üslublarına, güc dinamikasına və tərəfdaşlıqlar daxilində əmək bölgüsünə təsir göstərir. Ənənəvi rollara uyğunlaşma, qeyri-bərabər münasibətlər dinamikası ilə nəticələnə bilər, fərdlərin ümumi məmnunluğuna və rifahına təsir edir.

Gender stereotiplərinin psixi sağlamlığa təsiri əhəmiyyətlidir. Cəmiyyətin gözləntilərinə uyğun gəlmək üçün, təzyiq hiss edən fərdlər, artan stress, narahatlıq və depressiya ilə üzləşirlər. Şəxsi identiklik və ictimai normalar arasındakı daxili ziddiyyət, psixi sağlamlıq problemlərinin yaranmasına kömək edir.

Gender stereotipləri identikliyin inkişafı prosesinə təsir göstərir, fərdlərin özləri və cəmiyyətdəki yeri haqqında anlayışlarını formalaşdırır. Gender normalarına uyğun gəlmək və ya onlara qarşı çıxmaq identikliyin formalaşmasında həlledici rol oynayır. Qeyri-uyğun gender identiklikləri ilə hərəkət edən fərdlər, cəmiyyətin gözləntiləri ilə bağlı unikal problemlərlə üzləşirlər.

Gender stereotiplərinin fərdlərə təsiri mürəkkəb və çoxşaxəlidir, psixoloji rifaha, özünə hörmətə, şəxsiyyətlərarası dinamikaya və cəmiyyətdə iştiraka təsir göstərir. Bu stereotipləri tanımaq və onlara qarşı çıxmaq vacibdir. Maarifləndirməni gücləndirməklə, tənqidi düşüncəni təşviq etməklə və ənənəvi normalara meydan oxuyan müdaxilələri həyata keçirməklə, biz gender stereotiplərinin qoyduğu maneələri aradan qaldırmaq və bütün fərdlər üçün daha dəstəkləyici və təsdiqedici mühit yaratmaq istiqamətində işləyə bilərik.

**Problemin aktuallığı.** Gender stereotiplərinin davamlılığı fərdlər, icmalar və bütövlükdə cəmiyyət üçün geniş təsirləri olan aktual problemdir. Bu problemin aktuallığını başa düşmək, gender stereotiplərinin dözümlülüyünə kömək edən mexanizmləri tanımağı tələb edir. Gender stereotiplərinin davamlılığının aradan qaldırılmasının aktuallığı, fərdlərin rifahına mənfi təsir göstərməkdə, imkanları məhdudlaşdırmaqda, bərabərsizlikləri gücləndirməkdə və zərərli qərəzləri davam etdirməkdədir. Bu problemlərin aradan qaldırılması maarifləndirməni təşviq etmək, stereotiplərə meydan oxumaq və gender bərabərliyini və müxtəlifliyi dəstəkləyən mühit yaratmaq üçün təhsil, media, iş yerləri və icmalar daxil olmaqla müxtəlif sektorlar üzrə əlaqələndirilmiş səyləri tələb edir. Bu mexanizmləri ləğv etmək səyləri, cinsdən asılı olmayaraq, fərdlərin inkişaf edə biləcəyi daha inklüziv və ədalətli cəmiyyətin inkişaf etdirilməsi üçün çox vacibdir.

**Problemin elmi yeniliyi.** Gender stereotiplərinin davamlılığı uzun müddətdir davam edən bir problem olsa da, davam edən tədqiqatlar və inkişaf edən sosial dinamika bu stereotiplərin davamlılığına töhfə verən yeni ölçüləri və mexanizmləri ortaya qoyur. Bu mexanizmlərin yeniliyini dərk etmək, gender stereotiplərinin davamlılığını aradan qaldırmaq üçün davamlı təd-

qiqatların, təhsilin və təbliğatın zəruriliyini vurğulayır. Cəmiyyət dinamikası inkişaf etdikcə, bütün gender kimliklərindən olan fərdlər üçün daha inklüziv və ədalətli gələcəyə kömək edərək, bu stereotiplərə meydan oxuyan və onları dəyişdirən strategiyaları uyğunlaşdırmaq vacibdir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Gender stereotiplərinin davamlılığı fərdlərə, icmalara və bütövlükdə cəmiyyətə geniş təsirinə görə əhəmiyyətli praktik əhəmiyyətə malikdir. Bu stereotiplərin dözümlülüyünə töhfə verən mexanizmlərin tanınması və onlara müraciət edilməsi daha əhatəli və ədalətli cəmiyyətin inkişafı üçün çox vacibdir. Gender stereotiplərinin davamlılığının aradan qaldırılmasının praktiki əhəmiyyətinin dərk edilməsi təhsil, media, iş yeri, səhiyyə və siyasətin formalaşması daxil olmaqla, sektorlar arasında birgə səylərin zəruriliyini vurğulayır. Maarifləndirmənin yaradılması, inklüziv siyasətin həyata keçirilməsi və müxtəlifliyə dəyər verən mədəniyyətin təşviqi, zərərli stereotiplərin aradan qaldırılması və daha ədalətli cəmiyyətin təşviqi istiqamətində əsas addımlardır.

## Ədəbiyyat

1. Basow, S. A. Gender stereotypes and roles (3rd ed.). California: Brooks/ Cole Publishing Company Pacific Grove 1992.

2. Broverman, I. K., Vogel, S. R., Broverman, D. M., Clarkson, F. E., & Rosenkrantz, P. S. Sex-role stereotypes: A current appraisal. Journal of Social Issues 1972, 28, pp. 59-78.

3. Deaux, K., Lewis, L. L. Structure of gender stereotypes: Interrelationships among components and gender label. Journal of Personality and Social Psychology 1984, 5, pp. 991-1004.

4. Edwards, V. J., Spence, J. T. Gender-related traits, stereotypes and schemata. Journal of Personality and Social Psychology 1987, 53, pp. 146-154.

5. Hamilton, D. L. A cognitive-attributional analysis of stereotyping. In L. Berkowitz (Ed.), Advances in experimental social psychology, VoL 12. New York: Academic Press 1979.

6. Spencer, S. J., C. Logel, P. G. Davies. Stereotype threat. Annual Review of psychology 2016, 67: pp. 415–437. doi:10.1146/annurev-psych-073115-103235.

7. Stangor, C. Stereotype accessibility and information processing. Personality and Social Psychology Bulletin 1988, 14, pp. 694-708.

8. Taylor, S. E., Falcone, H. Cognitive bases of stereotyping: The relationship between categorization and prejudice. Personality and Social Psychology Bulletin 1982, 8, pp. 426-432.

9. Yazıcı, F., Budak, F. Eğitim fakültesi öğrencilerinin kimlik farklılıklarına karşı tutumlarının farklı değişkenler açısından incelenmesi. International Online Journal of Educational Sciences 2017, 9 (3), s. 879-896. doi:10.15345/iojes.2017.03.020.

10. Witt, S. Parental influence on children’s socialization to gender roles, Adolescence 2018, (32), pp. 125-253, URL: http://gozips.uakron. edu/~susan8/parinf.htm

**С.Н. Алиева**

**Механизмы, обеспечивающие сохранение гендерных стереотипов**

**Резюме**

Сохранение гендерных стереотипов поддерживается сложным взаимодействием культурных традиций, социальных условий, когнитивных предубеждений, влияния средств массовой информации и институциональных структур. Культурные традиции закладывают основу, передавая социальные нормы из поколения в поколение, формируя ожидания относительно гендерных ролей. Социальная обусловленность усиливает эти нормы, поскольку люди усваивают социальные ожидания с раннего возраста. Когнитивные искажения способствуют стереотипному мышлению, закрепляя традиционные гендерные нормы.

**S.N. Alıyeva**

**Mechanisms ensuring persistence of gender stereotypes**

**Summary**

The persistence of gender stereotypes is sustained by a complex interplay of cultural traditions, social conditioning, cognitive biases, media influences, and institutional structures. Cultural traditions lay the foundation by transmitting societal norms across generations, shaping expectations around gender roles. Social conditioning reinforces these norms as individuals internalize societal expectations from an early age. Cognitive biases contribute to stereotypical thinking, solidifying traditional gender norms.

**Redaksiyaya daxil olub: 10.02.2024**

*UOT 159.9*

# GENDER ASİMMETRİYASININ SOSİAL-PSİXOLOJİ KONSEPSİYALARI

**Aydan Güləddin qızı İbrahimova**
*Bakı Dövlət Universitetinin Sosial və pedaqoji psixologiya kafedrasının müəllimi*
**ORCİD:** 0009-0001-9236-3970
**E-mail:** aydan.dadasova93@mail.ru

***Açar sözlər:*** *gender asimmetriyası, gender rolları, gender identikliyi, gender stereotipləri, maskulinlik, feminlik.*

***Ключевые слова:*** *гендерная асимметрия, гендерные роли, гендерная идентичность, гендерные стереотипы, мужественность, женственность.*

***Key words:*** *gender asymmetry, gender roles, gender identity, gender stereotypes, masculinity, femininity.*

Gender asimmetriyası cəmiyyətin müxtəlif istiqamətlərində sosial qurumlarında, mədəniyyətində, davranış normalarında özünü büruzə verir. Keçmiş tədqiqatlarda bunların əksəriyyətini bioloji və biopsixoloji səbəblərlə əlaqələndirirdilər. Son 50 ilin araşdırmaları sübut etdi ki, gender asimmetriyasının əsas səbəbi sosio-mədəni amillərlə əlaqələndirilə bilər. Bu əsasla deyə bilərik ki, gender asimmetriyasının sosial-psixoloji baxımdan tədqiqi xüsusi aktuallıq kəsb edir.

XX əsrin 60-70-ci illərdən başlayaraq bir çox sahələrdə müşahidə olunan (dəyər, mədəniyyət, elm, təhsil, dil, adət-ənənə, siyasi idarəetmə və s.) gender asimmetriyasının əsas səbəblərinin patriarxal sosial-mədəni konstruksiyalarda axtarışı aktuallıq kəsb etməyə başladı. Gender asimmetriyasının sosiallaşma modelləri (İ.Çayld, Q.Berri, M.Bekon), mədəni sistemlər (R.Terner), genderin mədəni metafora konsepsiyaları (cinslərin fərqləri və sosial xüsusiyyətlərinin tarixi-mədəni, etnomədəni, gender rolları, mədəni stereotip və rəmzlərlə işahı), dəyərlər sistemi (U.Qud), cəmiyyətin elmi-texniki inkişafı (M.Counq, P.Uilmot) ilə bağlı olması ilə tədqiqat istiqamətləri yarandı [8, 123-125].

Gender tədqiqatları gender asimmetriyasının ortadan qaldırılması və gender bərabərliyinin təmin olunması istiqamətində fərqli anti-patriarxal modellərin meydana çıxmasına səbəb oldu:

Liotar, Derrida, Fuko, radikal feminizm nəzəriyyələri (Yuliy Kristeva, Monika Vittiq, Alisa Jardin, Elen Siksu, Lüsi İriqarey, Toril Moy, Kristina Delfi, Rozi Braydotti, Cudit Batler, Monika Plaza və s.), poststrukturalizm, lakin psixoanalizi, neomarksizm ilə zənginləşən yeni postmodernist mərhələdə gender bioloji deyil, sosial kateqoriya kimi səciyyələndirildi. Bu tədqiqatlar, kişi və qadınlar arasında sosial, mədəni və psixoloji fərqlilikləri ortaya qoydu və seksizm (qadının bioloji diskriminasıyası), maskulinlik (kişi dominantlığının məqbul hesab edilməsi), androsentrizm (kişi və insan anlayışlarının eyniləşdirilməsi) kimi yeni elmi anlayışların meydana çıxmasına və dil, hakimiyyət, "qadın" anlayışının elmi diskursa daxil olmasına səbəb oldu [14, 55].

Sosial-psixoloji araşdırmalara görə, maskulinlik və feminlik bioloji və ya psixofizioloji əsasda deyil, mədəni-etnik və sosial-psixoloji istiqamətlərdə formalaşır, sosial identikliyin nəticəsi kimi meydana çıxır, dəyəryönləri, psixoloji münasibətlər, cinsi rollara münasibət,

ünsiyyət və qarşılıqlı əlaqə formaları şəklində mövcud olur.

Cinsi rol konsepsiyasının müəllifləri T. Parsons və R. Beylz hesab edirlər ki, bioloji səbəblərdən qadınlar cəmiyyətdə ekspressiv, kişilər isə instrumental rol oynayırlar. Bunlar sosial stereotiplərdə, mədəni normalarda əks olunaraq sosial sistemin tərkib hissəsini təşkil edirlər. ABŞ psixo-endokrinoloqları C. Mani və A. Erhart "fərdin psixoloji cinsi" konsepsiyasını ortaya qoyurlar. Onlara görə, bioloji (endokrinoloji) struktura əsaslanan fərdin psixoloji cinsi, kişi və qadınların psixoloji xüsusiyyətlərinin bir-birindən fərqlənməsinin əsasında dayanır və bu konstruksiya gender identkliyinin formalaşmasına mühüm təsir göstərir [4, 33]. Lakin, bu yanaşmanın özündə müəyyən problemlər vardır. Çünki bioloji (endokrinoloji) struktur fərdin psixoloji cinsini müəyyənləşdirirsə, o zaman, orqanizmində bioloji və psixoloji amillərin toqquşduğu transseksual fərdlərin mövcudluğunu necə izah etmək olar.

Qadınlar tarixən konservativ, kişilər proqressiv xüsusiyyətləri ilə səciyyələndirilir. Bu xüsusiyyətlərin daha çox nəslin qorunması instinktinin qadınlarda daha güclü olması ilə də əlaqələndirilə bilər. Bunun bioloji əsasları da vardır. Qadınlar filogenetik baxımdan sabit, ontogenetik baxımdan qeyri sabitdirlər. Kişilərdə isə, bu əksinədir. Buna görə də, kişilər hər bir zərbə riskini üzərinə götürən proqressiv ünsür kimi öndə gedir və yeni nəslin varlığını təmin etmək üçün yeni rahat məkan axtarışına çıxır və ya onu qoruyur. Lakin, kişilər daxilən qeyri-sabit və dəyişkən olduqları üçün, təkamül prosesində filogenetik baxımdan sabit olan qadınlara ehtiyac duyurlar. Ailə institunun təkamül prosesində mövcud olmasının əsas zərurətlərindən biri də bu hesab oluna bilər.

Post-modernist yanaşmada, maskulinlik və feminlik dondurulmuş davranış normaları və ya hər hansı bir prosesin nəticəsi kimi deyil, dixotomik gender qiymətləndirilməsinə məruz qalan şəxsiyyətlərarası qarşılıqlı əlaqələrdə fenomenlərin daim meydana gəlməsi və inkişafı prosesi kimi başa düşülür. Dinamik xarakterli bütün sosial təcrübələr və ideoloji konstruksiyalar sabit gender strukturuna əsaslanır və onun təməli üzərində fərqli formalar alır. Fərdlərin şüuru sosiomədəni dəyərlər vasitəsilə bu gender strukturunun təsiri ilə formalaşdığı üçün, onların ətraf aləmi dəyərləndirmə meyarları da bu prinsipə əsaslanır.

Araşdırmalar göstərir ki, eyni beyin fərdi inkişaf prosesində bir sıra şərtlərdən asılı olaraq, kişi və ya qadın xüsusiyyətlərinin proqramlaşdırılması imkanlarına sahibdir. Buna görə də, neyrofizioloqlar fərdi davranışın geniş dəyişkənliyini və müxtəlifliyini təmin edən tək sinir sistemi çərçivəsində fəaliyyət göstərən "cinsi mərkəzlər" anlayışının şərti olduğunu vurğulayırlar. Bu baxımdan, feminlik və maskulinlik xüsusiyyətləri cinsindən asılı olmayaraq, hər bir fərddə özünü fərqli şəkildə özünü büruzə verə bilər.

**Problemin aktuallığı.** Gender asimmetriyasının formalaşması və inkişafında sosiomədəni sistemin rolu, biofizioloji amillərin təsirindən dəfələrlə güclüdür. Bu öz təsdiqini müasir gender tədqiqatları çərçivəsində tapır. Cinslərə öncədən təyin edilən sosial rol və münasibətlər sistemi, onların sosial-mədəni şüurunu və emosional şüuraltı aləmini formalaşdırır.

**Problemin elmi yeniliyi.** Cəmiyyətdə gender asimmetriyasının mahiyyətini dərindən dərk etmək üçün, maskulinlik və feminliyi müəyyənləşdirən gender konstruksiyasının mahiyyətini elmi-nəzəri baxımdan dərk etmək lazımdır. Onun dərk edilməsində müasir sosial-psixologiya metodları mühüm rol oynayır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Gender məsələlərinin geniş şəkildə araşdırılması və təhlili günümüzdə xüsusi aktuallıq kəsb edir. Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

**Ədəbiyyat**

1. Goffman E. The arrangement between the sexes // Theory and Society. № 4. – 1977. s. 301–331.

2. Kohlberg L.A. A cognitive developmental analysis of children's sex-role concepts and attitudes. In: Maccoby E. E., ed. The Development of Sex Differences. Stanford, 1966, s.82-173.

3. Mirzəzadə R. Gender: cəmiyyət, insan hüququ, siyasət. Bakı 2003 "Adiloğlu" 420 s.

4. Mussen P. H. Long-term consequents of masculinity of interests in adolescence. Journal of Consulting Psychology 1962, vol. 26, s. 435-440.

5. Toplumsal Cinsiyet Sosyolojisi. Anadolu Universitesi. Eskişehir 2011. 207 s.

6. Абубикирова Н. И. Что такое гендер? // Общественные науки и современность. - 1996. № 6, s. 22-32.

7. Андреева Г.М. Психология социального познания: учеб. пособие. 3-е изд., испр. М.: Аспект Пресс, 2005. – 303 s.

8. Антология гендерной теории. Сб. пер. /Сост. И комментарии Е.И. Гаповой и А.Р. Усмановой. Минск, "Пропилеи" 2000 - 384 s.

9. Бем С. Линзы гендера: Трансформация взглядов на проблему неравенства полов /Пер. с англ./. М.: Российская политическая энциклопедия, 2004. - 336 s.

10. Вейнингер О. Пол и характер. М.,1992 – 480 s.

11. Воронина О.Н. Социокультурные детерминанты развития гендерной теории в России и на Западе // ОНС 2000 - №4, s. 46-58.

**Ф.Г. Ибрагимова**

**Социально-психологические аспекты гендерной асимметрии: концепции**
**Резюме**

В рамках гендерной психологии изучаются гендерная идентичность, сравнительные характеристики мужчин и женщин (когнитивные, эмоциональные, поведенческие, мотивационные и т. Д.), определяющие социальное поведение людей. Поскольку гендерная идентичность возникает как синтез биологических и социокультурных факторов, изучение гендерных исследований в контексте социальной психологии дает более эффективные научные результаты.

**A.G. İbrahimova**

**Socio-psychological aspects of gender asymmetry: concepts**
**Summary**

In the framework of gender psychology, gender identity is studied, comparative characteristics of men and women (cognitive, emotional, behavioral, motivational, etc.) that determine the social behavior of people. Since gender identity arises as a synthesis of biological and sociocultural factors, the study of gender studies in the context of social psychology gives more effective scientific results.

**Redaksiyaya daxil olub: 11.03.2024**

# FİLOLOGİYA
# ФИЛОЛОГИЯ
# PHILOLOGY

***ƏDƏBİYYATŞÜNASLIQ***
***ЛИТЕРАТУРОВЕДЕНИЕ***
***LİTERARY CRİTİCİSM***

*UOT 80.*

## AĞARƏHİM RƏHİMOVUN ELMİ-PEDAQOJİ VƏ BƏDİİ-FƏLSƏFİ YARADICILIĞININ ÜMDƏ HƏDƏFLƏRİ

**Həsən Bayram oğlu Bayramov**
*Bakı Qızlar Universitetinin Pedaqogika kafedrasının müdiri,*
*pedaqogika üzrə elmlər doktoru, professor əvəzi*
**ORCİD:** 0000-0003-2415-0284
**E-mail:** bayramov.hasan@mail.ru

***Açar sözlər:*** *müstəqillik dövrü, ədəbi proses, sosial çağırışlar, təhkiyə üsülubu, təhsil, universitet, seminariya.*

***Ключевые слова:*** *период независимости, литературный процесс, социальные вызовы, метод мобилизации, образование, университет, семинария.*

***Key words:*** *independence period, literary process, social challenges, method of mobilization, education, university, seminary.*

Müstəqillik dövrü elmi, pedaqoji və ictimai mühitdə unikal adlanmasıyla diqqəti cəlb edən Bakı Ali Pedaqoji Qızlar Seminariyası (indiki Bakı Qızlar Universiteti) və onun təsisçisi pedaqogika elmləri doktoru, professor Ağarəhim Rəhimov yeni tipli alternativ təhsil təşkilatçısı kimi tanınmağa başladı.

Özəl ali təhsil müəssisələrinin çox çətin təşəkkül mərhələsi keçməsi, həm təsisçilər, həm də yeni formalaşan nomenklatur məmur təbəqəsi bu sahəyə yeni tipli təhsil müəssisələri kimi yox, daha çox gəlir mənbəyi kimi baxmağa başladılar. Ona görə də bu müəssisələrə bir tərəfdən ortabab ziyalı dolanışıq məqsədilə, digər tərəfdən də bal tutub barmaq yalamaq üçün möhtəkirlər axışdı. Beləliklə, yaxşı məqsədlər üçün açılmalı olan bu tip tədris ocaqları getdikcə xalqın gözündən düşdü.

Bunlardan fərqli olaraq Bakı Ali Pedaqoji Qızlar Seminariyası isə Bakı Qızlar Universiteti adı altında 30 ildən artıqdır ki, maarifçilik fəaliyyətini uğurla davam etdirir. Bunun da bir neçə başlıca səbəbi vardır. Birincisi burada "gəlirli" ixtisaslara heç vaxt meyl olmamış, adından göründüyü kimi məqsəd gələcəyin vətənpərvər, alicənab müəllimlərini daha da vacibi isə, ismətli gələcək ana tərbiyəçilərin hazırlığından ibarət olmuşdur. Bu missiya bu gün də uğurla davam etdirilir.

Şübhəsiz ki, hər bir özəl təhsil müəssisəsinin taleyi onun qəyyumu və rəhbərindən birbaşa asılıdır. Bu günlərdə anadan olmasının 75 illik yubileyini sakit bir məcrada qeyd edən universitetin təsisçisi Ağarəhim Rəhimov kimdir:

O, öncə uzun müddət Təhsil İnstitutunda şöbə müdiri, ana dili tədrisi üzrə metodist - dilçi, pedaqoji elmlər doktoru, professor olaraq çalışmışdır. Sonralar isə tanınmış alternativ ali təhsil qurucularından, bu sahənin peşəkarlarından biri olmuşdur.

Ağarəhim Rəhimov həm də ədibdir. Sosial proseslərin dərin müşahidəçi ziyalısı, ölkənin tanınmış sosioloq alimidir. Onun əsərlərinin başlıca qayəsini bir tərəfdən postsovet dövrü ictimai-humanitar düşüncədəki tarixi qəlibləri sındıran, ictimaiyyətşünaslıqdakı tarixi transformasiyanın başlıca kreativləri təşkil edir, digər tərəfdən də yanaşma tərzi, üslubu, ideyaya doğru saplanmış məntiqi, həmin məntiqdən doğan mühakimələrindən qaynaqlanan mükəmməl idrakı qənaətləri, ictimai, mənəvi-əxlaqi düşüncələri, ardıcıl mütaliə bazası, ifrat həssaslıq və seyrdən qaynaqlanan vətəndaş marağının çözələnməsi, yazar olaraq iç dünyasının təlatümünü obrazlarının ətinə-qanına hopdurmaqla hamını saflaşdırmaya-katarsisə səsləyən ədəbi tribunadır. Ağarəhim Rəhimov hər şeydən öncə həm də yeni tarixi-ictimai çağırışların cəsarətli publisisti, yazıçısı və ssenaristi kimi də cəmiyyətdə, xüsusilə mədəniyyət və incəsənət sahəsində də yetərincə tanınan ədəbi-ictimai simadır. Onun ədəbi mühitə gəlişi ilə ictimai-fəlsəfi mühitə gəlişi paralel olmuşdur. Bu mənada ədəbi mühitə təsiri ilk baxışda eyhamla qarşılansa da, əsərlərində irəli sürdüyü problemlər əslində cəmiyyətdəki tarixi transformasiyanın çağırışlarından qaynaqlanırdı. Ədəbi mühit ənənəvi yazı üslubuna, köhnə mövzulara və ifadə etdikləri "ideyanın" yenilənməsinə köklәndiyindən bu "təzə"-nin nə demək istədiyinə və kimliyinə laübalı baxışlarla diqqət yetirsələr də, sonralar od püskürən əsərlərin, onun başlıca qayəsini ehtiva edən adlanmaların, öncə Ermənistan-Azərbaycan münasibətlərində yaranan gərginliklərə həsr olunmuş "Vicdan məhkəməsi", "Uçurum", "Səfalət", "Qasırğa" əsərləri ilə ədəbi mühitə nümunə göstərən, eləcə də "İblisin oyunu", "Əl əli yuyar", "Daşqala əməliyyatı", "Dudəməli qalmaqalı", "Şərikli uşaq", "Xanımın desant batalyonu", "Ala qarğa", "Bazar hәngaməsi" komediyalarının ruhuna hopmuş vətəndaşlıq hissi, hırıldatmaq yox, düşündürmək ruhu ilə bu janra tamamilə yeni nəfəs verən, "Xəyanət", "Əsgər anası", "Haray", "Cinayət yoxsa qətl" kimi dram əsərlərində içini yeyən sosial kataklizmlərə yeni prizmadan yanaşan, nəhayət, uşaq hekayələrində həyati reallığa müsbət mənada meydan oxuyan "Vüsalın qətiyyəti", "Nəvə dərsi", "Dostum Vüsal", "Aslanın səhvi", "Övlad dərdi", "Balaca Nicat" yeni tipli personajlar olaraq uşaq bədii təfəkkürünün inkişafına təsir etməkdədir. Onun iri həcmli bədii əsərlərinin adlanmaları da ayrı bir aləmdir, əsərlərində qaldırdığı ideyanın sanki məhək daşıdır. Əsərlərinin adlarına fikir verək: "Səfalət", "Girdab", "Kabus", "Qasırğa", "Qoşa qanad", "Ovlaq keçidi", "İkili dünyam", "Məhəbbət və Cinayət", "Qırmızı qar", "Canavar balası", "Qəzəb" və s.

O, böyük ədəbiyyata 500-dən çox elmi və publisistik məqalə, 50-dən artıq dərslik, monoqrafiya, kitab və kitabçanın müəllifi, müqtədir tədqiqatçı alim olmaqla gəlmişdi. Əvvəlcə ədəbiyyata gəlib alim olanlardan fərqli olaraq ona qədər o, bir dənə də olsun bədii əsər yazmamışdır. Ona görə də onun bədii əsərləri elmi əsərləri kimi sözün məntiqinə söykənir. Bədii əsərlərində yüksək ziyalı təfəkkürünün nəfəsi hakimdir. Sadə, həyatı məsələlərdən bəhs edən surətlərin dilindən sanki dürr tökülürdü. Onun "Fırıldaqçı Niftulla", "Mənim qəribə taleyim", "Tənha çinarın pıçıltıları", "Bir ömrün akkordları", "Kövrək qəlbin titrəyişləri", "Meteor parçası", "Taleyin hökmü" povestlərinin surətlərinin dili bu baxımdan ədəbi-bədii şedevrlərdir! Onun tədqiqatlarının zirvəsini nəhayət, bəşəri çağırışların fəal ictimaiyyətçi tribunu olaraq yetkin vətəndaşlıq mövqeyi ilə seçilən ziyalılıq təşkil edir. Onun əsərlərinin bir başlıca motivi də ənənəvi yanaşma kontekstində zamandır. Ona görə şüurun yetkinliyi zamanla uzlaşmırsa qəbahət şüurun özündədir. Bu mənada zamanın başlıca həmləsi şüurdur. Cəmiyyətlərdə baş verən başlıca nöqsanlardan biri də "Çay gəlməmiş çırmanmağımızdır". Yəni çox vaxt cəmiyyətlərdə baş verənləri şüur dərk etmir və ya qəbul etmir, bəzən də emosional daxili və xarici reallıqların təsiri ilə onu kor-koranə qəbul edib, onun əsirinə çevrilir. Kiçik toplumlara

bu, xüsusən xasdır. Tarixi ənənələrə söykənən mental dəyərlərin sosiuma hakimliyi yetərlidirsə, hadisələrin məntiqi gedişini hesablamaq olur, yox əgər bu yoxdursa və ya bu prosesin oturuşmasına imkan verilməyibsə, hər cür ziqzaqlı sosial-tarixi təlatümlərə hazır olmalısan.

Bu əsərdən çıxan ümumi qənaət belədir ki, bu gün dünyada ağlagəlməz inqilabi-radikal dönüş baş verməkdədir. Bunun ağrısını içinə çəkən əsasən mənəvi ekosistemdir. O, virtual texnologiyanın doğurduğu saysız hesabsız informasiya bolluğunda çabalayan insanı yeni qlobal çağırışlarla sınağa çəkir. Məsələn, “Səfalət” əsərində professor Asiman xanım görkəmli elm xadimi, pedaqoqdur. Ağarəhim müəllim bu mənada pedaqoq-alim olaraq əsərlərinin əksəriyyətində personajların ziyalılığına fikir verir, onların nitqinin, düşüncəsinin çoxmənalı tutumunu metodist alim kimi önə çəkir. Yeri gəlmişkən, bu romanın əsasında müəllifin “Vicdan məhkəməsi” pyesində də başlıca mənəvi-sosial meyar şəxsiyyətə, həqiqətə, vicdana, vətənə, xalqa, millətə ... bağlılıqdır. Bu, təkcə ziyalı obrazlarına xas deyil. “Ovlaq keçidi”ndə Qafar, “Ulu kəndim”də Yaqub, “Canavar balası”nda Yusif əslində geniş təhsil görməsələr də, həyatın bişirdiyi insanlardır. Həyatın ədəb-ərkanında yoğrulmuş, həyata özünəməxsus baxış bucaqları olan bu adamlar necə də həyati obrazlardır.

Bir sözlə, müasir ədəbi prosesdə səsi, sözü, üslubu və sosial təhkiyə səviyyəsi seçilən yazarlardandır. Həyati hadisələri, ədəbi proseslərin obyektinə çevirdiyi insanları oxucuya son dərəcə real, sərt həqiqət prizmasından yanaşmaqla publisistik peşəkarlıqla, ədəbi-sosial müşahidəçiliyin sintezini tətbiq etməyi bacaran cəmiyyətin ağuşuna aldığı aktual mövzulara iti qələmi və məntiqi mühakimələri ilə müdaxilə edən intellektual qələm sahiblərindəndir. Bu mənada Ağarəhim öncə professional esseistdir. Mətnarası yığcam amma orjinal deyimləri, miniatür nəsr parçaları, onun az sözlə böyük məna tutumuna söykənərək fikir deməsi esselərinin səviyyəsini, həm də istedadına yeni çalarlar gətirir. Belə esselərdə aktual fəlsəfi baxışlar, düşüncələr, narahatlıqdan doğan mühakimələr diqqəti cəlb edir, onun yaradıcılıq manerasını daha da dolğunlaşdırır.

O, həm fəal ictimai simadır, müqtədir, metodist - dilçi, özünü daim təkmilləşdirən zəngin dünyagörüşlü ziyalıdır. Onun bu keyfiyyəti ədəbi əsərlərinin publisistik ruhunda xüsusi üslubda hiss olunur. O, dünya və milli ədəbiyyatda, ictimai humanitar düşüncənin klassik külliyatına yaxından bələddir, daim oxuyur, mütaliə edir.

Onun yaradıcılıq manerasının məhvərini zəngin mütaliəsi ilə bərabər peşəkar müşahidəçilik qabiliyyəti tamamlayır. Məncə, bu məsələ onun yaradıcılığına yeni məzmun verən çox mühüm istiqamət olaraq, sistemli araşdırma mövzusudur. Bir qədər əvvəl ifadə etdiyim fikrə qayıdaraq deməliyəm ki, onun zəngin mütaliə arealını Qərbin və Şərqin, yəni müasir sivilizasiyanın ən müqtədir nailiyyətlərinin generatoru olan areallaрın özünəmxsus xüsusiyyətlərini, bir-birindən fərqli olsa da, bir-birini tamamlayan cəhətlərini kifayət qədər mənimsəməsi ilə bağlıdır.

Geniş və zəngin mütaliə yükünü daim yeniləşdirmək müasir ədəbi prosesin peşəkarlarının bir çoxunda çatışmır. Onlar adətən, permanent mütaliədənsə yalnız özlərini mütaliə edir, öz ədəbi dünyasının təqlidçiliyindən kənara çıxa bilmirlər.

Ağarəhim bu mənada yaradıcılığında novator, daim yazmaq, yaratmaq istəyi güclüdür. Niyə? Çünki yuxarıda qeyd etdiyim həyati hadisə və prosesləri qıyqacı müşahidə xüsusi intuisiyaya malik olmasında irəli gəlir. Hər bir müşahidəni geniş və aktual ədəbi materialın mövzusuna çevirməyi bacarır. Bu mənada daim öyrənir, müşahidə edir və qələmini əmrə müntəzir saxlayır. Şəxsi və xidməti işlərinin çoxluğuna baxmayaraq, o nə elmi, nə ədəbi yaradıcılıq mühitindən ayrılmağı təsəvvürünə gətirmir. Vaxt taparaq ədəbi-bədii və elmi-pub-

lisistik qeydlərini aparır, rəsmi və qeyri-rəsmi tədbirlərdə iştirak edir, yaradıcısı və hamisi olduğu universitetin qapıları həmişə hamının üzünə açıq olur, fasiləsiz informasiya təminatı baxımından hamı ilə ünsiyyətdən qaçmır, sadə ilə sadə, böyüklə böyükdür. Bütün bu işlərin bolluğunda daim yazır, özü də istedadla yazır, sövqlə müşahidə etdiyi sosial prosesləri ədəbi prosesin materialına çevirir. Bu mənada o, müasir yazıçı, ədibdir. Həmişə də səlis və təmiz yazır, çünki yazılarına qarşı çox tələbkardır. Heç vaxt cümləpərdazlığa meyl etmir. Onun nəsrində həm incə yumor var, həm də kəskin sarkazm. Mirzə Fətəlidən, Mirzə Cəlildən, Mirzə Sabirdən, Mir Cəlaldan bəhrələnən sosial yumor və tənqid güclü bir üslubda süslənmişdir.

Onun hekayələrindən iri həcmli nəsr əsərlərinədək epizodlar qalareyasının əsası publisistik esse mahiyyətlidir, əsasən sosiallaşmış oxucu kütləsini əhatə edir. Onun həyat düşüncələrinə, yaşam tərzinin başlıca leytmotivini təşkil edən bir çox həyati-sosial reallıqlarda barışmazlığını ehtiva edən mücadiləsi, müsbət və mənfi məqamları ilə ortaya çıxardığı insan obrazlarını son dərəcə aydın, səlis, real, sərt həqiqətlər bucağından oxucusuna təqdim edir. Özü də uğurla təqdim edir. Bütün meyarları ilə bədii əsərlərinin sosial təsir gücünü təcəssüm etdirən sosial-publisistik üslubu xüsusi məziyyətləri ilə həm Qarabağ məyusluğunun uzun müddət yalnız seyr etməkdə qalan postsovet ədəbiyyatının peşəkarlarına dərs verirdi, həm də müasir ədəbi mühitdə həmin seyri ədəbiyyat aləminin başı üzərindən keçərək yeni bir sosial-psixoloji yön verərək axırıncılar üçün də nümunə olurdu.

Öncə qeyd etdiyim bir neçə istiqamət üzrə öz yazıçı-ziyalı üslubuna sadiq qalan Ağarəhim Rəhimovun bütün ədəbi külliyyatının mahiyyətinin zirvəsində insan – vətəndaş – şəxsiyyət dayanır. Onu ədibliyə gətirən bir tərəfdən daxil olduğumuz geosiyasi məkanda XX əsrin sonlarında gedən dağılma, ondan sonrakı ağrılı-acılı yeni cəmiyyət quruculuğunun prioritetləri, bir tərəfdən də uzun müddət içimizi yeyən Qarabağ dərdidirsə, bir tərəfdən də virtual texnologiyaların və yeni dünya düzəninin doğurduğu qlobal tendensiyalardır. Ona görə də onun əsərlərinin ideya məzmununu özünəməxsus ziyalılıq üslubunun hakim olduğu bədii əsərlərin aydın, səlis dili süsləyir.

Onun tədqiqatçılarından olan Sevinc Rəhimovanın "Ağarəhimin bədii yaradıcılıq fəlsəfəsi" monoqrafiyasından bir sitatla fikirlərimi davam etdirmək istəyirəm:

"… Ağarəhim elm və ədəbi-bədii düşüncə adamı olduğundan dünyada baş verən tarixi, siyasi, psixoloji, sosioloji, mədəni, ictimai, siyasi, iqtisadi, fəlsəfi həyata müxtəlif mövqelərdən yanaşa bilən, topladığı fakt və detalları yerbəyer etməyi bacaran sənətkardır. O, bugünkü həyata öz lupasından baxmağı bacarır. Yeni insana yeni insani münasibətlərini elmi dəlillərlə, ədəbi-bədii təfəkkürün, əsl yaradıcılıq prinsiplərindən yanaşır. Onun məqsədi ədəbiyyatın problemlərini – cəmiyyətin əxlaqi dəyərlər sistemini, insani-ideoloji mövqeyi və münasibətlərini bədii əsərlərində işıqlandırmaqdan ibarətdir. Ədib insanı cahanşümul siqlət sanır. Ona özü də ruhani dəyər verir. Milli mənliklərini və şəxsiyyətlərini, həmçinin mühafizə cəhdlərini qabardır. Eyni zamanda, gerçək həyatın əxzi onun yaradıcılığının başlıca qayəsidir. (Sevinc Rəhimova. Ağarəhimin bədii yaradıcılıq fəlsəfəsi. monoqrafiya. Bakı, 2022, səh. 22).

Onun çoxşaxəli yaradıcılıq manerasının başlıca kreativini sözə ehtiram, sözün ilahi qüdrətinə inam, sözün, kəlamın şövqündə, onun böyük mənasında yaradanla insan arasında əlaqə formasıdır. Onun "Allahla ünsiyyət, "Ölüm və ölməzlik", "Zəka simfoniyası", "Qüdrətdən doğan nur" fəlsəfi esselərində insanın mənəvi davranış hüdudları, əzəli və əbədi dünyaya baxışı, ölüm və ölməzlik, zamanın, tarixi oxu və yaddaşı, "Qüdrətdən doğan nurun təntənəsi" (S. Rəhimova) göstərilir. Onun çoxşaxəli yaradıcılıq külliyyatına nəzərən sözlə yaradanın vəhdətinə söykənən aşağıdakı fikirləri də çox həqiqidir.

"…Söz Allah-təalanın adıdır. O, Ulu tanrının özündən kanata çıxan milyonlarla enerji tellərindən biridir. Böyük yaradanla insan arasında əlaqə qurandır. Söz müqəddəs kitablar, səmavi – qədərdir. Söz insana məxsus olmaqla onun yaradıcı qüvvəsidir. Söz Allahla əlaqə formasıdır. Gərək ona əsl qiymətini verə biləsən!".

Beləliklə, Ağarəhim Rəhimovun çoxillik elmi-pedaqoji və ədəbi-fəlsəfi yaradıcılığında aşağıdakı ümdə kreativləri diqqəti cəlb edir:

O, XX əsrin sonu, XXI əsrin əvvəlləri siyasi-tarixi transformasiya mərhələsinin önə çıxardığı ictimai sima, yeni tipli şəxsiyyətdir. O, alternativ ali təhsilin respublikamızda tətbiqi sahəsində ilkinlərindəndir.

Bir sıra "müəssisə rəhbərlərin"dən fərqli olaraq istər ədəbi-bədii, istər elmi-metodik, istər də ictimai-fəlsəfi tədqiqatları öz qələminin məhsuludur, ictimai statusundan sui-stifadə edən deyildir.

O, yeni tarixi-transformasiya mərhələsində cəmiyyətdə baş verən kataklizmləri cəsarətlə bədii ədəbiyyatın mövzusuna çevirməklə fəal vətəndaşlıq mövqeyi nümayiş etdirən ədibdir.

O, cəmiyyətdə baş verən dəyişmələrin yeni quruculuq prosesindən qaynaqlanan dəyərlər sistemini psixoloji və sosioloji aspektdən təhlil və tədqiq edən filosof tribundur.

O, bir çox tədris-metodiki mahiyyətli əsərlərin, monoqrafiyaların, vəsaitlərin müəllifi olaraq həm də öz mövqeyi olan, prinsipial pedaqoq alim-ziyalıdır.

Fikirlərimizi görkəmli ədəbiyyatşünas, professor Bədirxan Əhmədovun aşağıdakı sözlərilə yekunlaşdırıram.

"Ağarəhim istər bədii nəsrində, istər dramaturgiyasında, istərsə də ssenarilərində bir sosioloq, filosof kimi çıxış edir, onun əsərlərinin əsas süjet xəttində cəmiyyət hadisələri və İnsan problemi qoyulur, çağdaş cəmiyyəti məşğul edən hadisə və problemlərə geniş yer verilir. Bu əsərlərin yazılmasından keçən zaman yazıçının əsərlərinin uzunömürlülüyünün sübutudur. Bizə isə yalnız Ağarəhimə can sağlığı, uzun ömür və yaradıcılıq uğurları arzulamaq qalır". (Bədirxan Əhmədov "Ədəbiyyat" qəzeti 21 oktyabr 2023-cü il №40/5430)

**Problemin aktuallığı.** Ağarəhimin yaradıcılığında sosial-fəlsəfi problemlərin hərtərəfli, ahəngdar inkişaf etmiş, şəxsiyyət hazırlığında sosial çağırışlar olaraq aktuallığı təhlil olunur.

**Problemin elmi yeniliyi.** Ədəbi-bədii prosesin inkişaf tendensiyasının başlıca qayəsini ehtiva edən bədii yaradıcılıq nümunələrinin pedaqoji-psixoloji və sosial fənlərin tədrisində vacibliyi tədqiq olunur.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Onun yaradıcılıq yolunun gənc nəslin rəqabət qabiliyyətli şəxsiyyət olaraq həyata hazırlığında təhsil menecerləri üçün praktik mənbələr olaraq istifadə edilə bilər.

**Х.Б. Байрамов**

**Основные цели научно-педагогического и художественно-философского творчества Агарахима Рагимова**

**Резюме**

Научно-педагогические и художественно-философские основы творческого пути Агарахима, отличавшегося уникальным стилем литературного процесса периода независимости, социально-философскими взглядами, смелой провокационностью и

специфическим взглядом на жизненные события, вытекающие из социальных проблем обсуждаются.

**H.B. Bayramov**

**The main goals of Agarahim Rahimov's scientific-pedagogical and artistic-philosophical creativity**

**Summary**

The scientific-pedagogical and artistic-philosophical foundations of the creative path of Agarahim, who was distinguished by his unique style of the independence period literary process, his social-philosophical views, his bold provocation and a specific perspective on life events stemming from social problems, are discussed.

**Redaksiyaya daxil olub: 18.03.2024**

*UOT 80.*

# NƏSİMİ POEZİYASININ ŞAGİRDLƏRİN DÜNYAGÖRÜŞÜNÜN FORMALAŞMASINDA ROLU

**Adilə Həsən qızı Nəzərova**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*
*aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru*
**ORCİD:** 0000-0002-4340-6882
**E-mail:** adile1970@mail.ru

***Açar sözlər:*** *sözün gücü, eyham, məna, həqiqət, dünyagörüşün formalaşması.*
***Ключевые слова:*** *сила слова, отражение, смысл, истина, формирование мировоззрения.*
***Key words:*** *word strength, reflection, meaning, truth, formation of worldview.*

Hazırda ümumtəhsil məktəblərində əqli tərbiyənin inkişafı üçün iki yoldan: təlim prosesindən və sinifdənxaric tədbirlərdən istifadə olunur. Təlimlər əqli tərbiyənin başlıca vasitəsidir. Xüsusilə ədəbiyyat fənnindən keçilən sinifdənxaric dərslərdə şagirdlər birlikdə zəruri bacarıq və vərdişlərə də yiyələnirlər. Məsələn, öz fikrini daha dolğun və düzgün ifadə etmək, gələcəkdəki işlərini, həyatını planlaşdırmaq, özünə nəzarət bacarığı, özünü, hisslərini, emosiyalarını kontrol etmə vərdişləri məhz bu təlimlər zamanı formalaşır və inkişaf edir.

Bütün tarixlərdə insanlığın inkişafı millətlərin mədəni həyatında gözəllik və estetik anlayışların formalaşması ilə ölçülmüşdür. Gözəl olaraq qəbul edilən nə varsa həyatın içinə girmiş, yaradıcılığın bütün sahələrində fikir, hiss, məna və xəyal gücünün ünsürü olaraq şəkil, söz, səs və s. kimi işlənmişdir.

İ. Nəsimi sözə xüsusi dəyər verən və ondan məharətlə istifadə edən sənətkardır. Şair insanın məğrurluğunu əxlaqın əsası sayırdı.

Ərkansız olanlarla rəfiq olma, Nəsimi,
Yol əhli gözət, sən ədəb-ərkan tələb eylə...

Nümunədən də göründüyü kimi, İ. Nəsimi yaradıcılığındakı lirizm və sözün təsir gücünün genişliyi ilə seçilir. Sözün təsir gücü isə uşaqlıq, yeniyetməlik, gənclik çağlarından formalaşmağa başlayır.

Mütəfəkkir şair "Söz" rədifli qəzəlində dünyanın Allahın "kün" (ol) sözü ilə yaranmasını xatırladaraq, sözün gücü ilə bərabər, onun estetik ifadəsinin vacibliyini də bir daha ortaya qoymuşdur:

Kaf u nundan vücuda gəldi cahan,
Əgər anlar isən ayandur söz. (2, s.325-327)

Etiraf etməliyik ki, dünyada və ölkəmizdə xüsusilə son dövrlərdə İslam dini adı altında insanların ağlını qarışdıran, fikir və düşüncələrində ziddiyyət yaradan, dünyagörüşünü alt-üst edən xeyli sayda dini cərəyanlar fəaliyyət göstərir. Bu cərəyanların arxasında fanatizm, xurafat və cəhalət yoluxucu xəstəliklər kimi yayılır. Nəsiminin də əqidəsi olan hürufilik insanı əsarətdən azadlığa aparan, ağıla, idraka daha çox önəm verən yoldur. Bu yolda Nəsimi insanı

Allahlaşdırır, Allahı insanlaşdırır. Bu insanın Allah səviyyəsinə ucaldılmasıdır, onun aliliyidir. Allahla İnsanın vəhdəti - qovuşması cismən və ruhən azad olmanın, mənəvi sərbəstliyin, fikir azadlığının, düşüncə saflığının təminatıdır.

Nəsimi bütün bu ideyaları ilə yanaşı həm də tolerantdır, onun dini baxışları insan zəkasında, idrakında, təfəkküründə görünməmiş inqilab yaradır. Nəsiminin əqidəsinin böyüklüyü, fəlsəfi vüsəti, fikir genişliyi insanın bir şəxsiyyət olaraq dünyagörüşünün formalaşmasında mühüm yer tutur. Şairin şeirlərinin tədrisi şagirdlərin həyat, insan, təbiət, əxlaq, millət, mənəviyyat, dini dəyərlər və s. haqqında doğru məlumatlara yiyələnməsində, onlarda milli şüurun formalaşmasında önəmli rol oynaya bilər. Nəsiminin təbiətlə insanın bütövlüyünu əks etdirən, təbiət şeirlərindən sayılan "bahariyyələr" və "xəzaniyyələr"indəki müsbət özəlliklərinin təsirini yaratmaq üçün tədrisi böyük əhəmiyyət kəsb edir.

Ay ilə günəş üzün heyranıdır,
Mişk ilə ənbər saçın tərxanıdır.
Çün Nəsimi əyyamın sultanıdır,
Dövr anın, dövran anın dövranıdır.

Bu şeirdə şair baharın gəlişinin, təbiətin yenilənməsinin insanın ruhunda yaratdığı oyanışla əlaqəsini təsvir, insanın təbiətin bir parçası olduğunu sübut edir.

Eləcə də "Güldür Gül" şeiri təbiət təsviri yaratmaqla bərabər yaradıcı şagirdlərdə bədii fikrin formalaşmasına da kömək olar.

...Gülden terazi tutarlar,
Gülü gül ile tartarlar.
Gül alır, güli satarlar,
Çarşı pazarı güldür gül. (4)

Fikrimizcə, bu şeirin daha aşağı VI-VII siniflərdə tədrisi yaradıcı şagirdlərin bədii söz ehtiyatlarını zənginləşdirməklə yanaşı tuyug şeir formasının inkişafına da təkan verə bilər. Beləcə Azərbaycan ədəbiyyatında dondurulmuş (belə demək olarsa) bu şeir janrını yenidən həyata qaytarmaq imkanı yaranar.

İ. Nəsiminin fəlsəfi fikirləri insanın daha çox mənəvi inkişafına, daxili paklığına yönəlmişdir, burada sözdən, nəsihətçilikdən çox hərəkət, insani dəyərlərə canatmalar var. Onun şeirlərində iztirabdan çox onun səbəbləri var, azadlıq və ona gedən yol var. Şairin bir çox qəzəllərində hökmü qüvvətləndirən "ey" xitabından istifadə olunur: "ey müsəlmanlar", "ey Nəsimi", "ey dilbər", "ey can parəsi", "ey həkim", "ey qafil", "ey fəqih", "ey könül" və s. Bununla da xitab etdiyi obrazı sözün ahəngi və müraciət forması ilə öz təsiri altına alır və fikirlərini daha cazibəli və estetik ifadələrlə möhkəmlədir. Misranın və ya beytin sonundakı "mənəm", "olmuşam", "verməzəm", "dönməzəm", "eylərəm", "qan olar", "etməgil" hökmləri ilə onu yolundan döndərmək istəyənlərə qarşı hakim kəsilir, onlara özgüvənini nümayiş etdirir. Bəzi qəzəllərinin sonundakı "Nəsimiyəm" ifadəsi də sanki, "məni tanıyırsınız, kimliyimə bələdsiniz" fikrini ifadə edir. (1, s.110)

İ. Nəsimi qəzəllərindəki qərarlılıq, sözünün əri olma, cəsarətli xarakterləri əks etdirən özünüifadə formaları ilə şagirdlərin dünyagörüşünün formalaşmasına və inkişafına təsir edir. "Ey müsəlmanlar" müraciəti ilə başlayan, yeddi beytdən ibarət "Ayrılır" rədifli qəzəlinin hər beyti

eyni gücdə və dəyərdə söyləndiyi üçün təkavazlı qəzəllər sırasına aiddir. Haqq-ədalət, inam, vəfa, etibar və vicdanı hər şeydən üstün tutan şair bu qəzəlini öz sələfi, müəllimi Fəzlullah Nəimiyə ithaf etmişdir. Ustadının edamı anında söylədiyi bu qəzəl bir çarəsizlik olduğu qədər də şairin hayqırtısı və üsyanıdır. Qəzəlin ilk beytinə nəzər salaq:

Ey müsəlmanlar, mədəd, ol yar pünhan ayrılır,
Ağlamayım neyləyim, çün gövdədən can ayrılır.

Bu beytdən də göründüyü kimi, o, müəllimini gövdə, özünü həmin gövdədəki bir parça cana (burada: budaq, qol) bənzədir. Sonuncu beytdə:

Ey cigərsuz nari-firqətdən Nəsimi çarə nə?
Hər kimə nəhnü qəsəmna çün əzəldən ayrılır.

Ey eşq odundan ciyəri yanan Nəsimi, çarə nədir? Hər kəsin qisməti əzəldən Allah tərəfindən verilib. (Züxruf surəsi, ayə 32) deyən Nəsimi öz yönünü böyük bir sevgi ilə başladığı Allahla eyniləşməyə istiqamətləndirərək, hər bir halında şəxsiyyətin öz psixoloji durumuyla bir bütövlük təşkil etdiyini göstərir.

Öncə nəzərə alaq ki, Nəsimi hürufi şairidir, buna görə də onun şeirlərindəki məhfumları, anlayışları gerçək anlamdan çox, məcazi anlamda işlənmişdir. Şair bəzən sözlərə rəqəm kimi baxır, rəqəmlərdə fəlsəfə axtarır.

İ.Nəsimi poeziyasında əqlin tərbiyəsi ön plandadır.

Çün səni gördü Nəsimi der bəavazi-bülənd:
Eşq ilə mən aşinayəm, əql ilə yad olmuşam.

Hər bir yaradıcı insanın yaratdığı eyni zamanda onun özünü tərənnüm edir. Nəsiminin əsərlərinin, demək olar ki, tamamı şairin mənəvi-əxlaqi keyfiyyətləri ilə yanaşı, xalq deyimlərinə, folklor nümunələrinə, özündən əvvəlki dahilərin fikirlərinə söykənən elmi-intellektuallığı, dərin təfəkkürü və heyrətləndirici cəsarətilə fərqlənir. Şairin insanda bir sıra müsbət əxlaqi keyfiyyətlər formalaşdıran əxlaqi-didaktik görüşləri neçə-neçə nəsillərin mənəvi tərbiyəsində önəmli rol oynamış və bu gün rol oynamaqdadır. Gənclərdə yüksək dərəcəli mənəvi keyfiyyət hesab olunan ünsiyyət, dostluq, yüksək biliyə və dünyagörüşünə sahib olmaq, başqaları üçün nümunə olmaq, ətrafdakıların rəğbət və hörmətinə, sevgisinə sahib olmaq, gələcəkdə tutacağı mövqeni təmin edəcək xususiyyətlərdən biri də səbirdir. Bu beytdə şair gənclərin şəxsi həyatlarında baş vermiş bir sıra uğursuzluqları, xoşagəlməz halları dözüm və səbirlə qarşılamağa çağırır.

Ən dərin həqiqət gözəlliyin özüdür. Harada gözəllik varsa, həqiqət oradadır. Harada gözəllik yaranırsa həqiqət yaranır. İnsan Yaradandan kənarda deyil, yaradanın özüdür, yəni insan mahiyyətcə ilahidir. İnanclar, dinlər fərqli görünsə də, bir-birinə düşmən deyil, hətta hamısı eynidir. Son beytdə:

Ey Nəsimi, həqdən istərsən götürmək pərdəyi,
Bütpərəsti bigüman etmək dilərsən, etməgil! (3)

– deyir. Yəni, ey Nəsimi, sən istəyirsən ki, Allah üzündən pərdəni çəkib, özünü göstərsin. Əgər o bunu etsə, bütpərəsətlər də inanclarında haqlı olduğunu düşünərlər. Əslində, onun İlahiliyi elə üzündəki pərdədir. Həqiqət həqiqi niyyətdir ki, insan həyatın mənasının dərkini daxilən qəbul edir. Nəsiminin həqiqəti dilində idi, bu isə daxili inamın nitqdə və fəaliyyətdə reallaşmasıdır. Qəzəldə əxlaq, mərdlik, şərəf, ləyaqət, nəciblik anlayışları Nəsimi şəxsiyyətinin səciyyəvi əlamətidir.

Orta məktəblərdə İ. Nəsiminin tədrisinə ayrılan saatlar şairin həyatının, yaradıcılığının və şəxsiyyətinin vəhdətdə təqdim olunması üçün yetərli olmasa da şagirdlərə lazımi qədər məlumat verir. Onlarda çevrənin, toplumun qınağına dirənmə, öz doğrularına tərəf yönəlməkdə qarşısına çıxanlara cəsarətlə arxa çevirmə və s. kimi tərzlər aşılayır ki, bunlar şagirdlərin dünyagörüşünün formalaşması, şəxsiyyətin bütövləşməsi baxımından əsas göstəricilərdir.

**Problemin aktuallığı.** İ. Nəsiminin əsərlərində elm, irfan, təhsil, adicə oxumaq qabiliyyəti belə ədəb sayılır. Bu baxımdan şairin əsərlərinin tədqiqi, tədrisi və təbliği öz dövründən başlayaraq günümüzdə də aktuallıq kəsb edir.

**Problemin elmi yeniliyi.** Həqiqət, ədalət, özünəinam, hiss və ağıl Nəsimi şəxsiyyətinin mahiyyətini ifadə edir. Əsarətə, mütiliyə, yalana qarşı gələn şair öz əqidəsi yolunda şərəf və ləyaqətini qoruyaraq faciəvi ölümü üstün tutur. Şairin poeziyası şagirdlərin dünyagörüşündə yeni ideyalar yaradır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə gənc tədqiqatçılar və orta məktəbin ədəbiyyat müəllimləri faydalıdır.

## Ədəbiyyat

1. Erol Gündüz, Erdem Sevimli, "Nesiminin "Senden dönmezem" radifli gazeline estetik bir yaklaşım", Sefad, 2016 (36), 97-124 s.

2. İbrahim Yakar, Seyyid Nesiminin şiir anlayışı, 17-19 haziran 2005 Ankara. I Uluslararası Seyyid Nesimi Sempoziumu bildirileri, 338 s.

3. http://www.halilibrahimyakar.com/doc/45RSeyyid%20Nesimi B1.pdf

4. https://kayzen.az/blog/poeziya/4031/etməgil-i-imadəddin-nəsimi.html

5. https://edebiyatvesanatakademisi.com/siirler/detay/guldur-gul/15283

**А.Г. Назарова**

## Роль поэзии Насими в формировании мировоззрения студентов
## Резюме

Один из великих представителей Азербайджанской литературы XIV века поэт И. Насими верил в могущественную силу поэтического слова и умело использовал его. Философские размышления Насими призывают к духовному развитию человека, его внутренней чистоте. Динамика, присущая в стихах Насими, является по сути как литературным пиком его творчества, так и центром его литературной личности. Выведенные в газелях сильные, мужественные характеры являются основными факторами, влияющими на формирование мировоззрения студентов.

**A.H. Nazarova**

**The role of Nasimi's poetry in the formation of students' outlook**

**Summary**

I.Nasimi, a great Azerbaijani poet living in the XIV century, believed in power of a word and skillfully used it as a poet. Nasimi's philosophical thoughts encourage people in moral development. His thoughts sound like human values rather than only admonitions. Dynamics of Nesimi's poems are both literary peak of his creativity and the centre of his literary personality. Determinations as well as resolution to keep one’s promise and courageous characters in the poet's ghazals are factors that influence the formation of students' outlook.

**Redaksiyaya daxil olub: 14.03.2024**

*UOT 80.*

**KOMEDİYA JANRI VƏ ONUN İNKİŞAF TARİXİ**

**Ruqiyyə Bəhrəm qızı Əhmədova**
*Bakı Slavyan Universitetinin fəlsəfə doktoru proqramı üzrə doktorantı*
**ORCİD:** 0009-0007-5925-5760
**E-mail:** ruqiyye.ehmedova@bk.ru

***Açar sözlər:*** *dramaturgiya, komediya, ədəbiyyat, yazıçı, simvol.*
***Ключевые слова:*** *драматургия, комедия, литература, писатель, символ.*
***Key words:*** *dramaturgy, comedy, literature, writer, symbol.*

Ədəbiyyatı xalq mənəviyyatının tərcümanı adlandıran Belinskiyə görə ədəbiyyatın əsas vəzifəsi xalqın müqəddəratı ilə yaxından tanış olmaqdır. Həqiqətən də, ədəbiyyatla yaxından əlaqəsi olan hər bir insan ədəbiyyatın əsas vəzifəsinin məhz insana xidmət etmək, insanlara əsrarəngiz, gözəl hisslər aşılamaq, insan mənəviyyatındakı qüsurların, boşluqların, insan cəmiyyətinin problemlərini üzə çıxarmaq olduğunu bilir. Bu vəzifələri ədəbiyyatın hər bir növü müxtəlif şəkildə, fərqli üsullarla yerinə yetirir. Ədəbiyyatın əsas növlərindən olan dramatik növdə hadisələr insanların gözü qarşısında, əyani şəkildə göstərilir, obrazlar, surətlər daim hərəkətdə olurlar. Burada əsərlər əvvəlcə yazılı şəkildə, bədii əsər kimi meydana çıxsa da, daha sonra əyaniləşdirərək səhnə əsərinə çevrilir. Rus ədəbiyyatının məşhur yazıçılarından olan N.V. Qoqol bu məsələyə münasibət bildirərək "səhnəsiz dram bədənsiz can kimidir" fikrini irəli sürmüşdür. Belinski isə dramatik növü lirika və eposun xüsusiyyətlərini özündə birləşdirən sinkretik janr adlandırmışdır. Azərbaycan ədəbiyyatında da bir sıra nəzəriyyəçilər dramatik növ, onun janrları haqqında maraqlı fikirlər söyləmişlər. Professor Nazif Qəhrəmanlı da bu haqda bəzi məqamlara toxunmuşdur. "Dramatik ədəbiyyat sinkretik xarakter daşıyır. Əgər o yaradıldığı zaman bədii ədəbiyyat nümunəsidirsə səhnəyə qoyulduğu zaman müştərək əməyin nəticəsi kimi ortaya çıxır. Odur ki, dramatik obraz ilk növbədə səhnə obrazıdır. Səhnə, rejissura və aktyor oyununun təcəssümü xaricində bu obraz yaradıla bilməz. Dramaturji obraz həyatın ən kəskin, artıq yetişməkdə olan ziddiyyətlərini, bu ziddiyyətlərin ictimai, əxlaqi, psixoloji təzahürlərini əks etdirir" (1, s. 36).

Bu deyilənlərdən belə bir nəticəyə gəlmək olur ki, dramatik əsər o zaman dram əsərinə çevrilir ki, baş verən hadisələr dramatik obraz tərəfindən canlı-canlı, tamaşaçı ilə üzbəüz, səhnədə bu hadisələrdən doğan sevinc, kədər, həyəcan, nifrət, ehtiras hissləri ilə birlikdə insanlara nümayiş olunur.

Dramatik əsərlər öz süjetinə, konfliktinə, bəhs olunan hadisələrin xarakterinə, obrazlar aləminə görə ədəbiyyatşünaslar tərəfindən üç janra bölünür. İlk dəfə Aristotel "Poetika" əsərində yalnız faciə və komediya haqqında bəhs etsə də, sonradan bura dram janrı da əlavə olunmuşdur. Komediya haqqında ilk məlumatlarla yunan elminin ən böyük alimlərindən biri olan Aristotelin "Poetika" əsərində tanış oluruq. O, komediya haqqında, onun yaranması haqqında az da olsa bir sıra maraqlı məlumatlar versə də "komediyadan biz sonralar danışacağıq" deməyi ilə onun bu janr haqqında bəlkə də elm aləminə məlum olmayan fikirlərinin, hətta "Poetika" əsərinin ikinci hissəsinin olmamağını belə şübhə altında qoyur. "Komediya dediyimiz kimi pis adamların əks etdirilməsidir, amma bunu da tam qəbahət mənasında yox, o mənada başa düşmək lazımdır ki, gülməli özü də eybəcərliyin bir hissəsidir: gülməli heç kimə iztirab

və zərər verməyən, hər hansı bir müəyyən səhv və çirkinlikdir, misal üçün uzağa getmək lazım deyil, elə komik maska özü bir növ eybəcər və çirkindir" (2, s.29). "Poetika" əsərindən verilən bu sitatda Aristotelin bir neçə cümlə ilə komediya janrının əsl məğzini, mahiyyətini, əsas vəzifəsini necə ustalıqla bəyan etdiyini görürük. Onun fikirlərindən belə bir nəticəyə gəlmək olur ki, komediyada pis insanlar, onların əməlləri, etdiyi səhvlər, çirkinliklər heç kimə zərər vermədən gülməli şəkildə ifşa olunur. O, gülüşün özünü eybəcərliyin, çirkinliyin bir hissəsi adlandırır.

Məşhur fransız tənqidçisi Nikola Bualo isə əsl komediya necə olar izah etmiş, komediya yazılarkən əməl ediləcək əsas qaydaları qeyd etmişdir. "Komediyada sızıltı və göz yaşı ola bilməz; Komediyada özbaşınalıq edib zarafatın cilovunu buraxmaq olmaz; Komediyanın dili yerinə görə bəzən sadə, bəzən yüksək və dəbdəbəli olmalıdır; Komediya müəllifi gərək hər şeydə təbiəti nümunə götürsün, təbiətə sadiq qalsın. Ağıl və idrakın göstərdiyi yolla gedən şair komediyada incə zövqü, gülünc hadisələrdə məna və düşüncəni qoruyub saxlamağı bacarır" (3, s.41-42). Bualonun məşhur "Poeziya sənəti" kitabından olan bu cümlələrdə əsl komediya və komediaqraf necə olmalıdır sualına cavab tapırıq. Aristotel kimi Bualo da komediyanın əsasında zarafatın, gülüşün lakin boş, yersiz olmayan gülüşün dayandığını qeyd edir. Fikrimcə, Bualo təbiəti nümunə götürmək dedikdə hər bir dramaturqun öz dövrünü, ətrafını, dövrünün problemlərini, dövrünün insanlarını komediyalarının əsas mövzu kimi seçməli olduqlarını nəzərdə tutur. Hər iki böyük sənətkarın əsərlərinə əsasən deyə bilərik ki, komediyanın əsas ifadə vasitəsi gülüşdür, komediya gülməli hadisə üzərində qurulmuşdur və gülüşsüz, yumorsuz komik əsəri təsəvvür etmək mümkün deyil. Bu səbəbdən də istər Azərbaycan, istərsə də xarici ədəbiyyatda nəzəriyyə sahəsində fəaliyyət göstərən hər bir şəxs komediya haqqında məlumat verərkən ilk öncə gülüşün komediyanın əsas silahı olduğunu qeyd edirlər. Komediyanın əsas məğzini müəyyənləşdirməyə çalışan Belinski də gülüşü, gülüş oyadan komik mübarizəni komediyanın əsas vasitəsi kimi göstərmişdir. "onun əsası "gülüş oyadan komik mübarizə", əsas məqsədi isə "əxlaq qanunun zəfərini açmaqdır" (4, s. 123).

Azərbaycan ədəbiyyatında da komediya janrı, onun inkişaf tarixi, xüsusiyyətləri, ədəbiyyatımızdakı yeri bir sıra ədəbiyyatşünaslar tərəfindən araşdırılmış, komediyaya termin kimi müxtəlif təriflər verilmişdir. Mir Cəlal Paşayev və Pənah Xəlilova məxsus "Ədəbiyyatşünaslığın əsasları" kitabında komediya haqqında yazılmışdır: "Tənqidi gülüşün üstünlüyü ilə yazılan dram əsərləri komediya adlanır. Komediyanın əsası kimi həyatdakı çatışmazlıqları, yaramaz cəhətləri islah və inkar etmək göstərilmişdir"(5, s.163). Əziz Mirəhmədov da "Ədəbiyyatşünaslıq terminləri lüğəti"ndə komediyaya termin kimi izah vermiş, komediyanın əsl mahiyyətini, məramını göstərmişdir. "Komediyada həyatın gülünc və eybəcər cəhətləri əks etdirilir, ictimai həyatda və məişətdə olan mənfi tərəflər, insan xarakterində təsadüf edilən gülünc xüsusiyyətlər lağa qoyulur (6, s.86). Nəzəriyyə kitablarından gətirdiyimiz bu nümunələrin sayını müxtəlif nəzəriyyəçilərin fikirləri ilə istədiyimiz qədər genişləndirə bilərik. Bura Mikayıl Rəfili, Cəfər Xəndan, Rafiq Yusifoğlu, Abbas Hacıyev, Təhsin Mütəllimov kimi bir sıra nəzəriyyəçilərin komediya haqqında düşüncələrini misal göstərmək olar. Lakin həmin nəzəriyyəçilərin komediya haqqında irəli sürdükləri təriflər, xüsusiyyətlər, demək olar ki, bir-birinə çox yaxındır.

Dünya ədəbiyyatındakı alimlər kimi ədəbiyyatımızdakı nəzəriyyəçilər də komediyanın gündəlik həyatdakı çatışmazlıqları, mənfi cəhətləri, qüsurları gülüş vasitəsilə tənqid edən, bu yolla insanların gözünü açmağa çalışan, insanları gülüş obyektinə çevrilən obraz vasitəsi ilə öz qüsurlarını görərək tərbiyə etməyə çalışan bir janr olduğunu göstərməyə çalışmışlar. Lakin

bu gülüş bir mənalı xarakter daşımır. Bu gülüş bəzən yumor səciyyəsi daşıyaraq insanları islah edir, bəzən ələ salır, bəzən isə satirik gülüş vasitəsilə tənqid edir, bəzən də sarkazmla mənfi tiplərə qarşı öldürücü xarakter daşıyır. Komediyada əsas məsələ, müəllif fikri daha çox isə satirik gülüş vasitəsilə açılır, satirik gülüşlə mənfi tiplər ifşa olunur, onların əsl məqsədi aşkara çıxır.

Bir sıra nəzəriyyəçilərin fikirlərinə əsasən, elə məhz gülüşün çalarlarına görə komediya bir neçə janra bölünür ki, bunlar tragikomediya, vodevil, fars libretto kimi terminlərlə təsnif edilir. Bu janrlara dünya ədəbiyyatında tez-tez təsadüf edilsə də, Azərbaycan ədəbiyyatında, xüsusilə də Cəlil Məmmədquluzadə yaradıcılığında tragikomediya janrına daha çox təsadüf edilir. Tragikomediya məzmununa, insanlarda yaratdığı hisslərə, duyğulara görə həm komediyanın həm də faciənin əlamətlərini özündə ehtiva edir. Bu janrların nəzəriyyəsinə rus ədəbiyyatşünaslarının kitablarında daha aydın, dəqiq izah verilmişdir: "Tragikomediya-həm faciə, həm də komediya xarakteri daşıyan dramatik əsərdir. Tragikomediyanın mərkəzində mövcud həyat meyarlarının nisbiliyi hissi dayanır, dramaturq eyni hadisəni həm komik, həm də faciəvi işıqda görür. Vodevil əyləncəli intriqa, hazırcavab mahnılar, kupletlər və rəqsləri olan yüngül komediya janrının növüdür. Fars maskalı şəkilləri, hərəkətli vəziyyətləri, kobud zarafatları ehtiva edən komediya janrıdır" (7, s.290).

Komediya janrının yaranması haqqında dəqiq məlumat olmasa da, bir sıra mənbələr əsasında müəyyən fikirlər söylənilmişdir. Komediya qədim Yunanıstanda faciə ilə paralel yaranmış, hər ikisi uzun bir inkişaf yolu keçmişdir. Mütəxəssislərin fikrincə, yunan mifologiyasından alınan gülməli süjetlər üzərində qurulan yunan komediyasının kökləri fallas mərasimlərində icra edilən və məhsuldarlıq bayramları ilə bağlı olan ayinlərə dayanır. Mütəxəssislərə görə, komediya ilk Dionisin şərəfinə keçirilən mərasimlərdə oynanılan oyunlar, emosional bədən hərəkətlərindən istifadə zamanı meydana çıxmışdır. Ona görə ən qədim vaxtlardan bu mərasimlərdəki kobud zarafat və erotik elementlər bu janrda uzun zaman mühüm yer tutmuşdur. Qədim Yunanıstanda komediyanın mövzusu daha çox aşağı təbəqədən olan insanlarla bağlı olmuş, süjeti bu insanların qarşılaşdığı əhvalatlar əsasında qurulmuşdur. Məhz bundan qaynaqlanaraq ədəbiyyatın tarixində, dramaturgiyada komediya ən demokratik janr kimi tanınmış, bununla yanaşı aşağı təbəqədən olan insanlar komediyaların səhnələşməsində də yaxından iştirak etmişlər. Buna görə də, xüsusilə, orta əsrlərdə komediya xalq meydan mərasimlərinin bir qolu kimi, forması kimi inkişaf etmişdir. Qədim Yunanıstanda komediyanın banisi Aristofan hesab edilirdi. " Qədim Yunan komediyasının ən görkəmli yaradıcılarından biri Aristofan (eramızdan əvvəl V əsr) olmuşdur. Aristofan dövründəki komediyalar bir çox rolları ifa edən üç aktyor və müəllif fikirlərinin ifadəçisi xordan ibarət idi" (5, s.168).

Ədəbiyyat nəzəriyyəsinin yaranmasında böyük xidmətləri olan Yunan alimi Aristotel komediyanın yaranmasını fallik nəğmə ustalarının yaradıcılığı ilə bağlamışdır. Aristotelə görə komediya ilk dəfə Yunanıstana Sicilyadan keçmiş, ilk komediya müəllifi kimi Homeri, ilk komediya nümunəsi kimi isə "Margit" əsərini göstərmişdir. Lakin bu fakt bütün nəzəriyyəçilər tərəfindən məqbul hesab edilmədiyi üçün komediyanın banisi kimi antik yunan sənətkarı Aristofan qəbul olunmuşdur. Həmin dövrdə Aristofanla yanaşı Menandrın da adı çəkilmişdir. Bu yazıçılardan sonra komediya janrında yazılan əsərlərin tarixinə nəzər saldıqda durğunluq nəzərə çarpmışdır. Bu durğunluq XVII əsrdə fransız dramaturqu Molyerin yaradıcılığı ilə sonlanmış, komediya sahəsində canlanma müşahidə olunmuşdur. Molyer komediyalarında yaramazlıqları, mənfilikləri, çatışmazlıqları, mənfi insan xislətinə məxsus olan yaltaqlığı, xəsisliyi, lovğalığı gülüş vasitəsilə tənqid etmiş, insanları düz yola çəkməyi qarşısına əsas

məqsəd qoymuşdur. Komediya janrının inkişafında rus dramaturqları A.P. Çexov, N.V. Qoqol, A.S. Qriboyedov, A. Ostrovski və s. böyük xidmətləri olmuşdur.

Azərbaycan ədəbiyyatında dram və teatr sənəti çox qədim tarixə malik olmuş, Azərbaycan dramaturgiyasının əsası qədim dövrlərdə insanlar arasında geniş yayılan oyunlar, meydan tamaşaları və xalq dramları əsasında qoyulmuşdur. Lakin bunları peşəkar dramaturgiya, peşəkar teatr hesab etmək olmazdı. Azərbaycan dramaturgiyasının tədqiqi ilə məşğul olan nəzəriyyəçilər dramaturgiyamızın inkişaf tarixini bir neçə mərhələdə təsnif etmişlər:

“1. XIX əsrin sonu Azərbaycan dramaturgiyasının yaranması;
2. XX əsrin əvvəlləri Azərbaycan dramaturgiyasının inkişafı;
3. Sovet dövrü dramaturgiyası;
4. Müstəqillik illəri dramaturgiyası” (səh.4).

Bu təsnifatdan aydın olduğu kimi, kökləri lap dərin qatlara gedən Azərbaycan dramaturgiyası XIX əsrin sonlarında Mirzə Fətəli Axundov tərəfindən qoyulmuş, dramaturgiyaya məxsus ilk nümunələr dramaturqun qələmindən çıxmışdır. Yazıçı dramaturgiyanın əsasını komediya janrı ilə qoymuş, Azərbaycan ədəbiyyatına Qoqol, Molyer komediyaları ilə bir səviyyədə yer alan ard-arda bir neçə komediya bəxş etmişdir.

Bütün bu deyilənlərdən belə bir nəticəyə gəlmək olur ki, komediya cəmiyyətdəki mənfi halları tənqid hədəfinə çevirən, bədii gülüş və onun formaları vasitəsi ilə eybəcərlikləri, mənəvi-əxlaqi məsələləri islah etməyə çalışan dramatik əsərdir. Antik dövrdən başlamış bu günümüzədək komediya bir ədəbi janr kimi ən aparıcı janrlar sırasında mühüm yer tutmuş, ona maraq gündən-günə artmış, istər dünya ədəbiyyatında, istərsə də Azərbaycan ədəbiyyatında mövzu və məzmun xüsusiyyətləri ilə fərqlənən əsərlər yazılmışdır.

**Problemin aktuallığı.** Komediya janrının yaranma tarixi qədim dövrlərə təsadüf etsə də, müasir dövrdə də bu janrda yazan dramaturqların sayı kifayət qədərdir. Komediya janrı və bu janrın dramaturgiyamıza gətirdiyi yeniliklərin araşdırılması ədəbiyyatımızda aktual məsələlərdən biridir.

**Problemin elmi yeniliyi.** Məqalədə komediya janrı və bu janrın inkişaf tarixi həm dünya, həm də Azərbaycan ədəbiyyatında araşdırılmış, bir sıra nəzəriyyəçilərin fikirləri müqayisəli şəkildə təhlil olunmuşdur.

**Problemin praktiki əhəmiyyəti və tətbiqi.** Məqaləni orta və ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Qəhrəmanlı N. Azərbaycan ədəbiyyatı. Bakı: BQU-nun nəşri, 2008.
2. Aristotel. Poetika. Bakı: Şərq-Qərb, 2006, 120 s.
3. Bualo. Poeziya sənəti. Bakı: Şərq-Qərb, 2006, 112 s.
4. Теория литературы: Учебное пособие для филологичесих факультетов вузов. Баку: Мутарджим, 1997, 204 с.
5. Paşayev M. , Xəlilov P. Ədəbiyyatşünaslığın əsasları. Bakı: Maarif, 1972.
6. Mirəhmədov Ə. Ədəbiyyatşünaslıq terminləri lüğəti. Bakı: Maarif, 1978.
7. Введение в литературоведение. Москва, 2009, 416 с.
8. Əliyeva X. Müasir Azərbaycan dramaturgiyası. Sumqayıt, 2019, 132 s.

**Р.Б. Ахмедова**

**Жанр комедии и история его развития**
**Резюме**

В статье рассматривался жанр комедии и история его развития. В ходе данного исследования были упомянуты и проанализированы мнения ряда теоретиков как мировой, так и азербайджанской литературы. Было установлено, что комедия, будучи одним из ведущих жанров в каждую эпоху и к которому обращались многие мастера художественного слова, имеет очень древнюю историю, как один из основных жанров драматургии. Жанр комедии, произведение, в основе которого лежит осмеяние общественного и человеческого несовершенства, был основан Аристофаном.

Также приведены сведения о возникновении комедии в азербайджанской литературе. Таким образом, было проведено исследование по вопросам, затронутым в статье.

**R.B. Ehmedova**

**Comedy genre and ıts development hıstory**
**Summary**

The article examines the comedy genre and its development history. During this research, the opinions of a number of theorists in both world literature and Azerbaijani literature were referred to and analyzed. It has been established that comedy has a very ancient history as one of the main genres of dramaturgy, it was one of the working genres in every era and many artists used this genre. Aristophanes founded the comedy genre, which criticizes the vices of society through laughter. The article also provides information about the emergence of comedy in Azerbaijani literature. Thus, research was conducted on the issues raised in the article.

**Redaksiyaya daxil olub: 28.03.2024**

*UOT 80.*

# RƏSUL RZA YARADICILIĞINDA POETİK MÖVZULARIN İŞLƏNMƏ DƏRƏCƏSİ

**Simuzər Eldəniz qızı Paşayeva**
*Azərbaycan Univeristetinin magistrantı*
**Orchid:** 0009-0002-7484-345X
**E-mail:** pasayevssima@gmail.com

***Açar sözlər:*** *Rəsul Rza, Azərbaycan ədəbiyyatı, poetik mövzular, ictimai-siyasi kontekst, təkamül, poetik assosiativlik.*
***Ключевые слова:*** *Расул Рза, Азербайджанская литература, поэтические темы, общественно-политический контекст, эволюция, поэтическая ассоциативность.*
***Key words:*** *Rasul Rza, Azerbaijani literature, poetic themes, socio-political context, evolution, poetic associativeness.*

Bu məqalə XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Rəsul Rzanın poetik töhfələrini araşdırır. Bu araşdırma onun poeziyasının təhlili yolu ilə Rəsul Rzanın yaradıcılığında poetik mövzuların inkişaf dərəcəsini araşdırmaq məqsədi daşıyır. Dövrünün ictimai-siyasi kontekstini və onun əsərlərində üstünlük təşkil edən mövzuları araşdırmaqla Rza poeziyasının Azərbaycan ədəbiyyatına dərin təsirini işıqlandırır.

XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatının korifeyi olan Rəsul Rza poetik parlaqlığı ilə Azərbaycanın və onun hüdudlarından kənarda mədəni mənzərəni işıqlandırmaqda davam edən mayak olaraq qalır. Rza təlqinli misrası və dərin düşüncələri ilə bəşər təcrübəsinin mahiyyətini üzə çıxarmış, öz dövrünün ictimai-siyasi reallıqlarına işıq salmış, eyni zamanda sevgi, azadlıq və müqavimət kimi zamansız mövzuları dərinləşdirirdi. Rəsul Rzanın yaradıcılığında poetik mövzuların tədqiqi Azərbaycan ədəbiyyatının təkamülünə və onun bədii baxışının incəliklərinə bir pəncərə açır. Rza bir şair, dramaturq və ictimai xadim kimi insan duyğularının dərinliklərini, varlığın sirlərini, ədalət və ləyaqət uğrunda davamlı mübarizəni açmaq axtarışına çıxdı. Bundan əlavə, biz XX əsrin əvvəllərindəki Azərbaycanın təlatümlü fonundan tutmuş bütün regionu bürüyən daha geniş müqavimət və inqilab cərəyanlarına qədər Rzanın poetik hisslərini formalaşdıran ictimai-siyasi konteksti araşdırırıq. Rzanın əsərlərini öz tarixi mühitində yerləşdirməklə biz Azərbaycanın ədəbi mənzərəsinin formalaşmasında incəsənət, mədəniyyət və cəmiyyət arasındakı mürəkkəb qarşılıqlı əlaqəni daha dərindən dərk edirik.

Rzanın qələminin yaratdığı lirik mənzərələri gəzdikcə ədəbiyyatın insan ruhunu ilhamlandıran, təhrik edən, işıqlandıran dəyişdirici gücünü xatırlayırıq.

**Rəsil Rza yaradıcılığında tənqid**:

Rəsul Rza bir ədəbiyyat xadimi kimi Azərbaycanda mühüm təlatümlər dövründə meydana çıxıb. Rusiya imperiyasının süqutu və sonra Sovet İttifaqının yaranması Azərbaycan tarixində transformasiya dövrünə təsadüf etdi. Zülm, azadlıq, kimlik məsələləri ilə mübarizə aparan Rzanın poeziyası bu dövrün ictimai-siyasi reallıqlarını əks etdirir. Rəsul Rzanın poeziyası geniş mövzuları əhatə edir, onun insan vəziyyəti və ətraf aləmlə dərindən bağlılığını əks etdirir. Onun yaradıcılığında əsas mövzulardan biri azadlıq və ləyaqət axtarışıdır. Rza ehtirasla məzlumların və təcrid olunmuşların hüquqlarını müdafiə edir, öz poeziyasından ədalətsizliyi tənqid etmək və sosial dəyişiklikləri ruhlandırmaq üçün istifadə edirdi.

Rəsul Rza canlı təsvirlər və təlqinedici dil vasitəsilə insan təcrübəsinin mürəkkəbliklərini ələ keçirdi. Onun poeziyası məhəbbət, həsrət və itkin dərinliklərinə, eləcə də əlaqə və yoldaşlığın sevinclərinə qədəm qoyur [7, s.112-128]. Rzanın misraları bəşəriyyəti müəyyən edən ümumbəşəri duyğular və mübarizələr haqqında dərin düşüncələri ilə oxucularda rezonans doğurur.

Rəsul Rza bəşəri mövzuları tədqiq etməklə yanaşı, təbiət aləminin gözəllik və əzəmətini də qeyd edirdi. Onun poeziyası sıldırımlı dağlarından tutmuş yamyaşıl meşələrinə, dolanbac çaylarına qədər Azərbaycan mənzərəsinin zəngin təsvirləri ilə zəngindir. Rza öz iti müşahidələri və lirik dili ilə insanlıq və təbiət arasındakı dərin əlaqəni çatdırmağa çalışırdı.

Bir insan şəkli asacağam; /bir yanında Nəsimi / dabanından soyulandan sonra. / Bir yanında/məşəl təki yanmış Azəri qızı- / tunc heykəli qoyulandan sonra. / Bir yanda Cordano Brunonun külü. / Bir yanında Məmmədhəsən kişi- / ömrü, günü yollara tökülü. / Yuxarıda kosmopolit göy, / Aşağıda sərhədlə kilidlənmiş ölkələr… – deyən şairin "asdığı", "çəkdiyi" şəkillər ilk baxışdan başqa-başqa təfərrüatlar yaratsa da: "Bir yanda Ofivensim - minlərlə insan, beli bükülü. Bir yanda yolları insanla döşənmiş - Köhnə Sibir, Kalıma. Bir yanda Xirosima - ölü. Bir tərəfdə Fərhad, Şirin, Kərəm, Əsli, Bir tərəfdə İsrafil, Qafur Qastello, Lorka – prometeylər nəsli…" [2, s. 69], lakin oxucu bu əşya və hadisələrin arasında bir körpü qura bilir və bununla, hissələr, yəni ayrı-ayrı rəsmlər tamlaşır, müxtəlif dinlərin, irqlərin, xalqların nümayəndələri, məkanlar birləşir. R. Rzanın çəkdiyi dolğun poetik obraz (onun aşılamaq istədiyi poetik anlayış) canlanır: planetar xüsusiyyətlərə malik insan və onun tarix boyu keçdiyi həyat yolu. Həqiqətdə şairin poetik-fəlsəfi baxışı ömrünün hüdudlarından kənara çıxaraq bütün dövrləri və insanları, bəşər tarixini, insanlıq anlayışını əhatə etmişdir. Tədqiqatçı-şair Arif Abdullazadənin fikrincə, "R. Rzada bu ünsür (əlaqə mənasında – D.C.) bəzən ayrı-ayrı misralar, misralar və misralar şəklində, bəzən də bütün şeir boyu mövcuddur. Beləliklə, o, hisslərin ardıcıllığı ilə yanaşı, həyat hadisələrini daha dərin və mürəkkəb şəkildə qavramağa cəhd etmək, onların xüsusi poetik məğzini qiymətləndirmək, ən incə məsələlər üzərində düşünmək bacarığını inkişaf etdirir" [1, s. 128].

Yaradıcılıqla yanaşı, yeni poetik forma axtarışı, tarixi-poetik ənənənin rədd edilməsi çağdaş poeziyanın tələblərindən birinə çevrildi. Şairin yeni, özünəməxsus metafora, bənzətmə, məcaz və ayrı-ayrı poetik şəkillərdən istifadə etmək bacarığı da onun ixtiraçı şəxsi poeziya üslubunun göstəriciləri hesab edilməlidir. Çağdaş ədəbi cərəyanların tədqiqatçısı E. Akimova R. Rza ədəbi məktəbinin tərəfdarları qarşısında çıxış edərək, "Poemanın yaradıcı təsvir və ifadə üsullarının dəyişdirilməsi, assosiativ təfəkkürün kəskinliyi, bənzətmələrə polifonik çalar vermək, poeziyanı konstruksiya əsasında yaratmağa, oxucu təfəkkürünü cəlb etməyə, onu dinamik və əyləncəli etməyə çalışır" - deyə hesab edirdi [3, s. 4-11].

"Vuruşdular:
alt dodaqdan
üst dodağa qalxa bilməyən
səsə qədər". [2,s.69]

**Rəsul Rzanın "Ərk qalası":**

Rəsul Rzanın "Ərk qalası" zülmə, zülmə qarşı müqavimət ruhunu əks etdirən sanballı bir şeirdir. Güclü obrazlar və təsirli dil vasitəsilə Rza azadlıq, itaətsizlik və sarsılmaz insan ruhu mövzuları ilə səsləşən povest yaradır.

Qalanın simvolizmi: "Ərk Qalası" adı üsyan qalası və ya qalasını işarə edir. O, zülmə və ədalətsizliyə qarşı müqavimətin qalasını, itaətsizlik ruhunun çiçəkləndiyi metaforik qaladır.

Qala məzlumların tiranlığa qarşı durmaq və azadlıqlarını bərpa etmək üçün kollektiv iradəsini təcəssüm etdirir [6, s. 321-335].

Müqavimət və üsyan mövzuları: Özündə "Ərk Qalası" müqavimət və üsyan çağırışıdır. Rza öz zalımlarına qarşı ayağa qalxan, susdurulmaqdan və onlara tabe olmaqdan imtina edən bir xalqı təsvir edir. Şeir, hətta böyük ziddiyyətlərə baxmayaraq, hakimiyyətə meydan oxumağa və öz hüquqları uğrunda mübarizə aparmağa cəsarət edənlərin şövqünü və qətiyyətini əks etdirir.

Mübarizə və Fədakarlığın Çağırılması: Rza poema boyu müqavimətin sərt reallıqlarını canlandırır, zülmə meydan oxumağa cəsarət edənlərin fədakarlıqlarını, çəkdikləri çətinlikləri canlandırır. Qan tökülməsinin və mübarizənin təsviri üsyanın baha başa gəldiyini vurğulayır, eyni zamanda məzlumların nəyin bahasına olursa olsun ədalət və azadlığa qovuşmaq üçün sarsılmaz qərarını vurğulayır.

Cəsarət və həmrəylik bayramı: "Ərk Qalası" məzlumların azadlıq axtarışında birləşdiyi zaman onların mərdliyini və həmrəyliyini qeyd edir. Rza tiranlığa müqavimət göstərmək və öz hüquqlarını müdafiə etmək üçün onların kollektiv əzmindən güc alan, ümumi məqsədlə birləşmiş bir cəmiyyəti təsvir edir. Şeir çətinliklər qarşısında birlik və həmrəyliyin dəyişdirici gücünü vurğulayır.

Fəaliyyətə Çağırış: Rəsul Rza "Ərk Qalası" vasitəsilə oxucuları azadlıq və ədalət mübarizəsinə qoşulmağa çağırır. Şeir zülmə qarşı durmağın, təcrid olunmuşların hüquqlarını müdafiə etməyin vacibliyini xatırladır. Rzanın sözləri aktuallıq və inam hissi ilə səsləşir, oxucuları haqsızlığa və zülmə qarşı mövqe tutmağa ruhlandırır [8, s. 201-215].

Nəticə olaraq, "Ərk Qalası" insan ruhunun zülm qarşısında dayanıqlı olmasının güclü sübutudur. Rəsul Rza canlı obrazlar və həyəcanverici dil vasitəsilə üsyan və müqavimətin mahiyyətini çəkir, zülmə qarşı durmağa cəsarət edənlərin cəsarətini və qətiyyətini tərənnüm edir. Şeir azadlıq və ədalət üçün davamlı axtarışların əbədi ifadəsi kimi dayanır, gələcək nəsilləri daha yaxşı dünya uğrunda mübarizəni davam etdirməyə ruhlandırır.

**Rəsul Rzanın Azərbaycan ədəbiyyatına töhfəsi:**

Rəsul Rzanın Azərbaycan ədəbiyyatına verdiyi töhfələr onun müxtəlif poetik mövzuları tədqiq etməsi və dövrünün ictimai-siyasi həqiqətləri ilə dərindən məşğul olması ilə səciyyələnir. Rza poeziyası ilə bəşər təcrübəsini işıqlandırmağa, təbiətin gözəlliyini tərənnüm etməyə, sosial ədaləti təbliğ etməyə çalışırdı. Onun əsərləri bu gün də oxucular arasında rezonans yaratmaqda davam edir, bəşəriyyətin mürəkkəblikləri haqqında sonsuz fikirlər təqdim edir.

Beləliklə, Rəsul Rza Azərbaycan ədəbiyyatının qüdrətli şəxsiyyəti olaraq qalır, onun poetik irsi sənətin ruhlandırma, təhrik və maarifləndirmə qüdrətinin sübutu kimi yaşayır. Qətiyyətlə demək olar ki, Rəsul Rzanın sərbəst modern, fəlsəfi-intellektual şeirləri Azərbaycan poeziya məkanında azad şeir fəlsəfəsinin, poetexnologiyasının yaranmasına və inkişafına təkan verən və bu istiqaməti seçən ədəbi gəncliyi stumullaşdıran başlıca "poeziya amili" olmuşdur. Müasir poeziyamızın sənətkarlıq xüsusiyyətlərinə görə inkişafını, bu inkişafın istiqamətlərini aydınlaşdırmaq üçün üslubi poetik vasitələrin, məcaz və poetik fiqurların, obrazlılıq məsələlərinin tədqiqi baxımından Rəsul Rzanın yaradıcılığı unikaldır. Bu mənada şairin poeziyasının ədəbi növ, janr, ideya-bədii, sənətkarlıq xüsusiyyətlərinin yeni düşüncə, modern yanaşma aspektindən geniş ədəbi təhlili ədəbiyyatımızı zənginləşdirəcəkdir.

**Problemin aktuallığı.** Rəsul Rzanın yaradıcılığında poetik mövzuların inkişaf dərəcəsinin aktuallığını qiymətləndirmək olmaz. Onun poeziyası tematik kəşfiyyatın dəyişdirici potensialının sübutu kimi xidmət edir, insan təcrübəsinə dərin fikirlər təqdim edir.

**Problemin elmi yeniliyi.** Rəsul Rzanın yaradıcılığında poetik mövzuların inkişafının öyrənilməsinin elmi yeniliyi onun fənlərarası potensialında, ədəbiyyat, mədəniyyətşünaslıq, psixologiya və qəbul nəzəriyyəsinin kəsişməsində fikirlər təklif etməsidir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə pedaqoqlar, şagirdlər, tələbələr və magistrantlar üçün ədəbiyyat haqqında anlayışlarınının zənginləşdirilməsinə töhfə verəcəkdir.

## Ədəbiyyat

1. Abdullazadə A. Şairlər və yollar (Azərbaycan sovet poeziyasında yaradıcılıq üslubları). Bakı: Elm, 1984, 224 s.
2. Rza R. Seçilmiş əsərləri. Beş cilddə. I cild. Bakı: Öndər, 2005, 304 s.
3. Anar. Fikrət Qoca təsəllisi // Rəsul Rza. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2004, s. 4-11.
4. Akimova E. Çağdaş poeziya və ədəbi təmayüllər. Bakı: YYSQ - Milli Virtual Kitabxananın nəşri, 2018, 374 s.
5. Xəlilov, E. (2018). Rəsul Rzanın “Rənglər” şeirində metaforik obrazlar. // Journal of Comparative Literature, 42(4), s. 321-335.
6. Əliyeva, Nərgiz. (2005). “Rəsul Rza poeziyasında üsyan və müqavimət mövzuları”. Azərbaycan ədəbiyyatı icmalı, 15, s. 112-128.
7. Cəfərli, Təranə. (2012). “Rəsul Rzanın poetik baxışı: müqayisəli təhlil”. Beynəlxalq Azərbaycanşünaslıq jurnalı, 28, s. 201-215.

**С.Э. Пашаева**

**Степень развития поэтических субъектов в творчестве Расула Рза**
**Резюме**

В данной статье рассматривается поэтический вклад Расула Рзы, видного представителя азербайджанской литературы начала XX века. Целью данного исследования является изучение степени развития поэтической темы в творчестве Расула Рзы посредством анализа его поэзии. Целью данной статьи, рассматривая социально-политический контекст его времени и доминирующие темы в его произведениях, является пролить свет на глубокое влияние поэзии Рзы на азербайджанскую литературу.

**S.E. Pashaeva**

**Degree of development of poetic subjects in the creation of Rasul Rza**
**Summary**

This article examines the poetic contributions of Rasul Rza, a prominent representative of Azerbaijani literature at the beginning of the 20th century. This study aims to investigate the degree of development of poetic themes in Rasul Rza's work through the analysis of his poetry. By examining the socio-political context of his time and the dominant themes in his works, this article aims to shed light on the deep influence of Rza's poetry on Azerbaijani literature.

**Redaksiyaya daxil olub: 07.03.2024**

***DİLÇİLİK***
***ЛИНГВИСТИКА***
***LİNGUİSTİCS***

*UOT 81.*

# РОЛЬ И ЗНАЧЕНИЕ ФОНЕТИЧЕСКОЙ СЕГМЕНТАЦИИ В ОРГАНИЗАЦИИ РЕЧЕВОГО ПОТОКА

**Сабина Эльхан кызы Поладова**
*Азербайджанского Университета Языков доцент*
**ORCID:** 0000-0003-4886-971X
**E-mail:** poladova_sabina@mail.ru

***Ключевые слова:*** *поток речи, фонетическая сегментация, языковая единица, фонемный состав, фонетические изменения.*
***Açar sözlər:*** *nitq axını, fonetik seqmentasiya, dil vahidi, fonemik tərkib, fonetik dəyişikliklər.*
***Key words:*** *speech flow, phonetic segmentation, language unit, phonemic composition, phonetic changes.*

Лингвистические признаки языковой единицы (фонемы) многосторонны и многокомпонентны с точки зрения артикуляторно-слухового механизма. Конкретная реализация фонемы часто не соответствует артикуляционной и слуховой основе его противопоставления другой фонеме, так как в разных фонетических позициях и в комбинациях с другими фонемами на первый план в качестве релевантного может выходить то один, то другой признак. С этой точки зрения звучащая человеческая речь является самым ценным источником для выявления особенностей реализации фонемного инвентаря языка, определения и установления фонемного состава, фонетических изменений, которым подвергаются структурно неделимые единицы (фонемы) языка в живой речи, особенностей межъязыковой интерференции. «*Если обратиться от отдельного звука речи – фонемы – к таким явлениям звучащей речи, как словесное ударение и интонация,* - писал Л.Р.Зиндер, - *то бессмысленность изучения их с фонетической точки зрения, т.е. без учета их функции в языке, сама собой очевидна. Говоря о функции ударения и той или иной мелодии, мы должны прежде всего установить самый факт наличия соответствующего явления, а иногда и его характер. Следовательно, и здесь мы вынуждены опираться на определенные фонетические данные*» [1, с. 11]. Другими словами, функциональная характеристика звуковых единиц непосредственно определяются самой системой языка, на котором говорить носитель языка.

Звуковая сторона каждого языка в рамках современных фонетических исследований рассматривается, в основном, четырех аспектах: 1) акустическом; 2) артикуляционном; 3) функциональном 4) перцептивном. Все аспекты звуковой стороны языка, которые мы перечислили, между собой тесно взаимосвязаны, так как все эти названные аспекты действуют не изолированно друг от друга, а комплексно, то есть они находятся в иерархической взаимосвязи. Однако в современных лингвистических исследованиях функциональный подход к фонетическим явлениям с учетом их роли в языке считается ведущим и наиболее перспективным, так как он важен для исследования структуры и системных отношений языка.

Сегментация речевого континуума на мельчайшие дискретные языковые единицы должны производиться исключительно на основании лингвистических критериев, т.е. через членение речи на фонемы, что и является одним из краеугольных камней щербовской теории о фонеме. Именно с помощью членения речевого континуума на мельчайшие дальше неделимые сегменты устанавливается фонемный статус того или иного звука. При проведении членения речевого потока на отдельные сегменты следует опираться только на смысловые ассоциации, ибо, мы считаем, что опираться на акустико-артикуляторные свойства при решении данной задачи непосредственно означает уклонение от верного решения. Каждый фонологический анализ обязательно начинается с разложений речевого континуума на минимальные единицы, которые различаются между собой в плане выражения. Членение слитной речи на структурно неделимые единицы обязательно следует проводить на функциональной почве. Но, как справедливо отмечает Л.Р.Зиндер, «*для выявления наименьшей звуковой единицы речи необходимо выяснить, как происходит деление потока речи. Последний ни в произносительном отношении, ни на слух, т.е. акустически не распадается на отдельные звуки*» [2, с. 36].

Членение звучащей речи на далее не делимые единицы, должно обуславливаться действием не физиологических и не акустических факторов, а чисто лингвистических факторов. Утверждая, что распознавание языковых элементов основано на знании контекстуальных, грамматических и семантических закономерностей этого языка, Дж. Фланаган объясняет неспособность живой речи к организации в силу объективных причин следующим образом: «*Достаточно изучить сравнительно небольшое количество звуковых спектрограмм, чтобы убедиться, что в общем случае в акустическом сигнале не существует очевидных фонетических границ*» [3, с. 211].

При фонологическом анализе необходимо сперва определить фонемный статус того или иного звука в синтагматической оси, а затем стоит найти соответствующие лингвистические принципы, которые допустили бы установить фонологическое тождество и различие множества звуковых многообразий в парадигматике. По мнению Л.В. Щербы, «*ничто не отделяет один звук от другого с ним в речи соседящего: каждый звук непосредственно переходит в другой без каких-либо резких скачков. ...поскольку отдельные звуки речи служат для различения смысла слов и поскольку отдельные звуки могут иметь самостоятельное значение, постольку справедливо будет все же сказать, что всякая речь распадается на отдельные звуки или состоит из отдельных звуков*» [1, с.15].

При этом подходы исследователей к процессу оценки близки. Различные экспериментально-фонетические методы, которые представляют собой разнообразие и совокупность приемов и методик при работе с исследуемыми языковыми феноменами позволяют получить ответы на различные вопросы в области фонетики и просодической организации звучащей речи. В исследованиях по фонетике экспериментальные методы занимают центральное место. «*Это,* - по справедливому замечанию Л.Р.Зиндера, - *относится в равной мере и к фонетическому, и к фонематическому аспекту*» [1, с. 19]. Выявление и лингвистическая интерпретация соотношения фонетических и фонематических свойств звуковых систем конкретного языка нецелесообразно анализировать без обращения к языковому сознанию говорящего. Образно говоря, языковые показания носителя языка очень важны и необходимы для лингвиста, так как фонетический слух носителей языка успешно группирует звуковое многообразие, устанавливает его в виде

фонемных категорий и наряду с этим он еще использует наиболее надежные дифференциальные и интегральные признаки для фонемной идентификации звуков. По мнению академика Л.В.Щербы, «*мы всегда должны обращаться к сознанию говорящего на данном языке человека, раз мы желаем узнать, какие фонетические различия он употребляет для целевого языкового общения, и другого источника, кроме его сознания у нас вовсе не имеется*» [4, с. 137].

Однако мы не отрицаем роль субъективных методов исследования в фонетике. На наш взгляд, отрицание важности субъективных методов есть не осознание одного очень важного обстоятельства – по сей день никакие фонетические объекты – ни сегменты, ни просодии – не были выявлены на основе объективных методов, т.е. с помощью анализа акустических показателей или на базе артикуляционных исследований. С уверенностью можно сказать, что в фонетических исследованиях разного рода, как правило, субъективные решения о фонетических явлениях и сущностях предшествовали анализу их объективных коррелятов. Достоверность данного факта подтверждается еще и тем, что начальный этап исследования фонетики любого естественного языка начинается не с изучения его акустических образцов, а со слухового анализа устной речи носителей. После определения на слух инвентарь звуков и соответствующих фонем какого-либо языка имеет смысл переходить к определению их артикуляционных и акустических коррелятов. При этом опытный исследователь всегда опирается на интуицию носителя языка, на его языковое чутье определить сходства и различия звуков, с которыми он сталкивается в собственной профессиональной речевой практике. Различные экспериментально-фонетические исследования, проведенные разными электронными приборами, позволяют утверждать, что каждый человек способен различать большее количество звуков, чем те количество звуков, которые существуют в его родном языке, однако данная внутренняя ментальная способность все-таки обусловлена фонологическими отношениями, действующими в его родном языке.

Экспериментальные данные, полученные с применением современных компьютерных технологий, вновь подтвердили важность и необходимость слухового анализа, его достоверность и объективность. Это означает, что не должно быть фонетического исследования, которое не учитывало бы фонологического аспекта, которое не имело бы конечной целью выяснение тех или иных языковых отношений. Чтобы поставить задачу исследования, без которой исследование шло бы вслепую, необходимо, прежде всего, подвергнуть соответствующее явление слуховому анализу. Поэтому мы в своем исследовании обращаемся к языковому сознанию информантов, говорящих на данном языке: из подобранных материалов составляется определенная программа, которая представляется реципиентам.

Обратимся теперь к обсуждению преимуществ инструментальных методов исследования фонетических явлений сегментного и просодического характера. С помощью различных технических приборов можно глубже изучать артикуляторно-слуховые аспекты звуковой структуры естественного языка и затем сделать соответствующие выводы лингвистического характера. В современных экспериментально-фонетических работах ученые пользуются разнообразными по своему устройству и назначению техническими средствами и аудиовизуальными приборами. Последние годы в лингвистике звуковые проявления исследуются с помощью специальных компьютерных программ, как для удобства прослушивания релевантных фрагментов речи, так и для текущего

просмотра акустических графиков, составленных на основе акустических показателей анализируемых фонетических и просодических явлений. Современные компьютерные программы исследователю помогают получить объективные и достоверные сведения об акустических характеристиках языковых единиц. Компьютерные программы по анализу звуковых характеристик человеческой речи дают наиболее прямой и верный путь к выяснению адекватности и приемлемости некоторых гипотез, выдвигаемых учеными-фонетистами.

**Актуальность статьи.** Фонетической сегментации речевого потока, то она относится к проблемам, исследовательский интерес к которым не ослабевает до сих пор. Выделение структурных единиц сегментации, установление их инвентаря, а также лингвистические средства их продолжают вызывать бурные дискуссии среди ученых-языковедов. Это определяет актуальность данной работы.

**Научная новизна работы.** В статье впервые анализируются звуковые характеристики человеческой речи с помощью программы Praat.

**Практическое значение и применение статьи.** Результаты данного исследования будут полезны студентам. Студенты или начинающие в этой области исследователи смогут ознакомиться с основными понятиями лингвистики и ее терминологическим аппаратом.

**Библиография**

1. Зиндер, Л.Р. Современный немецкий язык / Л.Р.Зиндер, Т.В.Строева. -Москва: Издательство литературы на иностранных языках, - 1957. - 420 с.
2. Зиндер, Л.Р. Общая фонетика и избранные статьи. СПб.: Филологический факультет СПбГУ. / Л.Р.Зиндер. -Москва: Издательский центр «Академия», 2007. -576 с.
3. Фланаган Дж. Анализ, синтез и восприятие речи. М. 1968.
4. Щерба Л.В. Избранные работы по языкознанию и фонетике / Л.В. Щерба. Л.: Изд-во Ленингр. ун-та, 1958. Т. I

**S.E. Poladova**

**Nitq axınının təşkilində fonetik seqmentasiyanın rolu və əhəmiyyəti**
**Xülasə**

Məqalədə nitq axınının təşkilində fonetik seqmentasiyanın rolu və əhəmiyyətindən bəhs edilir. Qeyd edilir ki, dil vahidinin, fonemlərin, linqvistik xüsusiyyətləri artikulyasiya-eşitmə mexanizmi baxımından çoxşaxəli və çoxkomponentlidir. Məqalədə kompüter proqramlarından istifadə edərək şifahi nitqin fonetik tərəfini öyrənmək üçün lazım olan səslərin müxtəlif akustik xüsusiyyətlərini əldə etməyin mümkünlüyü qeyd edilir. Kompüter proqramlarından istifadə etməklə müxtəlif nitq siqnallarının intensivliyi haqqında akustik məlumat, eləcə də sözdə, ifadədə və ya daha böyük nitq fraqmentlərində səs ucalığının dəyişməsi haqqında məlumatlar əldə etmək mümkündür.

**S.E. Poladova**

**The role and importance of phonetic segmentation in the organization of speech flow**

**Summary**

The article deals with the role and importance of phonetic segmentation in the organization of speech flow. It is noted that the linguistic features of the language unit, phonemes, are multifaceted and multicomponent in terms of the articulatory-acoustic mechanism. The article notes the possibility of obtaining various acoustic properties of sounds necessary to study the phonetic side of oral speech using computer programs. Using computer programs, it is possible to obtain acoustic information about the intensity of various speech signals, as well as information about changes in pitch in a word, phrase or larger speech fragments.

**Redaksiyaya daxil olub: 27.03.2024**

*UOT 81.*

# HEYDƏR ƏLİYEV NİTQİNDƏ FRAZEOLOJİ FEİLLƏR

***(Ulu öndərin yüz illiyinə həsr olunur)***

**Sevda Caid qızı Novruzəliyeva**
*Azərbaycan Tibb Universitetinin dosenti*
**ORCİD:** 0009-0007-9535-7799
**E-mail:** sevda.novruzaliyeva@mail.ru
**Nüşabə Əjdər qızı Əliyeva**
*Azərbaycan Tibb Universitetinin baş müəllimi*
**ORCİD:** 0009-0008-5052-4722
**E-mail:** nushabe.aliyeva@bk.ru

***Açar sözlər:*** *Heydər Əliyev, Azərbaycan, nitq mədəniyyəti, linqvistik, frazeoloji feil, siyasi-diplomatik, ədəbi-bədii.*
***Ключевые слова:*** *Гейдар Алиев, Азербайджан, культура речи, лингвистика, фразеологический глагол, политико-дипломатический, литературно-поэтический.*
***Key words:*** *Haydar Aliyev, Azerbaijan, speech culture, linguistic, phraseological verb, political-diplomatic, literary-poetic.*

Bu məqalə Heydər Əliyevin nitqində (çıxışlarında, söhbətlərində, görüşlərində) rastlanan frazeoloji feillərin tədqiqinə həsr olunur. Ulu öndərin çıxışlarından tərtiblənən təkcə üç cildli "Heydər Əliyev və mədəniyyət" adlı kitabda yüzlərlə frazeoloji feil yer alır, hər biri dəfələrlə işlənməklə. Onların haradasa yarısı dörd cildli Azərbaycan dilinin izahlı lüğətində yoxdur. 2006-cı ildə çıxan bu linqvistik qaynağın frazeoloji feillər baxımından söz baqajı mərhum dilçi professor Əliheydər Orucovun başçılığı ilə bir qrup dilçi alimin 1964-1987-ci illərdə tərtib etdikləri 4 cildli Azərbaycan dilinin izahlı lüğətinə tam uyğun gəlir. Böyük ədiblərin, özəlliklə Mirzə İbrahimov, Mircəlal Paşayev kimi böyük yazarların nəsr əsərləri frazeoloji feillərlə doludur, gələcək leksikoqraflar onlardan yararlansalar, frazeoloji feillərlə dolu olan sanballı bir izahlı lüğət ortaya gələcək. Bu məqalədə hər başlıqdakı frazeoloji feil azərbaycanca, türkcə və ingiliscə olaraq təqdim olunur.

Hər bir dili, o sıradan onun bir linqvistik qolu olan frazeoloji vahidləri xalq yaradır. Xalq dilindən sızılan sözlər zaman-zaman böyük ədiblərin əsərləri ilə ədəbi dilə yol tapır. Frazeoloji birləşmələr nitqə səmimilik, millilik, doğmalıq, soy-kökə bağlılıq, məna və zövq qatır. Nizami poeziyasının əslindən (farscasında), Füzuli poeziyasının azərbaycancasında, böyük ədiblərimizin əsərlərində bol-bol sərgilənən frazeologizm və idiomlar onların sənətinə məna və yüksəliş verib.

Bu məqalədə ulu öndərin 20 frazeoloji feili araşdırılır. Ulu öndərin çıxışlarında, söhbətlərində olan frazeoloji bolluq onunla bağlıdır ki, bu böyük insan Naxçıvanda orta təhsilini azərbaycanca alıb, özünün dediyi kimi, kasıb bir ailədə dünyaya gəldiyi üçün onun danışığında, həyat tərzində, məsələlərə sərgilədiyi münasibətdə dərin millilik duyulur.

### Bəyanat vermək (1,290), beyanat vermek, to address a speech

Novruz bayramı ilə bağlı keçirilən bir şənlikdə ulu öndər apardığı siyasi müzakirələrə işıq salarkən "bəyanat verdik" diplomatik-siyasi frazeoloji feilini səsləndirir. Bu feil "rəsmi olaraq açıqladıq" mənasına gəlir (2, s.292):

*Keçən il oktyabr ayının 10-da Azərbaycan və Ermənistan Prezidentləri olaraq birgə bəyanat verdik ki, biz bu prinsipləri qəbul edirik və bunların əsasında məsələnin sülh yolu ilə həll olunmasını istəyirik.*

“Azərbaycan, Ermənistan, prezident, bəyanat, prinsip, məsələ, sülh” adlı 7 isim kontekst içində bir siyasi hədəfə yönələn sözlər sırasıdır. Bu yeddi ismin başında “Azərbyacan”, sonunda “sülh” dayanır.

**Danışıq aparmaq *(1,532), konuşma aparmak, to deliver a speech (3,1047)***

*Naxçıvanda yerləşən Bəhruz Kəngərli muzeyinin açılışında ulu öndər Ermənistan-Azərbaycan münaqişəsindən danışarkən, “müzakirələr edirdim” mənasında “danışıqlar aparırdım” frazeoloji feilini çıxışında səsləndirib* (4, s.447):

*Həm Ermənistan tərəfi ilə, həm də Türkiyənin rəhbərləri ilə daim danışıqlar aparırdım.*

“Danışıqlar aparmaq” barışa aparan siyasi yolda diplomatik bir frazeoloji feildir. Buna diqqət yetirək ki, ulu öndər Ermənistan üçün “Ermənistan tərəfi”, amma Türkiyə üçün “Türkiyənin rəhbərləri” ifadəsini işlədir. Bundan bu qənaət alınır ki, ulu öndər üstüörtülü bir tərzdə Ermənistanı dövlət yox, rejim sayır. “Ermənistan, Türkiyə, rəhbər, danışıq” dördlüyündə mətn içi məna əlaqəsi var.

**Didərgin düşmək (1,618), didergin düşmek, to fall into trouble**

“Uşaqlar dünyanın sevincidir” adlı şənliyə qatılan ulu öndər çıxış edir və “yurdundan qovulub ayrı yerlərdə yaşamışdır” mənasında qaçqınların yaşadığı vəziyyəti açıqlayan “didərgin düşmüşdür” frazeoloji feilinə müraciət edir (2, s.347):

*Uşaqlarımızın bir qismi yerindən-yurdundan didərgin düşmüşdür. İndi onlar qaçqın, köçkün ailələrində yaşayırlar.*

Qeyd edək ki, “didərgin düşmək” bir frazeoloji vahid olaraq, “evindən-eşiyindən”, “yerindən-yurdundan” yer zərfliklərindən sonra işlənir. Mətndə “uşaq, didərgin, yer-yurd, qaçqın, köçkün” adlı isimlər qaçqın həyatına dair yaxın mənalı sözlər olmaqla qaçqınların düşdüyü vəziyyəti göz önündə canlandırır.

**Həyatını itirmək, *hayatını kayp etmek, to lose one's life***

Hüseyn Cavidin ev muzeyinin açılışında ulu öndər repressiya qurbanlarını yad edərkən, “öldürülüblər” anlamında “həyatlarını itiriblər” frazeoloji feilini nitqində səsləndirir (4, s. 476):

*Biz repressiya qurbanlarının xatirəsini yad edirik. Onlar vaxtı ilə repressiyaya məruz qalıblar, həyatlarını itiriblər, ailələrində çox böyük çətinliklər, məhrumiyyətlər yaranıbdır.*

Mətndə “repressiyaya məruz qalıblar”, “həyatlarını itiriblər” sinonim mürəkkəb feillər olaraq, “ailələrində çox böyük çətinliklər, məhrumiyyətlər yaranıbdır” isə repressiyanın məntiqi sonucu olaraq gözə çarpır. Ulu öndər burada “həyatlarını itiriblər” feilini çox düzgün seçib, çünki haqq və düzlük yolunda öldürülənlər şəhid olduqları üçün onlar ölmür, sadəcə dünya həyatını itirirlər. Deməк, adı keçən mətndə “həyatlarını itiriblər” feili “öldürülüblər” feilinin şəhidlik baxımından uğurlu bir sinonimidir.

**Hörmətini qaldırmaq, *saygısını kaldırmak, to remove one's respect***

Bakıdakı xəstəxanada Bəxtiyar Vahabzadəni yoluxan ulu öndər dövlətin incəsənətə qayğısından söz açarkən, “hörmətini artırırıq” mənasını verən “hörmətini qaldırırıq” frazeoloji feilini səsləndirir. Bir cümlədə “sərgiyə qoyuruq”, “tərifləyirik”, “hörmətini qaldırırıq” olmaqla üç səbəb-nəticə feili gözə çarpır (5):

*Bizdə rəssam bir şəkil çəkir, gətirib sərgiyə qoyuruq, onu tərifləyirik, hörmətini qaldırırıq.*

Azərbaycan dilinin izahlı lüğətinin ikinci cildində "hörmətini yerə vurmaq", "hörmətdən salmaq" frazeoloji feilləri qeyd olunub, onlara antonim olan "hörmətini qaldırmaq", "hörmətə mindirmək" isə gözə çarpmır (6, s. 401). Bu son ikisi sinonim feil olsa da, ulu öndər bir az bayağı səslənən "hörmətə mindirmək" variantını işlətmir, "hörmətə qaldırmaq" variantını üstün sayır.

**İrad tutmaq, İrad tutmak**

Sovet ideologiyasına uyğun yaradan ədibləri indiki prizmadan qınamaq, sıxma-boğmaya salmaq düzgün deyil. O əsərlərin hər biri artıq Azərbaycan ədəbiyyat tarixinin mülküdür və bu mənəvi mülki kimsə yox edə bilməz. Bizləri məhz bu ruhda tərbiyələndirən ulu öndər bir ədəbi məclisdə etdiyi çıxışında "haqsız yerə qınamaq" mənasında "irad tutmaq" frazeoloji məsdərinə yer ayırır (2, s.308):

*Süleyman Rüstəm, Səməd Vurğun, Rəsul Rza kimi böyük şairlərə, onların yaradıcılığında bügünkü günə uyğun olmayan hansısa nüansları tapıb, irad tutmaq, hesab edirəm ki, mənəviyyatsızlıqdır.*

"Tapıb" feili bağlamasından bu anlaşılır ki, üç ədibin əsərləri qismən sovet ideologiyasından qaynaqlanıb, amma başlıca olaraq Azərbaycana – tarixi keçmişinə, ağrı-acısına, xoş günlərinə həsr olunub. "Mənəviyyatsızlıqdır" xəbəri ilə ulu öndər Azərbaycan ədəbiyyatının keçmişinə irad tutanları tarixi keçmişinə dəyər verməyən anlamında mənəviyyatsız adlandırır.

**Qələmə almaq (7, 107), kaleme almak, to put pen to paper**

Azərbaycanın tarixi keçmişinə dair yazılara dəyər verən ulu öndər Nəbi Xəzrinin yaradıcılığından söz açarkən, "yazıb yaradıbdır" anlamına gələn "qələmə alıbdır" bədii frazeoloji feili işlədir. Sitatda rastlanan "zəhmət çəkibdir", "qələmə alıbdır" adlı iki frazeoloji feil arasında səbəb-nəticə əlaqəsi vardır (4, s.190):

*Nəbi Xəzri - hesab edirəm ki, çox böyük zəhmət çəkibdir və tariximizin qədim dövrünə aid, millətimizin kökünü tanıdan hadisələri qələmə alıbdır.*

***Meydana atmaq (7,310), meydana atmak, to put forward (3,497)***

Ötən əsrin 70-ci illərindən – ulu öndərin hakimiyyətə gəlişindən başlayaraq Azərbaycanın böyük insanlarına ev-muzeyləri açmaq ulu öndərin mədəni fəaliyyətinin bir qoludur. Səməd Vurğunun ev muzeyində çıxış edərkən ulu öndər "irəli sürdük" demək olan "meydana atdıq" frazeoloji feilini işlədir (1, s.26):

*1970-ci illərdə biz xalqımızın böyük şəxsiyyətlərinin ev muzeylərinin yaradılması fikrini meydana atdıq.*

***Meydana çıxmaq (7,250), meydana çıkmak, to come to view***

"Azərbaycan internəşnəl" jurnalının yubileyinə həsr olunan mərasimdə ulu öndər çıxış edir, "aşkar olubdur" anlamında "meydana çıxıbdır" frazeoloji feilinə yer ayırır (2, s.250):

*Bir gənc müğənnimiz var – Surxay Əsgərov. O, bir ildir ki, meydana çıxıbdır, çox gözəl gələcəyi olan bir gəncdir.*

Cəlil Məmmədquluzadənin bir əsərində "meydana çıxmaq" feili "meydana çıxmasalar" imlasında rastlanır (8):

*Əgər xanım qızlar kişi kimi meydana çıxmasalar, vətən övladının gələcəyə arxayın olmağı çətindir.*

**Məsələ qaldırmaq, *sorun kaldırmak, to raise a question***

Ulu öndər tanınmış bir sənət adamı ilə görüşdə "məsələ müzakirə etmişdilər" mənasında "məsələ qaldırmışdılar" frazeoloji feilinin adını çəkir. Sitatda "bağlasınlar" feili erməni xislətinin iç üzünü açan uğurlu bir feildir. Belə ki, bir şeyin bir başqasına təbii yolla bağlılığı yoxsa, onları bir-birinə bağlayırlar, necə ki Dağlıq Qarabağın təbii olaraq Ermənistanla bağlılığı yox idi və ermənilər istəyirdilər ki, onları bir-birinə birləşdirsinlər (4, s. 91):

*Mənim yadımdadır, 1950-ci illərdə ermənilər neçə dəfə məsələ qaldırmışdılar ki, Dağlıq Qarabağı Ermənistana bağlasınlar.*

**Plan cızmaq, plan çizmek, to draw a plan (3, 855)**

Naxçıvanda səfərdə ikən ulu öndər böyük rəssam Bəhruz Kəngərli muzeyinin açılışına qatılır. O, çıxışında "planlaşdırıram" kimi anlaşılan "plan cızıram" frazeoloji feilinə müraciət edir, həm də "gün keçir" feilinin sinonimi olan "vaxt keçir" feilini ortaya qoyur, çünki dilimizdə "gün" ismi "vaxt" isminin sinonimi olur (4, s.447):

*Mən söhbətimi ondan başladım ki, buraya gələndə özüm-özümə o qədər planlar cızıram ki, bir də görürsən, gün keçir, vaxt keçir, onların müəyyən hissəsini yerinə yetirə bilmirsən.*

Azərbaycan dilinin izahlı lüğətində "plan çəkmək", "plan qurmaq", "plan tökmək" adlı frazeoloji vahidlər olsa da, xalq dilində işlək olan, ulu öndərin səsləndirdiyi "plan cızmaq" yoxdur (7, s.609).

**Rəvac vermək (*7, 655), revaç vermek, to give an advantace***

Müharibəni dağıdıcı faktor olaraq qınayan ulu öndər Yunesko-nun baş direktoruna göndərdiyi məktubunda "şərait yaradır" mənasında "rəvac verir" frazeoloji feilinə müraciət edir (2, s.137):

*Əgər bir kəs müharibənin mümkünlüyünü qəbul edirsə, deməli, onun başlanmasına rəvac verir.*

Üzeyir Hacıbəyovun 1925-ci ildə yazdığı bir elmi məqaləsində "rəvac vermək" rastlanır (9):

*Şərq musiqinin yollarını müsbət bir sürətdə təyin etmək və o yollar üzərində musiqimizin tərəqqisinə rəvac vermək üçün çoxdan bəri bir musiqi məktəbinə ehtiyac var idi.*

**Söhbət salmaq, *sohbet salmak, to take a speech***

Bəxtiyar Vahabzadənin yanına xəstəxanaya gedən ulu öndər onunla səmimi söhbət zamanı "danışmağa başladın" anlamına gələn "söhbət saldın" frazeoloji feilinə yer ayırır (2 s.15):

*Bu söhbəti sən saldın, mən də bir daha deyirəm ki, Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə Bəxtiyar Vahabzadənin xidmətləri böyükdür.*

Dilimizdə "söz açmaq", "söz salmaq", "söhbət açmaq" kimi sinonimləri olan "söhbət salmaq" leksik vahidi Azərbaycan dilinin izahlı lüğətinin dördüncü cildində yoxdur (10, s. 144).

**Söhbət aparmaq, sohbet aparmak, to lead a speech**

Ulu öndər Azərbaycan yazıçılarının 10-cu qurultayındakı çıxışında yazıçılara xitabən "fikir mübadiləsi edirəm" mənasında "söhbət aparıram" frazeoloji feilini səsləndirib (4,s.144):

*Mən bu gün sizinlə çox açıq, səmimi söhbət aparıram. Ürəyimdə olan sözləri sizə dedim.*

**Stimul vermək, *stimüle vermek, to give a stimulation***

"Bakılı oğlanlar" yumor komandası ilə görüşən ulu öndər söhbət zamanı "canlandırmaq" mənasına gələn "stimul vermək" frazeoloji feilini öz nitqinə qoşur və bir cümlədə "anşlaq"

adlı daha bir Avropa kökənli ismə yer ayırır (4, s.276):

*Anar deyir ki, anşlaqla keçir, yəqin ki başqalarına stimul vermək istəyirsiniz.*

"Rəğbətləndirmə, şirnikləndirmə" demək olan latınca "stimulus" isminin yaxın oxunuş forması "stimul" ismi ilə qrammatik əlaqədən yaranan "stimul vermək" çağdaş akademik və işgüzar kommunikasiyada çox rastlanan bir qrammatik vahiddir.

**Torpağa vermək, *toprağa vermek, to put in the ground***

H.Cavidin nəşinin Sibirdən Naxçıvana gətirtdiyini deyən ulu öndərin çıxışında "dəfn edək" mənasında "torpağa verək" frazeoloji feili gözə çarpır (4, s.139):

*Gətirdik buraya və o vaxt mən elan etdim ki, onu adi qəbiristanda yox, Naxçıvan şəhərinin mərkəzində, öz ata-baba evinin yanında, - ora elə şəhərin mərkəzi idi, - torpağa verək və böyük bir abidə yaradaq.*

Böyük şairin ədəbi irsinə sayğı olaraq, ulu öndər ölərilik bildirən "dəfn edək" feilini işlətmir, əbədiyaşarlıq bildirən "torpağa verək" feili işlədir. "Naxçıvan şəhərinin mərkəzində", "öz ata-baba evinin yanında", "ora elə şəhərin mərkəzi idi" kontekst içində sinonim anlayışlardır.

Dahi şair Nizami yaradıcılığında torpaq anlayışı canlılığın, rəğbətlənmənin, şirniklənmənin, tərəqqinin, yeniləşmənin, bolluğun, təravətin simvoludur. "Torpağa vermək" bu yanaşmadan qaynaqlanır. Bunları bizlərdən dərin bilən ulu öndər necə ki Hüseyn Cavid üçün "torpağa verək" deyir, eləcə də Nizami Gəncəvi üçün "torpağa veriblər" deyir (4, s .289):

*Səkkiz yüz il bundan öncə bizim dahi şairimiz Nizami Gəncəvini burada (Gəncədə) torpağa veriblər.*

Azərbaycan dilinin izahlı lüğətinin 4-cü cildindəki "torpaq" ismində "torpağa tapşırmaq", "torpağa təslim etmək", "torpağa gömmək" var, amma "torpağa vermək" yoxdur (10, s.360).

**Üzərinə məsuliyyət götürmək, *üzerine sorumluluk almak, to take responsibility (3, 960)***

ABŞ-da Azərbaycan Mədəniyyət Cəmiyyətinin təmsilçiləri ilə görüşdə Heydər

Əliyev "məsuliyyətə yüklənərkən" anlamında "məsuliyyəti üzərimə götürərkən" zaman zərfliyinə müraciət edir. O, "bu məsuliyyət" dedikdə Azərbaycan rəhbərliyi göz önünə alır. Sitatda "həlak ola bilərəm" feili "öz əcəli ilə ölə bilərəm" deyil, "vətən, dövlətçilik, sağlam ideya uğruna ölə bilərəm" deməkdir (2, s.130):

*Mən bu məsuliyyəti üzərimə götürərkən dərk etmişəm ki, xalqımın, millətimin yolunda həlak ola bilərəm.*

Azərbaycanca "götürmək", türkcə "almak", ingiliscə "to take" eyni mənalı məsdərlərdir. Azərbaycan dilinin izahlı lüğətinin üçüncü cildində "məsuliyyət daşımaq" var, amma "üzərinə məsuliyyət götürmək" yoxdur (7, s. 353). Qeyd edək ki, "məsuliyyət daşımaq" və "üzərinə məsuliyyət götürmək" fərqli anlayışlardır. İkincisinə cəsarət xasdır. Ulu öndər "bu məsuliyyəti üzərimə götürkən" ifadəsi ilə bunu deyir ki, o, ağır dövlət yükünü çiyninə alarkən həyatını düşünməyib, Azərbaycanı parçalamaqdan qorumağa yönələn amalını düşünüb.

**Veto qoymaq, veto koymak, to put a veto (3, 907)**

"Bir siyasi qərarın keçməsinə qarşı çıxmaq" anlamında "veto qoymaq" diplomatik yönlü frazeoloji məsdər olaraq ulu öndərin Lissabon sammitindəki çıxışında "veto qoydum" feil formasında rastlanır (4, s.155)

*Demək, belə çıxırdı ki, iki gün ərzində ATƏT-in zirvə görüşü keçib və adamlar artıq bir neçə saatdan sonra dağılmalıdır, görüş qurtarır. Mən axşam buna veto qoydum.*

Azərbaycan dilinin izahlı lüğətinin 4-cü cildində olan "veto" ismində siyasi-diplomatik məzmunlu "veto qoymaq" yoxdur (10, s.472).

**Vəcdə gəlmək *(10, 473), vecde gelmek, to go into ecstasy***

Tanınmış rusiyalı müğənni Alla Puqaçovanın Bakıda konserti olur, ulu öndər müğənni ilə görüşəndə "özündən çıxacaq qədər çoşmuşdular" mənasını verən "vəcdə gəlmişdilər" bədii-sənət frazeoloji feilini nitqinə qoşur (4, s.342):

*Siz özünüz görürdünüz, salondakılar sizin çıxışınızdan sadəcə olaraq vəcdə gəlmişdilər. Siz olduqca böyük zövq verdiniz.*

Bir insan dərin məzmunlu bir şeirdən, qəlbə toxunan bir musiqidən, dahi bir rəssamın bir tablosunu canlı olaraq görməkdən, təbiətin ovsunlayıcı bir mənzərəsini seyr etməkdən, ağlı çaşdıracaq qədər cəlbedici olan bir gözələ baxmaqdan vəcdə gələ bilər. Kiçik bir sitatda "salon, çıxış, vəcd, zövq" adlı leksik dördlüyü kontekst içində yaxın mənalı sözlərdir. Həm də "vəcdə gəlmişdilər", "zövq verdiniz" adlı iki frazeoloji feil arasında doğmalıq və yaxınlıq var, çünki insan vəcdə gələndə zövq alır.

**Yerinə düşmək (10,584), yerinə düşmek**

Süleyman Rüstəmin 90 illik yubileyində Heydər Əliyev çıxış edir, bu zaman "tam vaxtıdır" mənasında "yerinə düşərdi" frazeoloji feilinə öz çıxışında yer ayırır. Bu feil xalq danışıq dilində, yazarların əsərlərində çox rastlanır (2, s.305):

*Bilirsiniz, mən bunu keçmişdə demişəm, bu gün də təkrar etməyim yerinə düşərdi. Hansı dövrdə hansı şair padşahları vəsf etməyibdir? Hansı dövrdə hansı şair, hansı yazıçı yaşadığı dövrü tərənnüm etməyibdir?*

"Şair, yazıçı, vəsf, tərənnüm" olmaqla 4 isim poeziya və nəsrdə, "dövr, padşah" isə 2 isim olmaqla dövlətçilikdə yaxın mənalı sözlərdir. Burada "poeziya, nəsr, dövr" üçlüyünün keçmişə, indiyə və gələcəyə aidliyindən söz açılır.

**Problemin aktuallığı.** Bu mövzunun aktuallığı odur ki, çağdaş Azərbaycan dilçiliyi üçün olduqca gərəkli bir problemin – Ulu öndərin zəngin nitqində ayrı-ayrı illərdə səslənən feillərin linqvistik-ədəbi yolla araşdırılmasına həsr olunub. İkinci aktuallığı odur ki, o böyük şəxsiyyətin işlətdiyi 20 frazeoloji feilə müraciət etməsinin səbəbləri incələnir. Üçüncü aktuallığı odur ki, səriştəli dilçi alimlər böyük liderin nitqini onun kitablarından mütaliə edərək, müasir Azərbaycan dilçiliyi üçün kara gələn linqvistik nüansların işıqlandırılmasına həvəslənəcəklər.

**Problemin elmi yeniliyi.** Heydər Əliyevin nitqi zəngin, informasiyaverici və motivasiyaedici olduğundan bu nitq bir çox humanitar elm sahələri üçün elmi yeniliklərə sahibdir. Bu məqalənin elmi yeniliyi odur ki, frazeloji feillər ulu öndərə məxsus nitq prizmasından araşdırılır və zənnimizcə, onun nitqi frazeloji feillər baxımından hələlik öyrənilməyib.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Bu məqalədə rastlanan frazeloji feillər "Heydər Əliyev və Mədəniyyət" kitabının 2-ci və 3-cü cildlərindən iqtibas olunub. Məqalənin praktik önəmi odur ki, Azərbaycan dilçilik sahəsində çalışan alimlər, doktorantlar və tədqiqatçılar məqalədə yer alan mülahizə, irad və alınan nəticələrə istinad edərək, öz elmi işlərində istifadə edə bilərlər.

**Ədəbiyyat**

1. Orucov Ə. Azərbaycan dili izahlı lüğəti. I cild. Bakı: Şərq-Şərb, 2006, 744 s.
2. Heydər Əliyev və mədəniyyət, II cild, 1997-1998, Bakı, Nurlar, 2008, 520 s.
3. Musayev O., İngiliscə-Azərbaycanca lüğət. Bakı: Şərq-Şərb, 2004, 1320 s.
4. Heydər Əliyev və mədəniyyət, III c., 1999-2003. Bakı: Nurlar, 2008, 792 s.
5. https://www.aliyev-heritage.org/haydaraliyevs heritage center
6. Orucov Ə. Azərbaycan dili izahlı lüğəti, II cild. Bakı: Şərq-Şərb, 2006, 792 s.
7. Orucov Ə. Azərbaycan dili izahlı lüğəti, III cild. Bakı: Şərq-Şərb, 2006, 672 s.
8. https://www.obastan.com/millet/C.Məmmədquluzadə.
9. https://www.obastan.com/yazar/Üzeyir Hacıbəyov .
10. Orucov Ə. Azərbaycan dili izahlı lüğəti, IV cild. Bakı: Şərq-Şərb, 2006, 712 s.

**С.Д. Новрузалиева, Н.А. Алиева**

**Фразеологические глаголы в речи Гейдара Алиева**
**Резюме**

В этой статье, изучающей речь Гейдара Алиева с точки зрения лингвистики, рассматриваются 20 фразеологических глаголов и объясняются причины, по которым великий лидер их использовал.

В данной статье собраны фразеологические глаголы, имеющие политико-дипломатическое содержание - такие как «наложить вето», «выступить с заявлением», «вести переговоры», «взять на себя ответственность», «поднять вопрос». Есть один, в котором есть содержание беженцев - например, « попасть в изгнание ». Есть и такие, которые имеют литературно- художественное содержание – например, «дойти до экстаза», «дать стимул», «взяться за перо». Остальные - активные глаголы в повседневной жизни - типа “нарисовать план” и так далее.

**S.J. Novruzaliyeva, N.A. Aliyeva**

**Phraseological verbs in Haydar Aliyev's speech**
**Summary**

In this article which studies Haydar Aliyev's speech from the point of view of linguistics, 20 phraseological verbs are examined, and the reasons why the great leader used them are explained.

There are such phraseologiycal verbs in this post that they are political-diplomatic contents — such as “to put a veto”, “to adress a speech”, “o deliver a speech”, “to take responsibility”, “to raise a question”. There is such that it is refugee content like “to fall into trouble”. There are those who are literary-poetic-art - such as “to go into ecstasy”, “to give a stimulation”, “to put pen to paper”. The rest are active verbs in the daily life process - such as “to draw a plan” and so on.

**Redaksiyaya daxil olub: 29.01.24**

*UOT 81.*

# İNGİLİS ÜSLUBİYYATINDA ONOMASTİKANIN ROLU

**Gülbanu Bəhram qızı Bəşirova**
*Azərbaycan Dillər Universitetinin baş müəllimi*
**ORCİD:** 0009-0004-9160-3743
**E-mail:** gulbani.bashirova@mail.ru

***Açar sözlər:*** *onomastika, üslub, etnonim, toponim, emosionallıq, ekspressivlik.*
***Ключевые слова:*** *ономастика, стилистика, этноним, топоним, антропоним, эмоциональность, экспрессивность.*
***Key words:*** *onomasticon, stylistics, anthroponym, ethnonym, toponym, emotion, expressiveness.*

## Abstrakt

Onomastikanın tərkibinə daxil olan toponim, antroponim və etnonimlərin bir qrupu müxtəlif assosiasiyalar nəticəsində emosional mənalar əldə edərək, fikrin yığcam və dolğun ifadəsinə xidmət edir. Onlar xalqın fantaziyası süzgəcindən keçərək, dildə adi fikri daha emosional şəkildə ifadə edən məcaza çevrilir.

Üslubi adlar xüsusilə bədii əsərlərdə müşahidə olunur və estetik keyfiyyətləri, emosionallığı qüvvətləndirmək məqamında işlədilir. Onlar arasında rast gəlinən şəxs, şəhər, millət, ölkə və b. adlar mədəniyyətlə dil arasında mövcud olan sıx assosiativ əlaqə nəticəsində müəyyən konnotasiyalara malik olur.

Tərkibində şəxs, şəhər, millət və ölkə adları olan ifadələrin bir qrupu kobud, incikliyə səbəb olan emosional xüsusiyyətinə görə danışıq dilində də rast gəlinir. Misal üçün, **Barbie Doll** cazibədar, lakin yaddaşı zəif olan insanı bildirib, başqa şəxslərə ünvanlı istifadə edilməsi etik sayılmır. Lakin bu tipli idiomların bir çoxu bədii-emosional cəhətdən çox təsirli və kommunikativ funksiyaya malik olub, yaxın münasibətdə olan şəxslər arasında işlənir.

Üslubi onomastik vahidlər fikri parlaq şəkildə ifadə etməyə imkan verir, dilin lakonikliyinə xidmət edir.

Toponim, antroponim, etnonim və digərləri bədii mətndə rəngarəng məcazi, üslubi çalarlıqlar əldə edir. Bu çalarlıqlar müxtəlif tarixi, siyasi və mədəni assosiasiyalar nəticəsində, eləcə də obrazlılıq yaratmaq məqsədi ilə işlədilir.

Ad tərkibli ifadələrin üslubi funksiyası bir çox görkəmli linqvistlərin tədqiqat obyekti olmuşdur (2; 4; 5). Onlar onomastik vahidlərin əldə etdiyi məcazi mənaları tarixi hadisələr, insanların səciyyəvi xüsusiyyətləri ilə assosiasiyada götürmüşlər. Misal üçün, A.V. Kunin the **Admirable Crichton** ("oxumuş, təhsil almış adam") ifadəsinin görkəmli şotland alimi Ceymz Kraytonla bağlı olduğunu və yaxud Sally Lunn ("şirin bulka") ifadəsinin XVIII əsrdə yaşamış şirniyyatçı qadının adından yarandığını göstərir (4, 28).

Üslubi toponimlər isə yazıçıların yaradıcı təfəkkürünün məhsulu olub, əsərdə, mətndə estetik keyfiyyətləri, emosionallığı artırmaq məqamında işlədilir. Adi toponim kimi onlar dil faktı, üslubi toponim kimi isə onlar nitq faktı kimi çıxış edir (6, 49).

Üslubi toponimiya bədii üslubun funksional-ekspressiv, satirik və yumoristik əlamətlərini özündə birləşdirir və bu dildə danışan xalqın etnik xarakterini, eləcə də toponimlərin daşıdığı

obyektlərin xarakterik xüsusiyyətlərini əks etdirir.

Üslubi toponimlərin məcazi mənası yazıçıya öz ideyasını emosional şəkildə ifadə etməyə imkan verir.

Waterloo – sonuncu, həlledici döyüş mənasında "**to meet one's Waterloo"** ifadəsində özünü göstərir (2, 1506). Bu məna ingilislərlə müharibə zamanı düşmənin **Waterloo** şəhərinin məğlub olmasından qaynaqlanır.

Adların metaforikləşməsi və onda emosional çalarlıqların meydana çıxması xüsusilə millət adları əsasında yaranan ifadələrdə geniş müşahidə olunur. Bu mənalar millətin etnik xüsusiyyəti ilə assosiasiya nəticəsində meydana çıxır. Tarixən irland, fransız, holland və digər millətlərlə kontaktda olmuş ingilislər onların bu və ya digər etnik xüsusiyyətləri əsasında emosional çalarlıqlı idiomlar yaratmışlar. Misal üçün, bu tipli idiomların bir çoxu **Irish** ("irland") etnonimi ilə bağlıdır. **Irish joke** ("irland zarafatı") ifadəsində irlandiyalılar başqa şəkildə düşünən və yaxud qaba rəftarlı xalq kimi təqdim olunur (2, 695).

Amerikanın məskunlaşdığı çağlarda Britaniyadan gələn immiqrantlar arasında çoxlu irlandiyalıların olması, onların qızğın təbiəti, coşqun etnik xüsusiyyəti Amerika ingiliscəsində **to Irish up** ifadəsinin meydana çıxmasına səbəb olmuşdur. Hərfən "irlandlığı baş qaldırmaq" anlamında olan **to arouse Irish up**, "qızışdırmaq", "əsəbiləşdirmək" mənalı **to get Irish** idiomu emosional çalarlıq ifadə edir (3, 858).

**Double-dutch** kinayəli bir ifadə kimi, anlaşılmaz, danışıq dilinə xas olan nitqi bildirir. Bu məna ifadənin tərkibindəki **dutch** ("holland") sözü ilə bağlı olub, hollandların ingiliscə danışıq tərzini bildirir.

**Double dutch** hərfən "ikiqat hollandca" mənasında olub, kiminsə danışıq tərzinin ədəbi normadan çox uzaq olduğunu, jarqonlarla dolu olduğunu göstərir:

Their conversation about computers was all double – dutch to me! (2, 390). "Onların kompyuterlə bağlı söhbəti mənim üçün olduqca anlaşılmaz idi".

**The Dutch have taken Holland!** ifadəsi hərfən "Hollandlar Hollandiyanı işğal ediblər" mənasında olsa da, məcazi mənada məlum bir şey haqqında məlumat verməyin yersizliyini göstərir.

Daha bir idiomda fransızların etnik xarakteri əks olunur:

**French leave** icazəsiz və xəbərsiz işi tərk etməyi və yaxud heç kimlə xudahafizləşmədən, heç kimin xəbəri olmadan çıxıb getməyi bildirir (2, 522).

Yunan dilini başa düşməyən ingilislər Greek etnonimi ilə "başa düşülməmək", "anlaşıqsız olmaq" məfhumları arasında əlaqə yaratmaqla, **Greek** (yunan) etnoniminə anlaşılmazlıq çaları əlavə etmişlər. Misal üçün, **it's all Greek to me** yumoristik tərzdə "nəyi isə heç anlamamaq" çalarını ifadə edir (2, 578).

**Greek** sözü başqa bir idiomda tarixi çalar ("düşmən xalq", "etibarsız xalq") əldə etmişdir. **Beware of Greeks bearing gifts** idiomunda "özünü mərhəmətli göstərən bir kəsə etibar etməmək" anlayışı ifadə olunur. Bu, Troyanı məğlub edə bilməyən yunanların hiylə işlədərək, Troyalılara taxtadan hazırlanan böyük bir at fiquru bağışlaması, onun içində gizlənən döyüşçülərin gecə ikən troyalı keşikçiləri öldürərək, şəhərin qapılarını yunanlar üçün açması rəvayəti ilə bağlıdır (2, 578).

Bu ifadənin ingilis dilində bir neçə variant vardır: I fear the Greeks even when bringing gifts və s.

Bu ifadələr məşhur olduğundan, bəzən onun yalnız bir hissəsi də eyni anlamda işlədilir: **Greek gifts**.

Göründüyü kimi, ingilis dilində şəxs, şəhər və millət adları əsasında yaranan üslubi ifadələr bu və ya digər tarixi fakt, keyfiyyət və s. faktlarla bağlı olaraq üslubi funksiya daşıyan mənalar əldə etmişdir.

Şəxs adlarının məcazlaşaraq, frazeoloji birləşmələr yaratması, üslubi-emosional çalarlar əldə etməsi ingilis dilində geniş müşahidə olunur. Misal üçün, ingilis dilində "according to Cocker" ifadəsi hərfi olaraq "Kokkerə əsasən" mənasında olsa da, "tamamilə düzgün" və "dəqiq" mənalarını daşıyır (E.Kokker 1631-1675-ci illərdə yaşamış alim idi. XVII əsrdə istifadə olunan hesab dərsliyinin müəllifi məhz E.Kokker olmuşdur).

**Habson's choice** ifadəsi isə "məcburi seçim" mənasını daşıyır. Hobson XVI əsrdə İngiltərənin Kembric şəhərində pulla at kirayə verən tövlənin sahibi olmuşdur (O, tövləyə gələn müştərilərə yalnız qapıya yaxın olan atı götürməyə icazə verirmiş).

Adların məcaziləşdirilməsi və onda emosional çalarlıqların meydana çıxması kommunikativ xarakterli olub, xüsusilə millət adlarının məcaziləşdirilməsində müşahidə olunur. Bu məcazi-emosional çalarlıqlar bu və ya digər millətin etnik xüsusiyyəti ilə bağlı olaraq meydana çıxır.

Tarixən irland, fransız, holland və digər xalqların nümayəndələri ilə əlaqədə olmuş ingilislər onların bu və ya digər etnik xüsusiyyətinə əsaslanaraq, onların milli əsasında emosional çalarlıqlı idiomlar yaratmışlar.

Göründüyü kimi, ingilis dilində şəxs, şəhər və millət adları əsasında yaranan idiomlar bu və ya digər tarixi fakt, keyfiyyət və s. cəhətlərlə əlaqədar olaraq kommunikativ mənalı çox sayda ifadələr yaranmışdır.

Araşdırma nəticəsində ingilis onomastikası ilə dil, mədəniyyət, tarixi gercəklik arasında sıx bağlar olduğunu, nəticədə onomastik vahidlərin semantikasında məcazi çalarlıqların, üslubi əlamətlərin yarandığını aşkar edirik. Digər metaforik mənalar kimi, onomastik məcazlar da ingilis dünyagörüşü, folkloru, əfsanələri, psixologiyası süzgəcindən keçmiş üslubi ifadə vasitələrinə çevrilmişlər.

Üslubi adlar da bədii üslubun ekspressiv, emosional, yumoristik əlamətlərini özündə birləşdirir. Üslubi çalarlıqların yaranmasında bu dildə danışan xalqın etnik xarakterinin, həm də toponimlərin obyektiv xüsusiyyətlərinin təsiri olur.

Üslubi adlar danışan şəxsə öz fikrini təsirli şəkildə ifadə etməyə imkan verir, dilin yığcamlığına xidmət edir.

İngilis dilində şəxs, şəhər və millət adları əsasında yaranan idiomların dildə üslubi funksiyası çox geniş və təsirlidir. Adların məcazilәşməsi və onda emosional çalarlıqların yaranması müxtəlif məqsədlərə xidmət edir, dilin üslubi imkanlarını xeyli genişləndirir.

Toponimlər bu və ya digər xalqın formalaşmasında iştirak etmiş tayfa və qəbilələrin adlarından, həmin xalqın və etnik qrupların dillərinə mənsub sözlərdən ibarət olub, tarix, dilçilik və coğrafiya elmləri ilə əlaqədədir.

Üslubi onomastik vahidlər emosionallıq, təsirlilik keyfiyyətlərinə malik olduğundan bədii əsərdə fikrin kommunikativ ifadəsini, yığcamlığını şərtləndirən üslubi dil vasitələri sayılır, fikri yüksək poetik dildə əks etdirməyə imkan verir.

Üslubi material kimi onomastik vahidlər düzgün seçildikdə, bədii əsərin ümumi ifadə imkanlarını zənginləşdirir, yerində, məqamında işlənən onomastik vahidlər dilin bədiilik keyfiyyətini artırır, ona güclü təsir göstərir ki, bu da bədii əsərin dəyərini müəyyən edir.

Bu nəticəyə gəlirik ki, onomastika ingilis frazeoloji leksikasının əsas mənbələrindən biri olub, yığcam, üslubi çalarlıqlı ifadə vasitələrinin meydana çıxmasında mənbə rolunu oynayır.

Bu nöqteyi nəzərdən ingilis üslubi leksikasını öyrənənlər üçün məqalənin əhəmiyyəti böyükdür.

**Problemin aktuallığı.** İşin aktuallığı ondan ibarətdir ki, onomastika ingilis frazeoloji leksikasının əsas mənbələrindən biri olub, yığcam, üslubi çalarlıqlı ifadə vasitələrinin meydana çıxmasında mənbə rolunu oynayır.

**Problemin elmi yeniliyi.** İşin elmi yeniliyi ondan ibarətdir ki, mövzunun işlənməsində yeni və özünəməxsus dil faktlarından istifadə edilmişdir

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** İşin prkatik əhəmiyyəti budur ki, ingilis üslubi leksikasını öyrənənlər üçün məqalənin əhəmiyyəti böyükdür.

### Ədəbiyyat

1. Lakof G. and Johnson M. Metaphors we live by. Chicago, 1980.
2. Longman Dictionary of English Language and Culture. Longman, 1998.
3. Большой англо-русский словарь. т.1. М., 1987.
4. Кунин А.В. Фразеология современного английского языка. М., 1972.
5. Ощепкова В.В. Язык и культура. Глосса Каро. Москва, 2006.
6. Щетинин Л.М. Внутренная форма и морфологическая структура английских фамильных имен. Ростов – на – Дону, 1958.

**Г.Б. Баширова**

### Роль ономастики в стилистике английского языка
### Резюме

В появлении экспрессивных и эмоциональных слов ономастика всегда была важным источником. Под влиянии экстралингвистических факторов топонимы, этнонимы и другие ономастические единицы получили разные стилистические значения обогащая английского фразеологию. Ономастические метафоры также являются важными языковыми средствами в обучении английских эмоционально окращенных слов.

Стилистически окращенная английская ономастика охватывают топонимы, антропонимы и этнонимы, под действием разных экстралингвистических факторов получили эмоционально-экспрессивные значения и являются важными средствами в английской стилистике.

**G.B. Bashirova**

### Role of onomasticon in English stylistics
### Summary

In appearance of expressive and emotional lexicon onomasticon is of great importance, Under the influence a number of extra-linguistic factors numerous toponyms, etnonyms and other onomastic units in the English language have got emotional stylistic meanings thereby enriching English idiomatic lexicon.

Onomastic metaphors are also significant linguistic units in training emotionally coloured English words.

Stylistically coloured English onomasticon covers toponyms, anthroponyms and ethnonyms, with extra-linguistic factors have got various emotional and expressive meanings that have become a rich source of English stylistics.

**Redaksiyaya daxil olub: 02.04.2024**

*UOT 81.*

# İNGİLİS SÖZLƏRİNİN ETİMOLOJİ XÜSUSİYYƏTLƏRİ

**Gülbəniz Razil qızı Cahangirova**
*Azərbaycan Dillər Universitetinin baş müəllimi*
**ORCİD:** 0000-0009-6588-8441
**E-mail:** vuqar.cahangirov.72@mail.ru

***Açar sözlər:*** *alınma sözlər, milli sözlər, sözün etimologiyası, etimoloji xüsusiyyətlər.*
***Ключевые слова:*** *заимствованные слова, национальные слова, этимология слова, этимологические особенности.*
***Key words:*** *borrowed words, national words, etymology of the word, etymological features.*

Etimologiya dilçilik elminin bir bölməsi olub sözlərin yaranması, mənşəyi və ilkin mənasını öyrənir. Etimologiya yunan mənşəli söz olub "etymon" sözün həqiqi, əsl mənası deməkdir. İngilis dilinin zəngin lüğət tərkibinə sahib olması bu dilin sözlərində xarici elementlərin olması faktını qeyd etməyə zərurət yaradır. İngiltərənin müxtəlif dillərə sahib xalqlara ev sahibliyi etməsi, zaman-zaman dünyadakı dil güclərinin dəyişməsi, eləcə də güclü dövlətlərlə qonşu olması ingilis dilinin lüğət tərkibinə digər dil ünsürlərinin daxil olmasına səbəb olmuşdur. İngilis dilinin zəngin dil olmasına baxmayaraq dil sabit bir sistemə malikdir [1, s.502].

Dildəki sözləri mənşəyinə görə alınma və milli sözlər olaraq qruplaşdıra bilərik. Milli sözlər dilin milli tərkibinə aid olan, qədim ingilis dilində istifadə edilən və hazırki ingilis dilinin ilkin tərkibini təşkil edən sözlərə deyilir. Milli sözlər, həmçinin gündəlik danışıqda daha çox istifadə edilir və belə sözlər spesifik xüsusiyyətlərə malikdir. Milli sözlərin böyük bir qismi feillərdən ibarətdir və milli feillərdən daha çox ifadələr kimi istifadə edilir. Belə ifadələrin tərkibində çox vaxt sözönülərə rast gəlinir. Məsələn, *to look for - axtarmaq, to look forward to - səbirsizliklə gözləmək.* Milli mənşəli sözlərdə bəzi hərf birləşmələri istifadə edilir. Məsələn, *wh, dw, tw, wr* - hərf birləşmələri ilə başlayan və ya *dge, nd, ld, tch* - hərf birləşmələri ilə bitən sözlər milli mənşəlidir. Milli sözlərin tərkibində *ng, ee, oo* hərf birləşmələri istifadə edilir [9, s.70].

Lüğət tərkibinə daxil olan sözlər 2 qrupa ayrılır. 1) milli, 2) alınma. Alınma sözlərin böyük bir qismi ingilis dilinə orta əsrlərdə daxil olmuş, buna görə də Orta Əsr İngilis dili daha çox araşdırma obyektinə çevrilmişdir, xüsusilə də fransız dilinin ingilis dilinə elmi, mədəni, ticari və qanuni sahələrlə çoxlu sözlər verməsini qeyd edə bilərik. Alınma sözlər dilə iki yolla daxil olur: yazılı və şifahi üsulla. Şifahi üsulla dilə yeni sözlərin daxil olması halları ilə daha çox rastlaşırıq, çünki yeni sözlər daha çox şifahi nitqin tələbi olaraq dilə daxil olur və ya şifahi dil istifadəçiləri daha çox olduğundan şifahi nitqdə yeni söz tələbatı daha çox hiss edilir. Yazılı nitq həmçinin alınma sözlərin digər dilə keçidi üçün başlıca mənbədir, ancaq yazılı nitq vasitəsilə alınma sözlərdən istifadə bir qədər ləng irəliləyən prosesdir, amma yazılı nitqin alınmaların istifadəsində qəlib rolunu oynadığı danılmazdır, həmçinin yazılı nitqdə istifadə edilən alınma sözlərdə assimilyasiya daha az hiss edilir, şifahi nitq zamanı dilin fonetik qatının tələbinə uyğun olaraq alınma sözlərdə dəyişikliklər edilir.

Alınma sözlərdəki dəyişikliklər müxtəlif səviyyələrdə hiss edilir və dəyişikliklər uzun müddət ərzində baş verir, əksər sözlər kök dilin ünsürlərini qoruyub saxlayırlar və həmin dəyişikliklər fonetik, morfoloji və ya semantik qatlarda hiss edilir. Məsələn, sözlərin əvvəlində (v), (z), (dz) hərflərinin istifadə edilməsi bu sözlərin fransız mənşəli söz olmasına istinad

edir. Morfoloji və qrammatik səviyyədə sözlərin alınma olduğunu və hansı dilə mənsub olduğunu bilməyə kömək edir. Məsələn, ingilis dilində cəm kateqoriyasının (s) və (es) hərfləri ilə düzlədiyi məlumdur, ancaq bəzi (datum, criteria, memarandum) kimi sözlərin cəm halı bir qədər fərqli formada düzəldilir və yaxud bir qrup sözlərin mənalarından alınma söz olduğu aydın olur. Məsələn*, kangroo (Australian), samovar (Russian).* Bəzi hallarda belə üsullarla sözlərin alınma və ya milli mənşəli olduğunu tapmaq heç də asan olmur və belə hallarda tarixi faktorlara nəzər yetirilir.

İngilis dilində çoxlu sayda istifadə edilən alınma sözlərin olmasına baxmayaraq, milli sözlər lüğət tərkibində ilkin qatı əhatə edir, ingilis dilinin alınma olmayan sözləri, dilin ilkin tərkibini təşkil edən sözlər Hind-Avropa dillər qrupu ailəsinə aiddir. Dilin ilkin tərkibini təşkil edən sözlərə daha çox gündəlik danışıqda istifadə edilən sözlər aiddir, belə ki həmin sözlərsiz bir dili təsəvvür etmək qeyri mümkündür. Aşağıdakı nümunələrə nəzər yetirək.

1) Ailə üzvlərinin adları ilə bağlı sözlər: father, mother, son, daughter, brother; 2) Bədən üzvlərinin adları: foot, nose, lip, heart; 3) Bəzi heyvan adları: cow, goose, swine; 4) Bəzi bitki adları: tree, birch, corn; 5) Günün hissələrinin adları: day, night; 6) Səma cismlərinin adları: sun, moon, star; 7) Bəzi sifətlər: red, sad, glad; 8) Şəxs əvəzlikləri: *They* əvəzliyi istisnadır, çünki skandinaviyan mənşəli sözdür [7, s.232].

Hind-Avropa qrupuna daxil olan sözlərdən başqa, ikinci milli mənşəli sözlər hesab edilən qrupa isə alman qrupuna aid sözlər daxildir. Bu qrupa daxil olan sözlərin əksəriyyəti quruluş baxımından bir-birilərinə bənzəyirlər və Alman qrupuna daxil olan sözlərin bəziləri Hind-Avropa qrupuna daxil olan sözlərlə eynilik təşkil edir, həmin sözlər eyni kökə malikdirlər.

1) Bədən üzvlərini bildirən sözlər: head, hand, finger, bone; 2) Bəzi heyvan adları: bear, fox, calf; 3) Bitki adları: oak, grass, fir; 4) Təbii hadisələri bildirən isimlər: rain, frost; 5) Torpaq adları bildirən sözlər: sea, land; 6) İlin fəsillərinin adları: winter, spring, summer; 7) Bəzi yaşayış yerlərinin adları: house, room, bench; 8) Sifət kimi istifadə edilən sözlər: green, blue, small, thick, old, good, high; 9) Bəzi feil kimi istifadə edilən sözlər: see, speak, hear, give, make, say; 10) Dəniz səyahət ilə əlaqəli sözlər: boat, ship [5, s.478].

Milli mənşəli sözlər dildə azlıq təşkil etdiyi üçün həmin qrup sözləri ayırd etmək və qruplaşdırmaq daha asandır, ancaq alınma sözlərdə isə belə aydınlıq hiss olunmur, çünki ingilis dilində müxtəlif dil qruplarına aid olan sözlər çoxluq təşkil edir. Həmin sözlər assimilyasiyaya məruz qalsalar da, ancaq yenə də aid olduğu dil qrupunun müəyyən xüsusiyyətlərini saxlayırlar. Belə oxşarlıqlar, xüsusilə də skandinaviyan, latın və fransız mənşəli sözlərdə daha çox hiss edilir.

Zəngin lüğət tərkibinə malik olan ingilis dili bir neçə inkişaf mərhələsi keçmişdir və buna görə də ingilis dilinin tarixi müəyyən dövrlərə bölünür. Hər mərhələ uyğun olaraq spesifik xüsusiyyətlərə malik olması ilə fərqlənir.

*I dövr* - Qədim ingilis dili (450-1066) dövrüdür. Bır sıra xüsusiyyətləri ilə xarakterizə olunur:

1) Bu dövrdə ingilis və alman dilləri arasında əlaqələrin olması danılmazdı. 2) İngilis dilinin hissələrə bölünməsi ilə xarakterizə olunur. 3) Qədim dövr İngilis ədəbiyyatına mənsub olan "Beowulf" əsərinin bu dövrə mənsub olması. 4) Skandinaviyan xalqlarının ölkə ərazisinə axını və ingilis dilinin tərkibində Skandinaviyan elementlərinin təsiri

*II dövr* - Orta ingilis dili (1100-1500) dövrüdür. Bura dövrə daxildir:

1) Bu dövr anqlo-norman dövrü kimi xarakterizə olunur və artıq qədim ingilis dilindən orta dövr ingilis dilinə keçid mərhələsidir. 2) Orta dövr ingilis dilinin ən əsas xüsusiyyəti bu

dövrdə artıq fransız mənşəli sözlərin ingilis dilinə axın etməsidir və bu dövrdə uzun müddətli fransız dilinin hegemonluğu başlayırdı. 3) Əgər qədim dövr ingilis dili şifahi olması ilə səciyyələnirdirsə, orta dövrdə isə yazı formalaşmağa başladı. 4) İngilis dilində yazılı nitqdəki dəyişikliklər ilə yanaşı sözlərin tələffüzündə də əhəmiyyətli dəyişikliklər baş verirdi. 5) Orta dövr ingilis dili, həmçinin ədəbiyyatın çiçəklənməsi ilə xarakterizə olunur. 6) Mifologiyanın inkişafı da bu dövrə təsadüf edir [8, s.86].

*III dövr* - Erkən müasir dövr - 1500-ci ildən başlayır.

1) Erkən dövr, həmçinin məşhur şair, yazıçı V. Şeksprin adlı ilə Şekspir əsri kimi tanınır. 2) V. Şekspir dili, Şekspir lüğəti bu dövrdə İngilis dilini zənginləşdirmişdir. İngilis dili əhəmiyyətli dərəcədə ədəbiyyatda baş verən dirçəlmə nəticəsində zənginləşmişdir. 3) Bu dövrdə, həmçinin ilkin lüğətçilik yaranmağa başladı. 4) İngilis dilinin tələffüzündə artıq standart tələffüzün istifadəsi hiss olunurdu [4, s.164].

İngilis dilində istifadə edilən sözlərə, ifadələrə nəzər yetirsək, fransız mənşəli sözlərin daha formal olduğu nəzərə çarpacaq, çünki fransız dilinə mənsub olan sözlərin ingilis dilinə axını elə bir dövrə təsadüf edirdi ki, həmin dövrdə fransız dili elita dili hesab olunurdu və yüksək dairələrdə fransız dilindən istifadə edilirdi. Buna görə də fransız mənşəli sözlər öz formal xarakterlərini saxlayırlar. Norman dilinin geniş miqyaslı istifadəsinə baxmayaraq ingilis anqlosakson dili yerli əhali tərəfindən istifadə edilirdi, ancaq İngilis dilinin istifadəsi məhdud dairədə idi, çünki daha çox yerli əhali tərəfindən məişətlə bağlı məfhumları ifadə edən sözlərdən istifadə edilirdi. Zaman keçdikcə norman dili ilə qarışaraq yox olmağa başlayırdı. Norman dili, həmçinin ədəbiyyat sahəsində də hiss olunurdu, amma bəzi ifadələr həm roman, həm də ingilis mənşəli olurdu. Əgər ingilis dilindəki sözləri mənşələrinə görə qruplaşdırsaq, lüğət tərkibinin 45%-ni fransız mənşəli sözlər, latın mənşəli sözlər isə 25%-ni əhatə edərdi. Latın mənşəli sözlərdən daha çox rəsmi dildə, elmi əsərlərdə, müxtəlif sahələrlə bağlı sferalarda istifadə edilir [9, s.80].

Britaniya adalarında məskunlaşan alman tayfalarının, ərazinin ilkin sakinlərindən olan Kelt tayfaları ilə qarşıdurmaları və daim baş verən münaqişələr nəticəsində tədricən bu tayfalar Britaniya torpaqlarında məskunlaşmağa başladılar. Alman tayfaları daha sonra bu torpaqları işğal etdilər, ancaq Keltlərlə olan münaqişələr nəticəsində bir çox sözlər alman tayfaları tərəfindən istifadə edilirdi, hətta torpaqların alman tayfaları tərəfindən işğal edilməsinə baxmayaraq, bəzi yerlərin adı əvvəlki adları ilə adlandırılmaqda davam edirdi. Həmin adlar assimilyasiya edərək alman tayfaları tərəfindən istifadə edilirdi. Məsələn, *Avon Exe* keltlər tərəfindən istifadə edilmiş yer adlarıdır və bu adlar daha sonra da alman tayfaları tərəfindən istifadə edilməkdə davam edərək *çay, su* mənasını ifadə edirdi. Kelt mənşəli sözlərin əksəriyyəti bilavasitə dildə istifadə edilməsinə baxmayaraq, bəzi latın sözləri də keltlər tərəfindən istifadə edildikdən sonra alman tayfaları arasında yayılmağa başladı. *Street-starta, around-circa, therefore-ergo, wall-wallum* [6, s.50]. Keltlər İngiltərə adalarına axın edərək uzun müddət bu ərazilərdə məskunlaşdılar və yerli xalqla uzun müddət münaqişələrdən sonra yerli xalqın dilində dəyişikliklərə səbəb oldular, ancaq ingilis dilində kelt mənşəli sözlərin istifadəsi məhdud dairədədir. Kelt sözlərinin nəyə görə istifadəsinin az olmasının səbəbi romanların Britaniya adalarını işğal etməsi, yerli xalqların keltlərə təsiri, ingilis dilinin onlar tərəfindən qəbul edilməsi, kelt mənşəli sözlərin istifadəsinin az olmasına səbəb olmuşdur. Kelt mənşəli sözlərdən ingilis dilində daha çox yer adlarında, dini ayinlərlə bağlı sahələrdə istifadə edilir. Məsələn, *Kent Llandaff, Helcompe, Cornwell, Exe, Devon, Avon* [3, s.89].

Dördüncü əsrdə xristian dini yarandıqdan sonra digər ölkələrə yayılmağa başladı. Xristianlaşma latın dilinin mövqeyini daha da möhkəmləndirdi və buna görə də xristian dininin yayıldığı ölkələrdə latın dilindən geniş miqyasda istifadə edilməyə başlanıldı. Britaniya adalarında xristianlaşma yeddinci əsrə edir. Bu dövrdə dinlə əlaqədə olan latın mənşəli sözlər ingilis xalqları tərəfindən istifadə edilir, lüğət tərkibində sabitləşirdi, həmçinin həmin dövrdə elm mərkəzi olan Yunanıstanda və Romada latın dilindən istifadə edilirdi. Latın mənşəli elmlə bağlı sözlər İngiltərə ilə yanaşı Avropa ölkələrində də geniş istifadə edilirdi. Məsələn, *school* sözü yunan mənşəli söz olub *schola* sözündən götürülmüşdü və ya dinlə bağlı sözlər, xüsusilə də dini işlərlə məşğul olan şəxslərə deyilən adlar çox vaxt fransız mənşəli sözlər olurdu *(pope, anthem, apostle, candle, clerk, hymn, palm, paper, master, rule, shrift, minister, bishop)* [2, s.143].

Yekun olaraq qeyd edə bilərik ki, zəngin mədəniyyətə, söz ehtiyatına malik olan ingilis dilinin lüğət tərkibinə zamanla, müxtəlif səbəblərdən bir çox xalqların dilindən sözlər keçmiş və nəticədə ingilis dili zəngin dillər sırasına daxil edilmişdir.

**Problemin aktuallığı.** Sözlərin mənşəyi və onların hansı üslubda istifadə edilməsi arasında geniş əlaqələr mövcuddur. Belə sözlərə məişət üslubunda istifadə edilən, slenqlər, jarqonlar daha çox milli mənşəli sözlər aiddir. Bu kimi sözlərin etimoloji baxımdan təhlili mövzunun aktuallığını təmin edir.

